**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN ŞƏHƏRİNİN TARİXİNDƏN

Tarix üzrə fəlsəfə doktoru, dosent,

Respublika Dövlət Mükafatı laureatı

HACI HƏSƏNOVUN ümumi redaktorluğu ilə

**BAKI - 2023**

# Müəllif heyəti

Məsul redaktor: HACI HƏSƏNOV, tarix üzrə fəlsəfə doktoru, dosent, Respublika Dövlət Mükafatı laureatı

Müəlliflər:

HACI HƏSƏNOV – tarix üzrə fəlsəfə doktoru, dosent, Respublika Dövlət Mükafatı laureatı;

Zeynəb Qafarova, *tarix üzrə fəlsəfə doktoru, dosent*;
Sevinc Mustafayeva, *tarix üzrə fəlsəfə doktoru, dosent*;
Eldar Əliyev, *tarix üzrə fəlsəfə doktoru, dosent*;
Ramin Niftəliyev, *tarix üzrə fəlsəfə doktoru, dosent*;
Vidadi Umudlu, *tarix üzrə fəlsəfə doktoru, dosent*;
Ənvər Məmmədov, *tarix üzrə fəlsəfə doktoru, dosent*;
Elçin Qarayev, *tarix üzrə fəlsəfə doktoru, dosent*;
Emilya Əliyeva, *tarix üzrə fəlsəfə doktoru, dosent*;
Gülcamal Sadıxova, *tarix üzrə fəlsəfə doktoru, dosent*;
Xuraman Vəliyeva, *tarix üzrə fəlsəfə doktoru;*
Esmira Vahabova, *tarix üzrə fəlsəfə doktoru, dosent*;
Polad Xəlilov, *tarix üzrə fəlsəfə doktoru, dosent*;
Babək Kərimov, *tarix üzrə fəlsəfə doktoru;*
Ruqiyə Talıbova, *elmi işçi*

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
Elmi Şurasının qərarı ilə çap olunur

**Elmi redaktorlar:** Zeynəb Qafarova
tarix üzrə fəlsəfə doktoru, dosent,
Sevinc Mustafayeva
tarix üzrə fəlsəfə doktoru, dosent

**Rəyçilər:** Ənvər Məmmədov
tarix üzrə fəlsəfə doktoru, dosent,

Elçin Qarayev
tarix üzrə fəlsəfə doktoru, dosent

XIX-XX əsrin əvvəllərində İrəvan şəhərinin tarixindən. "Elmi infornasiya və nəşriyyat işləri" şöbəsi, Bakı: 2023. -306s.

Monoqrafiya Azərbaycanımızın İrəvan şəhərinin – Rəvanqulu xan tərəfindən bünövrəsi qoyulmuş İrəvan qalasının XIX-XX əsrin əvvəlləri dövrünə həsr edilmişdir. Əsərdə İrəvanın tarixini "erməniləşdirməyə", onu "Erebuni" adlı mifik məskənlə bağlamağa çalışan saxtakarlar tənqid olunur, qala-şəhərin əsasının qoyulması ilə bağlı bəzi tarixi məsələlərə aydınlıq gətirilir; Azərbaycan və Anadolu türkcələrində, ingilis, rus və b. dillərdəki tarixşünaslıq əsərlərindən, habelə mötəbər qaynaqlardan toplanmış qiymətli məlumatlar əsasında İrəvan tarixinin mühüm sahələrinə işıq tutulur.

Kitabda İrəvan şəhər sənayesi, şəhər memarlıq xüsusiyyətləri və ticarəti barədəki faktlar əsasında onun klassik Azərbaycan şəhərləri arasında özünəməxsus yer tutduğu vurğulanır, şəhərin inzibati idarəçilik sistemi, demoqrafiyası araşdırılır, çarizmin işğalçı İrəvan yürüşlərinə qarşı irəvanlıların qəhrəman mübarizəsi real faktlarla işıqlandırılır, romanovların mürtəce köçürmə siyasəti sayəsində burada reallaşdırılmış xristianlaşdırma – erməniləşdirmə proseslərinə tənqidi diqqət yetirilir.

Əsərdə İrəvan şəhərinin elmi-mədəni həyatının müxtəlif sahələri də nəzərdən keçirilir, onun Azərbaycan elm və mədəni mərkəzlərindən biri olduğu vurğulanır.

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2023

Biz ata-baba torpaqlarımıza qayıdacağıq!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

# ÖN SÖZ

XIX-XX əsrin əvvəllərində Azərbaycanın çox mürəkkəb sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni proseslərin meydanına çevrilmiş bölgələrindən biri İrəvan torpaqlarımız, Vətənimizin həyatında çox mühüm rol oynamış şəhərlərindən biri də Şah İsmayıl Xətainin sərkərdəsi Rəvanqulu xanın qalası kimi tarixlərə düşmüş İrəvan şəhəri olmuşdur.

XIX yüzilliyin ilk sülsündə təcavüzkar romanovlar Rusiyasının çoxminli qəsbkar ordusunun ardıcıl hücumlarına igidliklə sinə gərmiş, Sisianov, Qudoviç, Rtişşev kimi tanınmış rus generallarını "dizə gətirmiş" İrəvan qalamız 1827-ci ildə müstəmləkəçilərin dəfələrlə say çoxluğuna malik qoşunlarına bir aylıq müqavimətdən sonra işğalçılar tərəfindən qəsb edildi.

İrəvan xanlığının ləğvindən sonra da İrəvan şəhəri öz hərbi-inzibati, iqtisadi-ictimai və mədəni mərkəz kimi rolunu itirmədi. İrəvan əyalətinin, eyniadlı qəzanın və eyniadlı quberniyanın mərkəzi kimi İrəvan, təkcə Azərbaycanın deyil, həmçinin bütün Güney Qafqazın, bir sıra Ön Asiya ölkələrinin həyatında, iqtisadi və mədəni əlaqələrində xüsusi təsiri olan, mühüm rol oynayan mərkəzlərdən biri kimi öz mövqeyini qoruyub saxladı.

Rusiyalı himayədarlarının köməyi və əli ilə XIX əsrin birinci sülsünün sonlarından başlayaraq Osmanlı və Qacar imperiyalarının ərazisindən kütləvi şəkildə Quzey Azərbaycan torpaqlarına köçürülmüş on minlərlə ermeninin şovinist ruhlu ideoloqlarının, sonralar daşnak erməni qaragüruhunun bütün səylərinə baxmayaraq İrəvanın azərbaycanlılara aid olduğunu silmək, məhv etmək onlara nəsib olmadı. Doğrudur, yeni qəsb etdiyi Quzey Azərbaycan torpaqlarında özünə xristian dayağı yaratmağa çalışan romanovlar Rusiyasının mürtəce müstəmləkəçi siyasəti, o cümlədən də köçürmə siyasəti nəticəsində Qarabağ, Naxçıvan, İrəvan bölgələri kimi İrəvan şəhərinin də əhalisinin milli

tərkibində çox ciddi dəyişikliklər aparıldı, gəlmə erməni əhalisinin xüsusi çəkisi süni səkildə sürətlə artırıldı, çox tezliklə vax-tilə bu şəhərin əsasını qoymuş, əsrlər boyu bu şəhər əhalisinin mütləq əksəriyyətini təşkil etmiş Azərbaycan türk-müsəlman əhalisinin sayı xeyli azaldıldı. Ancaq buna baxmayaraq, İrəvan bütün nəzərdən keçirilən tarixi dövr ərzində əsl Azərbaycan şəhəri olaraq qalmış, vətənimizin mühüm iqtisadi, siyasi və mədəni mərkəzi kimi tanınmışdır.

Oxucuların diqqətinə təqdim olunan bu əsər A.A.Bakıxanov adına Tarix İnstitutunun "Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsinin bütün kollektivinin çoxillik zəhmətinin bəhrəsidir. Bu əsərin ərsəyə gəlməsində müəlliflər kollektivinə yardımçı olmuş hər kəsə, o cümlədən də dəyərli məsləhətləri ilə bizə yaxından kömək göstərmiş İrəvan tariximizin dərin və geniş bilgili tədqiqatçısı, t.ü.f.d. Nazim bəy Mustafaya dərin minnətdarlığımızı bildiririk.

Düşünürük ki, əsər indi də ulularımızın ruhu gəzən Göyçəbasarımıza, Zəngəzurumuza, Zəngibasarımıza, Gərnibasarımıza, Vedibasarımıza, Dərələyəzimizə qayıdacağımıza əmin olan soydaşlarımıza İrəvanımızın bu dövr tarixi barədə müəyyən bilgilər verməklə müqəddəs və xeyirli bir missiyanın yerinə yetirilməsində iştirak edə bilər.

Bu arzu ilə,

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
"Şimali Azərbaycanın XIX-XX əsrin
əvvəlləri tarixi" şöbəsinin kollektivi

# I FƏSİL

## İRƏVANIN TARİXİ KEÇMİŞİNƏ DAİR

### 1.1. İrəvan şəhərinin tarixi keçmişindən

Tarixşünaslıqda, xüsusən də erməni müəlliflərinin əsərlərində, İrəvan şəhərinin adı, tarixi və əhalisi haqqında çox ziddiyyətli fikirlərə rast gəlinir. Qədim tarixin səhifələrində İrəvan* şəhərinin adına rast gəlinir. Şəhərin və onun adının mənşəyi haqqında bir neçə hipoteza, ehtimal var. Bunlardan birinə görə, şəhərin adı Urartu çarı I Argişti tərəfindən yeni işğal edilmiş, qədim dövrdə Aza xalqının ölkəsi kimi tanınmış ərazilərdə e.ə. 782-ci ildə dayaq məntəqəsi kimi tikilmiş Erebuni (İrpini) qalasının adından törəmişdir[1].

Erebuni qalasının qalıqları 1950-ci ildə B.B.Piotrovskinin başçılığı ilə arxeoloqlar tərəfindən indi Ermənistanda "Arinberd" adlandırılan "Qanlıtəpə" adlı ərazidə aşkara çıxarılmışdır. B.B.Piotrovski yazırdı: "Salnaməyə görə, Argiştinin hakimiyyətinin beçinci ilində Cənubi Qafqazda Erebuni (İrebuni) qalası tikilmişdi... Qalanın yerləşdiyi yeri tikinti kitabəsinin köməyi ilə qəti müəyyən etmək mümkün oldu. 1950-ci ildə İrəvanın cənub kənarında Arinberd (ermənicə - "Qanlı qala" – Z.Q.) təpəsində aşağıdakı məzmunda kitabə aşkar edildi: "Menuanın oğlu Argişti bu möhtəşəm qalanı allah Xaldi əzəməti ilə tikdi"[2]. Məsələ bu-

---

*Orta əsrlər qaynaqlarında bu şəhər Rəvan, İrəvan, İrivan kimi adlandırılır. Ancaq XIX əsrin əvvəlindəki Rusiya istilasından sonra bu şəhər Erivan adlandırılmağa başlamışdır. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrindən sonra bu ərazilərə köçürülmüş ermənilər şəhəri məhz belə adlandırırdılar. 1936-cı ildən sonra şəhər rəsmi olaraq "Yerevan" adlandırılmağa başlamışdır.

[1] Арутюнян, Н.В. **Биайнини (Урарту)**, Ереван, 1970.

[2] Пиотровский, Б.Б. **Ванское царство (Урарту)**, Москва, 1959, с. 69; Пиотровский, Б.Б. **Урартская надпись из раскопок Камир-блура, связанная с основанием Эребуни**, Эпиграфика Востока, XVII, Москва, 1966, с. 3-4.

rasındadır ki, hələ 1940-cı ildə arxeoloqlar elə həmin B.B. Piotrovskinin rəhbərliyi altında qonşu Karmir-blur təpəsində gil lövhəciklər tapmışdılar. Bu lövhələrdən belə çıxırdı ki, Erebuni qalası məhz orada – Karmir-blurda yerləşibmiş. 1958-ci ilədək bu iki qaladan (daha doğrusu, onların güclə hiss olunan qalıqlarından) hansının Erebuni olduğu qərarına gələ bilmirdilər. Ancaq 1958-ci ildə, demək olar ki, mistik bir hadisə baş verdi: bir daş kitabə tapıldı ki, bu kitabə birbaşa Erebuninin məhz Arinberddə yerləşdiyini göstərirdi; özü də yaşına (2500 il !) baxmayaraq bu kitabənin ideal şəkildə salamat qaldığı görünürdü.

Sonralar, daha möhkəm əminlik üçün Arinberd təpəsində qalanın qədim sakinlərinin məişətini təsvir edən mixi yazılı daha 23 lövhə "aşkar" edildi. Lakin istənilən halda belə bir sual havadan asılı qalırdı: niyə "Erebuni" yazılmış lövhəciklər Karmir-blur təpəsindən tapılmışdır? Ancaq Piotrovski özünün "Karmir-blur qazıntılarından Erebuninin əsasının qoyulması ilə bağlı olan "Urartu kitabəsi" adlı kitabında belə bir ehtimal irəli sürmüşdü ki, nə vaxtsa düşmənin soxulması təhlükəsi altında olan Erebunidən bu lövhəciklər Karmir-blur təpəsindəki Teyşebainiyə daşınmışdı[1]. Tapılmış daşlar kənar gözlərdən çox etibarlı şəkildə gizlədilmişdi. Muzeydə onların ancaq surətləri (mulyajları) və surətlərin fotoları nümayiş etdirilir. Bu sensasiyalı tapıntıların aşkara çıxarıldığı məqamda çəkilmiş fotoları da yoxdur. Özü də, bu kitabələrin bir təpədən başqasına daşınması faktının özü belə, belə bir fikrə yönəldir ki, kitabələri üçüncü hansısa bir yerdən də Arinberdə gətirə bilərdilər və bu şübhələri təkzib edən hec bir sübut da yoxdur. Qazıntıları aparmış arxeoloqlar Erebuni qalasında nə Urartu mədəni təbəqəsini, nə yanğın, nə də hərbi dağıntıların qalıqlarını çıxarmamışdılar. Bütövlükdə, arxeoloji qazıntılar və bu sensasiyalı tapıntıların pasportlaşdırılması prosedurasındakı pozuntular onların saxtalaşdırılması fikirlərini doğurur.

Erməni tarixçiləri İrəvan şəhərinin adının mənşəyini Erebuni qalasının adı ilə əlaqələndirərək sübut etməyə çalışırlar ki,

---

[1] Оганесян, К.Л. **Крепость Эребуни (782 до н.э.)/** Ереван, 1980, с. 144.

İrəvanın 2800 il yaşı var və o, Romadan 30 il yaşlıdır, qədimdir. "Erebuni" və "Yerevan" sözləri arasındakı bağlılıq barədə ehtimalla mətbuatda ilk dəfə Q.R. Kapansyan çıxış etmişdi[1]. Piotrovski isə çox ehtiyatla bildirmişdi ki, "ola bilsin ki, hətta Ermənistan SSR-in paytaxtı Yerevan şəhərinin adında Urartu şəhəri Erebuninin adı yaşamaqda davam edir... Qeyd etmək lazımdır ki, qədim Urartu adlarının kifayət qədər əsaslandırılmalar aparılmadan orta əsrlər və müasir adlara bənzədilməsi, yan-yana qoyulması tədqiqatçıları səhv fikrə sala bilər"[2].

Yuxarıda şərh olunanlardan belə çıxır ki, Arinberd təpəsindəki qala qalıqlarının həqiqətən də qədim Erebuni qalasına mənsub olması və "Yerevan"adının Erebunidən törəməsi barəsindəki iddiaların əsaslandırılması üçün əlavə tədqiqatlar tələb olunur. İrəvan şəhərinin mərkəzindən cənuba doğru kifayət qədər uzaq məsafədə yerləşən Arinberd təpəsindəki qalanın İrəvanın əsası olması barəsindəki iddialar da ciddi şübhələr doğurur. Belə bir fikri qəbul etmək çətindir ki, şəhər 2700 il özünün ilkin bünövrəsi qoyulan yer üzərində olmamış, bu bünövrəyə ancaq XX əsrin ikinci yarısında genişlənib "çata" bilmişdi (belə ki, Erebuni genişlənməkdə olan İrəvanın hüdudlarına ancaq o vaxt daxil ola bilmişdi). Məlumdur ki, bu qala ətrafında şəhər infrastrukturu təşəkkül tapmamışdır.

İrəvanın yaşı haqqındakı bu hipotezi təkzib edən başqa faktlar da var. Əgər İrəvanın əsası, doğrudan da e.ə. 782-ci ildə qoyulubsa və o, bu günədək mövcuddursa, onda onun adının orta əsrlər ərəb müəlliflərinin əsərlərində xatırlanmamasını nə ilə izah etmək olar? Daha çox oxucu kütləsinə əlçatan olsun deyə Əl-İstəxrinin "Yollar və səltənətlər kitabı" (X əsr), ibn Xordadbeh və Kudəmə, ibn-Rüşd, Əl-Yəqubi və bir çox başqaları kimi X-XI əsrlər ərəb müəllifləri əsərlərinin qısaca tərcümələri verilmiş qaynağı təqdim etmək istərdik. Bu əsərlərin rus dilinə tərcümələri "Qafqaz yerləri və tayfalarının öyrənilməsi üzrə material-

---

[1] Капанцян, Г.Р. "Новая клинопись", **Коммунист**, 1950, № 4.

[2] Пиотровский, Б.Б. **Ванское царство (Урарту)**/ Москва, 1959, с. 31.

lar toplusu"nda[1] verilmişdir. Orta əsr ərəb müəlliflərinin, bir növ soraq – ünvan kitabı rolunu oynayan bu əsərlərində aralarındakı məsafələr göstərilməklə Ön Asiya şəhərlərinin sadalanması ilə rastlaşırıq. Lakin bu şəhərlər içərisində İrəvanın (Erivanın, Yerevanın) adı çəkilmir.

Adını çəkdiyimiz qaynağın ilk buraxılışındakı "Erivan şəhəri haqqında oçerk"də katalikos Ohanesin sözlərinə əsasən deyilir ki, İrəvan haqqında ən qədim məlumatlar VII əsrə aiddir[2]. Lakin təcrübənin göstərdiyi kimi, sadəcə olaraq öz mənşəyinə görə obyektiv qalması çətin olan şəxslərdən gələn məlumatlar daha mötəbər dəlil-sübutlar tələb edir.

Məsələ burasındadır ki, erməni tarixçiləri içərisində də bəziləri var ki, onlar da İrəvan şəhərinin erkən orta əsrlər dövründə mövcud olması fikrinə şübhə ilə yanaşırlar. Məsələn, erməni tarixçisi A. Ter – Gevondyan yazır: "Əgər ərəb xilafəti dövründə Yerevan kimi şəhər mövcud olsaydı onda ticarət yolları oradan keçərdi. Lakin erməni müəlifləri Ərəb xilafəti dövrü haqqında danışarkən qeyd edirlər ki, həmin dövrdə karvan yolları İrəvandan Kiçik Asiyaya doğru Naxçıvan-Dəbildən keçməklə uzanırdı".[3]

İrəvan (Yerevan) şəhər adının mənşəyi haqqında daha bir fərziyyə var: bir sıra müəlliflər hesab edirlər ki, bu şəhərin adı II Yervandın və onun "Yervanavert" mülkünün adı ilə əlaqəlidir. "СМОМПК" dakı İrəvan haqqında məqalədə adı çəkilən tarixçi Çavçian da bu barədə yazırdı[4].

II Yervand Əhəməni imperiyasının satrapı – canişini idi və Fəratın yuxarı axınlarındakı, Mesopotamiyadakı Əhəməni vilayətlərini idarə edirdi. O, e.ə. IV əsrdə yaşamış və e.ə. 331-ci ildə Qavqamela döyüşündə həlak olmuşdur. "Yervand" adı İran

[1] **Свод материалов для описания местностей и племен Кавказа (bundan sonra – СМОМПК)/** вып.29, отд.1, 1900 г; вып.32, отд.1, 1903 г.

[2] **СМОМПК,** вып.1, отд.1, 1881 г.

[3] Тер-Гевондян, А.Н. **Армения и Арабский халифат**/ Ереван, 1977, с. 64.

[4] **СМОМПК**, вып.1, отд.1, 1881 г.

dilindəki “Ərvand” (“Qüdrətli”, “Qəhrəman”) adının xeyli vaxt sonra erməniləşdirilmiş variantıdır. O dövrün qədim yunan qaynaqlarında Ərvandı “Oront” adlandırırdılar [1]. Mənbələrdə həmin uzaq zamanlarda bu adın erməni dilində necə səslənməsi (və ümumiyyətlə, heç səslənib-səslənməməsi) haqqında heç bir məlumat yoxdur. İrəvan şəhərinin bu şəhər adı ilə heç cür həmahəng səslənməyən “Ərvand” və ya “Oront” adlarını daşımasını ehtimal etmək çətindir.

Bu şəhərin adının Nuh peyğəmbərin adı ilə əlaqələndirmək cəhdləri daha çox qəribə görünür. Erməni mifologiyasına görə, Nuh Nəbi öz gəmisində Ararat (Ağrı) dağına yan alaraq qurunu görüb “Yerevie” – “görürəm” demiş və guya ki, məhz sudan görünən bu quru yerdə də Yerevan şəhəri salınmışdır[2]. Əlbəttə ki, bu, bir əfsanədir.

Orta əsr qaynaqlarında bu şəhərin adına Rəvan adı altında rast gəlinir. “Yerevan” bu adın ermənicə formasıdır [3].

Məlumdur ki, bu bölgədə, ümumiyyətlə Azərbaycan türk dilinin bir çox dialektlərində, azərbaycanlılar “r” səsi ilə başlayan adların əvvəlinə “i” səsi artırırlar. Məsələn, “Rza” “İrza” kimi, “Rübabə” “İrbaba” kimi tələffüz olunur, “rəhmin gəlsin” əvəzinə “irəhmin gəlsin” deyərdilər və s. Beləliklə, bu bölgənin ləhcəsinə, dialektinə müvafiq olaraq, “İrəvan” adı Rəvan adının əvvəlinə “i” səsi artırılmaqla əmələ gəlmişdir. Sonralar bu adın Azərbaycan sözü kimi səslənməməsi üçün bu şəhəri Erivan və ya Yerevan adlandırmağa başlamışdılar[4].

İndiki Ermənistan Respublikası ərazisinə ilk ermənilər missionerlər kimi gəlmiş, ərəb xilafəti dövründə isə onlar islamı qəbul etmiş aborigenlərin məbədlərinə yiyələnmiş və bu məbədlərdə tarixi saxtalaşdıran əsərlərini yaratmışdılar. İndiki İrəvanın

---

[1] Cyril Toumanoff. **The Orontids of Armenia/** Georgetown, 1963, c. 278.

[2] Абовян, Х. Избранное (на арм. яз.)/ т.8, s.13. Ереван, 1958; **https://www.iravan.preslib.az (Nazim Mustafa/İrəva şəhəri/20.02.2021)**

[3] Budaqov, B.Ə. **Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti**/ Q.Ə.Qeybullayev, Bakı, 1998, s. 19-21.

[4] Əliyev, F. **İrəvan xanlığı/** U. Həsənov, Bakı, 2007, s. 144.

ətrafında 1441-ci ildən Qaraqoyunlu hökmdarı Cahan şahın (1436-1467) icazəsi ilə erməni katolikosunun iqamətgahının Kilikiyadan Üçmiədzinə - Üçmüəzzinə köçürülməsinə icazə verdiyi vaxtdan etibarən görünməyə başlamışdılar. Bu monastrın yerləşdiyi Valarşapat kəndi katolikos tərəfindən müsəlman sahibkarlardan satın alınmışdır. Papazyanın topladığı qəbalə sənədlərinin birində bax bunlar yazılmışdır: "Məhəmməd ibn Dehxod Azərbaycana tabe olan Çuxur-səəd vilayətinin Gərbi (Gərni) nahiyəsinin kəndlərindən Üçkilsəni Yepiskop Qriqorun şəriət vəkilinə, ağaların ən yaxşısı cənab Gevonda ... satdı" [1]. Sonralar Üçkilsə (Eçmiədzin) monastrını, daha 16 kəndi və başqa mülkləri satın almışdı[2].

Xaçatur Abovyan hesab edirdi ki, Rəvan ancaq XIII əsrdə ancaq oba kimi meydana çıxmışdı[3].

Belə bir fakt da maraqlıdır ki, Osmanlı səyyahı və coğrafiyaşünası Övliya Çələbi də İrəvan yaşayış məskəninin meydana çıxmasını XV əsrə aid edir. Onun iddiasına görə, hicri təqvimi ilə 810-cu (miladi 1407-1408) ildə Teymurləngin tacirlərindən biri-Hacı xan öz ailəsi ilə birlikdə Rəvanın məhsuldar torpaqlarında məskən salmış və burada böyük bir kəndin əsasını qoymuşdur[4]. Elə həmin müəllif yazırdı ki, Şah İsmayıl Səfəvi hicri 915-ci ildə (miladi 1509-1510-cu illər) öz sərkərdəsi Rəvanqulu xana Zəngi çayının sahilində, strateji cəhətdən çox vacib yerdə qala tikməyi həvalə etmişdir. Rəvanqulu xan bu qalanı 7 ilə tik-

---

[1]Сост. Папазян, А.Д. **Персидские документы Матенадарана/** II купчие (XIV-XVI вв.), Ереван, 1968, с. 256-257.

[2] Шопен, И. **Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи**/ Санкт-Петербург, 1852, с. 451-452.

[3] Абовян, Х. **Краткий исторический очерк г. Эривани**, Избранные произведения (на арм. яз.)/ т.8, Ереван, 1958, s.13-14; Нифталиев, И. "Армянские мифы об "Эребуни" и "Урарту"/ **Каспий**, 2017, 10 окт, №167, с. 12.

[4] Evliya Çələbi. **Səyahətnamə** (Azərbaycan tarixinə aid seçmələr, hazırlayan S.Onullahi)/ Bakı, Azərnəşr, 1997, c. 28.

dirmişdi[1].

Yuxarıda şərh olunanları akademik V.V. Bartold da təsdiq edirdi. O, yazırdı ki, İrəvan Teymurun dövründə kənd kimi meydana çıxmış, ancaq XVI əsrdə – Şah İsmayılın zamanında şəhərə çevrilmişdir[2].

İrəvanın adı, əhalisi və tarixi ilə bağlı tarixşünaslıqda, xüsusilə erməni müəlliflərinin əsərlərində dolaşıq fikirlərə rast gəlinir. Tarixçi Tadevos Akopyan yazır ki, çağdaş Yerevan öz adını Erebunidən alıb. Lakin o, bu yeni ad nə vaxtdan işlədilir və əhalisi nə vaxt kütləvi şəkildə erməniləşib sualına hətta ehtimal kimi də cavab verə bilməyib[3]. Azərbaycan alimləri B. Budaqov və Q. Qeybullayevin fikrincə, şəhərin adının guya Urartu mənbələrində adı çəkilən Erebuni qalasının adından əmələ gəlməsi uydurmadır. Toponim türk dillərində "ir" - "dağın gün düşən tərəfi", "dalğavari dağ zirvəsi" və farsca "van" - yer sözlərindən ibarətdir. Toponimin Yerevan forması İrəvan adının ermənicə yazılışıdır[4].

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Səfəvilər dövlətinin təsisi və fəaliyyəti nəticəsində Azərbaycanın hüdudları genişlənirdi. Səfəvilər dövründə Azərbaycan vilayəti inzibati-ərazi bölgüsü baxımından bəylərbəyliklərə ayrılmışdı. Azərbaycanda dörd bəylərbəylik var idi ki, onlardan biri də Çuxursəd bəylərbəyliyi idi. Çuxursəd bəylərbəyliyinin mərkəzi İrəvan şəhəri idi. Çuxursəd Arazın hər iki sahilindəki düzənlikləri əhatə edirdi[5].

Tarix elmləri doktoru S. Onullahi İrəvan şəhərinin yaranması ilə bağlı yazırdı: "İrəvan Çuxursəd də adlandırılmışdır.

---

[1] Süleymanov, M. **İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən/** Bakı, 1997, c. 11.

[2] Бартольд, В.В. **История изучения Востока в Европе и России/** Ленинград, Гос. уч.-практ. школа-тип. им. тов. Алексеева/ 1925, с. 101.

[3]Акопян, Т. **История Еревана/** Ереван, 1975, s. 181.

[4] Budaqov, B.Ə, Qeybullayev, Q.Ə. Göst.əsər/ Bakı, Oğuz eli Nəşriyyatı, 1998, s.19-21; **Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası/** 2 cilddə. II cild, Bakı, Lider Nəşriyyatı, 2005, s. 47.

[5] **Историческая география Азербайджана/** Баку, Элм, 1987, с. 112-113.

Türk tayfasının başçısı Səd hündür dağlar arasında, çökək yerdə bu şəhərin əsasını qoyduğu üçün onun adı "Səd çuxuru" və ya "Çuxursəd" olmuşdur[1]. Müəllif daha sonra yazırdı: "Azərbaycanın qədim torpağı olan Çuxursəddə üç qala var idi. Ən qədim qala Osmanlı sərdarı Fərhad paşa tərəfindən hicri 991-ci (1583) ildə Zəngiçay kənarında saldırılmışdır*. Ətrafında dərin xəndək qazdırılıb, çayın suyu ilə doldurulmuşdu. Çuxursəd ərazisi Şah İsmayılın hakimiyyəti dövründə qızılbaşların malikanəsinə daxil idi. Şah Təhmasib dövründə (1524-1576) isə Səfəvi dövləti ərazisində 13 bəylərbəylikdən biri Çuxursəd əyaləti idi. Ustaclı tayfasından olan Məhəmməd xan Toxmaq Ustaclı 35 ildən artıq bir müddətə Çuxursəd bəylərbəyisi vəzifəsində işləmişdi"[2]. Qeyd edək ki, görkəmli ədəbiyyatşünas alim F. Köçərli də İrəvan şəhəri haqqında eyni məlumatları verirdi: "İrəvan qədim şəhərlərdən birisi hesab olunur. Bu şəhərin binasına təmiratı Zəngi adlanan çayın sol kənarında vaqe olublar. Şəhərin bir hissəsi Zəngi çayının kənarında ucalmış təpə üstündə, digər bir hissəsi çuxura düşübdür"[3].

Məlum olduğu kimi, XVI əsrin sonunda və XVIII əsrin 20-ci illərində mövcud beynəlxalq vəziyyəti dövlət maraqları üçün istifadə edə bilməyən Səfəvi dövlətinə qarşı hərbi və eyni zamanda siyasi məqsədlərindən uğurla istifadə edən Osmanlı imperiyası hər iki dövrün qarşıdurmasından uğurla çıxmış və Səfəvi dövlətinin şimal-qərb bölgəsinin böyük bir hissəsini ələ keçirməyə müvəffəq olmuşdur.[4]

Ələ keçirdikləri bölgələri mərkəzləşmiş qaydada idarə

---

[1] Onullahi, S. **Çuxursəd-İrəvan Səfəvilər dövründə**/ Bakı, Elturan, 1995, sayı 1-2, s. 16.

[2] Yenə orada; Əfəndiyev, O. **Azərbaycan Səfəvilər dövləti**/ Bakı, Azərnəşr, 1993, s. 164.

[3] Firudin bəy Köçərli. **Azərbaycan ədəbiyyatı**/ Bakı, Elm, 1981, s. 48.

*Bu qala Osmanlı qoşunlarının hərbi əməliyyatı nəticəsində dağıdılmış əvvəlki qalanın yerində Fərhad paşa tərəfindən inşa olunmuşdur.

[4] Fərzəlibəyli, Ş.F. **Azərbaycanlı və Osmanlı imperiyası**/ Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994, s. 87; Əfəndiyev, O. Göstər.əsəri/ Bakı, Azərnəşr, 1993, s. 83.

etmək məqsədilə osmanlılar bu ərazilərin ölkənin ictimai-siyasi və sosial-iqtisadi sisteminə inteqrasiyası ilə ciddi məşğul oldular. Siyasi sabitliyi və asayişi təmin etmək, hücumlardan qorunmaq üçün osmanlılar ilk növbədə qalalarda silahlı qüvvələri yerləşdirir, onlara maaş kimi veriləcək vəsaitin mənbələrini müəyyən edirdilər. Bu tədbirlərdən sonra ələ keçirilən bölgələr əyalətlərə bölünür, onların ərazi-inzibati bölgüsü aparılır, yerli idarə aparatı formalaşdırılır, rəhbərləri (bəylərbəyi, sancaqbəyi, qazi, naib, kəndxuda, dəftərdar) təyin edilirdi. Bundan sonrakı mərhələdə yerli idarə aparatının ayrı-ayrı qolları işlərini paralel aparmağa başlayırlar. İlk növbədə dəftərxana işçiləri yerli əhalidən olan kəndxudaların bələdçiliyi və onların bilavasitə iştirakı ilə əyalət əhalisinin sosial vəziyyətini təftiş edir, Səfəvi dövründəki vergi siyasətini müəyyənləşdirir, vergilərin toplanması zamanı edilən haqsızlıqları üzə çıxardaraq, bəylərbəyi ilə qaziyə bildirirdilər. Beləliklə də, əyalətin idarə edilməsi üçün lazım olan qanunnamə və vergilərin nizamlı şəkildə toplanmasını müəyyən edən müfəssəl dəftər tərtib edilirdi. Növbəti, sonuncu mərhələdə isə, əkilən torpaq sahələri və formaları ilə bərabər torpaq sahibləri müəyyən edilərək, toplanan məlumatlara əsasən müfəssəl dəftər də istifadə olunmaqla icmal dəftər hazırlanırdı. [1]

Yuxarıda qeyd edilən bu tədbirlər XVI əsrin sonu – XVII əsrin əvvəllərində və XVIII əsrin 20-30-cu illərində Osmanlı idarəsində olmuş və Osmanlı mənbələrində də əvvəldə bəhs edildiyi kimi Rəvan (İrəvan) əyaləti/bəylərbəyi olaraq qeyd edilən Çuxursəd bəylərbəyliyində də həyata keçirilmişdir.

Bu tədbirlər nəticəsində osmanlılar İrəvan əyaləti üçün iki müfəssəl, dörd icmal, iki sicil dəftəri tərtib etmişdilər. Bunlardan bir sicil dəftəri, 1603-cü il tarixli "Dəftəri-sicili-livayi-Rəvan" Sofiyada, Kiril və Mefodi kitabxanasında, digərləri isə İstanbulda, Başbakanlık Osmanlı Arxivində (TC. BOA.) saxlanılır[2] .

---

[1] Bünyadov, Z. **İrəvan əyalətinin icmal dəftəri, araşdırma, tərcümə və qeydlər**/ Bakı, Elm, 1996, s. 5-6

[2] **Türkiyə Cumhuriyyəti Başbakanlıq Osmanlı Arxivi (bundan sonra - TC. BOA)**/ dosya №628, 633, 637, 681, 727, 895, 901, 905.

Məlumatlardan da göründüyü kimi, ölkədə yaranmış qeyri-sabit vəziyyət və mərkəzdənqaçma meylləri Osmanlı imperiyasının Səfəvilərin şimal-qərb bölgəsinə yiyələnməsi ilə nəticələnmiş və adı çəkilən bölgənin taleyi müəyyən fasilələrlə Osmanlı imperiyası ilə bağlı olmuşdur.

Bu dəftərlərin verdiyi məlumatlar osmanlı dövrü İrəvan əyalətinin sosial-iqtisadi, demoqrafik vəziyyəti, ərazi-inzibati quruluşu, toponimikası və digər məsələlərin işıqlandırılması üçün çox böyük əhəmiyyət kəsb edir.

XVI əsrin sonu və XVIII əsrin 20-30-cu illərindəki vəziyyəti müqayisə etdikdə, İrəvan əyalətində xeyli dəyişikliklərin baş verdiyinin şahidi oluruq. Məsələn, əgər 1590-cı il tarixli müfəssəl dəftərə görə, İrəvan əyaləti 10 nahiyəsi (İrəvan, Karbi, Vedi, Aralıq, Talın, Ərmus, Abnik, Abaran, Şərəbxana) olan İrəvan livasından, 16 nahiyəsi (Ağcaqala, Məvaziyi-xatun, Mülki-Arslanlı, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şahbuz, Şərur, Zar, Zəbil, Əlincə, Sisyan, Azadciran, Ordubad) və bir qəzası (Naxçıvan) olan Naxçıvan livasından ibarət idisə, 1728-ci il tarixli İrəvan əyalətinin müfəssəl dəftərindən aydın olur ki, osmanlılar Naxçıvan bölgəsi üçün ayrıca bir müfəssəl dəftər tərtib etmiş, Zar, Zəbil və Şərur nahiyələrini Naxçıvan sancağının tərkibindən çıxararaq İrəvan əyalətinə birləşdirmişdilər.[1] Beləliklə, 1728-ci il tarixli İrəvan əyalətinin müfəssəl dəftərinə görə, eyni adlı əyalətin ərazi-inzibati quruluşu aşağıdakı şəkli almışdır: İrəvan şəhəri, Qıxbulaq, Karbi, Maku, Xınzirək, Gərni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zarzəmin nahiyələri və Şörəyell livası, Naxçıvan sancağı isə Naxçıvan şəhəri, Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Dərələyəz və Sisyan nahi-

---

[1] **TC. BOA**/ dosya 905; Mustafazadə T.T. "1723-1735-ci illər Osmanlı hakimiyyəti dövründə Azərbaycanın vəziyyətinə dair"/ **Az. SSR EA-nın Xəbərləri**, 1990, **Tarix, fəlsəfə və hüquq seriyası**, №4, s. 44; Süleymanov, M. **Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən/** Bakı, Hərbi nəşriyyatı, 2008, s. 76-77.

yələrindən ibarət olmuşdur .[1]

İrəvan əyaləti ilə bağlı tərtib olunmuş dəftərlərin, xüsusilə müfəssəl dəftərlərin dəyərli cəhətlərindən biri də bu ərazi-inzibati vahidi əhalisinin XVI-XVIII əsrlərdə olan etnik tərkibi barəsində məlumat verməsidir. Doğrudur, müfəssəl dəftərlər tərtib edilərkən vergi mükəlləfiyyəti daşıyan əhali etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qeydə alınmışdır. Ancaq bu qeyd də bütün yaşayış məntəqələri üçün deyil, müsəlman və xristian əhalinin birgə yaşadıqları yerlər üçün edilmişdir; müsəlmanlar haqqında olan məlumatlar "müslümanan", "məhəlleyi müslümanan", xristianlar haqqında məlumatlar isə "gəbran", "məhəlleyi-gəbran"[2] başlıqları altında verilmişdir.

1590-cı il tarixli İrəvan əyalətinin müfəssəl dəftərinə əsasən aparılan hesablamalar göstərir ki, bütün əyalət üzrə vergi mükəlləfiyyəti daşıyan 9.164 adam qeydə alınmışdır ki, bunların da 8.654 nəfəri evli, 510 nəfəri subay kişilər idi. Hər ailənin təxminən 5 nəfərdən ibarət olduğunu qəbul etsək, bu dövrdə İrəvan əyalətində təxminən 43.780 nəfərin yaşadığını qeyd edə bilərik.[3]

Qeyd edək ki, müəyyən hərbi hazırlıq işlərindən sonra I Şah Abbas 1602-ci ildə Osmanlı Türkiyəsi tərəfindən işğal olunmuş bir sıra kəndləri və yaşayış məntəqələrini azad edərək, xüsusi fəallığı ilə seçilmiş Əmirgünə xanı Çuxursəd bəylərbəyi təyin etmişdi.

1639-1723-cü illərdə Osmanlı-Səfəvi münasibətlərində qarşıdurmanın aradan qalxması İrəvan əyalətinin demoqrafik vəziyyətinə də öz müsbət təsirini göstərmişdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, əcnəbi səyyahların və diplomatların Azərbaycanın ayn-ayn şəhərləri, təsərrüfat həyatı, əhalisi haqqında verdiyi məlumatlar Azərbaycan tarixinin öyrənilməsində və araşdırılmasında mühüm mənbələrdən birini təşkil edir. Əc-

---

[1] Bünyadov, Z. Göst.əsəri/ Bakı, Elm, 1996,  s. 9.

[2] Yenə orada, s. 11.

[3] Yenə orada, s. 12.

nəbi səyyahların olduqları vilayətlərin, şəhərlərin, kəndlərin təsviri Azərbaycanın ayrı-ayrı bölgələrinin tarixinin tədqiqi üçün də xüsusilə dəyərlidir.

Müxtəlif vaxtlarda Azərbaycanın qərb bölgəsinin ərazisindən keçib getmiş əcnəbi səyyahlar bu bölgə haqqında bizə maraqlı məlumatlar qoyub getmişlər. Belə ki, 1647-ci ildə Azərbaycanda olmuş Osmanlı səyyahı Övliya Çələbi "Səyahətnamə"sində İrəvanda 2060 ev[1], 1673-cü ildə İrəvan əyalətinin ərazisindən keçərək İsfahana gedən Jan Şarden isə bu illərdə İrəvan qalasında təxminən səkkiz yüz ev (təqribən 4000 nəfər) və sakinlərinin hamısının da "təmizqanlı səfəvilər" olduğunu yazırdılar.[2] Naxçıvanda da şəhər əhalisinin sayının artması müşahidə olunurdu. Övliya Çələbi yazırdı ki, 10 min böyük ev şəhəri bəzəyir[3], Jan Şarden isə burada təqribən 2000 evin olduğunu qeyd edirdi.[4] 1655-ci ildə İrəvana gəlmiş Jan Batist Taverniyenin əsərlərində (birinci cild) qeyd edilir ki, şəhər qalasında yalnız müsəlmanlar yaşayır. O, yazırdı ki, İrəvan xanının görüşünə getdim. Qatı müsəlman olduğu üçün ilk gündə mənə içməyə şərab vermədi.[5] Jan Şardenin eyni vaxtda qələmə aldığı bu cümlələrdəki toponimlər isə başqa bir gerçəkliyin sübutudur. Müəllif yazır: "Şəhər torpaqlarını cənub-qərbdən axan Zəngi çayları suvarır. Sərdarın sarayı çox gözəl, möhtəşəm bir imarətdir. Min addım o yanda bir qala bürcü ucalır, ona burada "Keçi qalası" deyirlər...Sual olunur: ərazinin sahib-sakinləri farslardırsa, çayların adını niyə "Qırxbulaq", "Zəngi" qoyublar? Qalanı ucaldanlar, burada yaşayanlar farslardırsa, onun bürcünü nə üçün "Keçi qa-

---

[1] Эвлия Челеби. **Книга путешествий**/ Москва, 1983, s. 155.
[2] Jan Şarden. **Səyahətnamə/** fransız dilindən tərcümə edəni Vaqif Aslanov, Bakı, Elm, 1994, s. 21.
[3] **Azərbaycan tarixi üzrə qaynaqlar**/ Bakı, Azərbaycan Universiteti Nəşriyyatı, 1989, s. 232.
[4] Jan Şarden, Göst. əsəri/ s. 63.
[5] Məmmədov, İ. **Tariximiz, torpağımız, taleyimiz**/ Bakı, Adiloğlu, 2003, s. 30.

lası" adlandırmışlar?[1] Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Övliya Çələbi və Jan Şardenin İrəvan və Naxçıvan şəhərlərinin əhalisinin sayı barədə verdikləri məlumatların tam dəqiq olmasını yəqin etmək mümkün olmasa da, hər halda əyalətdə və şəhərlərdə əhalinin sayında artıma doğru təmayülün yaranmasını söyləmək olar.

XVIII əsrin 20-30-cu illərində olan demoqrafik vəziyyət və əhalinin etnik tərkibi İrəvan əyalətinin osmanlılar tərəfindən ələ keçirilməsinə qədər baş vermiş hadisələrlə şərtlənmişdir. Belə ki, şəhərin əhalisi, onun siyasi proseslərdə bu və ya digər dərəcədə iştirakı ilə bağlı məlumatlara daha çox osmanlı və erməni xronikalarında rast gəlmək mümkündür.

Problemə həsr olunmuş vətən tarixinin araşdırılmasından məlum olur ki, dövrə aid yazılmış erməni xronistlərinin əsərlərində, yuxarıda qeyd olunduğu kimi, ziddiyyətli məlumatlar özünü göstərməkdədir. Məsələn, erməni tarixçilərinin əsərlərinə istinad edən İsrafil Məmmədov yazır ki, İrəvanda qala, yeni binalar tikmək, abadlıq işləri aparıb şəhəri möhkəmləndirmək haqqında Şah İsmayılın Rəvanqulu xana ciddi tapşırıqlar verməsindən söhbət açan Yervand Şahəziz bu qənaətə gəlmişdir ki, İrəvan və Rəvanqulu adları arasında heç bir əlaqə yoxdur, çünki İrəvanın adı VII əsrdən bəlli olmuşdur.[2]

Ehtimal olunur ki, burada "İmperator İranlinin tarixi. Yeoiskop Sebeosun əsəri" (VII əsr müəllifi) nəzərdə tutulur, hansındakı belə bir məlumat verilir:" Növbətii il başlarkən Atrapatakana islamçıların ordusu gəldi və üç yerə bölündü. Bir dəstə Ayrarata; digəri alayın öz ölkəsinə, üçüncüsü Aqvaniyaya......Gəlib Erevanda yıgıldılar (Herewan), qala ilə döyüşdülər, lakin onu ala bilmədilər".[3] Lakin rus dilində bu mətn bizə erməni şərqşünası, erməni dilşünaslığı doktoru, erməni tarixini saxtalaşdıran tərcüməçilərin yetişdirilməsi ilə məşğul olan Lazarev Şərq

[1]Məmmədov, İ. Göst. əsəri/ s. 33.
[2] Yenə orada, s. 31.
[3] **История императора Иракли**/Сочинение епископа Себеоса, отд. III, гл. XXXII. Русский перевод К. Патканова.

dilləri İnstitutunun məzunu Kerone Patkanovun tərcüməsində gəlib çatmışdır.[1]

İran köçkünü olan İvan Lazarev qədim knyaz nəslinə mənsubluğunun iddiasını edərək Cənubi Qafqazda Rusiyanın himayəsi altında erməni köçkünləri üçün dövlət yaradılması lahiyəsinin fəal iştirakçılarından idi. Lazarevlər gələcək erməni dövlətində əhəmiyyətli rola malik olmaları iddiasında idilər.

Niyyətlərinə çatmaq üçün onlar bu torpaqların güya ermənilərə mənsubluğunu "subut" etmək məqsədilə tarixi mənbələrin saxtalaşdırılmasından çəkinmirdilər.

Tarixi mənbələrin saxtalaşdırılması faktını sübut edən sənədlərin bir çoxu Sankt-Peterburqdakı RDTA-nın 880-ci fondunda (Abamelik-Lazarevər fondu) saxlanmışdı.[2] İnstitutun nəzdindəki tipoqrafiyada nəşr olunan şərq müəlliflərinin əsərlərinin korrekturası İnstitut Şurasının səlahiyyətinə və məsuliyyətinə aid idi.[3] Bütün bunlar həmin tərcümələrin müfəssəl yoxlanılması qənaətinə gətirib çıxarır.

Belə ki, xeyli sonralar tətbiq olunan Erevan adının yuxarıda göstərilən VII əsrə aid mənbədə çəkilməsi şübhə doğurur. Bundan başqa, o dövr ərəb müəlliflərinin heç bir əsərində bu şəhərin adına heç bir halda rast gəlinmir.

Yuxarıda qeyd etdiyimiz kimi, İrəvan əyalətinin XVIII əsrin ilk onillikləri haqqında məlumatlara osmanlı və erməni xronikalarında rast gəlmək mümkündür. Belə ki, bu tarixi ədəbiyyatlardakı məlumatlar əksər hallarda "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə əksini tapan məlumatlarla üst-üstə düşür.

Kəmani Mustafa ağanın "Rəvan fəthnaməsi"ndə osmanlı ordusunun İrəvan şəhərinin kənarında Səfəvilərlə apardığı ilk

---

[1] 30-летие специальных классов Лазаревского Института восточных языков/ М, 1903, с.IV; Базиянц, А.П. **Создание Института восточных языков в Москве, I половина XIX в/ -Очерки по истории русского востоковедения**/ сбор.VI, М, 1963, с. 273-274.

[2] **RDTA /** F.880, siy.5, iş 169, v.22.

[3] Yenə orada, s. 193.

döyüşdə 10 minə qədər “qızılbaş”ın (türk-müsəlmanın) və ermənin in qətlə yetirildiyi, 15 mindən çox qadın, oğlan və qız uşağının əsir düşdüyü qeyd edilir. [1]

Osmanlıların İrəvan şəhəri və qalası uğrunda apardıqları döyüşləri təsvir edən erməni xronikalarında İrəvanın müdafiəsi tamam başqa yöndə şərh edilir: bu yerlərin Səfəvilərə deyil, ermənilərə məxsus olması, Osmanlılarla döyüş zamanı Səfəvilərin bu bölgə üzərində olan ali hakimiyyətinə baxmayaraq, osmanlılara heç bir müqavimət göstərmədən çəkilib qalada gizlənmələri, şəhər və qalanın isə yalnız və yalnız ermənilər tərəfindən müdafiə edilməsi, müdafiə işlərinin Əliqulu xan tərəfindən deyil, Qriqori Vardapet tərəfindən təşkil edilməsi, Osmanlıların şəhəri və qalanı ala bilmək iqtidarında olmamaları, döyüşlərin yalnız katolikosun işə qarışmasından və xahişindən sonra dayandırılması, bunun müqabilində isə Osmanlıların İrəvanın təslimi ilə bağlı şərtləri xaincəsinə pozaraq, döyüşlərin dayandırılmasından sonra qalaya daxil olub erməni döyüşçülərini kütləvi şəkildə qətlə yetirməsi fikri əsas yer tutur.[2]

Erməni xronikalarındakı məlumatlara görə, guya etnik baxımdan İrəvan şəhəri və qalasının sakinləri ermənilər olmuşdu. Halbuki, İrəvan uğrunda gedən döyüşlərdə şəxsən iştirak etmiş Kəmani Mustafa ağanın məlumatları bunun əksini söyləməyə imkan verir: “İrəvan qalasının təslim olunması ilə əlaqədar Osmanlı ordusu qazisinin məktubu Osmanlıların tərəfinə keçmiş İrəvan əyalətinin bəyləri, İrəvan ətrafındakı kəndlərin kəndxudaları, Karvansara kəndinin ağsaqqalları vasitəsilə ermənilərə deyil, Kəmani Mustafa ağanın yazdığı kimi “İrəvan qalasının üləma və əyanına” ünvanlanmış, bu məktuba cavab olaraq qalanın təslim olunması şərtini Osmanlılarla bir neçə dəfə müzakirə etməyə gəlmiş şəxslər də ermənilər deyil, “qızılbaşlar” olmuş və ümumiyyətlə, qalanın təslim olunmasını qəbul etməyən şəxs də qalanın müdafiəsində iştirak edən erməni dəstəsinin başçısı Qri-

---

[1] Aktepe, M. **1720-1724 Osmanlı-İran münasebetleri və silahşor Kemani Mustafa ağanın Revan Fetihnamesi/** İstanbul, 1970, s. 46-47.

[2] Ереванци, А. **История войн 1721-1736 гг/** Ереван, 1939, s.19-21.

qori Vardapet deyil, məhz qalanın müdafiəsini təşkil etmiş Əliqulu xan olmuşdu".[1]

İrəvan əyalətinin 1728-ci il tarixli müfəssəl dəftərinə görə, əyalət üzrə qeydə alınmış 15.095 nəfərdən 93,5%-i (14.122) evlilər, 6,5%-i isə subaylar idi. Məlumatlardan o da aydın olur ki, İrəvan şəhər əhalisinin etnik tərkibində 428 evli türk-müsəlman, 224 evli və 9 subay xristian olmuşdur. Evlilərin ailə tərkibini 5 nəfərdən götürməklə, İrəvan şəhərində yaşayan 3.369 nəfərin 63,5%-i türk-müsəlman, 36,5%-i isə xristian[2] olduğunu qeyd edə bilərik. Qeyd edək ki, bu məlumatlar İ. Şopen tərəfindən də təsdiqlənir.[3]

İrəvan əyaləti ilə bağlı tərtib olunmuş dəftərlər Osmanlı tabeliyində olduqları dövrdə İrəvan, Naxçıvan və Ordubadın şəhər həyatında dəyişikliklərin baş verdiyini göstərir. Belə ki, məlumatlar Osmanlı dövründə İrəvan, Naxçıvan və Ordubadın abadlaşdırıldığını, came və məscidlərin, yeni qala divarlarının inşa edildiyini göstərir.

İrəvan əyalətinin dəftərləri bölgədəki şəhərlərin demoqrafik vəziyyəti, topoqrafiyası, dini və sosial tikililər və başqaları haqqında bizə məlum olmayan faktlar verir. Şəhər topoqrafiyası haqqında məlumatlara gəldikdə bu sahədə xeyli dəyişikliklərin şahidi oluruq. Əgər 1590-cı ildə İrəvan şəhəri 6 məhəlləli (Dərəköy, Mardiros, Məzərə, Kiçik Qayıq, Əyali, Börkçü Ohan), Naxçıvan şəhəri 11 məhəlləli, Ordubad şəhəri isə 5 məhəlləli şəhərlər idilərsə, 1728-ci il İrəvan əyalətinin müfəssəl dəftərinə görə, İrəvan şəhərində 4 məhəllə (Köhnə Şəhər, Dəmirbulaq, Dərəkəndi, Təpəbaşı) var idi. Müqayisə üçün bildirək ki, İ. Şopenin verdiyi məlumata görə, XVIII əsrdə İrəvanda üç iri məhəllə – Şəhər, Təpəbaşı, Dəmirbulaq məhəllələri olmuşdur.[4]

---

[1] Aktepe, M. Göst. əsəri/ s.45-46.
[2] Bünyadov, Z. Göst. əsəri/ s.18.
[3] Шопен, И. **Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи/** Санкт-Петербург, Типография Императорской Академии Наук, 1852, s. 544.
[4] Yenə orada, s. 546.

İrəvan əyalətinin müfəssəl dəftərindən o da aydın olur ki, XVIII əsrin 30-cu illərində İrəvan bəylərbəyi İbrahim paşa İrəvan qalasında sultan I Mahmudun (1730-1756) şərəfinə came inşa etdirmişdi.[1]

Məlum olduğu kimi, Nadir Əfşarın Səfəvilər dövlətində hakimiyyəti idarəçiliyin əldə olması ilə Osmanlılarla mübarizə yenidən gündəmə gəldimişdi. 1724-cü il İstanbul müqaviləindən sonra sultan III Əhmədin əmrinə əsasən Osmanlı qoşunları bütün sərhəd boyunca hücuma keçib qərb tərəfdən Səfəvi dövlətinin ərazisinə daxil olaraq, qarşıya çıxan şəhərləri bir-birinin ardınca işğal edərək, Ərdəbil şəhərinə kimi gəlib çıxmışdılar. Osmanlı ordusu Çuxursəd bəylərbəyliyi ərazisində, İrəvan qalası ətrafında ciddi müqavimətə rastlaşdı. İrəvana hücum edən 75 minlik Osmanlı ordusuna Abdulla paşa Köprülü başçılıq edirdi.[2] Osmanlılar İrəvan şəhərini 1724-cü il avqustun 31-də tamamilə tutdular. 1732-ci il yanvar ayının 16-da Səfəvi dövləti ilə Osmanlı Türkiyəsi arasında imzalanmış müqaviləyə görə, İrəvan və Naxçıvan şəhərləri də Osmanlı Türkiyəsinin tərkibində qaldı. Tezliklə hakimiyyət başına keçən Nadirqulu xan şah II Təhmasibin Osmanlılarla imzaladığı müqavilənin şərtlərini tanımaqdan imtina etdi. Qızılbaş ordusunun ciddi hücumları nəticəsində Osmanlı ordusu Azərbaycandakı dayaq nöqtələrini itirməyə başladı. On iki  illik Osmanlı əsarətindən sonra İrəvan şəhəri yenidən Səfəvilər dövlətinə qaytarıldı. Lakin  Nadirin hakimiyyəti uzun sürmədi. 1747-ci ildə onun öldürülməsindən sonra Azərbaycanın siyasi tarixində yeni dövr – xanlıqlar dövrü başladı.

Əslində müstəqil və yarımasılı dövlət qurumlarının – xanlıqların bəziləri öz başlanğıcını Səfəvilər dövlətinin tərkibində yarımmüstəqil inzibati varlıq kimi mövcud olduğu dövrdən götürür.

İrəvan xanlığı Çuxursəd bəylərbəyliyi əsasında təşəkkül

---

[1] Буниатов, З.М. Армянская анонимная хроника (1722-1736)/  Перевод с турецкого в при-мечание академика АН Азербайджана, Баку, 1988, с. 8; **TC. BOA,** dosya № 895.

[2] Bünyadov, Z. Göst. əsəri, s.8.

tapmışdı. Nadir şah qətlə yetirildikdə İrəvan bəylərbəyi Pirmahmud xan hakimiyyəti əldən verməməyə cəhd göstərmişdisə də, İrəvanda Əfşar hakimiyyətinə qarşı üsyana başçılıq edən yerli feodal Mirmehdi özünü xan elan edərək, müstəqil İrəvan xanlığının əsasını qoydu .[1]

Tarixi materialların araşdırılmasından aydın olur ki, İrəvan xanlığı keçmiş bəylərbəyliyin bütün ərazisini əhatə edə bilməmişdi. Onun bir hissəsi Naxçıvan və digər xanlıqların tərkibinə daxil edilmişdi. İrəvan xanlığı Azərbaycanın qərbində Göyçə gölü ətrafında yerləşirdi və 15 mahaldan ibarət idi: Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Suran, Dərək, Səədli, Tala, Seyidli-Axsaqclı, Sərdarabad, Kərpi, Abaran, Dərəçiçək və Göyçə. Xanlığın mərkəzi İrəvan şəhəri idi.[2]

Tarixçi alim F. Əliyev yazırdı ki, xanlıqlar dövründə mərkəz şəhər olan İrəvan yaşıllıqlara qərq olunmuşdu. Qalanın ətrafında Şərq üslubunda ucaldılmış dairəvi hasarın uzunluğu 28 verstə bərabər idi. Qala divarı Zəngiçay körpüsü, Dəmirbulaq məhəlləsi, Abbasdan, Köşəli, Abaqayat, Qarabağ, Zokalqala adlanan yerlərdən keçərək Zəngi çayı tərəfə dönüb bir dairə yaradırdı. Qala daxilindəki sahənin əsas hissəsini bağlar təşkil edirdi. İrəvan qalası inzibati cəhətdən üç məhəlləyə bölünürdü: Şəhər məhəlləsi, Təpəbaşı məhəlləsi və Dəmirbulaq məhəlləsi. Şəhər məhəlləsi ən geniş sahəni tuturdu. Təpəbaşı məhəlləsi qalanın qərb, Dəmirbulaq məhəlləsi isə cənub-qərb hissələrini əhatə edirdi. İrəvan su cəhətdən təminatına görə Azərbaycanın digər şəhərlərindən fərqlənirdi. [3]

Məlumatlardan aydın olur ki, İrəvan şəhərində 8 məscid müsəlmanlara xidmət edirdi. Şəhərdə ictimai müəssisələr az idi. Hər bir məscidin öz məktəbi var idi. Hüseynəli xan məscidində 200 şagird təhsil alırdı .[4]

XVIII əsrin ikinci yarısında Azərbaycanda mövcud olan

---

[1] **Azərbaycan tarixi/ 7 cilddə**, III cild. Bakı, Elm, 1999, s. 413.
[2]Yenə orada, s. 414.
[3] Əliyev, F. **İrəvan xanlığı** / Həsənov.U, Bakı, Şərq-Qərb, 2007, s. 64.
[4] Yenə orada.

iqtisadi və siyasi pərakəndəlik İrəvan şəhərinin də inkişafına öz mənfi təsirini göstərmişdir. Bu təsir o qədər böyük olmuşdu ki, şəhər rus qoşunları tərəfindən işğal edildikdən sonra da uzun müddət öz simasını dəyişməmiş, feodal şəhəri olaraq qalmışdı. Bəhs olunan dövrdə şəhər möhtəşəm bina və abidələri ilə fərqlənmirdi. "Xan sarayı"ndan başqa, demək olar ki, burada evlərin əksəriyyəti birmərtəbəli, damları isə yastı idi. Şəhər evlərinin çoxu daş və palçıqla hörülmüş hündür hasarlarla əhatə olunmuşdu.[1]

Qeyd etmək lazımdır ki, İrəvan şəhəri həm birinci, həm də ikinci Rusiya-Qacar müharibəsi zamanı güclü dağıntılara məruz qalmışdır. İ. Şopen şəhərin xarici görünüşünü obrazlı şəkildə ifadə edərək yazmışdır: "Buranın görünüşü qəddarlıqla zəbt olunmuş şəhəri xatırladır. Şəhərdəki dəhşətli dağıntılar nəticəsində uçurulmuş evlər, ensiz dar küçələr cəhənnəmi andırır. Bəzi yerlərdə palçıqdan hörülmüş divarların qalıqları üzərində quşlar yuva salmışdı."[2]

XIX əsrin əvvəllərinə aid mənbələrin birində deyilir ki, Cənubi Qafqazın Rusiya tərəfindən işğal olunmasından əvvəl, demək olar ki, bütün şəhərlərdə evlər tikilərkən onların gözəlliyinə, düzgünlüyünə, məqsədəuyğun şəkildə tikilməsinə diqqət yetirilmirdi. [3]

1783-cü il Georgiyevsk traktatına əsasən Kartli-Kaxetiya çarlığının Rusiyanın himayəsinə keçməsi müəyyən dərəcədə Azərbaycan xanlıqlarının xarici siyasətinə təsir göstərdi. Azərbaycan ərazisində mövcud olan dövlət qurumlarının – xanlıqların başçılarının bəziləri Rusiyanın müstəmləkəçilik siyasətini ilk öncə dərk etmədən çarizmin vədlərinə inanır və sadəlövhlüklə Rusiyaya ümid bəsləyirdilər. Qeyd etmək yerinə düşərdi ki, Cənubi Qafqazda yaranmış qeyri-sabit vəziyyətdən Güney Azər-

---

[1] Друвиль Гаспар. **Путешествие в Персию в 1812 и 1813 годах** / Москва, 1826, с. 48.

[2] Шопен, И. Указ. раб., с. 567.

[3] Евецкий, О. **Статистическое описание Закавказского края в исходе XVIII в** / Санкт-Петербург, 1835, с. 45.

baycan və İranda hakimiyyəti ələ almış Ağa Məhəmməd şah Qacar da yetərincə faydalanmağa çalışırdı. Ağa Məhəmməd şah Qacar mərkəzi hakimiyyəti möhkəmləndirmək, sülh yolu ilə ayrı-ayrı xanlıqları bir dövlətin tərkibində birləşdirmək niyyətində idi. Belə bir tarixi şəraitdə Azərbaycan xanlıqları, xüsusilə İrəvan xanlığı və onun mərkəzi şəhəri İrəvanın başı üzərində obrazlı şəkildə desək, "qara buludlar" dolaşırdı. Digər tərəfdən, Cənubi Qafqaz xristianları, xüsusilə də ermənilər yaranmış vəziyyətdən maksimum yararlanmağa çalışırdılar.

Tarixi ədəbiyyatda Cənubi Qafqaz uğrunda Rusiya-Qacar, Rusiya-Osmanlı hərbi-siyasi qarşıdurmaları ilə bağlı kifayət qədər material olduğundan və eyni zamanda, bunları işıqlandırmaq tədqiq olunan problemə aid olmadığından biz yalnız Rusiya işğalı ərəfəsi və dövründə İrəvan şəhəri ətrafında cərəyan edən proseslərə toxunmağı lazım bilirik.

XIX əsrin başlanması ilə Cənubi Qafqazda cərəyan edən həm siyasi, həm də hərbi proseslər İrəvan xanlığından da yan keçmədi. Məlumdur ki, İrəvan xanlığı və onun mərkəzi şəhəri coğrafi-siyasi mövqeyinə görə təkcə Rusiya, Qacarlar və Osmanlı kimi dövlətlərin deyil, eyni zamanda bölgədə məskunlaşmış xristianların da maraq dairəsində idi. Bunu erməni tarixçilərinin yazdıqları bir daha sübut edir: "Gəncənin işğalı ermənilərin sonsuz sevincinə səbəb olmuşdu. Keçmiş İstanbul erməni patriarxı arxiyepiskop Qriqori və Nerses Əştərəkli Aştaraketsi 1804-cü il fevralın 3-də Minas Lazarevə göndərdikləri məktubda Gəncə xanlığının Rusiya tərəfindən işğalının ermənilər arasında böyük coşqu ilə qarşılandığı qeyd edilirdi. Sonra da onlar təəssüflərini bildirirdilər ki, "rusların qələbə bayrağı hələ də İrəvan qalası üzərində dalğalanmır".[1] Fikrimizcə, burada bir maraqlı nüansı nəzərdən qaçırmaq olmaz. Ona görə ki, erməni keşişlərinin hədsiz sevincinə səbəb rus işğalının yenidən reallığa çevrilməsi idi. Onlar belə güman edirdilər ki, Gəncənin işğalı tezliklə digər

---

[1] Süleymanov, M. **Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən/** Bakı, Hərbi nəşriyyatı, 2008, s. 291.

ərazilərin – Qarabağ və İrəvan xanlıqlarının da süqutuna və bu süqutun davamı olaraq erməni-xristian dövlətinin yaranmasına gətirib çıxaracaqdır.[1] Məhz göndərdikləri təbrik məktub və casus "donosları" ilə ermənilər rus qoşunları komandanlığını buna həvəsləndirir, əslində isə öz əməlləri ilə buna nail olurdular.

Maraqlıdır ki, hadisələrin belə cərəyan etməsi bəzən İrəvanda məskunlaşmış və alver sayəsində varlanmış erməniləri heç də qane etmirdi. Onlar müharibə baş verərsə, var-yoxdan çıxacaqlarından ehtiyat edirdilər. Odur ki, İrəvandakı ermənilər Abram Məlik Ağamoğlan və yüzbaşı Qabriel Qeqematsk Qarabağdan Tiflisə qaçmış sabiq Vərəndə məliyi Cəmşid Məlik Şahnəzəryana məktubla müraciət edərək ondan xahiş etmişdilər ki, o, Sisianovu İrəvan xanı ilə müharibə etməkdən çəkindirib Məhəmməd xanla sülh bağlamağa sövq etsin.[2]

Ancaq hadisələrin sonrakı gedişi göstərdi ki, çarizm Gürcüstanı ələ keçirdikdən sonra bütün Qafqaza sahib olmaq üçün hərbi hazırlıqları daha da sürətləndirmişdi. Diplomatik cəbhədə aparılan danışıqlar isə uğursuzluğa düçar olmuşdu.

### 1.2. Xanlıq dövründə İrəvanın iqtisadi həyatı

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində üç böyük dövlətin siyasi və iqtisadi maraqlarının toqquşduğu bir ərazidə yerləşən İrəvan xanlığına həmin dövlətlərin müdaxiləsi onun iqtisadiyyatına ağır zərbə vururdu. Buranın zəngin təbiəti, Avropa ilə Asiya arasında tutduğu əlverişli coğrafi mövqeyi ölkədə iqtisadiyyatın inkişafına lazımi şərait yaradırdı. Bəhs olunan dövrdə İrəvan şəhərinin iqtisadi əsasını kənd təsərrüfatı və onun təbii ehtiyatları, sənətkarlıq və ticarət təşkil edirdi.

**Kənd təsərrüfatı.** İrəvan xanlığının coğrafi-təbii şəraiti burada kənd təsərrüfatının inkişafına çox əlverişli şərait yaradır-

---

[1] Армяно-русские отношения в первой трети XVIII века, т. 2, ч. II, Ереван: 1967.

[2] **Акты, собранные Кавказской Археографической Комиссией (bundan sonra – AKAK)/** т.II, Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1868, док 1205, с. 604-605.

dı. Ərazinin xeyli hissəsi dağlıq olsa da onun böyük bir qismi Araz çayı ilə suvarılan geniş düzənliklərdən ibarətdir. İrəvan şəhərindən Göyçə gölünə qədər ərazilər və gölün şimal əraziləri qaratorpaq, Qarasu çayının mənsəbindəki sahələr bataqlıq, Araz çayı ilə Ağrıdağ arasında qalan, xüsusilə Gərnibasar, Vedibasar və Sürməli mahallarının torpaq sahələri şoran, cənubdan dağlara meylli ərazilər isə qumluq və daşlıqdan ibarətdir. Ən məhsuldar torpaq sahələri Zəngibasar, Körpübasar, Sərdərabad mahallarının payına düşürdü. Sürməli və Gərnibasar mahallarını bir hissəsi də münbit torpaqlardan ibarət idi. İrəvan şəhərinin iqtisadiyyatına ən çox yatırım kənd təsərrüfatından gəlirdi. Xan kənd təsərrüfatı mallarının özgələrinin əlinə keçməsinə imkan vermirdi[1] və bütün məhsulu əhalidən özü satın alırdı.

Kənd təsərrüfatında buğda və arpa becərilməsi başlıca sahələr idi.[2] Diyarın əksər ərazilərində buğda və arpa əkininə üstünlük verilirdi. Torpaq sahəsi bir dəfə kotanla şumlandıqda onu bir neçə il xışla şumlamaq olurdu. Payızlıq toxum səpini oktyabr ayında, əsasən suvarılan aran sahələrində aparılır və səpin başa çatdıqdan sonra torpaq sahəsi bir neçə dəfə suvarılırdı. Yuxarı mahalların əhalisi isə daha çox yazlıq səpinə üstünlük verirdilər.[3] Aran ərizilərdən beş dəfə, dağlıq ərazilərdən isə 20, bəzən də 30 dəfə çox məhsul alınırdı. Payızlıq səpininin məhsulu keyfiyyətsiz, yazlıq səpininin məhsulu isə çox yaxşı olurdu. Ən yaxşı məhsul şəhərətrafı kəndlərdə, Qırxbulaq və Sərdərabad mahallarında əldə olunurdu.[4] İrəvan xanının əhalidən satın aldığı birillik buğdanın miqdarı 34 000 xalvar, arpanın miqdarı isə 11 500 xalvar idi.[5]

---

[1] Шопен, И. Указ. раб., /с. 874; Дубровин, Н. **История войны и владычества русских на Кавказе/** т.1, книга 2, Закавказье, СПб., Печатано в типографии департамента уделов, 1871, с. 422, 327.

[2] Шопен, И, Указ. раб., / с. 740; **Кавказский сборник/** т.12, Тифлис, 1901, с. 21.

[3] Шопен, И. Указ. раб., / с. 738.

[4] Yenə orada, s. 739; Дубровин, Н. Указ. раб., / с.19-21.

[5] **Обозрение российских владений за Кавказом** (bundan sonra-

Darı, buğda və arpaya nisbətən daha az becərilirdi. Bu da darının daha məhsuldar olması ilə bağlı idi. Darı bəzi mahallarda 50 dəfədən çox məhsul verirdi. Darının orta məhsuldarlığı 10 dəfə hesablanırdı. Belə ki, 1000 xalvar darı əkilirdisə, orta hesabla 10.000 xalvar məhsul alınırdı. Xan əhaliyə aranın daha məhsuldar ərazilərində darı deyil, daha qiymətli bitkilərin becərilməsi üçün icazə vermişdi.[1] Ona görə də yığılan darı çox az olurdu və xanın xəzinəsinə bu taxıldan yalnız 3200 xalvar satılmışdı.[2]

Çəltik kənd təsərrüfatının əhəmiyyətli sahələrindən biri idi. Sərf olunan əməyin müqabilində çəltik daha çox səmərə verirdi. Çəltik əkini aprelin 20-dən başlayır və may ayının ortalarına kimi davam edirdi. Çəltik əkini ilə yalnız Səədli, Gərnibasar, Zəngibasar, Kərpibasar və Şərur məhalların əhalisi məşğul olurdu. Çoxlu su tələb etdiyindən digər aran ərazilərdə çəltik əkininə icazə verilmirdi. Belə ki, 1 xalvar çəltik sahəsi, 10 xalvar buğda, arpa və ya darı əkilmiş sahə qədər su tələb edirdi. Ona görə də çəltik əsasən bataqlıq yerlərdə əkilirdi. Ən keyfiyyətli məhsul Zəngibasar və Kərpibasar mahallarında istehsal olunurdu.[3] Saatlı, Gərnibasar, Zəngibasar, Körnübasar mahallarında orta hesabla 10, 20, 30, Şərurda, hətta 50 dəfəyə qədər məhsul alınırdı.[4] Hər il orta hesabla 18.400 xalvar məhsul xana satılırdı.[5] Çəltiyin hər xalvarı 6 rubla satın alırdı.[6]

İrəvan əhalisi özünə lazımi qədər kətan və küncüt saxladıqdan sonra artığını xəzinəyə satmalı idi. Kətan və küncüt hər yerdə yaxşı məhsul verirdi. Lakin aran yerlərində çox su tələb etdiyinə və ucuz satıldığına görə az becərilirdi. Kətan və küncüt 10 dəfə çox məhsul verirdi. Kətandan alınan yağdan evlərin işıq-

---

Obozreniye)/ т.4, СПб, 1836, с.280.

[1] Шопен, И. Указ. раб., / с.740.

[2] **Obozreniye**/ t.4, s.280.

[3] Шопен, И. Указ. раб., / с.740-741.

[4] **Obozreniye**/ t.4, s. 278.

[5] Yenə orada, s. 280.

[6] Шопен, И. Указ. раб., / с. 873.

landırılmasında, küncütdən alınan çox dadlı yağdan yeməklərin bişirilməsində istifadə edirdilər.[1] 4 batman kətan və ya küncüt toxumundan 1 batman kətan və ya küncüt yağı alınırdı.[2] Əvvəllər kətan gövdəsindən buraz kəndir düzəldilirdisə, işğaldan sonra nədənsə, buna bir o qədər fikir verilmirdi.[3] İrəvan əhalisi kəndiri çətənə bitkisindən düzəldirdi.[4] Əhalidən hər il 24 xalvar küncüt, 12 xalvar isə kətan yağı xana satılırdı.[5]

Pambıq Zəngibasar, Sərdarabad və Sürməli mahallarında becərilirdi. Pambıq aprel-may aylarında əkilir, oktyabr-noyabr aylarında yığılırdı.[6] Bu mahalların əhalisi pambığın aqrotexniki qaydalarını yaxşı bidirdi. Pambıq qiymətli bitki olduğuna görə İrəvan xanları onun satışından xeyli gəlir əldə edirdilər. Belə ki, İrəvan xanları əhalidən ucuz qiymətə, 1 xalvarı 80 rubla yığılan pambığın[7] 1 xalvarını özləri 120 rubla satırdılar.[8] Hər il xan xəzinəsinə təxminən əhalidən 2100 xalvar pambıq satın alınırdı.[9]

Pambıq kolları arasında[10] və pambıq sahələrinin kənarlarında[11] gənəgərçək əkirdilər. Gənəgərçək bitkisi bəzən 1 arşın hündürlüyə qalxırdı. Bu bitkinin alabəzək lobyaya bənzəyən toxumlarından yerli əhali içərisində yaxşı tanınan gənəgərçək yağı alırdı.[12] 1 batman toxum 50 batman məhsul verirdisə, ondan da təxminən 12 batman yağ almaq olurdu.[13] Əhalinin ildə əldə etdi-

---

[1] Yenə orada, s. 741-742.
[2] **Obozreniye**/ t.4, s. 280.
[3] Шопен, И. Указ. раб., / сс.741-742.
[4] Yenə orada, s. 743.
[5] **Obozreniye**/ t.4, s. 280.
[6] Yenə orada, s. 278.
[7] Шопен, И. Указ. раб., / с. 873.
[8] Yenə orada, s. 744.
[9] **Obozreniye**/ t.4, s.280.
[10] Шопен, И. Указ. раб., / с.744.
[11] **Obozreniye**/ t.4, s. 279.
[12] Шопен, И. Указ. раб., / с.744.
[13] **Obozreniye**/ t.4, s. 279.

yi gənəgərçək yağının 40 xalvarı xana satılırdı.[1]

Tütün bütün mahallarda lazımi qədər becərilirdi. Lakin o, Sürməli mahalında daha çox əkilir və müəyyən qədər satışa çıxarılırdı. Sürməli mahalının Ərhacı kəndində becərilən tütün daha məhsuldar hesab olunurdu. Burada 1 funt tütün toxumu 1 xalvar tütün verirdi. Ərhacı kəndində ildə 40 xalvar sahədə tütün əkilirdi.[2] Bütün mahallarda hər il orta hesabla 60 xalvar tütün əldə olunurdu.[3]

Ümumiyyətlə, buğda, arpa, darı, çəltik, gənəgərçək, küncüt, kətan və tütündən xəzinəyə ildə 830.000 gümüş rubl gəlir gəlirdi.[4]

İrəvan xanlığında ipəkçilik çox geniş yayılmamışdı. Təbii coğrafi şəraiti buna imkan vermirdi. Qışın sərt keçməsi ipəkqurdunun bəslənməsində çətinliklər yaradırdı. İpəkqurdunun bəslənməsi üçün xüsusi şərait yaratmaq və onu bəsləmək çoxlu xərc və diqqət tələb edirdi. Lakin mənbələrin göstərdiyi kimi, İrəvan şəhərinin özündə şəhər əhalisi ipəkçiliklə məşğul olurdu. XVIII əsrin sonlarında İrəvanda olmuş Avropa səyyahlarından biri İrəvanda bol ipək istehsal edildiyini yazırdı.[5] XIX əsrin əvvəllərində İrəvanda istehsal olunan ipəyin miqdarı haqqında məlumat yox dərəcəsindədir, lakin "əyalətdə tut bağların olması burada ipəkçiliyin inkişafından xəbər verirdi".[6] İşğaldan sonra İrəvan şəhərində ildə 10 funt ipəyin sarınması bu sahənin durğunluq səviyyəsində olduğunu göstərirdi. Həm də yerli əhalinin ipəkçiliyə inamsızlığı ipək istehsalının azalmasına gətirib çıxarırdı.

Kənd təsərrüfatının geniş yayılmiş sahələrindən biri də bostançılıq idi. İrəvanlının bostanında müxtəlif göyərtilər – soğan, çuğundur, noxud, lobya, yerkökü, xardal, badımcan, qarpız,

---

[1] **Obozreniye**/ t.4, s. 280.
[2] Шопен, И. Указ. раб., / с.745.
[3] **Obozreniye**/ t.4, s. 280.
[4] Yenə orada, s. 280.
[5] **Армяно-русские отношения в XVIII веке, 1760-1800 гг/** Сборник документов// т.4, изд, АН Арм ССР, 1990, с. 215.
[6] Шопен, И. Указ. раб., / с.753.

yemiş, azərbaycanlılırın lagan adlandırdığı kələm və digər bostan bitkilərini görmək olardı.[1] İrəvan qarpızı və yemişi məşhur idi. Qarpızın xunu, ağabəyi, qurbanağası, həsənbəyi, yemişin isə dördşallaq, dostucan, carcar, tutma növləri daha çox yetişdirilirdi.[2] Burada yemiş daha çox yetişdirilir və İrəvan yemişi Cənubi Qafqazda gözəl dadı ilə tanınırdı.[3]

Bostan torpaqlarının əhəmiyyətli hissəsi İrəvan xanı sərdara məxsus idi ki, o da bu sahələri iltizama verirdi.

İrəvan bağları geniş sahələri əhatə edirdi. İrəvan şəhərinin ətrafında sahəsi 1233 xalvar olan 1473 bağ var idi. İrəvandakı bütün bağ sahələrinin yarıdan çoxu şəhərətrafı bağların payına düşürdü.[4]

Bağların bir hissəsi müxtəlif meyvə ağacları ilə zəngin olan meyvə bağları, digər hissəsi isə üzüm bağları idi. Meyvə bağlarında alma, armud, şaftalı, ərik, gavalı, alça, gilas, xurma, heyva, əncir, badam, püstə, nar, tut və digər meyvələr, onların çoxsaylı növləri yetişdirilirdi.[5] El arasında şaftalının kərdi və yarma, almanın kərbalayı, cəfər, vahab, cənnət, hüseynəli, ahıska və il, armudun hacımehdi, malaça, sini[6] və ikisi bir boşqaba sığmayan qülabı, gilasın kirəz, qara və ağ albalı, əriyin ağcanabad növləri, tutun xartut növü daha məşhur idi.[7] Üzüm bağlarında hərəsinin öz adı olan yüzdən çox üzüm növü var idi. Məsələn, qaraşahani – qara, uzunsov, ağ sahabi – ağ, iri, cəfti – ağ, iri, əsgəri – əla növağ, xırda, kərəmqəndi və təbərzə – yaşılımtıl, iri, rişibaba – ağ, iri, uzunsov, kişmiş badana – tumsuz, ağ, xırda, raziqi – ağ, çox da iri olmayan, qırmızı qulami – qırmızı, iri, uzunsov, xallılı – tezyetişən, ağ, xırda və uzunsov, haçabaşı –

---

[1] Шопен, И. Указ. раб., / с. 745-746; **Сборник материалов для описания местностей и племен Кавказа/** Выпуск 1,Тифлис, 1881, с. 28.
[2] **СМОМПК/** s. 28.
[3] **Obozreniye**/ т.4, s. 280.
[4] Шопен, И. Указ. раб., / сс. 747-748.
[5] Yenə orada, s. 749; **Obozreniye**/ t.4, s. 281.
[6] **СМОМПК/** s. 26-27.
[7] Шопен, И. Указ. раб., / сс. 749-750.

yaşılımtıl, uzunsov, miskali – çox iri, ağ, yumru, qırmızı kişmiş – qırmızı, tumsuz, xırda və yumru, zeyni – ağ, iri və uzunsov olurdu.[1] Üzümdən yüksək keyfiyyətli şərab və sirkə hazırlanırdı.

İrəvan xanları gözəl təsərrüfatçı kimi İrandan və Hindistandan gətirilmiş ən yaxşı ağac növlərinin əkilməsi ilə məşğul olur və bağları çiçəklənən şəklə salırdılar.[2]

Bağlar baharda ağaclar çiçəkləyəndə, məhsuldarlığın az və ya çox olduğu məlum olanda icarəyə verilirdi. İcarədarlar bağlarda bitən yoncanı biçməli, meyvələri yığmalı idi. Xan tərəfindən təyin olunan bağbanlar meyvələrin və ağacların oğurlanmaması üçün icarədarlara nəzarət etməli idi. Bütün bağlara baş nəzarətçi – bağbanbaşı baxırdı. Payızda meyvələr yığılıb qurtarandan sonra bağlar bağbanbaşıya təhvil verilirdi. Oktyabr ayından başlayaraq xanın tələbi ilə meyvə ağaclarına qulluq göstərmək üçün işçilər cəlb olunurdu.[3]

İrəvan şəhərin kənd təsərrüfatında taxılçılıq və pambıqçılıq müəyyən rol oynayırdı. Şəhərin əkin sahələri 300 xalvara çatırdı.[4]

Əlverişli təbii şəraitin olması burada maldarlığın inkişafına zəmin yaradırdı. Qırxbulaq, Göyçə, Abaran, Dərəçiçək, Gərnibasar, Vedibasar, Talın, Sürməli və Dərəkənd mahallarında geniş örüş və otlaq sahələri vardı.[5] Tərəkəmə-köçmə maldarlığı geniş yayılmışdı. Yay gələndə bu maldarlar həmişə yaylağa getməyə tələsirdilər.[6] Əkinçiliklə məşğul olan əhali mal-qaranı ev şəraitində saxlayırdı. Hər bir ailənin qoyunu, inəyi və s. ev heyvanları var idi. Torpağın şumlanmasında əsasən camış və kəllərdən istifadə olunurdu. Bəzən 14-ə qədər camış və kəl qoşulmuş kotanla payızlıq şumu aparılırdı. Yazlıq əkinlər üçün torpaq isə

---

[1] Шопен, И. Указ. раб., с. 750-751.
[2] Yenə orada, s. 950.
[3] Yenə orada, s. 959.
[4] Акопян, Т. Х. **Очерк истрории Еревана**/ Ереван, 1977, с. 122.
[5] Шопен, И. Указ. раб., / с. 523-525.
[6] Дубровин, Н. Указ. раб.,/ с. 327.

bir və ya iki cüt öküz qoşulmuş xışla şumlanırdı.[1] Həmçinin, yüklərin daşınmasında və digər ağır işlərin görülməsində bu iş heyvanlarından geniş istifadə olunurdu. Kəllərin qoşulduğu arabalarla 610 pud ağırlığındakı yük 30-40 verstədək daşınırdı.[2]

Tərəkəmə və ya köçmə maldarlığı ilə məşğul olanlar yaylaq-qışlaq həyatı keçirirdilər. Onların bir hissəsi kəndlərdə qalaraq, əkinçiliklə məşğul olurdu. Tərəkəmələr yayda yaylağa gedir, qışda isə kəndlərə qayıdırdılar. Tərəkəmələrin iri qoyun sürüləri var idi.[3]

Köçmə maldarlıqla məşğul olanların iki daimi yaşayış yerləri olurdu. Bu ailələr bütün ev heyvanlarını özləri ilə yaylağa və qışlağa aparırdılar. Geniş ərazilər köçmə maldarların ixtiyarında idi.[4]

Digər feodal şəhərlərində olduğu kimi, İrəvanda da şəhər əhalisi əkinçilik və maldarlıqla fəal surətdə məşğul olurdu. Burada əkinçiliyin bağçılıq və bostançılıq sahələri də inkişaf etdirilirdi. İrəvan xanlığının mərkəzi İrəvan şəhəri həm də bütün xanlığın kənd təsərrüfatı məhsullarının iri satış bazarı idi. Şəhərin özündə həm də kətan və küncüt yetişdirilməsi inkişaf etmişdi. İrəvan xanlığında təbii-coğrafi şəraitin əlverişsizliyi səbəbindən ipəkqurdunun yetişdirilməsi geniş yayılmasa da, XVIII əsrin sonlarında şəhərin özündə ipəkçiliklə məşğul olmaq üçün cəhdlər göstərilsə də bu cəhdlər uğursuz olmuşdur. Maldarlıq isə yalnız xırdabuynuzlu ev heyvanlarının və quşçuluğun inkişafını əhatə edirdi.

**Təbii ehtiyatlar.** İrəvan xanlığının ərazisi sənətkarlığın müxtəlif sahələrində istifadə olunan xammalla zəngin idi. Xammalın xaricdən idxal edilməsi baha başa gəldiyindən sənətkarlar yerli xammala daha çox üstünlük verirdilər. Yerlərdə mis yataqlarının, tikintidə istifadə olunan təbii gil kərpiclərin, kirəc, mərmər daşının, gön-dəri istehsalında vacib olan zəyin, şüşə istehsa-

[1] Шопен, И. Указ. раб., / сс. 737-738.
[2] Yenə orada, s. 784.
[3] Yenə orada, s. 519-521.
[4] Yenə orada, s. 651.

lı üçün kvarsın, dulusçuluq xammalının və s. olması sənətkarlığın bu sahələrinin inkişafına öz təsirini göstərirdi. Dəyirmanların fəaliyyəti üçün lazımi keyfiyyətli dəyirman daşlarının məhz yerli olması dəyirmanların sayını artırırdı. Zəngin duz yataqları və balıqçılığın inkişafı xəzinəyə əlavə sərmayə gətirirdi.

İrəvanlıların qırmız böcəyi adlandırdıqları koşenil Ağrıdağının yamacları, Araz çayının hər iki ətrafı, Sərdərabad mahalının Qarasu çayından şimalda, Körpü və Vedibasar mahallarında geniş yayılmışdı. "Ağrıdağ qırmız böcəyi Meksika və Polşa böcəyindən daha iri idi. Bu böcək müxtəlif vaxtlarda İranda və Ön Asiyadada tanınırdı".[1] Qırmız böcəyindən alınan rəngdən parça və qumaşın rənglənməsində və habelə karminin (al qırmızı rəng) alınmasında istifadə olunurdu.[2]

Bundan əlavə, İrəvan xanlığının ərazisində müxtəlif rənglərin əldə edilməsi üçün istifadə olunan boyaqotu, naz, biyankökü və s. bitkilərə də rast gəlinirdi.[3]

Mis xanlığın mis mədənləri olan Dərəçiçək mahalında çıxarılırdı. Buradakı mis mədənləri Misxanadərəsi adlanırdı.[4] Bu mədənlər xan tərəfindən yunan ailələrinə istifadəyə verilmişdi.

Qranit, bazalt, yəşəm daşı və porfiri hər yerdə görmək olurdu. Qulp kəndi yaxınlığından çıxarılaraq, əhalinin istifadə etdiyi qırmızı yəşəm daşı keyfiyyətliliyinə görə Misir daşından heç də geri qalmırdı. Böyük Ağrıdağ yamacında Ərhacı kəndini əhatəyə almış təpəliklər, yerli əhalinin əla dəyirman daşı düzəltdikləri qırmızımtıl porfir və yəşəm daşından ibarət idi. Buralar Bəyazid əhalisinə icarəyə verilmişdi. Hər dəyirman daşından 1 gümüş rubl alınırdı. Lakin İrəvan əhalisi bu vergidən azad edilmişdi.[5] İrəvan xanlığı ərazisində bütün bazalt növləri var idi.

Göyçə mahalında yerli əhalinin Gözəldərə adlandırdığı dərədən dəyirman daşları düzəldilən qranit layı keçirdi. Göyçə ma-

---

[1] Шопен, И. Указ. раб., / сс. 809-811.
[2] **Obozreniye**/ t.4, s. 266.
[3] Yenə orada, s. 267.
[4] Шопен, И. Указ. раб., / с. 816.
[5] Yenə orada, s. 817.

halında həmçinin pemza mineralına da rast gəlinirdi. Vulkanlar nəhəng gil layını bişirərək onu təbii kərpicə çevirmişdi. Belə minerallar İrəvan şəhəri yaxınlığında və Talın mahalında daha çox idi. Abaranda qızılı parıltılı kvars layı var idi.[1]

Obsidianın bir çox növlərini bütün dağ süxurlarında tapmaq olurdu. Obsidianın əsas layı Göyçə gölündən başlayaraq cənub-qərbə, Zəngi çayı tərəfə uzanırdı. Tamamilə tünd butulka şüşəsinə oxşayan obsidendən memarlıqda geniş istifadə oluna bilərdi. Alagöz dağındakı obsiden rəngbərəngdir. Lakin onun ən heyranedici növləri Hacıbayramlı yolunda idi. Buradakı obsiden qara, tünd qırmızı, sarı rəngdədir və çoxu da qırmızı, qara və ağ ləkəli idi. Bu minerallardan gözəl vaza, mozaika, kolonnalar və kürsi düzəldilə bilərdi.[2]

Şistləri, xüsusilə, Göyçə mahalında tez-tez görmək olurdu. Şistlər tünd yaşıl rəngdə, tərkibində kubvari kristallar olan əhəng şpatı isə açıq ağ rəngdə idi. İrəvan xanlığının bir çox yerlərində badamvari daşlara da rast gəlinirdi.

Şəffaf sarıya çalan mərmər, Dərəçiçək mahalında mineral suların yaxınlığında idi. Belə mərmər çox baha satılırdı. Zənqibasar mahalının Uluxanlı kəndi ərazisini və Qulp kəndini əhatə edən dağ silsiləsi mərmər və qiymətli kirəclə zəngin idi. Vedibasar mahalında tibbdə işlədilən maqnezium var idi.[3]

Gipsə bir çox yerlərdə rast gəlmək olurdu. Qulp gipsi çox ağdır və Kərrar kirəcinə bənzəyirdi. Ümumiyyətlə, bu kəndi əhatə edən dağlar minerallarla daha çox zəngin idi.[4] Brekçiyaya, bütün rənglərdən olan mərmər və qiymətli kirəcə hər yerdə rast gəlinirdi. Dərəçiçəkdə misxana yataqlarından bir az cənubda digər gips layı keçirdi.[5]

Qulp dağından çıxarılan, tərkibində duz olan gil boz, tund boz, sarımtılboz, qırmızımtıl və qırmızı-qonur rənglərində olur-

---

[1] Шопен, И. Указ. раб., / с. 817.
[2] Yenə orada, s. 818.
[3] Шопен, И. Указ. раб., / с. 819.
[4] Yenə orada, s. 821-822.
[5] Yenə orada, s. 818.

du. Qırmızı gil dağın şimal-qərb yamaclarını örtürdü. Sarımtıl gil xüsusilə şimal-şərq yamacında, qırmızımtıl gil isə qırmızı gil olan ərazidə olurdu.[1]

Araz çayı vadisi torpaqları selitra ehtiyatlar ilə zəngin idi. Selitrodan kimyəvi üsulla şora əldə etmək olurdu. Yerli əhali bunu barıt düzəltmək məqsədilə istehsal edirdi. Bir çox yerlərdə zəy bol idi. Ağrıdağı ətrafındakı torpaq bulaq suyuna qarışdırıldıqda alınan çöküntüdən zəy əldə etmək olurdu.[2]

Qulp kəndi ərazisini və kəndini əhatə edən dağlar duz yataqları ilə zəngin idi. Hüseynqulu xanın dövrünə kimi daş duz dağın müxtəlif yerlərində çıxarılırdı. Duzun qiyməti xeyli artdığına görə, daha yaxın və əlverişli sahədə, dağın cənub yamacında, Qulp kəndindən 200 sajen aralıda, duzun çıxarılmasına icazə verilirdi. Burada duz iki yerdən çıxarılırdı. Onlardan birincisinə su dolduğuna görə duzun çıxarılması dayandırılmışdı. 1815-ci ildən başlayaraq ikincidən duzun çıxarılmasına başlanılmışdı.[3] Duzun çıxarıldığı mədənin uzunluğu 70, eni 20 sajen idi. Duz iri parçalar şəklində çıxarılır və yerindəcə satılırdı.[4]

Hüseynqulu xan duzun çıxarılmasına xüsusi diqqət yetirirdi. Duzun çıxarılmasını nəzarətə almaq məqsədi ilə xan, buranın xüsusi idarəçiliyini də təşkil etmişdi. Buraya xan tərəfindən təyin olunan sultan nəzarət edirdi. Sultanın üç köməkçisi (mirzəsi) olurdu. Bu idarə xəzinəyə ildə 14.000 rubl gəlir verirdi.

Duz mədənindən aparılan hər 24 batman yükdən xana 80 qəpik, mühafizəçilərin saxlanmasına 4 qəpik, mirzələrə 2 qəpik, duzqıranlara 16 qəpik, 25-dən 32-yə qədər (60 puda qədər) iri duz parçaları daşıyan hər arabadan xana 3 rubl 20 qəpik, mühafizəçilərin saxlanmasına 20 qəpik, sultana 5 qəpik, duzqıranlara 1 rubl məbləğində pul alınırdı.[5] Bir yük narın duza görə xana 60 qəpik, mühafizəçilərə 4 qəpik, mirzələrə 2 qəpik və duzqıranlara

---

[1] Шопен, И. Указ. раб., / с. 822.
[2] Yenə orada, s. 840.
[3] Yenə orada, s. 824.
[4] **Obozreniye/** t.4, s. 268.
[5] Шопен, И. Указ. раб., / с. 828.

4 qəpik məbləğində pul çatırdı.

Qiymətlərin müxtəlifliyinin səbəbləri var idi. Belə ki, Gürcüstan əhalisi duz ehtiyatını artırmaq ehtiyacı olardısa duzu Türkiyədən almaq istəyirdi. Gürcüstanda 1824-cü ildə belə İrəvandan gətirilən duz, Qars duzu kimi tanınırdı.[1] Xan onların diqqətini İrəvan duzuna yönəltmək üçün hər araba duzun qiymətini Türkiyədən gətirilən duzun qiymətindən iki dəfə aşağı salmışdı.[2] İrəvan duzunun qiyməti sərhəddən xaricə çıxarılanda bir araba duz 8 gümüş rubla və ya hər bir pilətə (7-8 pudu) 25 qəpiyə çatılırdı.[3]

Sürməli mahalının Daşburun kəndi yaxınlığında, Ağrıdağın daşlıq çıxıntısındakı gölün ətrafı yayda ağ duzla əhatələnirdi. Bu duzdan ətraf kəndlərin əhalisi mal-qaraya vermək üçün istifadə edirdi.[4]

İrəvan xanlığının bütün suları balıqla zəngin idi. Bu sularda dabanbalığı, çəki balığı, alabağı, naqqa, çökə, nərə balıqları vardı. Araz çayında bəzən qızıl balıq tutmaq olurdu. Govar, Adıyaman, Qızılvəng, Zod, Toxluca, Çubuqlu və digər çaylardan da çox balıq tutulurdu. Göyçə gölündə daha çox balıq ovlanırdı. Göyçə balığı bütün Cənubi Qafqazda məşhur idi. Göyçədə balıq ovu icarəyə verilmişdi. Buradan 200-300 yükü olan karvanlarla balıq başqa yerlərə aparılırdı. Göyçə balığından xanın xəzinəsinə ildə 100 tümən (400 gümüş rubl) sərmayə gəlirdi. Xanın fərmanına görə icəradara İrəvan əhalisindən payızda və yayda bir balıq yükündən 20 şahı almaq hüququ verilmişdi.[5] Ən çox alabalığın daha iri növü olan şinax balığı ovlanırdı. Balıq Gürcüstana və digər yerlərə satışa göndərilirdi.[6]

İrəvan şəhərində ticarətin və sənətkarlığın genişlənməsinə hərtərəfli imkanlar açan və bu sahələri bilavasitə nəzarəti altında

---

[1] **АКАК/** т.6, ч.2, док.219, с. 167.
[2] Шопен, И. Указ. раб., / с. 829.
[3] Yenə orada, s. 829.
[4] Yenə orada, s. 840.
[5] Шопен, И. Указ. раб., / сс. 805-806.
[6] **Obozreniye/** t.4, s. 285.

saxlayan xan sarayı eyni zamanda şəhərin iqtisadiyyatının inkişaf etdirilməsinə öz töhfəsini verirdi. Kəndlərdən şəhərə gətirilərək satışa çıxarılan və habelə, şəhər əhalisi tərəfindən istehsal olunan yun, pambıq və ipəyin bolluğu toxuculuq sahələrinin də intişar tapmasına təkan veridi..

**Sənətkarlıq.** Azərbaycanın digər şəhərlərində olduğu kimi İrəvan şəhərində də əhalinin əksəriyyətini sənətkarlar təşkil edirdilər. Sənətkarlıq istehsalın bir çox sahələrində istehsalçı və satıcı bir şəxsin simasında birləşirdi. Sənətkarlar bazarda və digər ticarət meydanlarındakı sənətkar emalatxanalarında və evlərdə işlərini qurmuşdular. Bazarlarda və digər ticarət meydanlarındakı emalatxanalarında işləyən sənətkarlar istehsal edilən məhsullarını elə emalatxananın özündə satışa çıxarırdılar. Nisbətən iri və varlı sənətkar emalatxanaları bəzən bir neçə otaqdan ibarət olurdu. Otaqların birində mal istehsal edildiyi halda, digərində həmin mal satılırdı. Bir çox sənətkar emalatxanaları yalnız tacirlərin sifarişlərini yerinə yetirirdilər.[1] Ümumiyyətlə, İrəvan şəhər əhalisi 61-ə qədər sənətkarlıq növü ilə məşğul olurdu.[2]

Toxuculuğun inkişaf etdirilməsi üçün zəngin yerli xammal bazalarının olması sənətkarlıqda bu sahənin aparıcı olaraq öz mövqeyini saxlamasına əlverişli şərait yaradırdı. Toxuculuqla əsasən, ailələrdə məşğul olurdular. Hər bir evdə toxuculuq dəzgahı olurdu.[3] Toxuculuq istehsalında qadın əməyindən istifadə edilməsi kütləvi xarakter almışdı. "Ev qayğılarından başqa digər məşğuliyyəti olmayan qadınlar bütün sərbəst vaxtlarını yun, pambıq və ipək əyirilməsinə sərf edir, sonra isə parça toxuyurdular. Qadınlar əyiricilik və toxuculuqla yanaşı başqa daha incə sənətlərlə – ipək üzərinə naxış salmaq, habelə digər zərif və zəh-

---

[1] Əliyev, F.M. **XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət/** Bakı, Azərb. SSR EA nəşriyyatı. **Bakı, 1964,** s. 49.
[2] Шопен, И. Указ. раб., / сс. 843-847.
[3] Yenə orada, s. 851.

mət tələb edən işlərlə məşğul olurlar”.[1] Xüsusi çəkiyə malik olan toxuculuqdan İrəvan xanları yaxşı gəlir götürürdülər, belə-ki, hər bir dəzgahdan bir parça bez vergisi alınırdı.[2]

Toxuculuqda ən çox pambıq, ipək və yundan istifadə olunurdu. Xammal mənbəyi kimi pambıq mühüm rol oynayırdı. Yalnız xanlıq daxilində deyil, xarici bazarlarda da pambıqdan toxunan parçaların ən çox satılan mallardan birinə çevrilməsi pambıq becərilməsinin artmasına gətirib çıxarırdı. Tarlalarda keyfiyyətli pambıq əldə olunduğundan yerli əhalinin əsas məşğuliyyəti bez toxumaqdan ibarət idi.

İpəkdən zərbafta, darayı, mov, cecim, kələğayı və s. toxunurdu. “İpəkdən və qızıldan naxışları olan qızılı və ya gümüşü parça” adlandırılan zərbafta bahalı olduğundan xan və əyanların saraylarının pəncərə, qapı və divarlarını bəzəyirdi. Xan və əyanları paltarların tikilməsində bu parçaya üstünlük verirdilər. Kişi və qadın geyimlərinin hazırlanmasında darayının müxtəlif növlərindən geniş istifadə olunurdu. İpəkdən toxunan mov parçasından yay paltarları, çox möhkəm və davamlı olan cecimdən isə döşək, balınc, mütəkkə üzü, pərdə, süfrə, köynək, şalvar, çuxa, arxalıq və s. tikilirdi.[3] İpək parçalardan fərqli olaraq, kələğayı toxunub hazır olandan sonra boyama üsulu ilə xüsusi ütülərlə parça üzərinə sözlə ifadə edilməyəcək dərəcədə olduqca gözəl naxışlar vururdular.[4]

Toxuculuqda pambıq və ipəkdən toxunan parçalarla yanaşı pambıq və ipək qarışığından toxunan parçalar da istehsal olunurdu. Belə parçalardan alaca, kutni daha geniş yayılmışdı.

Toxuculuğun digər sahələri ilə müqayisədə yun parçalar istehsalının əmtəə-pul münasibətlərinə cəlb olunması prosesi olduqca ləng gedirdi. Yun parçalar istehsalının bir tərəfdən, əsa-

---

[1]Егиазаров, С.А. **Исследования по истории учреждений в Закавказье**/Городские цехи, Казань, 1891, с. 183.

[2] Шопен, И. Указ. раб., / с. 852.

[3] Mustafayev, C. **Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq**/ Bakı, Elm, 2002, s. 272, s. 82-86.

[4] Шопен, И. Указ. раб., / с. 852.

sən, ev peşəsi səciyyəsi daşıması, digər tərəfdən isə hazırlanan məhsulların aşağı keyfiyyətli olması ona gətirib çıxarmışdı ki, bu parçalar dünya bazarlarında böyük şöhrət qazanmış ipək və pambıq parçalarından fərqli olaraq, yalnız yerli tələbatın ödənilməsinə yönəldilmişdi. Yüksək keyfiyyətli yun parçalara tələbat daha çox Avropa ölkələrindən olan idxal hesabına ödənilirdi. İngilis tacirləri İran körfəzi və Ərzurum-İrəvan-Təbriz marşrutundan istifadə etməklə Azərbaycan xanlıqlarını, o cümlədən, İrəvanı Avropa mallarından olan ucuz və keyfiyyətli mahudla təmin edirdilər.[1]

Sənətkarlıq istehsalının daha geniş yayılmış toxuculuq sahələrindən olan xalçaçılıq tədricən ev sənəti səviyyəsindən daha çox sifariş əsasında işləyən sənət sahəsinə çevrilməyə başlamışdı. Əvvəllər olduğu kimi, xanlıqlar dövründə də Azərbaycanda elə kənd tapmaq olmazdı ki, orada xalça-palaz toxunulmasın. Azərbaycan xanları əhalidən bir çox vergiləri xalça və palazla toplayırdılar. XIX əsrin 30-cu illərində tərtib edilmiş mənbələrdən birində yazılırdı ki, çox mürəkkəb və vaxt tələb edən iş olmasına baxmayaraq xalçaçılıq, bu işlə məşğul olanlara xeyli gəlir verir.[2] Xanlığın əsas əhalisi olan Azərbaycan türkləri ənənəvi olaraq yundan gözəl xalçalar, kisə (xurcun), palaz, çul, qışda geyinmək üçün isti paltar, əlcək, corab və s. toxuyurdular.[3]

Boyaqçılıq sənəti toxuculuq və gön-dəri məmulatı istehsalında hazır məhsulların bədii zövqlə rənglənməsinə xidmət edirdi. Azərbaycan ərazisinin tarixən müxtəlif növ boyaq bitkiləri və maddələri ilə zəngin olması boyaqçılıq sənətinin inkişafına öz təsirini göstərirdi. Boyaqçılıq işində "qırmız" adlandırılan böcəklərdən də istifadə olunurdu.

Daha çox ağ rəngdə toxunan bez parçaları sonralar müxtəlif rənglərlə boyayırdılar. Bez parçaları göy rəngə boyayan işçi boyaqçı, qırmızı rəngə boyayan isə şiləçi adlanırdı. Bu rənglər

[1] Уляницкий, В.А. **Исторический очерк русских консульств за границей в XVIII в/** СПб, 1899, ч.2, с. 632.
[2] **Obozreniye**/ t.4, s. 62.
[3] **İrəvan xanlığı/** Bakı, 2010, s.107.

üçün alıcıların icazəsi lazım gəlirdi. Digər rənqlər azad idi.[1] Bu mənada, qırmızı rəngə boyanmış bez şilə, göy rəngə boyanmış bez qədək, mavi rəngə boyanmış qara bez çadra adlanırdı.[2]

Boyaqçılar xalça, palaz və digər yun məmulatlarının toxunmasında istifadə olunan iplikləri, saya pambıq parçaları boyayırdılar. Xəzinəyə məxsus olan boyaqxanalarda toxuculuq məhsulu yalnız göy rəngə boyanırdı. Boyaqçı emalatxanasında məhsulu boyamaq üçün iri saxsı səhəng və rəngi qarışdıran iki çubuq olurdu. Belə emalatxanalar İrəvan şəhəri iə yanaşı mahallarda da fəaliyyət göstərirdi.[3]

Azərbaycanın bütün xanlıqlarında boyama prosesi demək olar ki, eyni idi. Adətən toxuculuq məhsulunu zəyli məhlula salıb, müəyyən müddətdən sonra kənar qatışıqlardan təmizləyərək, əvvəlcədən hazırlanmış rəng qarışdırılan suya salaraq qaynadırdılar. Boyaqxanalar xəzinənin müəyyən etdiyi qaydalar çərçivəsində fəaliyyət göstərir və icarəyə verilirdi. Boyaqxana fəaliyyətdə olan boyaqxanaların gəlirlərinə xətər dəymədiyi halda açıla bilərdi və boyama məbləği müəyyən olunmuş miqdarda olmalı idi. Belə ki, əyirilmiş yunun 1 stilindən və yun parçanın 1 arşınından 4 şahı, mahudun 1 stilindən və pambıq parçanın 1 arşınından 2 şahı alınmalı idi.[4]

İrəvanda heyvandarlığın inkişafı dəri emalı üçün əlverişli və ucuz xammal bazasının yaranmasına müsbət təsir göstərirdi. Dabbaqxanalar İrəvan şəhərinin Zəngi çayı sahilindəki Dərəkənd hissəsində yerləşirdi. Onların sayı 32-yə çatırdı.[5] Burada yüksək keyfiyyətli dəri emal edilirdi. Ustaların bir hissəsi xüsusi bitkilərin toxumları vasitəsi ilə dərini meşin halına salır, digər hissəsi isə dərilərin qara, qırmızı və sarı rəngə boyanması ilə məşğul olurdular.[6]

---

[1] Шопен, И. Указ. раб., / с. 851.
[2] Mustafayev, A.N. **Azərbaycanda sənətkarlıq**/ Bakı, 1993, s. 218.
[3] Шопен, И. Указ. раб., / сс. 859-860.
[4] Yenə orada, s. 860.
[5] Yenə orada, s. 856.
[6] Yenə orada, s. 857.

Dabbaqxanalar icarəyə verilirdi. Aşılanaraq damğalanmış dərilərdən vergi ödənilirdi. Damğalanmış 3 qoyun və keçi dərisindən 1 şahı, inək və ya camış dərisindən 2 şahı icarədara çatırdı. Emal edilmiş dərilər damğalanmadan satışa çıxarıla bilməzdi.[1]

Gön-dəri istehsalının inkişafı həm də onunla bağlı olan sənət sahələrinin yayılmasına və inkişafına imkan verirdi. Gön-dəri məmulatlarından hazırlanan məhsullara olan böyük tələbat başmaqçılar, sərraclar, papaqçılar, kürkçilər tərəfindən ödənilirdi. İşğaldan sonra İrəvan şəhərində 38 dabbaqçı fəaliyyət göstərirdisə, başmaqçılar 131, çəkməçilər 3, çəkmə altlığı düzəldənlər 1, sərraclar 34, papaqçılar 79 nəfər idi.[2] Gön-dəri istehsalı yerli xammal mənbəyinə əsaslanırdı. Dərilər qəssabxanalardan alınırdı. Şəhərdə 27 qəssabxana fəaliyyət göstərirdi.[3]

İrəvanda metal emalının geniş yayılmış sahələrindən biri silah istehsalı idi. Xarici müdaxilə, müharibələr xanlıqda lazımi qədər silahlı dəstələrin saxlanmasını və onların silahlandırılmasını zəruri edirdi. XVIII əsrin sonlarında Cənubi Qafqazda olmuş M.Biberşteyn yazırdı: “Aramsız müharibələr və qarətlər əhalini daim silah saxlamağa təhrik edirdi. Hətta əkin, səpin və biçin zamanı kəndlilər özləri ilə xəncər və ya tüfəng aparmalı olurdular”.[4] Müxtəlf silahlara olan tələbat silahqayırmanı nəinki şəhərdə, həm də kəndlərdə mühüm peşələrdən birinə çevirmişdi.

Silah əsasən İrəvan şəhərində istehsal edilirdi. İrəvanda 56 silahqayırma ustasının çalışması silahqayırma işinin yüksək səviyyədə olduğunu ehtimal etməyə imkan verir. İrəvan şəhərinin özündə isə 38 silahqayıran bu istehsal ilə məşğul olurdular.[5]

---

[1] Mustafayev, A.N. Göst.əsəri/ s. 857.
[2] Yenə orada, s. 843-850.
[3] Yenə orada, s. 843.
[4] Биберштейн, М. **“Описание провинции расположенных на левом берегу Каспийского моря между реками Терек и Кура**”/ AMEA TİEA, iş.466, s.48; Mustafayev, C. **Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq/** Bakı, Elm, 2002, s. 272, 113.
[5] Шопен, И. Указ. раб., / с. 843.

XVIII əsrin sonu - XIX əsrin əvvəllərində dəmirçilik metal emalının aparıcı sahəsi olaraq qalırdı. Azərbaycanın elə şəhəri yox idi ki, orada dəmirçilərin böyük dəstəsi olmasın. Dəmirçiliyin başlıca mərkəzləri şəhərlər idi. Dəmirçilərin böyük hissəsi kənd təsərrüfatı alətlərinin istehsalı üzrə ixtisaslaşmışdılar. Onlar başlıca olaraq dəmir kotan, dəmir xış, bel, balta, oraq, dəryaz, dırmıq, zəncir və s. hazırlamaqla məşğul olurdular. Digər qismi məişət əşyaları – tavalar, saclar, sacayağı, qayçı, qıfıl, bıçaq, maşa, ərsin və s. istehsalı üzrə ixtisaslaşmışdı. Dəmirçilərin üçüncü qrupu isə sənətkarlar üçün əmək alətləri – çəkic, zindan, mişar, kərki və digər lazımi alətlər hazırlayırdılar. Lakin müəyyən bir əşyanın istehsalı üzrə ixtisaslaşmış dəmirçi, lazım gəldikdə, tamam başqa əşyanı istehsal edirdi. Bəhs olunan dövrdə İrəvan xanlığında çalışan 246 dəmirçinin 41-i şəhərdə fəaliyyət göstərirdi.[1]

Mis qablar əhalinin məişətində mühüm yer tuturdu. “Ən kasıb ailədə belə mis qazanlar, səhənglər, piyalələr və digər mətbəx əşyaları vardı”.[2] Mis qabların geniş yayılması misgərliyin inkişafı ilə sıx bağlı idi. Bu sənət sahibləri şəhərin misgərlər küçəsində yerləşirdilər. Misgərlik emalatxanalarında onun sahibi olan ustadan başqa usta köməkçiləri (şagirdləri) və muzdlu işçilər çalışırdılar. İrəvan şəhərində 28 misgər emalatxanası fəaliyyət göstərirdi.[3]

Bu dövrdə tikinti sənətində özünü göstərən amillərdən biri də müdafiə qurğularının, saray komplekslərinin, məscidlərin və digər ictimai binaların tikintisində daha çox yerli ustaların əməyindən istifadə olunmasıdır. Nadir hallarda bu və ya digər tikinti işləri həyata keçirmək məqsədilə kənardan mütəxəsislər dəvət olunurdu. Məharətli daşyonan və memar Mircəfər yalnız vətəni Xoyda deyil, Azərbaycanın digər xanlıqlarında da yaxşı tanınırdı. İrəvanlı Hüseynəli xanın şəxsi dəvəti ilə Mircəfər dəfələrlə İrəvanda olmuş və burada istimai binaların tikintisinə rəhbərlik

[1] Шопен, И. Указ. раб., / с. 843.
[2] Mustafayev, C. Göst.əsəri/ s. 120.
[3] Шопен, И. Указ. раб., / с. 843.

etmişdi.[1]

1810-cu ildə İrəvan memarları Sərdərabad qalasının tikintisinə cəlb edilmişdilər. Hüseynqulu xan tərəfindən tikintisinin əsası qoyulmuş Sərdərabad qalası[2] beş ilə tikilmişdi.[3] Bu, İrəvan memarlarının əməyi hesabına başa gəlmiş İrəvan memarlığının gözəl nümunəsidir.

İrəvan sənətkarları içərisində xarratlar xüsusilə seçilirlər. "Onların ayaqları əlləri kimi işləməyə öyrənibdir. İşləyən zaman xarrat düzəltdiyi əşyanı ayaqları ilə elə tutur ki, onu dördəlli də adlandırmaq olardı. İrəvan xarrat sənəti Asiya pəncərələrinin düzəldilməsində böyük nailiyyətlər qazanmışdı. Çoxlu ağac kəsiklərindən və rəngli şüşələrdən istifadə edilməklə düzəldilən bu pəncərələri gözəl naxışlar bəzəyirdi. Gözəl şəkillər əmələ gətirən bu pəncərələr insanı valeh edir".[4] Xanlıqda çalışan 313 xarratın 78-i şəhərdə işləyirdi.[5]

Dulusçuluq istehsalının aparıcı sahəsi məişət əşyalanın hazırlanması idi. Əldə olunan yazılı mənbələrin məlumatına görə, məişətdə istifadə olunan saxsı məmulatı arasında iri həcmli su qablarının, ilk növbədə səhəng və küplərin, istehsalı mühüm yer tuturdu. İrəvan şəhərində və demək olar ki, mahalların hər birində dulusçuluqla məşğul olanları tapmaq mümkündür. Dulusçuluq emalatxanalarındakı sobalarda məişət məmulatı ilə yanaşı baha satılan kərpic də bişirilirdi. Bir ildə kərpicdən gələn gəlir 12-14 min gümüş rubl edirdi.[6] Şəhərdə dulusçuluqla yalnız 2 nəfər məşğul olurdu.[7] Şüşədən hazırlanmış məişət məmulatının artması kiçik həcmli saxsı qablara tələbatın azalması ilə əlaqədar idi.

Əvvəllər şüşə və şüşə məmulatı əsasən, Naxçıvan xanlı-

---

[1] Dəlili, H. **Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısında)**/ Bakı, Elm, 1979, s. 144, 105.
[2] Шопен, И. Указ. раб., / с. 255.
[3] **Кавказский календарь на 1851 г**/ Тифлис**,** 1850, с.132.
[4] Шопен, И. Указ. раб., / с. 847-850.
[5] Yenə orada, s. 843.
[6] Шопен, И. Указ. раб., / с. 862.
[7] Yenə orada, s. 843.

ğından gətirilirdi. Bunu irəvanlı Hüseynəli xanın Naxçıvan hakimi Kəlbəli xana göndərdiyi məktubun məzmunu da təsdiq edir. Məktubda Hüseynəli xan Naxçıvan xanından İrəvanda tikdirdiyi yeni hamam üçün 400 ədəd müxtəlif rəngli şüşə göndərilməsini xahiş edirdi.[1] İrəvan xanları şüşəyə olan tələbatı ödəmək məqsədilə şəhərin özündə şüşə və şüşə qabları istehsal edən emalatxana açdırmağa nail olmuşdular. Yeni tikilmiş şüşə emalatxanalarında istehsal edilmiş şuşə çox kövrək idi və şüşənin içində hava qovucuqları qalırdı. Bununla belə, bu, həmin dövr üçün böyük nailiyyət idi. İrəvanda fəaiyyət göstərən şüşə emalatxanası (Gəncə və Naxçıvandan sonra) Cənubi Qafqazda üçüncü şüşə istehsal edən müəssisə hesab olunurdu. Tiflisdə ilk şüşə istehsalı müəssisəsi yalnız 1836-cı ildə tikilmişdi.

İrəvan şəhərində açılmış şüşə emalatxanası xüsusi quruluşa malik idi. Burada şüşə qabları hazırlamaq üçün lazım olan alətlər və xammalı əritmək məqsədi ilə quraşdırılmış soba vardı. "Soba yandırılmış sümük və at dırnağı tozu qarışdırılmış tağtavanla örtülü gildən borusu qoşulmuş təknə şəklindədir. Kütlə təknədə qarışdırılırdı. 25 puda qədər şüşə əldə edilməsi üçün 2 kub sajen odun yandırılırdı. Hər bir əridilmə dörd gün müddətində davam edirdi. Qabın hazırlanması işinə beşinci gündən başlanırdı. Ustalar gündə 100, 150, bəzən də 200-ə yaxın şüşə qablar düzəldirdilər. Şəhərdə şüşə istehsalı ilə bağlı 5 emalatxanada işlər görülürdü".[2]

Şüşə üçün kütlə kvars qumu qədər soda üzərinə marqans əlavə olunmaqla hazırlanırdı. Ustalar şüşəyə qırmızı, tünd qırmızı, çəhrayı, yaşıl, mavi, göy və narıncı olmaqla 7 rəng verə bilirdilər. Tamamilə şəffaf şüşə isə potaşdan istifadə olunmaqla alınırdı. Soda tünd yaşıl rəng verdiyinə görə bu, pəncərə və butulka şüşəsi üçün nəzərdə tutulurdu.[3]

Sabun istehsalı icarəyə verildiyindən azad şəkildə sabun

---

[1] Mustafayev, C. **Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq**/ Bakı, Elm, 2002, s. 171.

[2] Шопен, И. Указ. раб., / с. 843.

[3] Yenə orada, s. 843, 858.

istehsalına qadağa qoyulmuşdu, ona görə də sabun baha satılırdı. Kustar üsul ilə hazırlanan qara rəngli sabun pis qoxu verirdi. Gərnibasar mahalının Şeyxzadəli Sabunçu kəndinin 474 sakini yalnız sabun bişirməklə məşğul olurdu. Sabun qonşu kəndlərə aparılaraq satılır və ya ərzaqla dəyişdirilirdi. Lakin sabun icarəsini qorumaq məqsədilə şəhərə kənardan sabun gətirilməsi qadağan edilmişdi. Sabun icarədarın razılığına əsasən şəhərdə satışa çıxarıla bilərdi. Şəhərdə icarədardan başqa heç kim sabun bişirə bilməzdi. Sabunun bir batmanının azad satışı 3 min altun idi. Xan isə bu qədər sabunu 2 min altuna alırdı. Sabun almaq imkanı olmayan əhali sabun əvəzinə Araz çayı sahilində bitən çoğan bitkisindən istifadə etməli olurdu.[1] Şəhərdə 3 sabunbişirmə emalatxanası fəaliyyət göstərirdi.[2]

Əvvəllər İrəvan xanlığında 189 yağ istehsal edən müəssisə fəaliyyət göstərirdisə, işğaldan sonra onların sayı 30-a qədər azalmışdı. Yağ əsasən mahallarda istehsal olunurdu. Yağ istehsal edilən qurğular çox sadə idi. İki öküz və ya kəl qoşulmuş şaquli fırlanaraq hərəkətə gətirilən bazalt və ya dəyirman daşında üyüdülən yağlı məhsul xüsusi presdə sıxılır və yağ əldə edilirdi. Belə müəssisələrdə kətan və küncüt yağları istehsal olunurdu. Yerlərdə əsasən kətan yağına üstünlük verildiyinə görə kətan bitkisi daha çox becərilirdi. Küncüt yağı xoş ətirə malik idi. Həm də küncüt bitkisinin becərilməsi baha başa gəlirdi. Bu da küncüt yağının keyfiyyətliliyini göstərirdi. Küncüt yağı heç də zeytun yağından geri qalmırdı.[3]

Bir müəssisə ildə 1500 batman yağ istehsal edə bilirdi. 4 batman məhsul 1 batman yağ verirdi. Azərbaycanlılar bu yağlardan evlərin işıqlandırılması, ermənilər isə yeməklərin bişirilməsində istifadə edirdilər. Həmçinin evlərin işıqlandırılmasıda gənəgərçək yağından da istifadə olunurdu. Gənəgərçək yağı ev şəraitində alınırdı. Bunun üçün gənəgərçək toxumu bişirilir, qabığı

---

[1] Шопен, И. Указ. раб., / с.  856.
[2] Yenə orada, s. 843.
[3] Yenə orada, s. 860.

çıxarılır, taxta və ya daş üzərində əzilərək suda qaynadılır. Sonra suyun üzərinə çıxan yağ götürülür. Belə əldə edilən yağ qara olur və dərman əvəzinə işlədildikdə pis dadır və qoxu verirdi.[1]

İrəvan şəhərində 1 batman küncüt yağının qiyməti 8-12, 1 batman kətan və ya gənəgərçək yağının qiyməti isə 6-8 abbasi arasında tərəddüd edirdi.[2]

İrəvan xanlığında dəyirmanlar un və çəltik həvənglərinə bölünürdü. Un dəyirmanlarının quruluşu çox sadə idi. Suyun gücündən və dəyirman daşlarının böyük və ya kiçikliyindən asılı olaraq sutkada 15-20 batmandan 1 xalvara qədər buğda üyüdülürdü. Bir xalvar yaxşı çəltikdən yarımxalvar düyü, daha pis çəltikdən isə 60 batmana qədər düyü alınırdı.[3] İrəvan şəhərində 47 un dəyirmanı, 6 çəltik dəyirmanı fəaliyyət göstərirdi.[4] Dəyirmanlar icarəyə verilmişdi. Hər bir dəyirmanda işləyən dəyirmaçılar üzərinə nəzarətçilər qoyulmuşdu. İcarəçi dəyirmana gətirilən taxılın 1/20 hissəsini alırdı.[5]

Yuxarıda göstərilənlər, nəzərdən keçirilən dövrdə, İrəvan şəhərində sənətkarlığın metal emalı, yeyinti və toxuculuq sahələrinin daha çox inkişaf etdiyini sübut edir. Onlardan bəziləri ev, kustar istehsalı səviyyəsində idilər. İrəvanda əhəmiyyətli dərəcədə inkişaf tapmış toxuculuq və mis məmulatları istehsalı nəinki şəhərin özündə, həmçinin onun hüdudlarından kənarda da öz alıcısını tapırdı.

**Ticarət.** Xanlığın təsərrüfat həyatında feodal istehsal üsulu hökmran olduğu bir dövrdə xanlığın baş şəhəri olan İrəvanın iqtisadi bazasını əsas etibarı ilə sənətkarlıq və ticarət təşkil edirdi. Lakin ibtidai və kustar üsula söykənən sənətkarlığa nisbətən ticarətin bir sıra üstünlükləri var idi: sənətkarlar əsasən daxili bazarın ehtiyaclarını ödədikləri halda, tacirlər onların hazırladıqları əşyaları xarici bazarlara çıxarırdılar, sənətkarlıqla yerli sənətkar-

---

[1] Шопен, И. Указ. раб., / сс. 861-862.
[2] Yenə orada, s. 862.
[3] Yenə orada, s. 863-865.
[4] Yenə orada, s. 861-862.
[5] Yenə orada, s. 949.

lar məşğul olduqları halda, xanlığın ticarətinin inkişafında yerli tacirlərdən başqa, xarici ölkələrin tacirləri də əhəmiyyətli rol oynayırdılar, xarici bazarda sənətkarların hazırladıqları mallara nisbətən, xammala daha çox ehtiyac olduğu üçün ticarətdən daha artıq qazanc əldə edilirdi.[1]

Ticarət ən gəlirli qazanc mənbələrindən bir olduğu üçün bu və ya digər ölkələr arasında baş verən müharibələr nəticəsində ticarətin müvəqqəti olaraq dayandırılması hər iki tərəfin gəlirinin azalmasına səbəb olurdu.[2] İrəvan şəhərinin maliyyə mənbəyinin əsasən onun ticarət əlaqələrindən bilavasitə asılı olduğuna görə İrəvan xanları müharibə vəziyyətində belə, ticarətə xüsusi diqqət yetirirdilər. 1808-ci ilin fevralın 8-də rus qoşunlarının baş komandanı qraf Qudoviçin çara ünvanladığı məlumatda göstərilirdi ki, "hətta İrəvan tacirlərinin Tiflislə ticarət əlaqələri əvvəlki illərə nisbətən artmışdır, irəvanlılar mallarla yüklənmiş karvanlarını inamla buraya yola salırdılar".[3] Həmçinin, Tormasovun və Rtişşevin məlumat səciyyəli məktublarında da müharibə şəraiti olmasına baxmayaraq, İrəvanla Tiflis arasında ticarətin davamlı olduğunu qeyd edirlər.[4]

Yaxın və Orta Şərq ölkələrində olduğu kimi İrəvan xanlığında da ticarət əsas etibarı ilə xanlığın baş şəhəri olan İrəvan şəhərində aparılırdı. İrəvan xanlığın baş şəhəri olmaqla yanaşı, həm də Cənubi Qafqazın iri ticarət mərkəzlərindən biri hesab edilirdi. Şəhərin ticarət yollarının qovşağında yerləşməsi buraya qonşu ölkələrdən, hətta Uzaq Şərq və Avropadan olan tacirlərin də diqqətini cəlb edirdi. Bu da Azərbaycanın digər xanlıqlarına nisbətən İrəvan xanlığında ticarət üçün lazımi əlverişli şəraitin olması liə bağlı idi. İrəvan tacirləri İstanbul, Təbriz, Tehran və digər şəhərlərdən mal gətirərək, malın müqabilində nəğd pulun ödənildiyi Tiflis şəhərinə aparıb orada satırdılar. Gürcüstana

---

[1] Əliyev, F.M. **XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət/** Bakı, Azərb. SSR EA nəşriyyatı, 1964, s. 124, 31.

[2] Yenə orada.

[3] **AKAK/** т.3, док.825, с. 447.

[4] Yenə orada, т.4, док.718, с. 498; Yenə orada, т.5, док.648, с. 546-547.

azad ticarət hüququ verildikdən sonra İrəvan tacirləri Tiflisə çoxlu İran malları gətirməyə, geriyə isə Leypsiq və Moskva mallarını daşımağa başladılar. İrəvan şəhəri gəlirli ticarətin başlıca şəhərinə çevrilirdi.[1]

İrəvan şəhəri həmişə xaricdən gəlmiş tacirlərlə dolu olurdu. Burada İrandan və digər xanlıqlardan gətirilmiş xalça, şal, şəkər, qəhvə, nabat, şəkər tozu, xına, badam, albuxarı, yağ, bal, xurma, ipək, dəri, tünd boya, pambıq parça, kişmiş, nar, üzüm şirəsi, mismar və misdən hazırlanmış məmulat, Kartli-Kaxetiyadan alma, armud, xurma, əncir, kişmiş, qoz, zoğal, badam və başqa meyvələr, Osmanlı dövlətindən isə müxtəlif çeşidli parçalar, yağ, yun, zəy, marena, əcnəbi çaxır, araq, yerli çaxır, bal, mum, qax və digər meyvələr, tir, taxta və s. satılırdı.[2] İrəvan karvansaraları və bazarı xaricdən gətirilən malların anbarına çevrilmişdi.

Ticarət əlaqələri qarşılıqlı aparılırdı. İrəvan şəhərindən yaxın-uzaq ölkələrə müxtəlif çeşidli mallar aparılırdı. İrəvandan Osmanlı dövlətinə duz, qənd, ipək, yun, pambıq parçalar, düyü, tütün, xam pambıq və sairə məhsullar, Tiflisə və digər şəhərlərə isə duz, kişmiş, boyaq bitkisi, ipək, xam pambıq ixrac edilirdi.[3]

Ticarət dövlətin əsas maliyyə mənbəyi hesab olunduğundan və xəzinəyə böyük gəlir gətirdiyindən İrəvan xanları ticarəti həmişə öz əllərində saxlamağa çalışırdılar. Onlar ticarətə böyük sərmayə yatırırdılar. Ticarətdən gələn gəlirlər hesabına hərəmxana, saray xidmətçiləri və qoşun saxlanırdı. İrəvan xanları yerli varlı tacirlərin şəriki idilər. Həmçinin xan tituluna malik olan İrəvanın nüfuzlu şəxsləri ticarətlə yaxından maraqlanırdılar. Belə adamlar "tacirlərə pul buraxır və onları himayə edirdilər".[4] Şəhərdə əsas simalar hesab olunan tacirlər xanların və iri feodal-

---

[1] Шопен, И. Указ. раб., / с. 1232, 873.
[2] Yenə orada, s. 883-884.
[3] **Кавказский сборник/** т.1, Тифлис, 1876, с.184; Шопен, И. Указ. раб., / с. 884.
[4] Шопен, И. Указ. раб., / с. 873; **Obozreniye/** t.4, s. 284.

ların əlaltısı kimi onların ticarət işləri ilə məşğul olurdular və onlardan asılı idilər. Malı bazara çıxarmadan topdansatış ticarəti ilə məşğul olanlar sövdəgərlər adlanırdılar. Azərbaycan xanlıqlarında onlar vergilərin və fiziki güc tələb olunan mükəlləfiyyətlərin yerinə yetirilməsindən tamamilə azad idilər.[1] Şəhərdə həmçinin topdansatış ticarəti və pərakəndə ticarət ilə məşğul olan binəkdarlar, xırda ticarətlə məşğul olan bəzzazlar və malı qapı-qarı gəzib satan çərçılər[2] fəaliyyət göstərirdilər.

İrəvan xanlığına kənardan gətirilən və kənara çıxarılan ticarət mallarına nəzarət edilirdi və mallara görə gömrük vergisi alınırdı. Gömrük xəzinəyə xeyli gəlir verirdi. Sürməli, Şərur, Sərdarabad, Gərnibasar mahallarında, habelə İrəvan şəhərində gömrük nəzarəti həyata keçirilirdi. Abaran mahalının Sudaqan və digər yerlərində malın gizlin gətirilib-aparılmamasına nəzarət edənlər öz xeyirlərinə hər bir dəvə və at yükündən 20 gümüş qəpik, ulaq yükündən isə 10 gümüş qəpik məbləğində gömrük pulu alırdılar. Əgər mal gizlin gətirilirdisə, ikiqatına pul ödəməli olurdular.[3]

İrandan gətirilən arşınla satılan hər malın yükündən irəvanlılardan 50 gümüş qəpik, xarici tacirlərdən isə ikiqatına, çəki ilə satılan mallardan 1 rubl 60 qəpik gömrük pulu alınırdı. Lakin bəzi malların gömrük pulu müxtəlif idi: ipək və xəz 4 rubl, indiqo (tünd sürməyi boya) 3 rubl 20 gümüş qəpik, pambıq 60 gümüş qəpik, kişmiş, noxud, nar və üzüm bəkməzi 54 gümüş qəpik. Gürcüstandan gətirilən mis və dəmir əşyalarına, qənd, qəhvə, bal, yağ, mum və digər malların hər yükündən 1 rubl 60 gümüş qəpik, meyvə qurusu, alma, armud, xurma, əncir, kişmiş, cəviz, zoğal, badam və sair malın yükündən 54 gümüş qəpik, taxta yükündən 20 gümüş qəpik alınırdı. Osmanlı Türkiyəsin-

[1]Егиазаров, С.А. **Исследования по истории учреждений в Закавказье**/ 4.2. Городские цехи, Казань, 1891, с.79; Mustafayev, C. **Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq**/ Bakı, Elm, 2002, s. 272, 24.
[2] Шопен, И. Указ. раб., / с. 876.
[3] Yenə orada, ss. 882-883.

dən gətirilən yağ, yun, zəy, boyaqotu, rom, araq, şərab, bal, mum və sair malların yükündən 1 rubl 60 gümüş qəpik, cəviz və digər meyvələrdən 80 gümüş qəpik, şalban və taxtadan 20 gümüş qəpik, tirlərdən 2 gümüş qəpik alınırdı.[1]

İrana daşınan ipək, pambıq və yun malların hər yükünə 1 rubl 60 gümüş qəpik, düyünün hər yükünə 40 gümüş qəpik, pambıq və kişmişin yükünə 80 gümüş qəpik, göy boyaya 3 rubl 20 gümüş qəpik, ipəyə 4 rubl ödənilməli idi. Osmanlı Türkiyəsinə və Gürcüstana aparılan yun malların, mum, boyaqotu və çəki ilə satılan bütün malların yükündən 1 rubl 60 gümüş qəpik, mühafizəçilər üçün 1 rubl 12 gümüş qəpik, düyünün yükündən 40 gümüş qəpik, mühafizəçilər üçün 40 gümüş qəpik alınırdı. İrəvan şəhərindən Gürcüstana daşınan duzun yükündən 32 gümüş qəpik, kişmişin yükündən 80 gümüş qəpik, mühafizəçilərə 1 rubl 20 gümüş qərik, indiqonun yükündən 3 rubl 20 gümüş qəpik, ipəyin yükündən 4 rubl, mühafizəçilərə 1 rubl 12 gümüş qəpik, pambığın yükündən 80 gümüş qəpik, mühafizəçilərə 1 rubl 92 gümüş qəpik ödənilirdi.[2]

İrəvan tacirləri yalnız birtərəfli gömrük pulu verirdilər. Osmanlı Türkiyəsindən işləməyə gələnlərdən adambaşına 80 gümüş qəpik gömrük rulu alınırdı. Yükdaşımalarda 1 yük 40 batman (12 pud) qəbul olunmuşdu. Dəvə yükü ikiqatına, ulaq yükü iki dəfə az hesablanırdı.[3]

Xanlığın ən iri bazarı İrəvan şəhərində olurdu. Bazar "Təpəbaşı məhəlləsi" ilə "Şəhər məhəlləsi" arasında böyük bir sahədə yerləşirdi. Daş tavanla örtülmüş və bişmiş kərpiclə tikilmiş bazarın "divarları suvanıb, rənglənsəydi Avropa bazarlarından heç də geri qalmazdı".[4] Bazarda xanlığın tacirləri ilə yanaşı xaricdən gələn tacirlər də ticarət edirdilər.

Şəhərdə çoxlu dükanlar və ya ticarət köşkləri var idi. İrili-

---

[1] Шопен, И. Указ. раб., / сс. 883-884.
[2] Yenə orada, s. 884.
[3] Yenə orada, s. 885.
[4] Yenə orada, s. 881.

xırdalı ticarət köşklərinin sayı 1670 idisə,[1] işğaldan sonra onların sayı 851-ə[2] qədər azalmışdı. "Gürcü" karvansarasının 78-i xəzinə və 24-i xüsusi olmaqla, 102 ticarət köşkündən[3] yalnız 62-i qalmışdı.[4] Ticarət köşklərinin xeyli hissəsi ən çox idman oyunları və digər tədbirlərin keçirildiyi meydanlarda cəmlənmişdi. Meydanlar əsasən dördkünc və ya dairəvi olub, ticarət köşkləri ilə əhatələnmişdi. Şəhərin "Xan bağı", "Bazarla qala arası", "Zalı xan", "Fəhlə bazarı" və "Hüseynəli xan" meydanları daha məşhur idi.[5] Bazarla qala arası meydana adətən kənd əhalisi satlıq mal gətirirdisə, fəhlə bazarı meydanına isə yalnız iş axtaranlar yığışırdılar.

Şəhərə ticarət məqsədi ilə gələn tacirlərin gecələməsi üçün şərq üslubunda bişmiş kərpicdən, yonulmuş bazalt və mərmərdən tikilmiş çoxlu qonaq evləri, karvansaralar var idi.[6] Yerli memarlıq üslubunda inşa edilən karvansaraların bəzədilmiş otaqları və geniş dördkünc həyətləri olurdu.[7] Karvansaralar tikilən zaman yük heyvanlarının saxlanc yeri və su təminatı mütləq nəzərə alınırdı.[8]

Karvansaralar xaricdən gələn tacirlərlə yanaşı, rəsmi şəxslərə və səyyahlara yüksək xidmət göstərirdi. Xan karvansaraların vəziyyəti ilə şəxsən özü maraqlanır, müştərilərə yüksək xidmət olunmasını tələb edirdi. Bu, həm şəhərə xarici tacirlərin axınının çoxalması, həm də şərq mədəniyyətini təbliğ etmək niyyətindən

---

[1] **Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом, финансовым отношениях**/ ч.4, СПб, 1836, с. 291.

[2] Шопен, И. Указ. раб., / с. 881.

[3] Yenə orada, s. 879.

[4] Yenə orada, s. 881.

[5] Yenə orada, s. 877; **Obozreniye**/ t.5, s. 291.

[6] Шопен, И. Указ. раб., / с. 468-469.

[7] Биберштейн, М. **Описание провинции расположенных на левом берегу Каспийского моря между реками Терек и Кура/** AMEA TİEA, iş.466.

[8] Бутков, П.Г. **Материалы для новой истории Кавказа с 1722 по1803 гг/** т.1, СПб, 1869, с. 40.

irəli gəlirdi. Karvansaraların hamısı əsasən bazar ətrafında cəmlənmişdi. İşğaldan sonra şəhərdə "Gürcü", "Culfa", "Zöhrab", "Tahir", "Sulu", "Susuz" və "Hacı Əli" karvansaraları qalmışdı. İşğal zamanı bir çox imkanlı karvansara sahibləri və varlı tacirlər vətəni tərk etdiklərinə görə karvansaraların bir hissəsi ya dağıdılmış, ya da baxımsızlıq üzündən fəaliyyətini dayandırmışdı. Karvansaların hər birində çoxlu dükanlar olurdu. Fəaliyyətdə olan "Gürcü" karvansarasında 78, "Culfa" və "Zöhrab" karvansaralarının hər birində 38, "Tahir", "Sulu", "Susuz" karvansaralarında birlikdə 74, "Hacı Əli" karvansarasında isə 40 dükan, bunlardan əlavə qırmızı sırada 151, köhnə Carçı darvazasından sağ tərəfdə 20, sol tərəfdə isə 31, köhnə Köysəri darvazası yanında 33, məscid meydanında 70, axund evindən solda 121, tərəvəz sırasında 117, Təpəbaşı məhəlləsində 4, Dəmirbulaq məhəlləsində 2, Şaqar məhəlləsində, Zalıxan məscidinin yanında 18, qalada 32 dükan var idi.[1]

Ticarət köşkləri şəhər əhalisi arasında bölünmüşdü. Onlar köşklərə görə xəzinəyə xüsusi vergi ödəməli idilər. Hətta ticarətlə məşğul olmayanlar belə, bu vergidən kənarda qalmırdılar.[2] Ticarətlə məşğul olmayanlar köşkləri tacirlərə həvalə edərək, hüquqlarını onlara verirdilər.[3]

Şəhər karvansaraları tacirlər üçün həm mehmanxana, həm də mallarını satmaq üçün bazar hesab olunurdu. Şəhərə gələn tacirlər ilk növbədə karvansarada boş dükanlara yiyələnərək, gətirdikləri malları həmin dükanlara yığırdılar.[4]

Karvansaraların bir qismi xüsusi adamlara, digər qismi isə xəzinəyə məxsus idi. Xəzinə karvansaraları icarəyə verilmişdi. İcarəyə götürülmüş karvansaraların xidmətləri müqabilində tacirlər müəyyən olunmuş məbləğ ödəməli olurdular. Belə ki, mal topdan satılırdısa, malın dəyərinin 1 tüməninə 1 şahı "havayı" mal satılmadan aparılırdısa, hər yükünə 4 şahı olmaqla "saxla-

[1] Шопен, И. Указ. раб., / сс. 879, 881.
[2] Yenə orada, s. 882.
[3] Yenə orada, s. 942.
[4] Yenə orada, s. 880-881.

ma" pulu alınırdı. Ticarət yolları üzərində yerləşən karvansaralarda isə icarədarlar tacirlərdən yük heyvanlarının hər birinə görə l şahı, yükünə görə 2 şahı məbləğində pul alırdılar.[1]

İrəvan xanlığının ticarət yolları İrəvan şəhərində qovuşurdu. Bu ticarət yolları ilə İrəvan şəhərinə və şəhərdən kənara ticarət malları daşınırdı. Ticarət yolları üzərində Gümrü və Sərdərabadı birləşdirən yolda Talın, Tiflis-İrəvan yolundakı Dərəçiçək mahalında Gəmigöy kənd karvansarasının, Göyçə mahalında Qarahisar və Çil kənd karvansaralarının, Göyçə-Dərələyəz yolundakı Səlim karvansarasının olması ticarətin inkişafından xəbər verirdi. Ticarət yolları üzərində inşa edilən karvansaralar tacirlərin, səyyahların və digərlərinin gecələmək yeri hesab olunurdu.[2]

İrəvan tüməni xanlıqda ən geniş işlədilən nominal dəyər hesab olunurdu.[3] Ticarət əməliyyatlarında yerli pul vahidləri ilə yanaşı, İranda, Osmanlıda, Rusiyada və Azərbaycanın digər xanlıqlarında kəsilmiş pullardan (tümən, sahibqıran, minaltun, pənahabad, qarapul, şahı, bisti, real, rus imperialı, holland çervonu, Osmanlı darülxilafı və mahmudisi, rus rublu, gürcü abası, üç cürə Osmanlı kuruşu, para və rus qroşu) istifadə olunurdu.[4] Pulları dəyişmək və ya xırdalamaq üçün 20-yə yaxın məntəqə fəaliyyət göstərirdi.[5] Məsələn, dörd qarapul 7 rus qəpiyinə dəyişilirdi.[6]

Şəhərdə pul kəsən xeyli zərbxanalar fəaliyyət göstərirdi. Zərbxanalar xanın nəzarəti altında idi və icarəyə verilmişdi. Kəsilən pullar xarici pullardan daha keyfiyyətli olurdu.[7]

Pullar xanın adı olmadan anonim kəsilirdi. İrəvanın gümüş pulları barədə məlumat yoxdur. Xırda pul qismində qazbəyi ad-

---

[1] Шопен, И. Указ. раб., / с. 880.
[2] Yenə orada, s. 878-881.
[3] Dəlili, H. Göst.əsəri/ s. 97.
[4] Шопен, И. Указ. раб., / сс. 888-890.
[5] Yenə orada, s. 851.
[6] **Obozreniye**/ t.4, s. 288.
[7] Шопен, И. Указ. раб., / сс. 888-889.

landırılan mis pullar (qara pul) kəsilirdi.[1] Qazbəyi 4 nominalda – 2, 5, 10 və 14 qr. çəkidə kəsilirdi. Mis pulların kəsilməsi burada 1825-ci ilədək davam etmişdi.[2]

Bazar, dükan və ya ticarət köşklərində müxtəlif uzunluq və çəki vahidlərindən istifadə olunurdu. Xan arşını (96,4 sm), xalvar (1,5 desyatin), somar (3 pudluq taxıl səpini sahəsi) və ağac (7 km) kimi ölçü vahidləri ilə yanaşı[3], xalvar (450 kq), somar (48 kq), taçkir (45 kq), pud (16 kq), batman (4,5 kq), stil (0,8 kq), misqal (4,6 q) və s.[4] çəki vahidləri daha geniş yayılmışdı.

Satıcılar əttar və mizan tərəziləri olmadan keçinə bilmirdilər. Əttardan baqqal və ətriyyat dükanlarında, əczəxanalarda, mizandan isə bazar və digər ticarət köşklərində istifadə olunurdu. Xan tərəfindən təyin olunmuş mizandarlar mizan və tərəzi daşlarını istifadəçilərə icarəyə verirdilər.[5] Şəhərdə vahid çəki ölçüsünü saxlamaq məqsədi ilə tərəzi daşlarının və mizanların bazardan kənara çıxarılmasına icazə verilmirdi. Alıcılar satıcı tərəfindən aldadılmadığına əmin olmaqdan ötrü aldıqları malı mizan-əttar tərəzisində çəkdirirdilər. Bu malın dəyərindən və ağırlığından asılı olurdu. Bunun üçün müəyyən məbləğdə: 1 batman ipəyə 45 gümüş qəpik, 1 batman indiqoya (tünd sürməyi boya) 45 gümüş qəpik, çəkilməyə gətirilən istənilən mala 2 gümüş qəpik, 1 batman pambığa, yağa, bala, mum, tütün, yun, noxud, mərci, paxla, meyvə, badam, qoza və s. 1 gümüş qəpik pul ödənilirdi.[6]

Beləliklə, XVIII əsrin sonu-XIX əsrin əvvəllərində İrəvan şəhərinin iqtisadi həyatında ticarət mühüm rol oynayırdı ki, buna

---

[1] Rzayev, R. **Azərbaycan xanlıqları**/ C.Mustafayev, A.Seyidov, – Bakı, 2021, s. 256.

[2] Rəcəbli, Ə. **Azərbaycan sikkələri/Bakı,** 2012, s. 262.

[3] Шопен, И. Указ. раб., / c. 887; **Obozreniye**/ t. 4, s. 288.

[4] Шопен, И. Указ. раб.,/ s. 886; **Obozreniye/** t. 4, s. 286-287.

[5] Шопен, И. Указ. раб., / c. 886; Əliyev, F.M, **Şimali Azərbaycan şəhərləri**/ Bakı, Azərb.SSR EA nəşriyyatı, 1960, s. 136, 123-124.

[6] Əliyev, F.M, **Şimali Azərbaycan şəhərləri**/ Bakı, Azərb.SSR EA nəşriyyatı, 1960, s. 886-887.

da şəhərin əlverişli coğrafi şəraiti, onun ticarət yollarının kəsişməsində yerləşməsi və burada sənətkarlığın əhəmiyyətli dərəcədə inkişaf etməsi lazımi imkanı verirdi. Bununla yanaşı, qeyd etmək lazımdır ki, nəzərdən keçirilən dövrdə, hərbi əməliyyatların yaratdığı əlverişsiz şəraitə baxmayaraq, həm daxili ticarət, həm də qonşu ölkələrlə aparılan xarici ticarət inkişaf edirdi. Şəhərdə zərbxanaların mövcud olması və yerli pulların kəsilməsi daxili ticarətin inkişafına müəyyən təsir göstərmiş olurdu. Lakin, ümumilikdə İrəvan şəhərinin iqtisadiyyatı əmtəə-pul münasibətlərinin çox zəif inkişaf etdiyi feodal xarakteri daşıyırdı.

### 1.3. İrəvan Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə

**Rusiya qoşunlarının 1804-cü il yürüşü.** Məlumdur ki, İrəvan şəhəri XVIII əsrin ortalarından 1827-ci ilə qədər İrəvan xanlığının mərkəzi olmuşdur. Şəhər qədimliyinə, gözəlliyinə və təbii-strateji mövqeyinə görə mühüm əhəmiyyət kəsb edirdi. Osmanı dövləti, Qacarlar İranı, Gürcüstan və digər Azərbaycan xanlıqlarının əhatəsində yerləşən İrəvan XIX əsrin əvvəllərində çox mürəkkəb və keşməkeşli dövrünü yaşamaqda idi. İrəvan qalasına Hüseynqulu xanın qardaşı, Qacarlar sülaləsinin nümayəndəsi, komendant Həsən xan rəhbərlik edirdi.

Rusiyanın xarici siyasət idarələrində Qacarlar, Osmanlılar və Gürcüstanla həmsərhəd olan İrəvan xanlığının işğalına, o cümlədən Tiflis-Təbriz tranzit yolunun üstündə yerləşən və çox mühüm strateji əhəmiyyətə malik olan İrəvan qalasının alınmasına xüsusi əhəmiyyət verirdilər. Bununla Rusiya geniş bir ərazi əldə etməklə yanaşı, Gürcüstanda sakitliyin bərpa olunmasına, Cənubi Qafqazda Qacar və Osmanlı dövlətlərinin siyasi təsir dairəsinin zəiflədilməsinə nail olmaq istəyirdi. Bunun nəticəsidir ki, çar I Aleksandrın verdiyi fərmanda Rusiya imperiyasına tabe ediləcək ərazilər arasında İrəvan xanlığının adı birincilər sırasın-

da çəkilirdi [1].

1801-ci ildə Rusiya çar manifesti ilə Gürcüstanı özünə birləşdirdiyini elan etdi. Bununla da nəinki Gürcüstanın, eləcə də Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalının əsası qoyuldu. Belə ki, Pəmbək, Qazax, Borçalı və Şəmşədil sultanlıqlarının Rusiyaya birləşdirildiyi bəyan edildi. Car-Balakən camaatlıqları və Gəncə xanlığının işğalından sonra növbə İrəvan qalasına çatdı. Pəmbək və Şorayelin işğalından sonra İrəvan xanı artıq Rusiya ilə müharibə vəziyyətində idi.

Vəziyyəti aydınlaşdırmağa çalışan İrəvan xanı öz nümayəndəsini general Lazarevin yanına göndərərək, Pəmbək vilayətinin ona məxsus olduğunu bildirdi. Lakin müsbət cavab ala bilməyən xanın etdiyi müraciətlə 6000 nəfər pəmbəkli öz yerlərini tərk edərək İrəvan xanlığına pənah gətirdi[2]. Pəmbək və Şörəyelin işğalı ilə kifayətlənməyən Rusiya İrəvan qalasının işğalı üçün geniş hazırlıq işləri görməkdə idi. Xanlığın bir parçası olan Pəmbək vilayətindəki rus qoşunlarının İrəvana soxulması üçün rus hərb tarixçisi V.Pottonun dediyi kimi, artıq bəhanə də hazır idi: "Bizim İrəvan işlərinə qarışmağımıza bəhanə isə Eçmiədzin taxtı üstündə David və Daniilin mübarizəsi oldu"[3]. Məlumdur ki, xan bu mübarizədə Davidin, ruslar isə Danilin erməni patriarxı olmasına çalışırdılar.

Hələ yenicə baş komandan təyin olunarkən İrəvan xanını silahla hədələyən Sisianov 1803-cü ilin martında çara göndərdiyi raportunda yazırdı: "...Məhəmməd xan, əlahəzrət imperatorun Daniilin erməni patriarxı kimi tanınması haqda yüksək göstərişini yerinə yetirməkdən imtina edir. Onun cəzasız qalması silahla ələ keçirdiyimiz ərazilərdə əlahəzrətin nüfuzunu zəiflədir. Ona görə mən Məhəmməd xanı cəzalandırmaq və Daniili erməni partiarxı etmək üçün İrəvana getməli və orada qarnizon yerləşdir-

---

[1] **АКАК**/ c.V, sən.1207, 1216; c.X, sən.158, Тифлис, 1885.

[2] Дубровин, Н. **История войны и владычества русских на Кавказе**/ т.5, СПб., 1886, s. 372.

[3] Потто, В. **Утверждение русского владычества на Кавказе**/ Тифлис, 1901, s. 128.

məliyəm. Yerli erməni tacirləri onları ərzaqla təmin etməyi vəd edirlər..."[1]. Gürcüstanın tutulmasından sonra, artıq yerli erməni əhalisi arasında rusların tərəfdarları getdikcə çoxalır və onlar rus qoşunlarının İrəvana gəlməsini səbirsizliklə gözləyirdilər. İki il əvvəl Gürcüstana gəlmiş mülki müşavir Kovalenskinin çara göndərdiyi arayışda deyilirdi: "Xanın (Məhəmməd xanın - V.U.) yanındakı erməni məmurlarından biri, İrəvan ermənilərinin başçısı Məlik Avram xanın və xalqın dərin hörmətini qazanmışdır. Mənim onunla yazışmamdan sonra məlum oldu ki, nəinki o, həmçinin bütün ermənilər şübhə yox ki, Rusiyaya meyillidirlər»[2]. Çarın 12 sentyabr fərmanında ermənilər haqqında ayrıca bənddə deyilirdi: "...Hər cür nəvazişlə erməni millətini özünüzə cəlb etməyi sizin xüsusi nəzarətinizə buraxıram"[3]. Görünür, bu fərmanın hazırlanmasında Kovalenskinin arayışının xüsusi rolu olmuşdur.

Hərbiçilər tərəfindən hər cür dəstək alan ermənilər, artıq Rusiya tərəfdarı olduqlarını gizlətmir və bir çox ərazilərdən, o cümlədən də İrəvan xanlığından Rusiyanın işğalı altında olan torpaqlara köçürdülər. Belə ki, yuxarıda adı çəkilən Məlik Avram və yüzbaşı Qavril, Sisianova məktubda 200 ailə ilə birlikdə İrəvandan Rusiyanın nəzarətində olan Qarakilsəyə köçdüklərini bildirir və yalvarırdılar ki, "İrəvan qalasında qalan 500 ailəni də xilas etsinlər"[4].

Sisianov İrəvan yürüşünü uğurla başa çatdırmaq üçün daha 4 alay və 100.000 gümüş rubl pul lazım olduğunu bildirirdi. Bu qüvvələrlə o, nəinki İrəvanı, həmçinin Naxçıvan və Şuşanı almağı və Kür-Araz boyu həyata keçiriləcək işğal planının bir hissəsini bu kampaniyada başa çatdırmağı vəd edirdi [5]. İrəvan yürüşünü tezliklə başa çatdırmaqda Sisianovun əsas məqsədi bu vilayəti Rusiyanınkı etməklə yanaşı, Qacarlarla qaçılmaz olan

---

[1] **АКАК/** т.2, sən.1207, Тифлис, 1868.
[2] Yenə orada; II c., sən. 34.
[3] Yenə orada, I c., sən. 548.
[4] Yenə orada, II c., sən.1207; II c., sən. 604.
[5] Yenə orada, II c., sən. 1216.

müharibənin meydanını Gürcüstan sərhədlərindən uzaqlaşdırmaq idi[1]. Yürüş ərəfəsində Sisianov öz ənənəsinə sadiq qalaraq, rəqibinə müxtəlif səpkili məktublarla (şirnikləndirici, mülayim, müxtəlif tələblər və nəhayət hədə-qorxu dolu və s.) müraciət etməyə başladı. O, Car-Balakən və Gəncədəki qanlı qırğınlardan sonra İrəvan xanının ona güzəştə gedəcəyinə əmin idi.

Sisianov xanla danışıqlara başlamaq üçün Daniilin patriarx elan edilməsi və Davidin Tiflisə göndərilməsini tələb etdi. Bunun yerinə yetiriləcəyi təqdirdə Məhəmməd xan qalada Rusiya qoşunlarının yerləşdirilməsinə razılıq verməli, təzminat ödəməli və sədaqət andı içməli idi [2]. Hərbi hissələri döyüşə hazır vəziyyətə gətirən Sisianov bütün arzu edənləri də yürüşə dəvət edərək döyüşdə fərqlənənlərin mükafatlandırılacağını bildirdi[3] .

Artıq Qacarların tezliklə müharibəyə qoşulacağı aydın idi. Çünki getdikcə cənuba doğru irəliləyən rus qoşunlarının qarşısını öz sərhədlərindən nisbətən uzaqlarda alınması daha münasib idi və hələ ki, işğal olunmayan ərazilərin hakimlərininköməyinə ümid bəsləmək olardı. Fətəli şah gürcü çarı Solomon, Şəmşəddil sultanı Nəsib bəyə göndərdiyi fərmanlarda onları kafirlərii məhv etməyə çağırdı[4]. Həmçinin şahın birinci vəziri Mirzə Şəfi öz nümayəndəsini Sisianovun yanına göndərərək ondan Rusiya qoşunları ilə birlikdə Gürcüstanı tərk etməsini tələb etdi[5] .

Şah qoşunlarının dağıdıcı yürüşlərindən sonra Qacarların Cənubi Qafqazdakı mövqeyi xeyli sarsılmışdı. Rusiyaya qarşı mübarizədə bir çox xanlar artıq, nəinki şah qoşunlarının köməyini arzu etmir, hətta bəziləri Rusiya vasitəsilə Qacar təsirini yox etməyə çalışırdılar. Əlbəttə ki, bütün bu baş verənlər işğal yoluna qədəm qoyan Rusiyanın mənafeyinə tam uyğun idi. Qacarlardan asılılığı formal xarakter daşıyan İrəvan xanının isə Fətəli şahla münasibətləri artıq korlanmışdı. Ona görə də Fətəli şah

---

[1] **Кавказский календарь**/ с. 159, Тифлис, 1847.
[2] **АКАК**,/ т.2, Тифлис, 1868. sən.1224.
[3] Yenə orada.
[4] Yenə orada.
[5]Yenə orada, sən. 1224 və 1653.

xanlığı müstəqil idarə edən Məhəmməd xanı oradan uzaqlaşdırmağa çalışırdı[1]. Rusiya və Qacar İranı təhlükəsi ilə yanaşı, Gəncənin aqibəti xanı son dərəcə ehtiyatlı olmağa, eyni zamanda tərəfləri narazı salmamaq üçün siyasi manevrlər etməyə vadar edirdi.

General-mayor Tuçkov öz xatirələrində yazırdı: "Dəstəni qəbul edən günü mənə hücum etməyi əmr etdilər. Məndən 3 gün sonra isə Sisianov öz korpusu – 1 draqun alayı, 8 piyada batalyonu, iki kazak alayı və 300 gürcü atlısı (cəmi 4370 nəfər) ilə yürüşə çıxdı". İyunun əvvəlində Tuçkovun komandalıq etdiyi dəstə (1 alay, 2 batalyon və 8 top) İrəvan xanlığına məxsus olan Şörəyel vilayətini tutdu. Burada iki arxiyepiskopla yüz erməni atlısı ona qoşuldu və bildirdilər ki, İrəvandan qaçan daha 2 min ailə yoldadır[2]. İrəvan xanlığının qoşunları başqa xanlıqlara nisbətən daha yaxşı silahlanmış və İrəvan qalasının müdafiəsi nümunəvi qaydada təşkil olunmuşdu.

1804-cü ilin iyununda Qacar İranı Rusiyaya müharibə elan etdi. Gümrü və Eçmiədzini tutan rus qoşunları iyulun 2-də İrəvan qalasını mühasirəyə aldı. "Qızılbaşlar da onları araya aldılar. Qızılbaşlar gediş-gəliş yollarını elə kəsmişdilər ki, Rusiya qoşununun çarəsi hər tərəfdən kəsilmişdi"[3]. Qaladakılar mühasirədə olmalarına baxmayaraq, bir neçə istiqamətdən rus qoşunları üzərinə uğurlu həmlələr etməyə nail oldular. Bu zərbələr nəticəsində rusların 13 zabiti və 150 əsgəri sıradan çıxarıldı[4].

Sisianovla Məhəmməd xan arasında altı ay davam edən yazışma bir nəticə vermədi. Qala qarnizonuna tam arxayın olan və getdikcə havaların soyumasını nəzərə alan Məhəmməd xan rusların ərzaq və sursatlarının tükənəcəyinə, Tiflisdən ərzaq və

---

[1] B, Mahmud. **Kafkas Tarihi**/ 2 Cilt, Ankara, Berikan Yayınevi, 2011, s. 206.

[2] Потто, В. **Утверждение русского владычества на Кавказе, т.I,** Тифлис 1901, с. 138.

[3] Mirzə Adıgözəl Bəy. **Qarabağnamə**/ səh. 69.

[4] Потто, В. **Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях**/ т.I, Тифлис,1901, с. 368-370.

sursat gətirincəyə qədər yolların keçilməz olacağına əmin idi. Deməli, zaman rusların məğlubiyyətini yaxınlaşdırır və Məhəmməd xanın xeyrinə işləyirdi. Ərzağın tükənməməsi üçün rusların gördüyü bütün tədbirlər artıq tükənsə də, gözlənilən yeni ərzaq gəlib çıxmırdı. Ona görə Sisianov ərzağı qəbul etmək üçün mayor Montrezoru 350 nəfər və 3 topla Tiflisdən Qarakilsəyə yolladı[1]. Bələdçiliyi Məlik Abovun oğlu Rostom boynuna götürdü. Bu, onun üçüncü gedişi idi. Ümumiyyətlə, yerli erməni əhalisi rus qoşunlarına bələdçiliyi öz üzərlərinə götürmüşdü. Ermənilər, həmçinin rus qoşunlarına böyük maddi yardım da göstərirdilər [2]. bnn

Qacarların müharibəyə girməsilə xalqın işğalçılara qarşı mübarizəsi genişləndi. "Əvvəlcə Qazax və Borçalı elatı Rusiya dövlətindən üz çevirdi və o dövlətin itaətindən boyun qaçırdılar. Tiflis şəhəri və Nəsib bəydən başqa bütün elat, kəndlər, hətta Başıaçığa qaçan vəlizadələr də gəlib valiyə (Aleksandr Mirzəyə - V.U.) qoşuldular və üsyan etdilər"[3]. Həmçinin car-balakənlilərin üsyanları, qarabağlıların işğal altındakı Yelizavetpol vilayətinə hücumu[4] üsyana kütləvilik xarakteri verdi və Cənubi Qafqazda rusların mövqeyini xeyli sarsıtdı. Bu üsyanlar yerli əhalinin bütün təbəqələrini əhatə edirdi. Aleksandr Mirzənin başçılıq etdiyi qoşunlarla üsyan etmiş yerli əhalinin Tiflis-İrəvan yolunu bağlaması bu rus qoşunlarının vəziyyətini daha da ağırlaşdırdı.

Qarakilsədə mühasirəyə alınan Montrezor demək olar ki, bütün dəstə ilə məhv edildi. Yalnız bir neçə gürcü qaçaraq canını qurtardı, 2 yaralı zabit (biri knyaz Orbeliani) və 10 əsgər əsir götürüldü[5]. Ərzaq qıtlığı səbəbindən Sisianov tərəfindən Gür-

---

[1] Дубровин, Н. **История войны и владычества русских на Кавказе/** т.5, СПб.,1887, с. 339.
[2] Григорян, З. **Присоедиение восточной Армении к России в начале XIX века/** с. 95-96.
[3] Mirzə Adıgözəl bəy. Göst.əsəri/ s. 69.
[4] Потто, В. Указ. раб., / с. 372.
[5] **Записки Сергея Алексеевича Тучкова/** СПб, 1908, с. 241.

cüstana geri göndərilən 300 gürcü tavadı da mühasirəyə düşdü. Onlardan 10 nəfəri öldürüldü, 190 nəfəri isə əsir edilərək Tehrana göndərildi [1]. Bu xəbərləri gizli saxlayan Sisianov 20 nəfər İrəvan ermənisini əsirlikdən azad edərək qalaya göndərdi və axırıncı dəfə Məhəmməd xandan qalanı təslim etməyi tələb etdi [2].

Əvvəlki hədə-qorxuları mülayim müraciətlərlə əvəz edən və xana müxtəlif güzəştlər vəd edən Sisianov axırıncı ana qədər xanın qalanı təslim edəcəyinə inanırdı. Əslində bu siyasi aldanışlar baş komandanı məğlubiyyətə aparırdı. Bütün bunlar Məhəmməd xan Qacarın knyaz Sisianovdan həm hərbi, həm də diplomatik sahədə üstünlüyünü sübut edirdi. Sisianovun geridə qalmış bir xalqın nümayəndəsi kimi baxdığı bir adam onu çıxılmaz vəziyyətdə qoymuşdu. Mühasirənin lüzumsuz olduğunu artıq hər iki tərəf anlayırdı və onun nəticəsiz qalacağı bəlli idi. Məhəmməd xanın yaxşı hərbi hazırlığı və özünü doğrultmuş uğurlu siyasi manevrləri onun görkəmli siyasi və hərbi xadim olduğunu təsdiq etdi[3]. 1804-cü il avqustun axırında general Sisianovun rəhbərliyi ilə çağırılan hərbi şura senyabrm 2-də mühasirənin dayandırılmasını və rus qoşunların geri çəkilməsini qərara aldı.

**Rusiya qoşunlarının 1808-ci il yürüşü**. Birinci İrəvan yürüşündə biabırçı məğlubiyyətə düçar olan baş komandan Sisianov Tiflisə qayıdaraq Rusiya əlehyinə qalxan üsyanları qəddarlıqla boğmağa başladı. Əhalini silah gücünə susduran Sisianov Qarabağ, Şəki və Şirvan xanlarına təslimçi müqavilələr qəbul etdirə bildi. İşğal növbəsi yenidən İrəvan xanlığına çatdı.

İrəvan və Naxçıvana nə sülh, nə də müharibə yolu ilə yiyələnə bilməyən Rusiya hökuməti bu əraziləri ələ keçirmək və işğal kampaniyasını başa çatdırmaq üçün 1808-ci ilin əvvəllərində İrəvana yeni yürüş hazırlığına başladı. Bunun üçün əvvəlcə yerlərdəki vəziyyəti öyrənmək, ruslar haqqında müsbət rəy ya-

---

[1] **АКАК**/ т.1, док.1689, Тифлис, 1866.
[2] Григорян, З. Указ. раб., / с. 275.
[3] Umudlu, V.U. **Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828)/** Bakı, 2004, c. 29.

ratmaq və həmçinin İrəvan qalasının zəif yerini müəyyənləşdirmək üçün İrəvana, eləcə də Qarsa və Ərzruma yerli sakinlərdən casuslar göndərildi[1]. Bu casusların içərisində Şəki xanının oğlu Kiçik bəyin olması[2] əlbəttə ki, təəssüf doğurmaya bilməz.

1808-ci il sentyabrın 25-də hərəkətə başlayan yeni baş komandan Qudoviçi bu yürüşdə 240 zabit və 7506 əsgər müşayiət edirdi[3]. Naxçıvanı tutmaq əmri alan general-mayor Nebolsin oktyabrın əvvəllərində 9 batalyon (78 zabit, 3062 əsgər) və 4 topla Qarabağdan hərəkətə başladı[4]. Yürüşdə iştirak etmək istəyən Şəki xanı da öz dəstəsilə Naxçıvana yollandı[5].

İrəvan fransız hərbi mühəndisi tərəfindən xeyli möhkəmləndirilmişdi. İrəvanlılar tərəfə keçən podpolkovnik Koçnev də rusların yürüşü ərəfəsində bu işə cəlb edilmişdi[6]. Qalın qala divarlarının çölündə xəndəklər qazılmış və ora toplar düzülmüşdü. Rusların yürüşündən xəbərdar olan İrəvan xanı Hüseynqulu xan qardaşı Həsən xanı 2 min nəfərlə qalada qoyub özü 4 min nəfər piyada ilə rusların qarşısına çıxdı. Lakin Əştərəkdə məğlub olan Hüseynqulu xan geri çəkildi. Sentyabrın 30-da Eçmiədzini tutan rus qoşunları erməni ruhaniləri tərəfindən sevinclə qarşılandı[7]. Oktyabrın 9-da İrəvan ətrafını tutan ruslar qalanı mühasirəyə alaraq onu ətraf aləmdən təcrid etdilər. Qudoviç Həsən xandan qalanı təslim etməyi tələb etdi[8]. Hüseynqulu xan isə qalanın mühasirəsini yarmağa çalışaraq düşmənə zərbələr endirdi. Qudoviç qalanın mühasirəsini müvəqqəti dayandırıb Hüseynqulu xanın üzərinə böyük bir dəstə göndərdi. Xan qüvvələri qorumaq nami-

---

[1] Григорян, З. Указ. раб., / с. 451.
[2] **АКАК**/ т.3, с. 519.
[3] Дубровин, Н. Указ. раб., / с. 158.
[4] Yenə orada.
[5] **АКАК**/ т.3, с. 520.
[6] **Присоединение Восточной Армении к России (сборник документов)**/ т.1, Ереван, 1972, с. 462.
[7] **Yenə orada**, s. 446.
[8] Yenə orada, s. 447.

nə Arazın o tayına çəkildi. Qudoviçin təslim haqda müraciətlərinə cavab olaraq Həsən xan yazırdı: “Biz sizinlə, nəinki qalanın içində (bu elə də çətin deyil), eləcə də açıq səhrada vuruşmağa hazırıq. Məlumunuz olsun ki, qalanın qarnizonu artıq öz qərarını verib” [1]. Məktubu gətirən İrəvan elçisi bildirdi ki, qala qarnizonu tamamilə məhv oluncaya qədər silahı yerə qoymayacaq[2].

Noyabrın 1-də Naxçıvan ruslar tərəfindən tutuldu. Naxçıvanın müdafiəsini təşkil etmək mümkün olmadı, çünki əhali arasında böyük nüfuza malik olan Kəlbəli xan 1808-ci ilin yazında xanlıqdan məhrum edilərək ailəsi ilə birlikdə İrana aparılmışdı. Oğlu Şıxəli bəy isə öz yaxın adamları ilə Qarabağa qaçaraq ruslara qoşulmuş və Naxçıvan yürüşündə onlara bələdçilik etmişdi[3]. Qudoviç bütün xanlığın əbədi olaraq Rusiya himayəsinə keçdiyini elan etdi və öz yerlərinə qayıtması üçün bütün naxçıvanlılara müraciət etdi[4] .

Lakin nə Naxçıvanın işğalı, nə də İrəvan qalasına gedən suyun kəsilərək düzənliyə axıdılması irəvanlıların döyüş əzmini qıra bilmədi. Mühasirənin başlanmasından 40 günə yaxın vaxt keçməsinə baxmayaraq qala qarnizonu və şəhər əhalisi dəyanət göstərməkdə idi. Qalanın təslim olunması haqqında Qudoviçin tələblərinə isə artıq cavab verilmirdi. Soyuqların düşməsi və ərzaq çatışmazlığı rus qoşunlarının vəziyyətini getdikcə ağırlaşdırırdı. Mühasirənin uzanması artıq Rusiyanın zərərinə idi. Nəhayət Qudoviç qalaya hücum etməyi qərara aldı. Hücum noyabrın 17-i saat 5-ə təyin edildi. Mirzə Adıgözəlbəy yazırdı ki, “əcəl küləyi hədsiz-hesabsız insanların gözünə bu işıqlı dünyanı qaranlıq etdi” [5].

Rus qoşunları beş dəstəyə bölündü. Dörd dəstə müxtəlif istiqamətlərdən hücum etməli, beşinci dəstə isə ehtiyatda dayanmalı idi. Hücum başlanan kimi irəvanlılar top atəşləri ilə rusları

---

[1] **Присоединение Восточной Армении к России (сборник документов)/** т.1, Ереван, 1972, сс. 460-462.

[2] Дубровин, Н. Указ. раб., / s. 158.

[3] **АКАК/** т.3, с. 476.

[4] Yenə orada, səh. 474.

[5] Mirzə Adıgözəl bəy. Göst.əsəri/ s. 75 .

böyük itki ilə geri oturtdular. Rusların düzəltdiyi nərdivanlar qalaya daxil olmağa kifayət etmədi. Nəhayət 1000 nəfərə yaxın itki verən ruslar geri çəkilməyə və hücumu dayandırmağa məcbur oldular[1]. Qudoviçin çara raportundan məlum olur ki, bu hücum zamanı 17 rus zabiti və 269 əsgər ölmüş, 64 zabit və 829 əsgər yaralanmışdı [2]. Hərbi tarixçi Dubrovinin yazdığına görə alaylar elə vəziyyətə düşmüşdü ki, təkrar hücum haqqında düşünməyə belə dəyməzdi[3]. Baş komandanın qalanı yenidən təslim etmək tələbinə cavab olaraq Həsən xan yazırdı: "...Tələb edirsiniz ki, İrəvan qalasını könüllü təslim edim, əvəzində isə İrəvan xanlığını mənə verəcəksiniz. Əgər bu cür əməl yaxşıdırsa, onda siz İran hökmdarına qulluq edin, əvəzində İrəvan, Təbriz və başqa xanlıqları alarsınız" [4]. Hər şeydən əli üzülən Qudoviç Nebolsinə rus qoşunları ilə getmək istəyən əhalini Qarabağa aparmağı tapşırdı[5]. Təqiblər və güclü qar yağması nəticəsində rus qoşunları daha 1000 nəfərə yaxın itki verərək geri çəkildi[6]. Nebolsin Naxçıvanı tərk edən kimi Abasqulu xan Naxçıvana daxil oldu. Rusların təqib olunmasında onun oğlu 3000 atlı ilə iştirak edirdi [7].

Beləliklə, bu yürüş də ruslara çox baha başa gəldi və demək olar ki, əməliyyatda iştirak edən qoşunun yarısı sıradan çıxdı. İrəvan xanlığı bir daha öz gücünü nümayiş etdirdi və qalanın rusların əlinə keçməsinə imkan vermədi. Bu yürüş bir daha sübut etdi ki, Azərbaycan xalqı torpaq və suverenlik uğrunda vuruşmağa, itkilər versə də qalib gəlməyə qadirdir.

**Rusiyanın 1813-cü il qarətçi İrəvan yürüşü.** 1810-cu

---

[1] Бутков, П.Г. **Материалы для новой истории Кавказа с 1722 по 1803 г/** II часть, СПб, 1869, с. 390.

[2] **АКАК/** т.3, с. 467.

[3] Дубровин, Н. Указ. раб., / т.5, с. 158.

[4] **Присоединение Восточной Армении к России (сборник документов)/** т.1, Ереван, 1972, с. 473.

[5] **АКАК/** т.3, с. 462

[6] Потто, В. **Утверждение русского владычества на Кавказе/** т.I,Тифлис,1901,с. 305.

[7] Дубровин, Н. Указ. раб., / т.5, с. 158.

ilin aprelində Qacar hökmdarı Fətəli şahın təklifiylə Qarabağda Rusiya ilə Qacar arasında sülh danışıqları başlandı. Danışıqlarda Rusiya tərəfi Naxçıvan və İrəvanı, Qacarlar isə Lənkəranı tələb edirdilər. Razılığa gələ bilməyən tərəflər danışıqların getdiyi Əsgaran qalasını əliboş tərk etməli oldular. Ona görə də sonrakı hadisələrin məhz bu bölgələrdə, o cümlədən İrəvan ətrafında baş verəcəyi şübhəsiz idi.

Vəziyyətin ciddiliyini nəzərə alan İrəvan xanı Hüseyn xan, 1810-ci ilinin mayında Osmanlı dövlətinin şərq sərkərdəsinə göndərdiyi bir məktubunda ruslara qarşı bir ittifaqın təşkil olmasının vacibliyini ifadə edirdi. Hətta xan Ahısqa ətraflarına qədər gələn Rusiya ordusunun törətdiyi təhlükəni nəzərə alaraq, bu ittifaqın dərhal qurulmasını tələb edirdi[1]. Lakin çox təəssüf ki, bu ittifaq reallaşmadı və çar Rusiyası öz işğalçılıq siyasətini davam etdirdi.

İrəvan xanını öz "himayəsinə" girməyə məcbur etmək üçün Rusiya bu dəfə də İrəvana qarətçi və dağıdıcı ekspedisiyalar göndərməyə başladı. Bu yürüşlərdə bütün qəddar vasitələrdən istifadə olunurdu. Baş komandan yürüşə hazırlaşan Lisanevicə göstərişində deyirdi: "Bu ekspedisiya ilə onlarda güclü dəhşət və dağıntılar törədin ki, yollarından çıxmasınlar. Bacardıqca çoxlu əsir götürün"[2]. Belə bir göstəriş Corayevə də verilmişdi[3].

4 batalyon və 200 atlı ilə qəfil hücum edən Lisanevic 10 gün müddətində göstərişi "layiqincə" yerinə yetirdi. Çoxlu adam öldürüldü, kəndlər dağıdıldı. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında qeyd olunur ki, rusların gəlməsini eşidən əhali öz ev-eşiklərini ataraq vahimə içərisində dağlara və Arazın o tayına qaçırdı[4]. Əlbəttə ki, silahsız əhalinin bu şəkildə qaçması rus qoşunlarının yerli əhaliyə qarşı vəhşi davranışının nəticəsi idi.

1813-cü ilin martında polkovnik Pestel İrəvan qalasına ye-

---

[1] Başbakanlıq Osmanlı Arşivləri/ **Hatti-Humayun fondu (BOA),** s. 226.
[2]Yenə orada, IV c., s. 170.
[3] Yenə orada, s. 66.
[4] Yenə orada, V c., s. 172.

ni yürüşə başladı. Xeyli canlı qüvvə və 6 topla hücum edən ruslar xanlığa xeyli zərər vurdular. Baş komandan bu yürüşlərdəki "şücaətinə" görə Pesteli 2-ci dərəcəli "Anna" ordeninə təqdim etdi[1].

Göründüyü kimi, rus qoşunlarının bu davranışları çar hakim dairələrinin mövqeyini tam çılpaqlığı ilə ortaya qoyur. Lakin bütün bu təhdid və təqiblərə baxmayaraq, Rusiya bu dəfə də İrəvan xanlığını özünə tabe edə bilmədi. Bu yürüşlərdən bir məqsəd də rus silahının gücünü Qacarlara göstərmək, onları öz sərhədləri hayına qalmağa vadar etmək idi.

**İrəvan şəhərinin rus qoşunları tərəfindən zəbt olunması.** Məlum olduğu kimi, İrəvan qalasının işğalı rusların Qafqaza gəlişinin ilk günlərindən gündəlikdə duran əsas məsələlərdən biri idi. Bunu İrəvana edilən yürüşlər bir daha təsdiq edirdi. Lakin İrəvan yürüşləri ya məğlubiyyətlə nəticələnir, ya da təxirə salınırdı. İrəvan hakimi isə XIX əsrin əvvəlində itirilmiş torpaqları geri qaytarmaq və hətta Tiflisə hücum etmək üçün əlverişli məqam gözləyirdi. Beləliklə, hər iki tərəf müharibəyə hazırlaşdıqlarından qarşı-qarşıya duran qüvvələrin sayı artır və münasibətlər getdikcə daha da kəskinləşirdi.

1826-cı ilin yanvarında rusların Miraka hücum etməyi qərara alması ilə[2] yeni hərbi kompaniya başlamış oldu. Xan qoşunları sərhədə cəmləşdirdi. Bundan vahiməyə düşən Dilican erməniləri qaçmağa başladılar. Bununla bağlı sərhəddəki rus qoşunlarının başçısı Seversamidze yazırdı: "Əsgər dayanmayan bu sərhəd yerlərində ermənilər tatarsız qala bilməzlər. Ermənilər sülh vaxtı daha çox yararlı və sadiqdirlər"[3]. İyulun 16-da xan qoşunları əks hücuma keçərək Miraka, qardaşı Həsən xan isə Şörəyelə daxil oldular. Xeyli itki verən rus qoşunları geri çəkilməyə məcbur edildi. "Rəvan sərdarı və qardaşının rusları yendikləri" baş-

---

[1] Присоединение Восточной Армении к России,т. I (1801 – 1813),Сб. док. ,1972, с. 617

[2] **АКАК**/ c.VI-I cild, sən.1374, c. 462.

[3] Yenə orada, sən.1372, c. 462.

lığı altında Türkiyə arxivində saxlanan sənəddə bu haqda belə deyilir: "Rəvan sərdarı və qardaşı Həsən xan Abadan qalasını azad edib, oradan qaçıb Qarakilsəyə sığınan rusları qılıncdan keçirdilər. Bölgədəki elatlar Rəvan tərəflərinə, Gümrü qəzasının bəzi kəndləri isə əcəm tərəfinə köçürülür. Şahzadələr Tiflisə hücum etməyi qərarı alırlar"[1]. Bu döyüşlər zamanı rusların Balıqçay, Sadağaçay, Qarakilsə və başqa keşikçi məntəqələri darmadağın edilmişdir. Həsən xanın qoşunları Gümrü yolunu nəzarətə götürmüşdü. Beləliklə, qısa müddətə Pəmbək və Şörəyel işğalçılardan təmizləndi. Mirzə Adıgözəl bəy bu haqda belə yazırdı: "Knyaz Səvirzə (Seversamidze nəzərdə tutulur- red.) Mirzə Pəmbək və Şörəyeldən çıxdıqdan sonra Hüseyn xanın qoşunları gəlib rus hökumətinə aid dam-daşı yıxıb od vurdular və oralara yiyələndilər"[2]. Əslində isə Seversamidze oradan çıxarılmışdı və irəvanlılar öz torpaqlarını geri almışdılar. Pəmbək və Şörəyeli azad edən xan qoşunları düşmənin 158 əsgər və zabitini sıradan çıxarmışdır [3].

Əvvəlki mövqelərin itirilməsi və xan qoşunlarının Gürcüstan sərhədlərinə yaxınlaşması ilə barışmaq istəməyən baş komandan Yermolov Balıqçay məntəqəsinə yeni dəstə göndərdi. Lakin 166 nəfərdən ibarət olan bu dəstə iyulun 27-də xan süvariləri tərəfindən mühasirəyə alınaraq demək olar ki, tamamilə məhv edildi. Belə ki, onlardan 113 nəfəri öldürüldü, başda dəstə komandiri olmaqla 18 nəfər əsir götürüldü, qalanları isə qaçmağa müvəffəq oldular. Ruslar bu məğlubiyyəti dəstədəki qazaxlılarla bağlayaraq bildirirdilər ki, onlar dəstəni birbaşa düşmən üzərinə aparmış və ilk atəşdən sonra özləri qaçmışdılar [4].

---

[1] **Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy)1578-1914/** I kitab, Ankara, Osmanlı Arşivi Yayınları, 1992, s. 111-112;

[2] Mirzə Adıgözəl bəy. Göst.əsəri/ s. 81.

[3] Гизетти, А.П. **Сборник сведений о потерях кавказских войск 1801-1885 гг/** Тифлис, 1901,с. 143.

[4] Потто, В. **Кавказская война в отдельных очерках, эпизодах,**

Xan qoşunlarının müvəffəqiyyətli hücumları yerli əhalinin və qonşu bölgələrin əhalisinin döyüş ruhunu daha da yüksəltdi. Artik hakimi Budaq sultan xanın tərəfinə keçdi[1]. Pottonun yazdığına görə, Pəmbək və Şörəyelın tutulmasından sonra "Borçalı, Şəmşəddil və Yelizavetpol Rusiyaya açıqcasına xəyanət etdi"[2]. Qazax ağalarına məktubunda isə xan yazırdı: "Ruslarla bizim aramızda sülh olanda siz xahiş edirdiniz ki, sizi və ailənizi rusların əlindən xilas edək... Artıq bu vaxt gəlmişdir" [3]. Elə Qazax pristavı Sijevskinin bəzi ermənilərin köməkliyi ilə güclə xilas olması da bu vaxta təsadüf edir.

Mövzudan kənar olmasına baxmayaraq obyektivlik naminə bəzi məqamları da qeyd edək. Məlumdur ki, atlı dəstələr iyulun 14-də Tiflis yaxınlığındakı alman koloniyasını, sentyabrın 2-də isə Lorudakı yunan koloniyasını ələ keçirərək tələfat və dağıntılara yol vermişdilər[4]. Əlbəttə, bu hadisələrə haqq qazandırmaq çox çətindir. Lakin onu da deyək ki, bu birbaşa çarizmin köçürmə siyasətinin nəticəsi idi, həm də müharibə idi və kolonistlər ilk növbədə "rusun adamları" hesab olunurdular.

Xanlıqlarda başlanan müharibə və rusların həmin ərazilərdən qovulması haqqında hələ məlumat almayan çar I Nikolay İrəvana yürüşə çıxmaq barədə fərman verdi. Həmin fərmanda İrəvan yürüşündə iştirak edəcək qoşunların sayı da dəqiq göstərilmişdi: "Tezliklə sizdən belə cavab gözləyirəm, sərdar yoxdur və Erivan (İrəvan-V.U.) vilayəti tutulub. Siz və 15 min rus müvəffəqiyyət üçün kifayətdir"[5] . Lakin avqustun 1-də verilmiş bu göstərişi yerinə yetirmək Yermolova nəsib olmadı. Çünki bütün xanlıqlar, demək olar ki, əldən getdiyindən İrəvana hərəkət et-

---

**легендах и биографиях**/ т.3, СПб,1888,49-50.

[1] Дубровин, Н. **История войны и владычества русских на Кавказе**/ т.5, 158

[2] Потто, В. Указ. раб., / с. 52.

[3] Дубровин, Н. Указ. раб., / с. 158

[4] Потто, Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях/ т.3, СПб,1888, с. 63.

[5]Yenə orada, s. 359.

mək mümkün deyildi. Yürüş təxirə salındı və Yermolov geri qayıtmağa məcbur oldu.

Rusların Şəmkir və Gəncə döyüşlərindəki qələbələri İrəvan xanlığına da öz təsirini göstərdi. Ruh düşgünlüyü keçirən xan qoşunları geri çəkilməyə başladı. Demək olar ki, Pəmbək və Şörəyel yenidən boşaldıldı. Cüzi müqavimətdən sonra rus qoşunu sentyabrın 21-də Cəlaloğluda düşərgə saldı. Sonrakı gün Davıdovun başçılıq etdiyi həmin dəstə İrəvan xanlığının içərilərinə doğru yürüşə başladı, lakin Yermolovun əmri ilə sentyabrın 29-da əvvəlki mövqeyinə qayıtdı [1].

Əsas qüvvələr xanlıqların yenidən işğalına yönəldiyindən İrəvana yaxın vaxtlarda hücum gözlənilmirdi. Lakin az qüvvə ilə İrəvana yürüş təhlükəli idi. Belə ki, İrəvan sərdarı əks hücumla ruslara arxadan zərbə endirib onların Gürcüstanla əlaqəsini kəsə bilərdi.

1826-cı ilin sonunda baş qərargah Yermolov və Paskeviçin rəyi əsasında növbəti hərbi kampaniya haqda iki layihə işləyib hazırladı. Paskeviçin bəyəndiyi ikinci layihəyə əsasən düşmənə gözlənilməyən yerdən zərbə endirilir, İrəvan və Naxçıvan vilayətləri gözlənilmədən və tamamilə başqa vilayətlərdən ayrı salınırdı. Əsas zərbə isə Təbrizə endirilirdi [2]. Yermolov isə mövcud qüvvələrlə İrəvan xanlığını tutmaqla kifayətlənməyi, qalalarda ermənilərdən istifadə etməyi, ümumiyyətlə, bütün erməniləri silahlandırmağı tələb edirdi. Sonra isə Meşkin vilayətindən keçməklə Ərdəbil, Xalxal və başqaları ələ keçirilməli, bununla da Talış Lənkəran xanlığı itaətə gətirilməli idi[3]. I Nikolay Yermolov tərəfindən bəyənilən layihəni təsdiq etdi. Beləliklə, əsas zərbənin İrəvan xanlığına endirilməsi qərarlaşdırıldı.

Layihənin reallaşmasına hazırlıq görmək üçün Rusiya Baş qərargahının rəisi baron Dibiç 1827-ci ilin fevralında Tiflisə gəldi. Bütün məqamlar nəzərdən keçirildi. Çar öz sərəncamı ilə bu

---

[1] Дубровин, Н. Указ. раб., / с. 158.
[2] Yenə orada.
[3] Yenə orada.

planın həyata keçməsi üçün 400 min çervon və 500 min rubl vəsait ayırdı. Həmçinin Bakı və Redutqalaya xeyli buğda və un göndərildi[1]. Martın 26-da baron Dibiç hərbi əməliyyatların başlandığını elan etdi.

Yermolovla arasındakı ixtilaflar və çarın Yermolovun layihəsini təsdiq etməsi Paskeviçi Qafqazı tərk etməyə sövq etdi. Lakin vəzifədən azad olunmaq üçün müraciət etməyə hazırlaşan Paskeviç martın 28-də Baş komandan təyin edildi. Bir az sonra isə Velyaminov və Mədətovu general Sipyaqin və Pankratyev əvəz etdilər.

Qoşunların İrəvan xanlığına hərəkəti başlandı. Aprelin əvvəllərində Benkendorfun qoşun hissələri İran erməniləri arasında nüfuza malik arxiyepiskop Nerses Əştərəklinin müşayiəti ilə Borçalıdan hərəkətə başladı [2]. Qeyd edək ki, müharibənin başlanmasını gözləyən erməni əhalisinin əksər hissəsi rus qoşunlarına kömək etməyə hazır idi. Ermənilərin ruslara köməyindən bəhs edən Mahmud Bi yazırdı ki, 1827-ci ilin martında İrəvan şəhəri üzərinə hərəkət edən general Benkendorfun komandasındakı 14.000 nəfərlik rus ordusunun Üçmüəzzini ələ keçirməsi ermənilər tərəfindən sevinclə qarşılandı. Keşiş Nerses rus birliklərini təqdir edərək təbrik etdi. Erməni camaatını rusların tərəfində olmağa və birlikdə savaşmağa çağırdı. Sərdərabada hərəkət edən Benkendorf burada Həsən xanın süvariləri ilə döyüşdə məğlub olub Eçmiədzinə geri qayıtdı[3] .

Mayın 12-də Paskeviç öz qoşun hissələri, habelə erməni və gürcülərin müşayiəti ilə hərəkətə başladı. Çarın razılığı ilə təşkil edilən ilk erməni atlı alayı mayın 17-də Paskeviçin ardınca İrəvana hərəkət etdi. Erməni tarixçisinin yazdığına görə, İrəvan sərhədlərində onların sayı 1000 nəfərə çatırdı[4]. Sonra isə Kra-

---

[1] Дубровин, Н. Указ. раб., / с. 158.

[2] Mirzə Adıgözəl bəy. Göst.əsəri/ s. 12.

[3] Umudlu, V.U. Göst.əsəri/ s. 91.

[4] Алавердянц, М.Я. **Граф Иван Феодорович Паскевич-Эриванский и его деятельность на Кавказе в очерках армянского историка. 1782-1912**/ СПб, 1912, с. 12.

sovski 20-ci piyada diviziyası ilə İrəvan yaxınlığına gəldi.

İrəvan qalasını müşahidə edən Paskeviçin İrəvan komendantı ilə görüşmək istəyinə cavab olaraq sərdar özü yazırdı: “Əgər söhbət qalanın təslim edilməsindən getmirsə icazə verirəm, əks halda, bu, mənasızdır. Mən qalanı heç vaxt təslim etmərəm”. Qalanı ala bilməyəcəyinə əmin olan Paskeviç hələlik bu işdən vaz keçdi. Şerbatova görə, hətta qalanın mühasirəsi qoşunların qüvvəsi xaricində idi [1].

Naxçıvana yürüş etməyi qərarlaşdıran Paskeviç qoşunları Gərniçaydakı düşərgəyə topladı. İyunun 19-da hərəkətə başlayan qoşunlar əvvəlcə Dəvəli kəndinə girdi. Kənd bomboş idi [2]. Deyildiyi kimi sərdar əvvəlcədən əhalini İrəvana köçürmüş, bəzi qalalarda isə mühafizə dəstələri qoymuşdu. Şerbatov qalaya 18 min sakinin köçürüldüyünü qeyd edirdi.[3] Naxçıvanda ruslara qarşı hər hansı müqavimətin olması haqda məlumat yoxdur. Görünür Kərim xan müqavimət göstərə bilməyəcəyini görüb xanlığı tərk etmişdi. İyunun 26-da Naxçıvanı ələ keçirən Paskeviç bütün qüvvələri Abbasabadın mühasirəsinə cəlb etdi. Bu qalanın mühasirəsini yarmağa, qala qarnizonuna yardım etməyə çalışan Abbas Mirzə iyulun 5-də Həsən xanla birgə Xoy tərəfdən hücuma başladı. Lakin Cavanbulaqda baş verən döyüş müttəfiqlərin məğlubiyyəti ilə biidi. Şiddətli atəşə məruz qalan qala qarnizonu iyulun 7-də təslim oldu. 1500 nəfər əsirlə birgə ruslar xeyli qənimət ələ keçirdilər. General-mayor, baron Saken qala komendantı və Naxçıvan vilayətinin rəisi təyin edildi.

Avqustun 7-də məşhur Uşağan vuruşması baş verdi. Nəhayət, xan qoşunları qüvvələri cəmləşdirib ruslara ağır zərbə endirərək gözəl qələbə qazandı. Gizettinin məlumatına görə, Krasovskinin dəstəsi həmin döyüşdə 1166 əsgər və zabit (685 nəfər ölü, 347 nəfər yaralı, 134 nəfər əsir) itirdi[4]. Erməni tarixçisi

---

[1] Щербатов, А.П. **Генерал-фельдмаршал князь Паскевич. Его жизнь и деятельность**/ т.2,СПб, с. 265.

[2] Yenə orada.

[3] Yenə orada, səh. 322.

[4]Гизетти, А.П. **Сборник сведений о потерях кавказских войск 1801-**

M.Alaverdiyans bu döyüşdən bəhs edərək yazır: "İrəvanın mühasirəsindən əl çəkən Krasovski Eçmiədzinə yürüş etdi. Bundan istifadə edən sərdar 4000 atlı, 2 briqada sərbazla oraya hərəkət etdi. Avqustun 4-də Abbas Mirzə özü qoşunu ilə burada göründü. Onlar birləşərək rusları mühasirəyə alıb qırmağa başladılar. 200 əsiri çıxmaqla həmin gün 24 zabit, 1130 əsgər öldürüldü"[1] . Bu qələbə rusların yürüşünü xeyli ləngitdi.

Avqustun 29-da Eçmiədzində toplaşan ruslar bu dəfə Sərdarabadı hədəf seçğilər. Sentyabrın 14-də Sərdarabadın mühasirəsi başlandı. Lakin Həsən xan qalaya girməyə müvəffəq oldu. Nerses şəhərin erməni əhalisinə təslim olmaq üçün müraciət etdi[2]. Şəhər 24 topdan şiddətli atəşə tutuldu. İki gün fasiləsiz davam edən atəşdən sonra qala qarnizonu şəhəri tərk etməyə müvəffəq oldu. Məcburi atılan bu addım Həsən xanın yüksək hərbi ustalığını nümayiş etdirirdi. Lakin qaladakı xeyli ləvazimat rusların əlinə keçdi. Sərdarabadda bir briqada və erməni alayı qoyan Paskeviç sentyabrın 24-də Nerseslə birgə İrəvana hücum etdi.

Türk tarixçisi Mahmud Bi yazır ki, 1827-ci ildə general Paskeviçin hücumu zamanı Ücmüəzzin katolikosu Aştaraketsi (Əştərəkli-red.) ermənilərdən ibarət "Vətənpərvərlər" adlı mühafizə alayı toplamış və bu alay Rəvan və Şərqi Ermənistanın işğalında rus ordusuna kömək etmişdir[3]. Müəllifin işlətdiyi "Şərqi Ermənistan" kəlməsi yanlışdır. Bu kəlmənin tarixi əsası yoxdur, siyasi məqsədlərlə Rusiyanın zəbti dövründə tətbiq olunub. Erməni alayı ilə bağlı türk tarixçisi K.Gürün yazırdı ki, "erməni vətənpərvərlər" ətrafında toplanan nüfuzlu ermənilər 1827-ci ildə Lazaryan və Arqutyanın təmsilçiliyində rus çarına bir layihə təqdim etmişdilər. Bu layihəyə görə ruslar ermənilərin yaşadıqları bütün torpaqları birləşdirəcək və beləcə də onlar milli bir

---

**1885 гг**// Тифлис, 1901 ,с. 145.

[1] Алавердянц, М.Я. Указ. раб., / с. 12.

[2] Yenə orada.

[3] Mahmud, B. **Kafkas Tarihi/** 2 Cilt, Ankara, Berikan Yayınevi, 2011.

yurd əldə edəcəklərdi[1].

Knyaz Şerbatov yazırdı ki, Abbasabad və Sərdarabadda ələ keçirilən ərzaq və hərbi sursat rusları yarım il təmin etməyə imkan verirdi. Hətta Paskeviç bunsuz İrəvanın mühasirəsinin necə olacağını təsəvvür edə bilmədiyini bəyan etmişdi[2]. Hər iki qalada bu qədər ehtiyatın toplanması xan qoşunlarının uzun müddətli və ciddi hazırlığından xəbər verirdi. Lakin çoxlu sayda top və batareyaların fasiləsiz olaraq şəhəri atəşə tutması bu kampaniyada xan və onun qoşunları üçün ən gözlənilməz hadisə oldu. Atəş və bomba yağışı onlara həmin ehtiyatı məhv etməyə belə imkan vermirdi.

Bəzi məlümatlara görə, Sərdarabadın işğalından sonra şahın İrəvan və Naxçıvan xanlığını güzəştə getməklə Rusiya ilə sülh bağlamaq əmrini Abbas Mirzə yerinə yetirməmişdi.

Bir sıra məğlubiyyətlərə baxmayaraq xan qoşunları müqavimətdən əl çəkmək fikrində deyildi. Sərdarabadı tərk edən Həsən xanın əsas işi İrəvan qalasını möhkəmləndirmək idi. İki hündür qülləsi olan İrəvan qalasının iri və dərin xəndəklə əhatə olunmuş divarlarının görünməyən hissəsində toplar qurulmuşdu. Qala qarnizonu 2 min piyada əsgərdən və 2 min süvaridən ibarət idi.

Sentyabrın 24-də İrəvanın mühasirəsi başlandı. 2 batareya 3 gün ara vermədən şəhəri top atəşinə tutdu. Müvəqqəti sakitlikdən istifadə edən qala qarnizonu ruslara güclü atəşlə cavab verməyə nail oldu. Lakin bütün istiqamətlərdə yerləşən mühasirə korpusu topları şəhərə yaxınlaşdırdı. Təslim tələbinə qala rəisi sərdar Qacarlardan kömək almaq ümidi ilə möhlət istədi. Lakin Paskeviçin qəti tələbi də cavabsız qaldı. Ruslar İrəvan toplarını susdurmaq üçün güclü artilleriyanı işə salaraq, 40 topla şəhərə 1000-dən çox mərmi yağdırdılar. Şəhərdə od, alov, toz dumanı, uçuqlar bir-birinə qarışdığından əhali atəşdən qaçmağa yer tapmırdı. Bir tərəfdən də ermənilər qalanı təslim etməyi tələb edir-

---

[1] Gürün, K. **Ermeni Dosyası** / Ankara, Bilgi Yayınevi, 2012, s. 70.

[2] Щербатов, А.П. Указ. раб., с. 1.

dilər. Oktyabrın 1-də darvazalar sındırıldı və ruslar şəhərə soxuldular. İrəvandakı dağıntılarla bağlı bir müşahidəçi belə yazırdı: "Mənə elə gəlir ki, mühasirə artilleriyasının dörd gündə elədiyini 4 əsrdə eləmək mümkün deyildi"[1] .

İrəvanın alınması ilə bağlı Paskeviç I Nikolaya raportunda yazırdı: "...Mühasirə zamanı divarın altı qazılmış və artilleriya əla işləmişdir. Qurtuluş yolu tapmayanlar silahı atmış, digərləri isə müdafiə olunmaq istəmişdilər. Lakin darvaza sındırıldıqdan sonra qala tam təslim olmuşdur" [2]. Həsən xan başda olmaqla bütün qala qarnizonu əsir düşmüşdür. Digər bir mənbənin məlumatına görə, İrəvan sərdarı Hüseyn xan da Maku xanı tərəfindən generala təslim edilmişdir[3]. Amma bunu təsdiq edən digər sənəd yoxdur.

Bu qələbəyə görə 1 mln. rubl mükafat və qraf titulu alan Paskeviç İrəvanda Krasovskinin rəhbərliyi ilə müvəqqəti "hökumət" idarə təşkil etdi. Herses də həmin "hökumətə" üzv olundu. Qlinkanın qeyd etdiyi kimi, "Krasovski və Nerses birgə hərəkət edirdilər"[4] . İrəvan qalasının alınması ilə rusların müxtəlif istiqamətlərdən cənuba yürüşü başladı. Tezliklə Mərənd, Təbriz, Xoy, Səlmas, Marağa zəbt olundu. Dehqarağandakı danışıqlarda Paskeviçin ultimatumu yerinə yetirilmədiyindən hərbi əməliyyatlar yenidən başladı. Urmiya ilə Ərdəbilin tutulmasından sonra Tehran üçün yaranan birbaşa təhlükə şahı sülhə bağlamağa məcbur etdi.Onu da qeyd edək ki, işğal zamanı Ərdəbildəki nadir əlyazmalar kitabxanası ruslar tərəfindən qarət edildi. Təbrizdəki İngiltərə müşavirlərinin təklifi ilə Araz çayı sərhəd olmaqla sulh bağlanması halında Sərdarabad, İrəvan, Naxçıvan və Abbasabad qa-

---

[1] Потто, В. Указ. раб., / т.1, с. 516.

[2] **Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) 1578-1914/** I kitab, Ankara, Osmanlı Arşivi Yayınları, 1992, s. 208-211.

[3] Yenə orada, s. 312.

[4] Глинка, С. **Описание переселения армян Аддербиджанских в пределы России**/Москва,1831,с. 35.

lalarının ruslarda, Təbriz ilə Xoyun isə Qacarlar qalacağı müəyyən edilmişdi[1].

1828-ci il fevralın 9-dan 10-a keçən gecə Təbriz yaxınlığındakı Türkmənçay kəndində Rusiya ilə Qacar səltənəti arasında 16 maddədən ibarət müqavilə imzalandı. Müqavilənin üçüncü maddəsi İrəvan və Naxçıvan xanlıqlarının da Rusiyaya keçdiyini, dördüncü maddə isə iki dövlət arasındakı sərhəd xəttini təsbit etdi. Müqaviləni on beşinci maddəsi ermənilərin Rusiya himayəsindəki torpaqlara köçünü nəzərdə tuturdu [2].

Beləliklə, Türkmənçay müqaviləsi Azərbaycanın iki hissəyə parçalanmasını başa çatdırdı. Şimali Azərbaycan çar Rusiyasının əsarəti altına düşdü. Yeni işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının torpaqları əsasmda tezliklə "Erməni vilayəti" təşkil olundu. Qədim Azərbaycan şəhəri İrəvan isə bu viayətin mərkəzinə çevrildi. Türkmənçay və Ədirnə müqavilələrinə görə Qacarlar və Osmanlı imperiyalarından ermənilərin İrəvana kütləvi köçü başladı. Kütləvi köçlər İrəvan şəhərinin demoqrafik vəziyyətini xeyli pisləşdirdi.

---

[1] **Başbakanlıq Osmanlı Arşivleri (BOA)**/ Hatti-Humayun fondu, v.34805.
[2] **AR DTA**, F.202, s.1, iş.34. v.317-321.

# II FƏSİL

## ŞƏHƏRİN ƏRAZİSİ, ƏHALİSİ VƏ İNZİBATİ İDARƏÇİLİYİ

### 2.1. İrəvan şəhərinin ərazisi və xarici görünüşü

Çoxsaylı mənbələrin məlumatlarına görə tarixi İrəvan şəhəri Ağrıdağ yaylasının şimal-şərq hissəsində dəniz səviyyəsindən 900-1000 m. yüksəklikdə 40º 08´ şimal enliyi və 44º 10´ şərq uzunluğunda yerləşirdi. İrəvan və onun ətraf hidronim, oronim, oykonimlərinin böyük əksəriyyətinin mübahisəsiz olaraq türk mənşəli olması faktı onu sübut edir ki, bu ərazi azərbaycanlıların əcdadlarının qədim yaşayış məskəni olmuşdur.

XIX əsrin sonu-XX əsrin əvvəllərində İrəvanda Azərbaycan adları daşıyan onlarla küçə: Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı küçə, Qəriblər ocağı, Dəyirmanlı küçə, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan küçəsi, Naib küçəsi, Mircəfər küçəsi, Rüstəm xan küçəsi, Məmri, Korbulaq, Bəy, Kətan, Dükanlı küçə, Sallaqlar və d. mövcud idi.[1]

Şəhər şimal-qərb və şimal-şərq tərəflərində dik enişləri olan təpəliklərdən ibarət çuxurda yerləşirdi. Bu çuxurun cənub-qərb və cənub tərəfləri açıq düzənliyə çıxıb getdikcə genişlənərək Araz vadisində itirdi. Müsəlmanlar İrəvanı "xoşbəxt çala" adlandırırdılar, lakin imperator I Nikolay 1837-ci ildə İrəvanda olduğu zaman onu "gil çuxur" adlandırırdı. Kənəkir yastı təpəliyindən İrəvanın yerləşdiyi yer əsasən gildən tikilmiş, adda-budda yastı damlı evlərin olduğu bir qədər dairəvi çuxur təsəvvürü yaradır. XIX əsrdə bir və ikimərtəbəli daş evlər meydana çıxdı.[2]

---

[1] Мустафаев Н. Город Иреван. Баку, 2013, с. 9.

[2] СМОМПК, вып.1, Тифлис, 1881, с.8-9; Nazim Mustafa. İrəvan şəhəri.

1859-cu ildə rus tarixçisi A.M.Burnaşov yazırdı: " İrəvan Arazla birləşən Zəngi və kiçik Qırxbulaq çayı sahilində yerləşir və əsasən şəhər və qaladan ibarətdir: sonuncu Zəngi çayına dirənən və beləliklə, onun 4-cü tərəfini təşkil edən iki kifayət qədər hündür divara malikdir – digər üç tərəf xəndəklə əhatələnib. Bu divarlar saman və xırda daşlarla qarışdırılmış gildən tikilmişdi".[1]

Şəhərin perimetri 43 verst (≈45 km.), sahəsi isə 4641 des. və 1136 saj. (≈50,5 kv.km.) idi.[2]

Şəhər quru subtropik iqlim zonasında yerləşərək münbit və məhsuldar torpaqla əhatələnmişdi. İqlimi – yayda tropik, isti, qışda isə sərt şaxtalı idi.

İrəvanın şəhər memarlıq modeli o dövrün Yaxın Şərq şəhərləri üçün qəbul edilmiş ümumi sxem və layihələrə uyğun idi.[3] Ümumiyyətlə, şəhər 4 əsas məhəllədən – Qala, Şəhər, Təpəbaşı və Dəmirbulaq məhəllələrindən ibarət idi. Şəhər məhəlləsi şəhərin şimal-şərq, Təpəbaşı – qərb, Dəmirbulaq isə cənub-şərq hissəsini tuturdu.[4]

Rus qoşunlarının başda Paskeviç olmaqla şəhərə hücumu zamanı onlar üçün tərtib olunmuş 1827-ci il 25 sentyabr-1oktyabr tarixləri plana əsasən Zəngi çayının sahilindəki sərt qayalıqda yerləşən İrəvan qalasının daxilində Xan sarayı (Sərdar sarayı), üç məscid və qriqoryan kilsəsi yerləşirdi.[5] İrəvan qalası və Sərdar sarayının görünüşü barədə tam təsəvvürün yaranmasına "Qafqazda rus hökmranlığının bərqərar olması"

---

Bakı, 2013, s.8.

[1] См.: Гаджиев Заур. Эребуни. Ереван или Иреван – http://erevangala500.com/page/77.html.

[2] СМОМПК, вып.1, с. 9.

[3] Ереван, (статья из Encyclopedia Iranica Erich Kettenhofen, George A.Bournoutian and Robert. H. Hewsen).

[4] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху их присоединения к Российской империи. СПб., 1852, с.124.

[5] План крепости Эривани, с означением осадных работ с 25 сент. по 1 окт. 1827 г. – Утверждение русского владычества на Кавказе, т.1, с.306.

adlı çoxcildli tarixi əsərin materialları imkan verir.[1] Bundan başqa Rusiya arxivlərində qalanın çoxlu sayda plan və çertyojları saxlanılır. XIX əsr İrəvan qalasının xırdalıqlarına qədər əks olunduğu məşhur Avropa rəssamları – Tavernye, Şarden, Rusiya rəssamları F.Rubo və Q.Qarinin rəsm əsərləri mövcuddur. Bu materiallar çox böyük tarixi dəyərə malikdir, belə ki, bu gün üçün İrəvanın ən qədim tarixi hissəsi tamamilə məhv edilmişdir. Günümüzədək gəlib çatan tarixi sübutlar onu göstərir ki, XIX əsrin əvvəllərinə doğru İrəvanın həqiqi görkəmi müsəlman, Azərbaycan memarlığına məxsus idi.[2]

Nəzərdən keçirilən dövrdə şəhər xeyli genişləndi. Hələ XVII əsrdə buraya Hindistandan 50 erməni qaraçı (boşlar) ailəsi köçüb şəhərin qərb hissəsində yerləşən Təpəbaşı (müasir Kond) məhəlləsində məskunlaşdı. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrindən sonra ermənilərin Azərbaycana, o cümlədən İrəvan ərazisinə kütləvi köçürülməsi başlandı. Onlar əsasən şəhərin xəzinə və şəhərətrafı torpaqlarında məskunlaşırdılar. Nəticədə, XIX əsrin 80-ci illərində şəhərdə artıq 7 – Təpəbaşı, Şəhər, Xanbağı, Dəmirbulaq, Molokan, Dərəkənd və Çölməkçi məhəllələri mövcud idi.[3] İrəvan qalası dairəvi qülləli, ikiqat dişli divarlarla əhatələnmişdir. Onun içərisinə üç-Təbriz, Şirvan və Körpü darvazalarından keçməklə daxil olmaq mümkün idi.[4] Qala perimetri 1200 m. yaxın olan düzbucaqlı şəklində idi. Qalanın şimal-qərb hissəsindəki dərə 640 m. dərinliyə malik olmaqla alınmaz idi. Ona görə də, həmin tərəfdə divar inşa etdirilməsi mənasız olduğundan burada yalnız

---

[1] "Крепость Иревань со стороны реки Занги» - Утверждение русского владычества на Кавказе. Тифлис; тип.
Я.И.Либермана, 1901, т.IV, с.164.

[2] Фуад Ахундов. Мы можем представить Армении старые чертежи для восстановления центра Еревана.// https//regnum.ru. Интервью И.А.Regnum от 7 фев.2012 г. (исп. 11/I-2023 г.).

[3] СМОМПК, вып.1, 1881 г., с. 10.

[4] Обозрение российских владений за Кавказом, ч. IV, СПб., 1836, с.289; http://erevangala 500.com/page/77.html

torpaq örtüyü var idi. Rusiya istilasından sonra qalada 2 min əsgərdən ibarət qarnizon saxlanılırdı.[1]

Hələ Ö.Çələbi qalanın təsvirini verərkən qeyd edirdi ki, o birmərtəbəli olsa da, gözəl idi.[2]

Qəsrlərin və qalaların dağıdılmasına ciddi qadağaların qoyulması barədə çar fərmanının 1827-ci ilin fevralında gen. Yermolovun nəzərinə çatdırılmasına baxmayaraq,[3] İrəvan qalası rus qoşunlarının hücumu zamanı xeyli zərər çəkdi.[4] Bunun nəticəsində qalanın başqa yerə köçürülməsi barədə qərar qəbul edildi. Belə ki, qr. Çernışovun bar. Rozenə Cənubi Qafqazın möhkəm istehkam müdafiəsi ilə təmin olunması barədə 1837-ci il 29 dek. tarixli məktubunda deyilirdi: "İrəvanın zərərli iqlimi, qala divarları və tikililərinin qeyri möhkəmliyinə görə imperator qalanın ayrı yerə, əvvəlki yerinin 6 verstliyinə, Zəngi çayının yuxarı axarı boyuna köçürülməsinə icazə verdi. 1836-cı ildə layihə hazırlandı. Lakin onun tam təsdiqi Gümrü qalasının inşasının başa çatdırılmasına qədər təxirə salındı".[5] Lakin bu layihə elə kağız üzərində də qalmış oldu. 1839-cu ildə gen. Qolovinin Qafqaz diyarının ehtiyacları üçün 10 mln. rub. istiqrazın ayrılması barədə layihəsi tərtib olunmuşdu. Layihənin "Zaqafqaziya diyarının hərbi məqsədləri üçün təxirəsalınmaz zəruri ehtiyaclar" maddəsində İrəvan qalasının bərpası nəzərdə tutulmuşdu.[6] Lakin bu layihə də həyata keçirilmədi.

1853-cü ildə qala zəlzələdən ziyan gördü və bir də yeni qalanın yeni yerdə inşası barədə məsələ qaldırıldı. Belə ki, gen.-feldmarşal Baryatinskinin 1857-1859-cu illər üzrə hesabatında deyilir: "Zaqafqaziya sərhədləri daxilində yerləşən

---

[1] ОРВЗК, ч. IV, с.290.

[2] Челеби Э. Книга путешествий, т.I, Стамбул, 1324 г. х., с.271.

[3] АКАК, т.VI, ч.2, док.1132, с.766.

[4] Развитие Еревана после присоединения Восточной Армении к России. Сб. документов. 1801-1917 гг. (сост. Т.Х.Акопян), Ереван, 1978, док.23, с.76.

[5] АКАК, т.VIII., Тифлис, 1881, док. 271, с.374.

[6] АКАК, т. IX., Тифлис, 1884, док. 20, с.18.

Aleksandropol, Ahalsıx və İrəvan qalalarının hazırki vəziyyəti yaxşı təchiz edilmiş Avropa qoşunlarının hücumlarını dəf edə biləcək müstəqil qalaların şəraitinə uyğun deyil. İrəvan qalası inşa edildiyi materialın möhkəm olmaması və zərərli iqliminə görə indiki vəziyyətində qala bilməz." Hesabatın müəllifi indiki şəhərin üç verstliyində, şəhərlə Kənəkir kəndi arasındakı hündür və açıq yerdə yeni, ölçülərinə görə daha kiçik qalanın inşa edilməsini təklif edirdi.[1]

Nə İrəvan qalasının bərpası ilə bağlı layihələr, nə də onun başqa yerə köçürülməsi təklifləri həyata keçirilmədi. 1864-cü ildə İrəvan qalasının hərbi məqsədlərlə istifadəsi dayandırıldı, və o istehkam qalası statusundan məhrum edildi.[2]

1920-ci ilədək İrəvan qalası qismən saxlanılmışdı, lakin qondarma Sovet Ermənistanının yaradılması ilə orta əsr Azərbaycan memarlığının bu abidəsinin total məhvinə başlanıldı.[3]

Qədim İrəvan qalasının daxilindəki demək olar ki, bütün tikililər məhvə məruz qaldılar. Qalada XVI əsrdə inşa edilmiş ən qədim məscid mövcud idi. Bu məscid türk mənşəli Səfəvilər sülaləsinin hökmranlığının əvvəlinə aid parlaq memarlıq nümunəsi idi. 1679-cu il zəlzələsi zamanı bu məscid tamamilə dağılmışdı.[4]

Cümə məscidi I Şah Abbas Səfəvinin əmri ilə 1606-cı ildə inşa edilmişdi, hansı ki, 1604-cü ildə İrəvanı osmanlılardan geri almışdı.[5] Memarlıq üslubuna və möhtəşəmliyinə görə Cümə məscidi Gəncə məscidini xatırladırdı, belə ki, həmin memar Bəhaəddin tərəfindən tikilmişdi. O qalada Sərdar sarayın

[1]АКАК, т. XII., с.1303.
[2] Кавказский календарь на1874 г. Тифлис, 1873 г., с.252.
[3] Гусейнов Ризван. Материальные памятники и конфликты на Кавказе (на примере Ереванской крепости) –
Кавказ и глобализация, т.6, вып.2, сс.177-191.
[4] Буланова О. Как убивали мечети Эривани - https://azerhistory. com - /?p=7505 / (исп. 11/01/ 2023)
[5] ОРВЗК, ч. IV, с.289.

şərqində yerləşirdi. Məscidin memarlıq kompleksinə mədrəsə , kitabxana, qonaq evi, geniş daxili həyət daxil idi.

İrəvan qalasında həmçinin 1725-ci ildə inşa edilmiş dörd sütunlu tağlı bina olan Rəcəb paşa sünni məscidi, həmçinin 1807-1817-ci illərdə tikilmiş Abbas Mirzə məscidi yerləşirdi.[1]

XIX əsrin məşhur qafqazşünası, alman mənşəli A. Qakstqauzen 1843-cü ildə İrəvanda olarkən qeyd edirdi ki, Rəcəb paşa məscidi yunan-rus kilsəsinə, Abbas Mirzə məscidi isə silah anbarına çevrilmişdi.[2]

1827-ci ildə İrəvan ruslar tərəfindən işğal olunduqdan sonra Rəcəb paşa məscidinin gümbəzindən ayparalı ulduz çıxarılıb atıldı, onun yerinə isə xaç salındı, mina4rədə isə kilsə zəngi asıldı. Məscid beləliklə pravoslav kilsəsinə - Pokrov kilsəsinə (1827-ci il oktyabrın 1-də Allahanasının himayəsi günü təşkil edilmişdi) çevrildi. Pokrov kilsəsi " Ermənistanda" sovet hakimiyyəti dövründə dağılmışdı.[3]

Digər məscid Xan sarayının yaxınlığında yerləşən Abbas Mirzə (Sərdar) məscidinin fəvvarəsi və daha bir kiçik yay məscidi olan Həyəti var idi".[4]

1864-cü ildə, İrəvan qalasından hərbi məqsədlərlə istifadəyə son qoyulmasından və bu məsciddən cəbbaxana kimi istifadənin dayandırılmasından sonra Abbas Mirzə məscidi tədricən dağılmağa başlamışdı. Professor N. Marr 1912-ci il 17 may tarixli iclasındakı öz məruzəsində qeyd edirdi ki, "Məscid hələ də yaxşı vəziyyətdədir, lakin onun qorunub saxlanılması üçün heç bir tədbir görülmür. Axı bu yerli müsəlman mədəniyyətinin qiymətli irsidir: günbəzin içərisinin kənarları boyunca ərəb hərfləri ilə yazılar var.. Günbəz çat vermişdir və onun təmir olunması vaxtı çoxdan çatıbdır". [5] XX əsrin

[1] Акопян Т. История Еревана (1500-1800), ЕГУ, 1979, с. 370.
[2] АКАК, т. VII, Тифлис, 1878, док. 432, сс. 480-481.
[3] ОРВЗК, ч. IV, с. 289.
[4] Ерванд Шахазиз. Древний Ереван. Ереван, 1931, с. 171 (на арм. яз.); Назим Мустафа. Указ. работа, с. 228.
[5] Известия Императорской Археографической Комиссии, вып. 46, СПб.,

əvvəllərində Sərdar məscidində Türkiyədən olan erməni qaçqınlarını yerləşdirmişdilər. “Ermənistanda” sovet hakimiyyəti dövründə bu məscidi hissə- hissə dağıtmış və onu yerində yaşayış binaları tikmişdilər.

Şəhər memarlığının incisi İrəvan xanlığı hökmdarlarının iqamətgahı –Sərdar sarayı idi.

XVI əsrin əvvəllərində İrəvan şəhərinin bünövrəsi qoyulanda şah İsmayıl özünün Çuxursəəd canişinləri üçün saray tikməyi əmr etmişdir. XIX əsrin ortalarınadək bu saray daim yenidən qurulmuş və genişləndirilmişdir. O, qalada yerləşirdi və sıldırım qayanın üzərində tikilmişdi.

XVIII əsrdə Hüsüynqulu xan memar Mİrzə Cəfərə saray kompleksini yenidən qurmağı əmr etmişdir. 1791-ci ildə onun oğlu Məhəmməd xan Güzgülü salon və Yay igamətgahını ucaltdırmışdır. 1798-ci ildə Mahmud xan tərəfindən saray kompleksinə yeni tikililər əlavə edilmişdir[1].

Bağ-landşaft arxitekturasının incəliyi sarayın şəhər qonaqlarını heyrətə gətirən daxili bərabərliyi ilə ahəngdarlıq təşkil edirdi. Sarayın həm daş, həm də taxta divarları zəngin ornamental və mənzərə təsvirləri ilə bəzədilmişdi. Sarayın divarlarında son tablolar və portretlər 1850-ci ildə çəkilmişdir. Onların müəllifi məhşur Azərbaycan rəssamı Mirzə Qədim İrəvani (1825-1875) idi. [2] Sürgünə göndərilmiş dekabristlər tərəfindən ilk dəfə 1827-ci ildə Sərdar sarayında A.S. Qriboyedovun “Ağıldan bəla” pyesi tamaşaya qoyulmuşdu. Bu tamaşanı müəllifin özü də müşahidə etmişdir.[3]

---

1912, с. 79.

[1] Арутюнян В., Асратян М., Меликян А. Ереван. М., 1968, с. 33-34.

[2] Миклашевская Н.М. Художники XIX в. Мирза Кадым Эривани и Мир Мохсун Навваб. – В кн.: Искусство Азербайджана, т. IV. Баку: 1954, с. 87.

[3] Ахундов Фуад. «Мы можем представить Армении старые чертежи для восстановления центра Еревана».- https://regnum.ru. Интервью ИА Regnum от 7 фев. 2012 г. (исп. 11/I-2023 г.); Полн. собр. соч. А.С.Грибоедова, т. 1, СПб. 1839, с. 43-44.

Güzgülü salonun bəzəkli şüşə ilə örtülmüş karnizi var idi. kaniz parıltlı çiçəklərin rəsmləri ilə bəzədilmişdir. Salonun divarlarında kətan üzərində çəkilmiş 8 portret var idi: Fətəli şah, Hüseynqulu xan, Həsən xan, Abbas Mirzə, Fərəməz və b.–nın portretləri.[1]

Sarayın ən böyük bölməsindən biri hərəmxana idi. onun uzunluğu 61, eni isə 38 metr idi. hərəmxananın daxili divarı parlaq naxışlı mərmərlə örtülmüşdür. Hərəmxanad uzunluğu - 32, eni - 9, dərinliyi – 2.1 metr olan hovuz var idi.[2] Ruslar İrəvanı işğal etdikdən sonra hərəmxana hospitala çevrilmişdi.[3]

Saray özünün arxitektura forması, ölçüləri, planlaşdırma strukturu, bədii tərtibatına görə şərq memarlığının nadir incisi idi. XIX əsrin 60-cı illərində burada təmir işləri aparılmışdır.[4] Lakin bu saraya onun qorunub saxlanılmasının qeydləri o qədər qalmayan hakimiyyət orqanları tərəfindən lazımi yetirmişdi.

XX əsrin əvvəlləri ərəfəsində məsələ artıq ən kəskin şəkildə dururdu: bərpa etmək və ya uçurub dağıtmaq, 1910-cu ildə İmperator Hərbi Tarix Cəmiyyətinin fəxri üzvü general A.Z. Mışlevski tərəfindən saraya baxış həyata keçirilmişdi. O, bildirirdi ki, bina, guya ki, tarixi əhəmiyyətə malik deyildir, onun qaydaya salınması isə böyük xərclər tələb edir.

Lakin İmperator Arxeologiya Komissiyası akademik N.Y.Marrdan yerindəcə sarayı nəzərdən keçirməyi xahiş etmək haqqında qərar çıxardı. N.Y. Marr 1912-ci ildə öz məruzəsində qeyd edirdi ki, Sərdar sarayının dağıntıları ona görə çoxdur ki, sonuncu iki onillik ərzində bu qədim abidəyə diqqət verilməmişdir, bu sarayın nümunəsində Cənubi Qafqazın bütün tarixi müsəlman abidələrinin mühafizəsi işində etinasızlıq izlənilir. Deməli, sarayın dağılmasına maraq olmuşdur və o,

---

[1] Акопян Т. История Еревана (1801-1879), с. 240-242; Гастгаузен Август. Закавказский край. СПб., ч. 1, с. 230-231.

[2] Шопен И. Исторический памятник состояния Армянской области, с. 867.

[3] Мустафа Назим. Указ. работа, с. 208.

[4] Lynch H.F.B. Armenia. Travels and Studies, vol. I, p. 216-217.

insan əlləri ilə dağıdılmışdır. Mühafizə, məhəccər, sökülüb dağıdılmağın qarşısının alınması yoxdur".[1]

Sonda Marr bəyan edirdi ki, saray baxımsız görkəmə malikdir, lakin onun dərhal dağılması təhlili yoxdur. Çar hakimiyyəti sarayın vandallar tərəfindən dağıdılmasının qarşısının alınması üçün zəruri tədbirlər görülmürdü. Sərdar sarayı 1918-ci il ərəfəsində tamamilə dağıdılmışdır. XX əsrin ortalarında İrəvanda onun yerində "Ararat" şərab zavodunun binası tikilmişdir[2] .

Belə bir fakta diqqəti yönəltmək istərdik ki, "İranika ensiklopediyası"nda İrəvana həsr edilmiş məqalədə deyilir ki, "İrəvanın qədimdən qorunub saxlanılmış tikililəri XII əsrin orta əsrlər erməni (?-müəll.) kilsəsinin zəng qülləsi, XVIII əsrin dörd kiçik kilsəsidir (Müq. Zarovor, müq. Hovanes, müq. Sərkis və müq. Petros-Poqos kilsələri).[3] Gəlin bu məbədlərin kifayət qədər dumanlı olan mənşəyi məsələsini bir kənara qoyaq; onların qədim təsvirlərində qədim albanların xristian kilsələri üçün səciyyəvi olan bərabərtərəfli xaçlar açıq –aydın görünür. Belə bir fakta da toxunmayaq ki,, İrəvanın , demək olar ki, bütün xristian məbədləri 1679-cu ildə yerli-köklü dağıdılmışdı və yeni məbədlərin sonrakı tikililərini köhnə dağıdılmış məbədlərin bərpası hesab etmək olar; və ya onlar tamamilə başqa məbədlərdir- bu da tamamilə başqa bir sualdır ki, ona indi cavab verə bilmirik, bu suallar ciddi xüsusi araşdırmalar tələb edir.

Lakin belə bir sual meydana çıxır: niyə bu kiçik kilsələr " Yerevanın qədimdən qorunub saxlanılmış əsa tikiləndir", amma orta əsrlər səyyahlarını "minarələr şəhəri" adlandırdıqları şəhərin möhtəşəm məscidlərini, bənzərsiz Sərdar sarayının

---

[1] Эривань. Сардарский дворец // Известия Императорской Археологической Комиссии, вып. 46, СПб., 1912, с. 75-81.

[2] Буланова О. Сардарский дворец в Эрвани // https://azerhistory.com/?p=4919 ; Nazim Mustafa. İrəvan şəhəri. Bakı, 2020, с. 224.

[3] Ереван (статья из Encyclopedia Iranica. Erich Kettenhofen, George A. Bournoutian and Robert H.Hewsen).

Yerevanın mədəni erməni əhalisi “əsas qədim tikililər” saymadı və bu şəhərin əsl tarixinin şəhadətlərini qoruyub saxlamışdı? Suallar, əlbəttə ki, ritorikdir. Onlara cavab isə aydındır – vandalizm!

İ.Şopenin məlumatlarına görə[1], XIX əsrin 30-cu illəri ərəfəsində İrəvanda 1 pravoslav (Pokrov), 6 qriqoryan kilsəsi və 8 məscid vardı. Artıq yuxarıda deyildiyi kimi, iki məscid – Rəcəb paşa və Abbas Mirzə (sərdar) məscidlərin qalada yerləşirdi. Bu müəllif şəhərin qalan hissəsində aşağıdakı məscidlərin mövcudluğunu göstərirdi: Zəli xan, Novruzəli bəy, Sərtib xan, Hüseynəli xan (Göy məscid), Hacı İmamverdi, Hacı Cəfər bəy məscidləri və 4 digər məscidin xarabaqlıları.[2] Yəni, dağıdılmış məscidlə də nəzərə alınsa, onların ümumi sayı keçmişdə 12-dən az olmamışdı. Hacı Müzəffər ağa tərəfindən tikdirilmiş ətirli məscidi, görünür ki, 13-cü məscid kimi saymaq olar. Bu məscidin tikintisi 1909-cu ildə başa çatdırılmışdır. Onun qeyri-standart arxitekturası var idi. Məscidin minarəsi yox idi; damda hündürlüyü 1.5-2 m. olan kvadrat meydança quraşdırılmış, bunun üzərində dəniz məhəccərlə əhatələnmiş açıq köşk tikilmişdi. Köşkün damı dəmir təbəqədən olub çətiri xatırladırdı. Məscidin adı da (Çətirli) elə buradan əmələ gəlmişdi. Arxitektura nöqteyi-nəzərindən belə məscidlər “Güldəsət” tipinə şamil edilir. Dəmirbulaq məhəlləsində yerləşdityindən sonralar bu məscid Dəmirbulaq məscidi adlandırılmağa başlanmışdır. Ermənilər bu məscidi 1988-ci il fevralın 23-də yandırmışdılar. 1990-cı ildə Dəmirbulaq məscidi bünövrəsinədək dağıdılmış və onun yerində yaşayış binası tikilmişdi.[3]

İrəvan məscidlərinin əksəriyyətində daş plitələrlə döşənmiş, divarların dəstəmaz almaq üçün istifadə etdikləri fəvvarələrlə bəzədilmiş daxili var idi.

---

[1]. Шопен И. Указ. работа, с. 869.

[2] Yenə orada.

[3] Буланова О. Как убивали мечети Эривани - https://azerhistory.com-/?p=7505/ (исп. 11/01/2023)

Bügünkü İrəvanda nə vaxtsa burada yaşamış azərbaycanlıları ancaq 1765-ci ildə, Hüseynəli xan buradakı hakimiyyəti dövründə tikilmiş Göy məscid xatırladır. 2006-cı ildə iranlı mütəxəssislər tərəfindən bərpa edilmiş bu məscid Azərbaycan memarlığının möhtəşəm əsəridir. Onun 71m ×47m ərazisi olan daxili həyəti, mərasim tikilisi, gümbəzi və dekorativ çini lövhələrlə örtülmüş, majolika ilə bəzədilmiş minarəsi var. Məscidin ilkin 4 minarəsindən üçü 1945-ci ildən sonra uçurulmuşdu. Salamat qalmış 24 metrlik minarə İrəvanın bütün digər tikililərindən hündür idi və ona görə də şəhərin istənilən yerindən bu minarə görünürdü.[1] Öz gözəlliyi ilə fərqlənən Göy məscid şəhərin ən iri məscidi idi. görünür ki, məhz elə bu məqam onu məhv edilməkdən xilas etmişdir. 1936-cı ildə Göy məscidin binasında İrəvan şəhəri tarixi muzeyi yerləşdirilmişdir. 1952-ci ildən məscidin kiçik zalında astronomiya həvəskarları üçün planetari salınmışdır. Lakin İranla və digər müsəlman ölkələri ilə diplomatik əlaqələr quran Ermənistan 1994-cü ildə öz ərazisində heç olmasa bir məscidin bərpası zərurətini duymağa başladı. Təbii ki, yeganə dağılmayıb qalmış Göy məscidin binasından istifadə etməklə bunu etmək hər şeydən rahat idi. tarix muzeyi bu məsciddən çıxarıldı. Bu məscidin yenidən qurulmasının bütün xərclərini isə İran hökuməti öz üzərinə götürdü.[2]

Zalxan və ya şəhər məscidi 1687-ci ildə tikilmişdir. Bu barədə onun divarlarının birində türk dilində həkk olunmuş kitabədə məlumat verilir ( kitabədə hicri təqvimi ilə 1098-ci il göstərilib). Məscid o zaman bu yerləri idarə edən İrəvan bəylərbəyi Zal xanın adını daşıyırdı. 1928-ci ildə məscidin böyük zalı sökülmüş və onun yerində "Yerevan" hoteli tikilmişdir. Zal xan məscidi nəzdindəki mədrəsənin binasında isə sonralar Rəssamlar evinin sərgi salonu yerləşdirilmişdir[3].

---

[1] Linch H.F.B. Armenia. Travels and Studies/ London, 1901, p. 214.

[2] Назим Мустафа. Указ. работа, с. 234.

[3] Арутюнян В., Асратян М., Меликян А. Ереван. М., 1968, с. 32.

Təpəbaşı məscidi və onun həyəti bu gün də İrəvanda gecə yataqxanası kimi istifadə olunur.

İrəvanın xüsusilə gözəl görməli yerləri həm də onun meydanları idi. bunlardan ən başlıcası Xan bağı idi. Şəhərin mərkəzində ölçüləri 400m×400m olan böyük Meydan yerləşirdi. Başqa meydanlar (Zal xan, Hüseynəli xan, Fəhlə bazarı) da var idi. [1] Deməli, XIX əsrin 30-cu illərinin əvvəllərində İrəvanda 5 meydan var idi və onlarında hamısı müsəlman adları daşıyırdı.[2] Lakin şəhər texniki Q.Mehrabovun İrəvan şəhər qlavasına 23 iyun 1908-ci il tarixli məktubunda İrəvan meydanlarının aşağıdakı adları sadalanmışdı: Məktəb, Yeni Babaxan, Ot-ələf Dəmirbulaq (sennaya), Ticarət, Çörək, Yelməkçi (çox güman ki, - müəll.). [3] Gördüyümüz kimi, meydanların sayı dəyişməmişdi, lakin onların adları əvvəlkilərdən xeyli fərqlənirdi.

İrəvanın xüsusi bəzəyə və sosial – iqtisadi inkişafı üçün ekoloji resursu onun bağları idi.

İrəvan bağlarının üç kateqoriyaya bölmək olardı: üzüm, meyvə bağları və böyük olmayan bağçalar, yaşıllıqlar.[4] Onların ümumi sayı 1470-dən çox idi; bunlardan da 692-si iri bağlar idi.[5] Şəhərdə həmçinin 95 yaşıl bağça var idi ki, onlarda da söyüd, qovaq ağacları və sarmaşan kollar əkilmişdir. [6] Sərdar bağı, Abbasdərəsi, Abuhəyat, Keşaklı, Qızılqala, Dərəbağı, Səbziqala, Xosrovabad, Söyüdlü, Güldərəsi, Kənkam, Kərpicxana kimi bağlar İrəvandan çox-çox uzaqlarda da şöhrət tapmışdı. 1843-cü ilin məlumatlarına görə, 9 xəzinə bağı iltizama (müqatiəyə) verilmişdir. [7] Qalanın yaxınlığında, Səbziqala və qismən də

[1] Шопен И. Указ. работа, с. 124.
[2] ОРВЗК, ч. IV, 1836 г., с. 291.
[3] Развитие Еревана после присоединения Восточной Армении к России, док. 224, с. 356.
[4] СМОМПК, вып. 1, с. 24.
[5] ОРВЗК, ч. IV, 1836, с. 291; СМОМПК, вып. 1, с. 27.
[6] СМОМПК, вып. 1, с. 27.
[7] Развитие Еревана после присоединения Восточной Армении к России,

Söyüdlü adlanan yerlərdə 20 bostan var idi. Hansısa Arsenti Podtumanyan istisna olunmaq qalan sahələrin hamısı azərbaycanlılara məxsus idi. Tumanyan haqqında isə deyilirdi ki, onun heç bir qəbalə yoxdur, amma 1828-ci ildən bu sahədən istifadə edir.[1]

Bağ təsərrüfatlar içərisində bağcılıq üçün həm topoqrafik baxımdan, həm də torpaq xüsusiyyətləri və suvarma vasitələri cəhətdən kifayət qədər əlverişli yerdə yerləşən Sərdar bağı xüsusilə seçilirdi. Təxmini hesablamalara görə, Sərdar bağı 8 ha-dan azacıq artıq sahəni tuturdu.[2]

1868-ci ildə Sərdar bağında 9304 meyvə ağacı və 2513 oduncaqlıq ağacı var idi. Bu bağ xəzinənin mülkü idi. Lakin ta XIX əsrin 60-cı illərinin sonlarınadək hökumət bu vaxtadək baxımsız vəziyyətə düşüb tədricən kolluğa çevrilən[3] Sərdar bağının saxlanılmasına heç bir vəsait ayırmamışdır.

1913-1914-cü illərdə İrəvanda bağ sahiblərinin sayı kəskin şəkildə azalaraq 730 nəfərə düşmüşdür.[4]

İrəvan bağları Zəngi çayından çəkilmiş dörd arxın (Məmrə, Abuhəyat, Dəlmə və Norakeq) və kiçik Qırxbulaq çayının suyu ilə suvarılırdı.[5]

Məmrə arxı Kənəkir rayonundan başlayır və Təpəbaşı məhəlləsinin başlanğıcında bütün şəhərə yönələn çoxsaylı kiçik arxlara parçalanmışdır. Abuhəyat arxı öz başlanğıcını Məmrə arxından yuxarıda götürür və qollara parçalanaraq erməni qəbrisrtanlığının arxasında Çomaklı adlanan yerləri suvarırdı. Dəlmə və Norakeq arxları Zənginin sağ sahilində idi və çayın o tərəfindəki torpaqları suvarırdı. Qırxbulaq çayı ilə şəhərin şimal

---

с.109.

1 Развитие Еревана после присоединения Восточной Армении к России, сс. 110-111.

2 Yenə orada, s. 114.

3 Yenə orada, s. 117.

4 Yenə orada, s. 180.

5 СМОМПК, вып. 1, с. 22.

və şimal-şərq hissəsindəki bağ və bostanlar suvarılırdı.[1]

Suyun başlıca mənbələri Zəngi çayı, Söyüdlü bulaqları, Qırxbulaq çayı və quyular idi.

XX əsrin əvvəllərində Qırxbulaq çayından İrəvana təxminən 19 km. Uzunluqda su kəməri çəkildi. Bu kəmərin çəkilməsində Abasqulu xan İrəvanlı müstəsna rolu olmuşdur.[2]

Lakin hələ Qırxbulaq su kəmərinin çəkilməsinədək suya kəskin ehtiyac duyan şəhər sakinləri 1908-ci il dekabrın 28-də müvəqqəti Çölməkçi su kəmərinin çəkilməsi üçün şəhər dumasına ərizə müraciət edərək bu kəmərin çəkilişinə görə şəhərə kömək etmək məqsədilə İrəvan qarşılıqlı kredit cəmiyyətinə 22 min 700 rubl məbləğində pul köçürməyi təklif etmışdilər.[3]

Ticarət yollarının kəsişməsində yerləşən orta əsrlər İrəvanı həm də karvansaralar şəhəri idi. Onlardan aşağıdakıların adları məlumdur: Sərdar, Şeyxulislam, Dağlı, Sulu, Susuz, Hacəli, Kömürçü, Gürcü, Culfa, Hacı İlyas və b.[4]

1827-ci ildə şəhərin mühasirəyə alındığı dövrdə İrəvan qalasının rus qoşunları üçün tərtib edilmiş planında erməni karvansarayı qala hüdudlarından kənarda göstərilmişdi.[5]

Rusiya işğalından sonra İrəvan özünün ticarət və strateji əhəmiyyətini xeyli itirdi. Bu, öz əksini karvansaraların sayının azalmasında da göstərmişdi. XIX əsrin əvvəllərində şəhərdə 8 karvansara (Əfsar, Culfa, Gürcü, Zərrabi xan, Tahir, Sulu, Susuz, Hacı Əli) mövcud idi. [6] İrəvanın tarixinin bu karvansaralarsız təsəvvür edilməsi qeyri-mümkündür; təəssüf ki,

---

[1]СМОМПК, вып. 1, с. 23.

[2] Акопян Т.Х. Очерк истории Еревана. Ереван, 1977, с. 272-273; Назим Мустафа. Город Иреван, Баку, 2020, с. 27-28.

[3] Развитие Еревана после присоединения Восточной Армении к России, с. 358.

[4] http://erevangala500.com/page/77.html.

[5] См.: План крепости Эривани, с обозначением осадных работ с 25 сент. по 1 окт. 1827 г. // Утверждение русского владычества на Кавказе, т. I, с. 306.

[6] ОРВЗК, ч. IV, 1836, с. 291; Шопен И. Указ. работа, с. 124.

onlardan bir dənəsi belə qorunub saxlanılmamışdır, onların hamısı yer üzündən silinmişdir.

Karvansaralar əksərən dördkünclü idi, bütün karvansara boyunca dairəvi olaraq aşağı-yuxarı açılıb bağlanan qapıları olan kiçik otaqlar yerləşirdi; "çarşı" adlı, kiçik mağazalar və ya sənətkar emalatxanaları olan qaranlıq örtülü qalereyalar, gündüzlər meyvə satanların əyləşdikləri səyyar- köşk dükancıqlar. Axşam düşəndə satıcılar öz mallarını elə bu köşklərdəcə saxlayıb onları bağlayırdılar.[1]

Şəhərin mərkəzi bazarı 980-dən çox müxtəlif dükan və emalatxanadan, 20 mehmanxanadan, 8 anbardan və 32 bazar at tövləsindən ibarət idi. Bu, adi Asiya bazarı idi. Geniş İrəvan bazarını görən düşünə bilərdi ki, burada ticarət və sənətkarlıq güclü şəkildə inkişaf etmişdi. Ancaq yüzlərlə dükan bomboş idi və xeyli tacir və sənətkarın kapitalı, mayası onlarla rubl yox cəmi bir neçə rubl təşkil edirdi. Meyxanaçılar, çayçılar, göysatanlar, çərçi belələrindən idilər.[2]

Bütün nəzərdən keçirilən dövr ərzində İrəvanda 8 hamam fəaliyyət göstərmişdir. Şəhər (Şeyxulislam), Zalxan, Mehdi bəy, Hacı Bəyim, Təpəbaşı, Hacı Əli, Hacı Fətəli və Kərim bəy hamamları.[3] Zalxan hamam kompleksində yeraltı çayxanadan əlavə muğam məclislərinin keçirilməsi üçün ayrıca otaq var idi. Hamamların hamısı xüsusi hamamlar olub ayrı-ayrı şəxslərə məxsus idi.[4]

Şəhərdə 555 sənətkar emalatxanası var idi; onlardan 262-si ermənilərə, 293-ü azərbaycanlılara məxsus idi. Şəhər sənayesi zəif inkişaf etmişdi və XIX əsrin sonuna yaxın bu sənaye ancaq konyak zavodu, 5 kərpicxana və bir neçə kiçik fabrikdən ibarət idi.[5] Sayı 75-ə bərabər olan araq zavodlarının (66-si "bag"

---

[1] СМОМПК, вып. 1, с. 34.

[2] Yenə orada, s. 34.

[3] Назим Мустафа. Указ. работа, с.9; СМОМПК, вып.1, с.38.

[4] Развитие Еревана после присоединения Восточной Армении к России, с.446.

[5] Ереван. – Энциклопедия Ираника.

zavodları, 9-u sənaye müəssisələri), 2 mineral su zavodu və 20 dəyirmanın istehsalı kifayət qədər məhdud həcmə malik idi. Şəhər hüdudları daxilində 3 mətbəə, 19 daş karxanası, 1 bilyardxana, 3 duz anbarı, habelə 4 ticarət kontoru, 5 bankir kontoru, 3 aptek var idi.[1]

1865-ci il ərəfəsində şəhərdə 2000-dən çox fərdi yaşayış evi və 40 xəzinə evi var idi.[2]

Şəhərin abadlaşdırılması üçün müəyyən addımlar atılırdı. XX əsrin əvvəllərində İrəvanın küçələrində 100-dən çox qaz və kerosin fənərləri qoyulmuşdu.[3]

1907-ci ildə varlı şəhər sakini Hacı İbrahim oğlu Zəngi çayı üzərində su elektrik stansiyası tikmək təşəbbüsü ilə çıxış etdi. 1909-cu ildə digər zəngin şəhərli – mühəndis Xəlil bəy Qasımbəyov öz həmkarı Arşak Malxasyansla birlikdə şərikli olaraq yaratdıqları "Kooperasiya" kompaniyasının adından su elektrik stansiyası tikmək təklifi ilə, şəhər idarəsinə müraciət etdilər. Lakin şəhər idarəsi şəhərin sərbəst vəsaitinin olmaması bəhanəsi ilə bu təklifi rədd etdi.[4]

1908-ci ildə İrəvanda artıq 64 küçə (onlardan da ancaq 6-sı birbaşa erməni adları daşıyırdı: Ter-Quxasov, Erməni, Subsərkis, Xocensmeydik, Astavatsat və Qəribanos) və 551 döngə var idi.[5]

1892-ci ilin vəba epidemiyası zamanı İrəvanda yoluxma və ölüm hallarının çoxluğu ilə əlaqədar olaraq İrəvan qubernatorunun təklifi ilə elə həmin il şəhər abadlığı üzrə komissiya yaradıldı. Bu hal, başlıca olaraq, küçələrin pis planlaşdırılması, əyri və çirkli döngələrin çoxluğu ilə əlaqədar idi. Bu, xüsusən də Şəhər və Dəmirbulaq məhəllələrinə aid idi. Bu komissiya zaman-zaman küçələrin yenidən qurulması

---

[1] СМОМПК, вып.1, с.38.

[2] Развитие Еревана после присоединения…, с. 446.

[3] СМОМПК, вып.1, с.38.

[4] Развитие Еревана после присоединения Восточной Армении к России, с.359.

[5] Yenə orada, ss. 356-357.

məsələləri ilə məşğul olurdu.[1]

Şəhərin abadlığı haqqında danışarkən qeyd etmək lazımdır ki, Qafqaz canişininin sərəncamına əsasən Sərdar sarayının Güzgülü salonu əsaslı şəkildə təmir olunmuşdur. Özü də bu təmir üçün 1978 rubl dövlət xəzinəsindən ayrılmış, 1770 rubl isə şəhər xəzinəsindən xərclənmişdi.[2] Lakin, yuxarıda da qeyd edildiyi kimi, bundan sonra nə Güzgülü salona, nə də Sərdar sarayına çar hökuməti tərəfindən lazımi diqqət yetirilməmişdir.

Yuxarıda deyilənlərə yekun vuraraq iddia etmək olar ki, şəhər tikililəri, şəhərin məhəllələri və küçələri, onların meydanaçıxma tarixləri və onların adları şəhadət verir ki, İrəvan əsli əzəli Azərbaycan şəhəri olmuşdur, onun arxitekturası Azərbaycan mədəniyyətinə aiddir. Lakin, təəssüf ki, Azərbaycan maddi mədəniyyətinin tarixi əhəmiyyətə malik olan bu incisi tamamilə və barbarcasına məhv edilmişdir.

## 2.2. İnzibati idarəçilik sistemi

Məlumdur ki, çar Rusiyasının işğallarınadək İrəvan xanlığı digər Azərbaycan xanlıqları kimi inzibati cəhətdən mahallara, mahallar isə kəndlərə bölünürdü. İrəvan xanlığında ali hakimiyyət burada da çox "sərdar" titulu daşıyan xana məxsus idi. Xanlıqda ikinci şəxs hesab edilən vəzir xanlığın, əsasən təsərrüfat işlərinə nəzarət edirdi. Xanın yanında tərkibi xan, vəzir və sarayda mühüm vəzifə tutan digər şəxslərdən və şeyxülislamdan ibarət xüsusi məşvərətçi şura – divanbəyinin rəhbərlik etdiyi divan fəaliyyət göstərirdi. Sarayda maliyyə işlərinə baxan sərkəre-ali, xanın saray təsərrüfatını idarə edən eşikağası, xəzinəyə başçılıq edən xəzinədar, xəzinənin mədaxil

---

[1] Развитие Еревана после присоединения Восточной Армении к России, с. 292-293, 356-358.

[2] Yenə orada, s.288.

və məxaricinə nəzarət edən sandıqdarağası, müxtəlif məhsullar saxlanılan anbarlara nəzarət edən anbardarağası, saray mühafizəçilərinin başçısı - qoruqbaşı və digər vəzifələr var idi.[1]

Xanlığın inzibati mərkəzi İrəvan şəhəri idi. Şəhər şimal tərəfdən Qırxbulaq, qərbdən və cənubdan Zəngibasar mahalları, şərqdən isə Oxçu dağının daşlı pillələri ilə həmsərhəd idi. İrəvan şəhəri içəri şəhər və bayır şəhər kimi iki hissədən ibarət idi. İçəri şəhər hesab olunan İrəvan qalasının daxilində sərdar sarayı, hərbçilərin evləri, dükanlar və iki məscid var idi. Bayır şəhər isə Şəhri, Təpəbaşı və Dəmirbulaq adlandırılan 3 məhəllədən ibarət idi.[2]

İrəvan şəhər rəisi vəzifəsini xan tərəfindən təyin edilən, təsərrüfat və inzibati işlərlə məşğul olan, vergilərin vaxtında toplanmasına nəzarət edən naib idarə edirdi. Xan şəhərdə olmayanda şəhərin idarəsini naib həyata keçirirdi. Qalabəyi İrəvan qalasının daxilində asayişi qoruyur, onun müdafiəsinə nəzarət edirdi. Şəhərdə isə asayişin qorunmasına darğa nəzarət edirdi. Yüzbaşılar, onbaşılar (yasovullar) ona tabe idilər.[3]

Şəhərdə asayişin qorunmasında İrəvan şəhər əhalisindən toplanılan gecə keşikçilərinin də rolu böyük idi. Gecə keşikçiləri – “əsəs”, keşik başçıları isə “əsəsbaşı” adlanırdılar. Əsəsbaşının səlahiyyəti əslində darğanın səlahiyyətlərindən də artıq idi. Gecə keşikçiləri müxtəlif dəstələrə bölünərək onlara həvalə olunmuş məhəllənin mühafizəsini həyata keçirirdilər. Həmin dəstələr bilavasitə əsəsbaşının qarşısında məsuliyyət daşıyırdı. Sənətkar və tacirlərdən toplan vəsaitin hesabına bazar və sənətkar dükanlarını qoruyan əsəs dəstələri təşkil olunurdu. İdarəçilikdə daha bir mühüm vəzifə şəhərdə din və ədəb qaydalarına nəzarət edən, polis rolunu oynayan Əmir-emaruf idi.[4]

---

[1] Mustafa N.Y. İrəvan şəhəri. Bakı, 2020, s. 51.

[2] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2010. səh. 143-145

[3] Mustafa N.Y. İrəvan şəhəri. Bakı, 2020, s. 52.

[4] Qarayev E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu–XIX yüzilliyin ortalarında). Bakı, 2016, s. 274.

İrəvan xanlığının idarəçilik sistemində məhkəmə sistemi də xüsusi yer tuturdu. Şəriət məhkəmələrinə nəzarəti qazı həyata keçirirdi. Ümumiyyətlə xanlığın məhkəmə sistemində din xadimlərinin nüfuzu böyük idi. Məhkəmələr dünyəvi əyanların idarə etdikləri hökuməti-cəbri və din xadimlərinin nəzarətində olan hökuməti-ədliyyə olmaqla iki hissəyə bölünürdü.[1]

İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğal olunması ilə təşkil olunan İrəvan vilayətinin idarə olunmasına dair qraf Paskeviç tərəfindən hazırlanmış 6 oktyabr 1827-ci il tarixli qaydalara əsasən general-leytenant Krasovskinin başçılığı altında yepiskop Nerses və İrəvan qalasının müvəqqəti komendantı podpolkovnik Borodindən ibarət Müvəqqəti İdarəçilik təşkil olunur. Müvəqqəti İdarəçiliyə "...diyarda sabitliyin təmin olunması, onun xarici hücum təhlükəsindən qorunması, əvvəlki hakimiyyətin zamanındakı gəlirlərin müəyyən olunması və onun rus hökumətinin xeyrinə yönləndirilməsi, İrəvan və Sərdarabad qalalarındakı rus qarnizonu və əhalisinin təchizatı, diyarın mühafizəsinin təşkil olunması məqsədilə rus hakimiyyətinə daha loyal yerli sakinlərdən, əsasən ermənilərdən, mühafizə dəstələrini təşkil etmək" kimi vəzifələr qoyulmuşdu.[2] Hərbi hakimiyyət xarakteri daşıyan bu idarəçiliyin başlıca vəzifəsi burada ictimai asayişi və əmin-amanlığı qorumaq, vergi və gəlirləri toplamaq, onun ərazisində yerləşdirilmiş ordu hissələrini təmin etmək idi.

Burada onu da qeyd edək ki, İrəvanın işğal olunması ilə Dövlət Sinodunun təklifinə əsasən imperatorun 4 noyabr 1827-ci il tarixli qərarı ilə İrəvan şəhər baş məscidi pravoslav kilsəsinə çevrilmişdi.[3]

Çar I Nikolayın 21 mart 1828-ci il tarixli fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində İrəvan və Naxçıvan kimi iki əyalətdən ibarət Erməni vilayəti yaradılmışdır. İrəvan

---

[1] Qarayev E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu–XIX yüzilliyin ortalarında). Bakı, 2016, s. 276.

[2] AKAK, т. VII, док. 432, сс. 480-481.

[3] Yenə orada, sən. 433, s. 481.

əyaləti İrəvan, Şərur, Sərdarabad və Sürməli, Naxçıvan əyaləti isə Naxçıvan və Ordubad dairələrindən ibarət idi. Dairələr mahallardan ibarət idi: İrəvan əyalətində 10, Naxçıvan əyalətində isə 3 mahal var idi.[1]

Paskeviçin baş qərargah rəisinə yazdığı 2 aprel 1828-ci il tarixli məktubundan bəlli olur ki, Krasovskinin başçılığı altında təşkil olunmuş Müvəqqəti İdarəçiliyin fəaliyyətsizliyi vilayətin idarəçiliyində dəyişiklikləri zəruri edirdi. Yeni qaydalara görə general-mayor knyaz Çavçavadzenin başçılığı altında iki hərbi qərargah zabiti (mülki məmurlar təyin olunana kimi), yerli sakinlərdən bir məşvərətçi səs hüququ verilməklə iki nəfər nüfuzlu şəxsdən (müsəlman və ermənilərin hərəsindən bir nəfər olmaqla) ibarət Erməni Vilayət İdarəsi təşkil olunurdu. Bu qaydalarla Naxçıvanla yanaşı İrəvan şəhərinin də idarəçiliyində dəyişikliklər olunurdu. İrəvanda polis hissəsi, məhkəmə və cəza idarələrinə ayrılmış şəhər idarə orqanı təşkil olunurdu. İrəvan şəhər idarəsinin tərkibinə bir rus polis rəisi və onun biri erməni, digəri azərbaycanlı olmaqla iki köməkçisi daxil idi. İrəvan şəhərində xəzinədar vəzifəsi də təsis olunurdu.[2] İrəvan qalasında isə 1829-cu il avqustun 2-də burada ikinci dərəcəli "ordonans-hauz" (komendant idarəçiliyinin daha bir forması) təşkil olunurdu.[3]

Erməni vilayətinin idarəçiliyi ilə bağlı qəbul olunmuş 1829-cu il 10 sentyabr tarixli yeni qaydalara görə İrəvanda vilayət rəisinin sədrliyi ilə vilayət idarəsi, şəhər məhkəməsi və xəzinədarlıq təşkil olunurdu. Yeni ştat tərkibinin saxlanması məqsədilə ildə xəzinədən 43040 gümüş rubl, bu idarələrin isidilməsi üçün odunun alınmasına ildə 1080 gümüş rubl vəsait ayrılırdı. Polis hissəsinin başçısının sədrlik etdiyi şəhər məhkəməsinin üzvləri şəhər xəzinədarı və əhali tərəfindən seçilmiş 4 kətxudadan ibarət idi. Məhkəmə cinayət və mülki

---

[1] АКАК, т .VII, док. 437, с. 487.
[2] Yenə orada, səh. 489.
[3] Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. IV (1829), часть 2-я, закон 3062, с. 578.

işlərə baxırdı. Şəhər polis idarəsinə rus məmurlarından olan polismeyster rəhbərlik edirdi, onun köməkçisi və pristavlar (yüzbaşılar) yerli sakinlərdən olmalı idi.[1]

Erməni Vilayət İdarəsinin nəzdindəki maliyyə hissəsinin tərkibi bir kargüzar və onun köməkçisi, bir mühasib və onun köməkçisi, iki baş məmur (stol rəisi), onların hərəsinin bir köməkçisi, 8 mirzə, bir xüsusi tapşırıqlar üzrə məmur, iki tərcüməçi, bir torpaqölçəndən ibarət idi.[2]

XIX əsrin 30-cu illərin əvvəllərində də Erməni vilayətinin idarəçiliyində müəyyən dəyişikliklər edilmişdir. Həqiqi dövlət müşaviri Palavandovun baron Rozenə yazdığı 3 fevral 1833-cü il tarixli raportunda "vilayətin əhalisinin xeyiri, hökumətin mənafeyi üçün orada mövcud olan idarəçiliyin dəyişdirilməsinin zəruriliyi" qeyd olunurdu. Onun tərəfindən hazırlanmış Erməni vilayətinin idarə olunması ilə bağlı qaydalarda göstərilirdi ki, vilayət rəisinin yanında xüsusi tapşırıqlar üzrə iki məmur təyin olunsun; vilayət idarəçiliyinin dəftərxanasına katib və tərcüməçidən əlavə iki kargüzar və lazımi sayda məmur müəyyən olunsun; Erməni vilayət İdarəçiliyi sədr, müşavir, iki iclasçı və yerli əhalidən olmaqla iki deputatdan ibarət müəyyən olunsun; vilayət məhkəməsinə məhkəmə və istintaq mülki işlərə baxmaq həvalə olunsun; bununla bərabər vilayət məhkəməsi cinayət işlərinə baxmaqdan azad olunsun və belə işlər İrəvan ordonans-hauzun (komendant idarəçiliyinin) nəzdində yaradılmış hərbi məhkəmə komissiyasına göndərilsin, bundan sonra isə İrəvan şəhər məhkəməsi ləğv olunsun; İrəvan şəhər polis idarəsinə polismeysterdən əlavə pristav funksiyalarını yerinə yetirən iki rus məmuru müəyyən edilsin; bu məmurlara yerli sakinlərdən olmaqla məhəllə mühafizəçiləri təhkim oluna bilərdi; Erməni vilayətində maliyyə hissəsinin bərbad vəziyyətdə olması nəzərə alınaraq onu Vilayət İdarəsindən ayırmaqla İrəvan şəhərində

[1] АКАК, т. VIII,док. 389, сс. 508, 511.

[2] Yenə orada, sən. 388, səh. 508.

“Erməni Vilayətinin Maliyyə İdarəsi” adı altında xüsusi maliyyə şöbəsi yaradılsın; bu şöbə sədr və iki köməkçidən ibarət olsun.[1]

Bu təkliflər Erməni vilayətinin idarəçiliyinin təşkili ilə bağlı 23 iyun 1833-cü il tarixli qanunla təsdiq olundu. Həmin qanunla İrəvan şəhərində sədr, onun köməkçisi və vilayət xəzinədarından ibarət Erməni vilayətində Mədaxil və Xəzinə Əmlakının İdarə Edilməsi üzrə idarə təşkil olunurdu. Yerli əhalinin məhkəmə işlərinə İrəvan ordonans-hauzunda baxıla bilərdi. İrəvan və Naxçıvanda əyalət məhkəmələri təşkil olunurdu. İrəvan şəhər polis hissəsinin başçısına kömək məqsədilə rus məmurlarından pristav təyin edilirdi. İrəvanda yerləşən komendant idarəçiliyi mülki idarəçilikdən ayrılırdı. Erməni vilayətinin idarəçiliyi üzrə yeni ştat təyin olunurdu ki, bununla da 1829-cu ilin sentyabrın 10-da müəyyən olunmuş köhnə ştatın fəaliyyəti dayandırılırdı.[2]

İrəvan şəhərində təşkil olunmuş mülki və məhkəmə işləri üçün əyalət məhkəməsinin tərkibi bir sədr, rus məmurlarından olmaqla bir iclasçı, yerli əhalinin nümayəndələrindən iki iclasçı, bir katib, bir qeydiyyatçı, iki mirzə, Azərbaycan dilində kağızlara baxmaq üçün bir mirzə, bir assistent-povıtçik (“povıtçik” - məhkəmənin yazılı və ya kargüzarlıq işləri masasından məsul olan katib, məhkəmədə yazı və əmr işləri üzrə masa müdiri), bir tərcüməçi, cəmi 11 nəfərdən ibarət idi. İrəvan şəhər polisinin tərkibi isə polis rəisi (polismeyster), bir pristav və 4 məhəllə nəzarətçisi, 10 onbaşı, bir kargüzar, bir tərcüməçi, üç mirzə, Azərbaycan dilində kağızlara baxmaq üçün bir mirzə, ümumilikdə 22 nəfərdən ibarət idi.[3]

Yeni qaydalara görə üç mərhələdən ibarət olan məhkəmə sisteminin birinci mərhələsində mübahisəli məsələlərə baxılır,

---

[1] АКАК, т. VIII, док. 388, сс. 506-508.

[2] Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. VIII (1833), часть 1-я, закон 6282, с. 374-375.

[3] Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. VIII (1833), часть 2-я, закон 6282, штаты и табели, с. 136-137.

növbəti mərhələdə iddia ilə bağlı hökm çıxarılırdı. Sonuncu, üçüncü mərhələ isə apelyasiya şikayəti ilə bağlı olmaqla həmin mərhələdə Qafqazdakı rus qoşunlarının baş komandanına müraciət edilirdi. Hərbi məhkəmə (və yaxud səhra məhkəməsi) isə İrəvan komendantının sədrliyi altında fəaliyyət göstərirdi.[1]

Cənubi Qafqazın idarəçiliyi ilə bağlı 1840-cı il 10 aprel tarixli yeni qanunla diyarın bütün inzibati sistemi Rusiyanın mərkəzi quberniyalarının nümunəsində yenidən qurulmuşdur. Cənubi Qafqazda Gürcüstan-İmeretiya quberniyası və Kaspi vilayəti olmaqla iki inzibatı vahid təşkil olunurdu. Erməni vilayəti müstəqil inzibati vahid kimi ləğv edilərək Gürcüstan-İmereti quberniyasının tərkibinə daxil edilmişdir. Burada İrəvan, Naxçıvan və Aleksandropol qəzaları yaradılmışdır.[2]

1840-ci il qanununa görə, şəhər başçısının rəhbərlik etdiyi İrəvan şəhər polis idarəsinin tərkibinə iki pristav, şəhər əhalisindən seçilmiş iki nümayəndə, dörd məhəllə nəzarətçisi, bir kargüzar, onun bir köməkçisi, bir mühasib, altı mirzə və 22 aşağı polis məmuru olmaqla, ümumilikdə 40 nəfər daxil idi. Qəza məhkəmələri və polis idarələrinin fəaliyyətinə nəzarət etmək üçün hər qəzada qəza prokuroru vəzifəsi müəyyən olunurdu. İlkin məhkəmə funksiyasına malik qəza məhkəmələri şəhərlərdə yerləşməklə yerli sakinlərin cinayət işlərinə də baxırdı. İrəvan qəza məhkəməsinin tərkibi bir nəfər qəza xəzinədarı, bir mühasib, onun bir köməkçisi, 5 mirzə, 3 andlıdan, ümumilikdə 11 nəfərdən ibarət idi.[3]

Çar I Nikolayın 14 dekabr 1846-cı il tarixli fərmanı ilə Cənubi Qafqaz inzibati cəhətdən Tiflis, Kutaisi, Şamaxı və Dərbənd olmaqla 4 quberniyaya bölündü. İrəvan və Naxçıvan qəzaları Tiflis quberniyasının tərkibinə daxil oldu. 1849-cu il

---

[1] Qarayev E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu–XIX yüzilliyin ortalarında). Bakı, 2016, s. 282.

[2] Семенов И. Я. Русские в истории Армении. Ер.: Лусабац, 2009, s. 48.

[3] Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. XV (1840), часть 1-я, закон 13368, s. 249; часть 2-я, штаты и табели, s. 60-62.

iyunun 9-da verilmiş İrəvan quberniyasının təşkil olunmasına dair imperator fərmanı ilə Tiflis quberniyasına daxil olan İrəvan, Naxçıvan və Aleksandropol (Ahalkələk məntəqəsi istisna olmaqla) qəzalarının, Şamaxı quberniyasından Mehri məntəqəsinin ərazilərini əhatə edən İrəvan quberniyası yaradıldı. İrəvan quberniyası 5 qəzaya (İrəvan, Yeni Bəyazid, Naxçıvan, Ordubad və Aleksandropol qəzaları) bölünmüşdü. İrəvan şəhəri yeni yaradılmış quberniyanın inzibati mərkəzi elan olundu.[1]

İrəvanın quberniya elan olunması ilə istər quberniya, istərsə də şəhər idarə orqanlarında müəyyən dəyişikliklər baş verdi. Beləki, artıq 1850-ci ildən etibarən İrəvan şəhərində quberniya idarə orqanlarının sayı artmışdı. Onlara quberniya idarəsi, quberniya məhkəməsi, qəza idarəçiliyi və şəhər polisi daxil idi. Polis idarə sistemində baş verən dəyişikliyə görə, artıq İrəvan şəhər polis idarəsinə şəhər başçısı deyil, polismeyster rəhbərlik edirdi. Polis idarəsinə həm də iki pristav və mühasib daxil idi. Qeyd etmək lazımdır ki, həmin ildə quberniya idarə orqanlarında 3 azərbaycanlı təmsil olunduğu halda (quberniya məhkəməsinin iclasçıları Nəzərəli Sultan Əsəd bəy oğlu, Molla Tağı Qurban oğlu və Ağa Mirrəfi Abutalib oğlu) ermənilərdən iki nəfər var idi.[2]

İrəvan şəhərində polisin kadr təminatına dair 1852-ci il 10 sentyabr tarixli qərarla şəhər polis komanda heyətinin təşkili artıq hərbi departament tərəfindən həyata keçirilirdi. Bu zaman əsasən heyətin tərkibinə ikinci kateqoriyadan olanların arasından aşağı rütbəlilər cəlb edilirdi.[3]

İrəvan quberniyasının inzibati quruluşunda dəyişikliklər edən növbəti tədbir Qafqaz və Cənubi Qafqaz diyarının yenidən qurulması barədə 9 dekabr 1867-ci il tarixli qərar oldu. Həmin

---

[1] Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. XXIV (1849), часть 2-я, закон 23303, s.312.

[2] Кавказский календарь на 1851 год. Кавказский адрес-календарь, отд. 5-е, s. 18-19.

[3] Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. XXVII (1852), часть 1-я, закон 26574, s. 548.

qərarla Cənubi Qafqazda Tiflis, Bakı və İrəvan quberniyalarından ayrılmış ərazilərin hesabına yeni - beşinci quberniya -Yelisavetpol quberniyası təşkil olundu. Həmin ildə İrəvan quberniyasında aparılmış yeni inzibati-ərazi bölgüsünə əsasən Ordubad qəzası ləğv edildi. İrəvan quberniyası yeni inzibati bölgüyə görə yenə də əvvəlki kimi 5 qəzadan ibarət idi: İrəvan, Yeni Bəyazid, Naxçıvan, Eçmiədzin və Aleksandropol qəzaları.[1]

İrəvan quberniyasının inzibati-idarəçilik sistemində 1874-cu il 3 noyabr tarixli qərarla edilmiş dəyişikliyə görə 1875-ci ildən onun tərkibində Sürməli və Şərur-Dərələyəz olmaqla daha iki yeni qəza yaradıldı. Nəticədə İrəvan quberniyasında qubernatora tabe olan rus hərbi və mülki məmurların başçılıq etdiyi qəzaların sayı 7-yə çatdı. Aparılmış yeni inzibati dəyişikliyə əsasən quberniyanın ərazisi İrəvan, Yeni Bəyazid, Naxçıvan, Sürməli, Eçmiədzin, Şərur-Dərələyəz və Aleksandropol qəzalarına bolünürdü.[2] Bu inzibati-ərazi bölgüsü 1917-ci ilə qədər dəyişilməz qalmışdı.

1870-ci il şəhər əsasnaməsi 1877-ci il 17 noyabr tarixli qərarla İrəvan şəhərində də tətbiq olundu. Qanunda İrəvan şəhərində duma qlasnılarının seçilməsi üçün komissiyanın yaradılması və yeni idarə orqanlarının təşkil olunması ilə şəhər dövlət idarəçiliyinin bütün idarələrinin yeni şəhər müəssisələrinə köçürülməsi nəzərdə tutulmuşdu. Yeni əsasnamə ilə müəyyən olunmuş şəhər idarələrinin təşkil olunması ilə İrəvan şəhər polis idarəsində mövcud olan mühasib və bazar nəzarətçisi vəzifələri ləğv olunurdu.[3] Yeni əsasnaməyə görə, eyni zamanda polis şöbəsinin nəzdindəki şəhər memarı vəzifəsi İrəvan Şəhər İctimai

---

[1] Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. XLII (1867), часть 2-я, закон 45259, s. 382-386.

[2] Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. XLIX (1874), часть 2-я, закон 54010, s. 353.

[3] Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. LII (1877), часть 2-я, закон 57882, s. 254-255.

İdarəçiliyə “Upravaya” daxil edilirdi.[1]

Bu qanuna uyğun olaraq İrəvan şəhərində 1870-ci il şəhər əsasnaməsinin tətbiq olunması məqsədilə təşkil olunmuş komissiyanın sədri Korqanov təyin olundu. Komissiyanın tərkibinə şəhərin azərbaycanlı və erməni əhalisinin hərəsindən 5 nümayəndə daxil edilmişdi. Komissiyanın üzvləri olan İrəvan azərbaycanlıları aşağıdakılar idi: Əhməd xan Süleyman xan oğlu, Mirzə Cabbar Qazıyev, Ağa bəy Hacı Abasqulu bəy oğlu, Abasqulu xan Moqbay (? – müəlif) xan oğlu, Hacı Əbdüləli Hacı Məmməd oğlu və Ağa Mirhacı Seyid Həsən oğlu.[2]

Şəhər özünüidarəsində iştirak etmək səviyyəsi şəhər xəzinəsinə ödənilən vergilərinin məbləğinə müvafiq idi. Ən yüksək məbləğdə vergi ödəyənlər (onların sayı adətən xeyli az olurdu) şəhər duması deputatlarının üçdən birini, onlardan bir neçə dəfə çox olub II qrup vergi ödəyənlər qlasnıların növbəti üçdən birini, az məbləğdə vergi ödəyiciləri, - onların sayı qat-qat çox idi, - qlasnıların sonuncu üçdən birini seçə bilərdi. Seçicilərin “kuriya” adlandırılan belə üç qrupa bölünməsi imperiyanın bütün şəhərlərdə tətbiq olunurdu. Beləliklə bütün şəhər seçiciləri üç dərəcəyə (kuriyaya) bölünmüşülər. İrəvan şəhər dumasına seçkilərdə iştirak edəcək seçicilər – daha yüksək ödənişlər edən və bütövlükdə vergilərin üçdə birini ödəyənlər birinci kuriyaya, onların ardınca birlikdə bütün vergilərin üçdə birini ödəyən digər qrup seçicilər və nəhayət sonuncu qrupa yerdə qalan vergi ödəyiciləri daxil edilmişdi. Artıq 1879-cu il oktyabrın 1-də İrəvan şəhər duması fəaliyyətə başladı.[3]

İrəvanda şəhər dumasının ilk sədri həm də şəhər qolovası V.A. Keqamov olmuşdur. Şəhər dumasının 64 qlasnısından 22 nəfəri azərbaycanlı idi.[4] Elə həmin qaynağın məlumatına görə,

---

[1] Развитие Еревана после присоединения Восточной Армении к России. (сборник документов, 1801-1917 гг.). Ереван, 1978, s. 82.

[2] Yenə orada, ss. 81-82.

[3] Yenə orada, ss. 83-84.

[4] Кавказский календарь на 1887 год. Тифлис, 1886. Адрес-календарь, с. 49-50.

şəhərin inzibati idarəçiliyində mühüm yer tutan bütün instansiyalarda əsasən qeyri-müsəlmanlar əyləşdirilmişdilər. Qubernator kürsüsündə baş qərargah generalı, gen-mayor M.Y. Şalikovun əyləşdiyi bu quberniyanın mərkəzi şəhərində ancaq barışıq münsibi vəzifəsini tutan kollegiya müşaviri İsmayıl bəy Qazıyev dövlət idarəçiliyində müsəlmanların nümayəndəsi idi. Ancaq elə həmin barışıq şöbəsinin hakimi Karl Karloviç Şon idi. Şəhərin bu barışıq hakiminin köməkçisi də Qubenko və Kurnosov idilər. Pristavların hər ikisi isə ermənilər idi. İrəvan qəza polis idarəsində də 14 nəfər məmurdan ancaq iki nəfəri azərbaycanlı idi: qəza polis idarəsi rəisinin köməkşisi kollegiya müşaviri Mehdi bəy Sultanov (o bu vəzifəni icra edən idi – müəllif) və tərcüməçi vəzifəsini icra edən Ələşrəf bəy Kazımbəyov. 1886-cı il seçkilərinin nəticələrinə görə, İrəvan şəhər dumasının azərbaycanlı qlasnılarının sayı sonrakı illərdə xeyli azalmışdı. 1900-cü ildə upravada bir nəfər – Fərəculla Şeyxov, şəhər dumasının tərkibində isə cəmisi 3 nəfər azərbaycanlı var idi: Pənah xan Makinski, Mirabbas Mirbabayev, Mirzə Cabbar Qazıyev. [1] 16 nəfərlik polis idarəsində 2 azərbaycanlı çalışırdı. 1905-ci ildə isə şəhər dumasının 45 üzvündən artıq 10 nəfəri azərbaycanlı idi. Elə həmin qaynağın məlumatına görə, İrəvan şəhər upravasının 16 nəfərlik tərkibində bircə nəfər azərbaycanlı məmur var idi: bazar nəzarətçisi Məmməd bəy Vəzirov. [2] "1917-ci il üçün Qafqaz təqvimi"nin məlumatına görə, İrəvan şəhər idarəsində 14 nəfərdən 3 nəfəri – polismeysterin köməkçisi Həsən bəy Vəzirov, şəhərin 1-ci hissəsinin pristavı Tofik bəy Sultanov və polis nəzarətçisi Rəşid Şəmşəddinov azərbaycanlılar idi. 17 nəfərlik İrəvan şəhər upravasında isə artıq bir nəfər də olsun azərbaycanlı qalmamışdı. Şəhər dumasının 56 nəfərlik

[1] Кавказский календарь на 1900 год. Тифлис, 1899. Адрес-календарь, с. 201-203.
[2] Кавказский календарь на 1905 год. Тифлис, 1904. Адрес-календарь, с. 217-218.

tərkibində isə 15 azərbaycanlı qlasnı var idi.[1] Bir sözlə İrəvan dumasında heç vaxt deputatların yarısı azərbaycanlılar olmamışdır.

Qeyd etmək lazımdır ki, İrəvan şəhər polis şöbəsi Cənubi Qafqazın Tiflis, Yelizavetpol, Kutaisi və Bakı şəhərlərində də olduğu kimi, qəza hakimiyyət orqanlarına tabe deyildi. Dairə məhkəmələri şəhərlərdə yerləşdiyindən İrəvan dairə məhkəməsi də İrəvan şəhərində yerləşirdi. Daha vacib işlərin təhqiqatının aparılması üçün İrəvan şəhərində yerləşən dairə məhkəməsində hərəsinə bir tərcüməçi təhkim edilməklə iki məhkəmə təhqiqatçısı ayrılmışdı.[2]

1893-cü il 17 aprel tarixli qərarla İrəvan şəhər polis idarəsinin yeni ştatı müəyyən olunmuşdur. 1894-cü ilin yanvarın 1-dən etibarən şəhər polis idarəçiliyinin yeni ştatının saxlanması üçün 5 il müddətində ildə 24156 rubl ayrılırdı. Bu vəsaitin illər üzrə bölgüsü aşağıdakı kimi müəyyən olunmuşdu: birinci, 1894-cü ildə həmin vəsaitin 10 min rublu dövlət xəzinəsindən ayrılırdı, yerdə qalan məbləğ isə İrəvan şəhərinin gəlirlərinin hesabına ödənməli idi. Dövlət xəzinəsindən ayrılan məbləğ ildən ilə azalmaqla beşinci il üçün yalnız 1000 rubl təşkil etməli idi. Buna görə də 1894-cü ildən etibarən Cənubi Qafqaz diyarının şəhərlərində polisin saxlanması üçün ayrılan 13907 rubldan İrəvan şəhərinin payına düşən 3355 rubl 84 qəpik vəsaitin buraxılışı dayandırılırdı.[3]

Yerli polisin saxlanması üçün lazım olan vəsaitin xəzinə ilə İrəvan şəhəri arasında bölüşdürülməsi barədə 1898-ci il 18 noyabr tarixli qanun verilmişdir. Həmin qanuna görə, şəhər polis idarəsinin saxlanması üçün 1893-cü il 17 aprel tarixli qərarla müəyyən edilmiş illik 24156 rubl vəsaitin 1899-cu il yanvarın 1-

---

[1] Кавказский календарь на 1917 год. Тифлис, 1916. Адрес-календарь, с. 302-305.

[2] Полное собрание законов Российской империи. третье собрание (1881-1913), Т. III (1883), часть 2-я, закон 1522, s. 201-203.

[3] Полное собрание законов Российской империи. третье собрание (1881-1913), Т. XIII (1893), закон 9501, s. 202-203.

dən etibarən 8 min rublu dövlət xəzinəsinin, qalan 16156 rublu isə İrəvan şəhərinin gəlirlərinin hesabına təmin olunmalı idi.[1]

İrəvan şəhərinin inzibati-idarəçilik sistemindən bəhs edərkən çarizmin bu sahədəki milli-müstəmləkəçi siyasəti xüsusi olaraq qeyd olunmalıdır. Belə ki, ayrı-ayrı illər üzrə şəhər idarəçilik sistemində şəhərin əsas-aborigen yerli sakinləri olan azərbaycanlıların təmsilçiliyinin hansı səviyyədə olduğuna diqqət etdikdə çarizmin ayrı-seçkilik siyasəti daha çılpaqlığı ilə üzə çıxır.

1846-cı il üçün İrəvan quberniyası üzrə idarə orqanlarında cəmi iki nəfər azərbaycanlı təmsil olunmuşdu. Onlar qəza məhkəməsinin iclasçıları, şəhər zümrələrindən seçilmiş Ağa Mirrəfi Mirabutalıb oğlu və kənd zümrələrindən seçilımiş Paşa bəy Ağababa Sultan oğlu idilər.[2]

1847-ci il üçün isə şəhərin idarə orqanlarında azərbaycanlıların təmsilşiliyi 1 nəfərə enmiş, hakimiyyət orqanlarında yalnız qəza məhkəməsinin iclasçısı qismində, şəhər zümrələrindən seçilmiş Ağa Mirrəfi Mirabutalib oğlu təmsil olunmuşdu.[3]

1849-1850-ci illərə dair məlumatdan bəlli olur ki, İrəvan şəhərində mövcud olan idarə orqanlarında – qəza idarə orqanı, qəza məhkəməsi və şəhər idarə orqanında bir nəfər də olsun azərbaycanlı yox idi.[4]

İrəvanın ayrıca quberniya olması ilə onun idarəçiliyində də müəyyən dəyişiklik baş vermişdir. 1851-ci ilə dair məlumatda İrəvan şəhərində mövcud olan idarə orqanlarında –

---

[1] Полное собрание законов Российской империи. третье собрание (1881-1913), Т. XVIII (1898), часть 1-я, закон 16082, s. 990.

[2] Кавказский календарь на 1846 год. Тифлис, 1845. Кавказский адрес-календарь, с. 169-170.

[3] Кавказский календарь на 1847 год. Тифлис, 1846. Кавказский адрес-календарь, с. 187.

[4] Кавказский календарь на 1849 год. Тифлис, 1848. Кавказский адрес-календарь, с. 12-13; Кавказский календарь на 1850 год. Тифлис, 1849. Кавказский адрес-календарь, с. 12-13.

quberniya idarəsi, qəza idarəsi, quberniya məhkəməsi və şəhər polis idarəsində azərbaycanlılar yalnız 3 nəfərlə quberniya məhkəməsində təmsil olunmuşdular. Bundan əlavə quberniya məhkəməsində bir erməni və bir gürcü də var idi.[1]

1890-cı ildə İrəvan şəhər idarəçiliyində çalışan 13 nəfərdən yalnız bir üzvü azərbaycanlı idi (Bağır xan İrəvanski). Dumanın tərkibində isə 60 qlasnıdan 20-si azərbaycanlı idi.[2] 1896-cı ildə dumada cəmi 7, upravada isə 2 azərbaycanlı var idi.[3]

1916-cı ilə dair məlumata görə İrəvan polis idarəsinin rəisi P.Q. İqnatyev, köməkçisi Həsən bəy Vəzirov idi. S.A. Xaçaturyanın başçılıq etdiyi İrəvan şəhər idarəsinin tərkibində bir nəfər də olsun azərbaycanlı yox idi. S.A. Xaçaturyanın sədrlik etdiyi (katibi Q.B. Ter-İoannisyan) şəhər dumasının 56 üzvündən yalnız 16 nəfəri azərbaycanlı idi.[4]

1917-ci ildə də S.A. Xaçaturyanın başçılıq etdiyi, tərkibi demək olar ki, tamamilə ermənilərdən ibarət olan İrəvan şəhər idarəsində azərbaycanlı yox idi. Şəhər polis idarəsində azərbaycanlılar 3 nəfərlə təmsil olunmuşdular: rəis köməkçisi Həsən bəy Vəzirov, şəhər pristavları Tofiq bəy Sultanov və polis nəzarətçisi Rəşid Şəmsəddinov. Həmin ildə yenə də şəhər dumasının sədri S.A. Xaçaturyan, katibi Q.B. Ter-İoannisyan olmaqla qlasnıların içərisində 16 nəfər azərbaycanlı var idi.[5]

Yuxarıda gətirilmiş məlumatlar bir daha göstərir ki, müstəmləkəçi romanovlar rejimi İrəvan torpaqlarımızda ağalıq etdiyi 90 il ərzində başqa sahələrdə olduğu kimi inzibati-

---

[1] Кавказский календарь на 1851 год. Тифлис, 1850. Кавказский адрес-календарь, с. 18-19.

[2] Кавказский календарь на 1890 год. Тифлис, 1889. Отд. 2-е, с. 142.

[3] Кавказский календарь на 1896 год. Тифлис, 1897. Кавказский адрес-календарь, с. 163-164.

[4] Кавказский календарь на 1916 год. Тифлис, 1915. Адрес-календарь, с. 253-256.

[5] Кавказский календарь на 1917 год. Тифлис, 1916. Адрес-календарь, с. 304.

idarəçilikdə də qatı milli-dini ayrıseçkilik mövqelərində dayanmış, bu torpaqların əsas sahibkarları olan aborigen azərbaycanlıları inzibati-ərazi idarəçiliyi sisteminə də çox böyük qısqanclıqla, son dərəcə cüzi sayda buraxmağa çalışmışdır. Çarizmin burada da dönmədən sadiq qaldığı milli müstəmləkəçilik siyasəti digər müstəmləkə ucqarları kimi İrəvanı da xristianlaşdırmağa, müsəlmanların, türklərin rolunu heçə endirməyə çalışaraq öz mürtəce xislətindən dönmədən əl çəkməmişdir.

## 2.3. Əhali

XIX-XX əsrin əvvəllərində İrəvan şəhərində baş vermiş demoqrafik proseslər özündə çarizmin Azərbaycan türklərinə – avtoxton əhaliyə münasibətdə yürütdüyü, xristianlaşdırmaya, assimilyasiyaya və etnosidə yönəlmiş müstəmləkəçi siyasətin qaba təzahürünü əks etdirirdi.

Azərbaycanın tarixi ərazilərindəki, o cümlədən də mərkəzi İrəvan şəhəri olmuş İrəvan xanlığının ərazisindəki bir çox etnik proseslərin tarixi köklərə və siyasi əsasları müsəlmanların məskunlaşdıqları ərazilərdə çarizmin özünə həmdinlərdən ibarət dayaq yaratmaq məqsədi ilə erməniləri kütləvi şəkildə Şimali Azərbaycana köçürməsindən qaynaqlanırdı. Çar hökümətinin ermənilərə xüsusi rəğbəti onunla şərtlənirdi ki, ermənilər Rusiyanın müstəmləkəçi məqsədlərinin yerinə yetirilməsi üçün başqalarından daha yaxşı uğun gəlirdilər. Əvvəla, iqtisadi nöqteyi-nəzərdən ermənilərin Qacar və Osmanlı imperiyalarından köçürülmələri rusların Mərkəzi Rusiya quberniyalarından köçürülmələrinə nisbətən xeyli az vəsait tələb edirdi. İkincisi, ermənilər, ruslardan fərqli olaraq, müsəlmanların güclü və zəif tərəflərinə daha yaxşı bələd idilər. Üçüncüsü, ermənilər bölgənin iqlim şəraitinə daha yaxşı uyğunlaşmışdılar.[1]

Yervand Şahəziz "Qədim İrəvan" kitabında yazırdı ki, İrə-

---

[1] Балаев, А. **Азербайджанская нация/** M, 2012, s. 66.

vanda ancaq türklər yaşayırdılar, ermənilər isə ancaq ticarət dükanlarına malik idilər.[1] 1701-ci ildə İsrail Ori Moskvaya gəlmiş və Cənubi Qafqazın istilası üzrə təkliflərindən ibarət olan yaddaş qeydlərini I Pyotra təqdim etmişdi. Bu qeydlərin 7-ci bəndində İsrail Ori yazırdı ki, İrəvanda 300 erməni yaşayır və əgər onlarla razılığa gəlinsə onlar qala darvazalarını açarlar[2].

İrəvan əyalətinin icmal dəftərinin məlumatlarına görə, 1728-ci ildə İrəvan şəhərində 428 ailəli türk-müsəlman, 224 ailəli və 9 subay xristian kişi qeydə alınmışdır. Əgər nəzərə alınsa ki, bu icmal dəftərində subay müsəlmanlar qeydə alınmayıblar (belə ki, bu icmallara doğum haqqında deyil, ancaq evlənmə haqqında qeydlər daxil edilirdi), onda aydın olur ki, müsəlman-türklərin sayı xeyli çox idi. Lakin hətta bu məlumatlarla kifayətlənsək və hər ailənin üzvlərinin sayını orta hesabla 5 nəfər hesab etsək, onda bu dövrdə şəhərdə qeydə alınmış 3 369 nəfərin yaşadığı ortaya çıxır; bunlardan 63,5%-i türklər, 21,6%-i ermənilər və 14,9%-i (100 ailə) boşlar (daimi yaşayış yerləri olmayan və köçəri həyat sürən xristian erməni qaraçıları) idi.[3] Nadir şahın etibarını qazanmış katokikos Qazar Çaxçesinin təşəbbüsü ilə 1740-cı ildə Şərqi Anadoludan çoxlu erməni çıxarılmış və Üçmüəzzində məskunlaşdırılmışdı.[4]

İrəvan xanlığının ərazisinə ermənilərin kütləvi surətdə köçürülmələri rus ordusunun bura daxil olmasından sonra başladı. Çar hökuməti erməniləri Şimali Azərbaycan ərazisinə köçürərək imperiyanın müstəmləkə siyasətinin başlıca vəzifələrindən birini yerinə yetirirdi: istila edilmiş düşmən, yaddinli, yaddilli, yadetnik ölkədə dindaşlarla məskunlaşdırılmış ərazi yaratmaq; bu da

---

[1] Yervand Şahəziz. **Qədim İrəvan/** Erevan, 1931 (на арм. языке), s.31; Nazim Mustafa. Göst.əsəri.

[2] Эзов, Г.А. **Сношения Петра Великого с армянским народом. Документы/** СПб, 1898, с. 88.

[3] **İrəvan əyalətinin icmal dəftəri**/ s. 18; Nazim Mustafa. Göst.əsəri/ s. 32.

[4] James Justinian Morier. **A second journey through Persia, Armenia and Asia Minor, to Constantinopole, between the years 1810-1816**/ London,1818, s. 320-321; Nazim Mustafa. Göst.əsəri/ s. 33.

“rus işinin” xeyrinə “işləməli” idi. Bu nöqteyi nəzərdən həm müsəlman Osmanlı imperiyası, həm də müsəlman Qacar səltənəti ilə həmsərhəd olan İrəvan və Naxçıvan xanlıqlarının ərazisi xüsusi əhəmiyyətə malik idi. Göstərilən xanlıqların ərazisində “əhali, mümkün olan qədər, xristianların hesabına” artırılırmış və “Erməni vilayəti” deyilən “bufer” ərazi yaradılmışdı ki, burada da Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinin şərtlərinə əsasən köçmüş ermənilər yerləşdirilmişdilər.

Qafqaz əhalisinin etnik tərkibinin tanınmış tədqiqatçısı B.İşxanyanın yazdığı kimi; “qədim tarixi mənada ermənilərin həqiqi vətəni Kiçik Asiyadadır, yəni Rusiyanın hüdudlarından kənardadır”.[1]

Beləliklə, ermənilər özləri üçün yad olan ərazidə cəmləşdirilirdilər. Paralel olaraq Azərbaycan türklərinin öz əzəli torpaqlarından sıxışdırılıb çıxarılması, onların “səpələnməsi” və “qarışdırılması” siyasəti həyata keçirilirdi.[2]

İrəvan və Naxçıvan xanlıqlarının yerində “Erməni vilayəti” yaradılanda (21 mart 1828-ci il) Qərbi Azərbaycanda 81749 müsəlman və 25131 erməni yaşayırdı. Lakin bu rəqəmlər Qərbi Azərbaycanın Rusiya tərəfindən işğalı və bu torpaqlara ermənilərin köçürülməsinədək buranın əhalisi haqqında tam və düzgün təsəvvür yarada bilməz; beləki, bu torpaqların istilasının başlanmasından etibarən müsəlmanlar öz əzəli torpaqlarından sıxışdırılıb çıxarılır, qovulur, köçürülür və burada ermənilərin yerləşdirilməsi prosesi gedirdi. Göstərilən dövrdə 800 qarapapaq ailəsi Arazın o tayına, 100 ailə isə bilavasitə Qarsa qaçmışdır; Uluxanlı camaatından 600 ailə Bəyazidə qaçmış, 300 ayrım ailəsi isə Qarsa köçmüşdür. Xanlığın müxtəlif hissələrindən 1820 ailə Osmanlı imperiyasında sığınacaq tapmışdır. Beləliklə, “Erməni vilayəti”nin yaradılması nəticəsində 18000 nəfərdən çox müsəl-

[1] Ишханян, Б. **Народности Кавказа/** Пгр, 1917, с. 18.
[2]**АКАК/** т.2, с.154; Вердиева, Х.Ю. **Переселенческая политика Российской империи в Северном Азербайджане/** Б, 1999, с. 105.

man (3600 ailə, orta hesabla hər biri 5 nəfərdən) İrəvan xanlığının ərazisini tərk etmişdi. Yuxarıda gətirilmiş faktlara söykənərək yüksək dərəcədə yəqinliklə iddia etmək olar ki, İrəvan xanlığının Rusiya imperiyası tərəfindən istilası ərəfəsində xanlığın ərazinisdə 100 min nəfərə yaxın müsəlman və 25 min erməni yaşayırdı.[1]

General Sipyaginin Azərbaycanın keçmiş "İrəvan xanlığının "Erməni vilayəti"nə transformasiyası üçün, bu vilayətdə azərbaycanlıların dominantlığını ləğv etmək üçün, çarizmə lazım olan 15 min erməni ailəsinin, təxminən 80 min erməninin bura köçürülməsi kifayət idi" fikri də yuxarıda göstərilən məlumatların doğruluğunu dolayısı yolla sübut edir.

Konkret İrəvan şəhərinə gəldikdə isə qərb tədqiqatçıları Q.Burnoutyan və R.Hyüson "İranika ensiklopediyası"nda nəşr olunmuş "The Persian khanate Erevan" məqaləsində yazırlar: "... Müharibələr nəticəsində 1804-cü ildə İrəvan şəhərinin əhalisi 6 min nəfərə enmişdir. 1827-ci ildə, sonuncu xanın hakimiyyəti dövründə, əhalinin sayı 20 min nəfərə çatmışdı. Ermənilər əhalinin cəmisi 20%-ni təşkil edirdilər. Türkmənçay müqaviləsindən və ermənilərin İran və Türkiyədən immiqrasiyasından sonra şəhərin erməni əhalisi[nin xüsusi çəkisi] 40%-ə çatmışdır. İran rəhbərliyi və hərbçiləri şəhəri tərk etdikdən sonra İrəvanın ümumi əhalisi 12 min nəfərədək azalmışdı. Beləliklə, bu qaynağın məlumatlarına görə, İrəvan xanlığının Rusiya qoşunları tərəfindən istilasına qədər ermənilər 4 min nəfər (20 min nəfərdən 20%), azərbaycanlılar isə 16 min nəfər (20 min nəfərdən 80%) idi. İstiladan sonra şəhərin 12 min nəfər əhalisindən 40% (4 800 nəfər) erməni idi. Deməli, azərbaycanlılar təxminən 7200 nəfər (istilaya qədərki 16 min nəfərdən 7 200 nəfər) qalmışdı. 8 min 800 nəfər azərbaycanlı – bütün azərbaycanlıların yarısından çoxu ya həlak olmuş, ya da başqa yerlərə köçmüşdülər.[2]

---

[1] Bayramov, İ. **Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizlənmə siyasəti/** B, 2012, s. 34-35.

[2] Назим Мустафа. **Город Иреван**/ Bakı, 2020, s. 34//

Fransız mənşəli rusiyalı tədqiqatçı İ.Şopenin məlumatlarından məlum olur ki, 1829-1832-ci illərdə həyata keçirmiş kameral təsvirin nəticələrinə görə bütün Erməni vilayətində 31201 ailə və ya 164450 nəfər əhali qeydə alınmışdır. Bunlardan 16078 ailə (51,5%) və ya 81749 nəfəri (49,8%) azərbaycanlıların payına düşürdü; köçürülmələrə qədər burada 4428 erməni ailəsi (14,2%) və ya 25151 erməni (15,3%) yaşamış, Qacarlar İranından köçürülmüş erməni ailələrinin sayı 6949 (22,3%), ermənilərin sayı isə 35560 nəfər (21,7%) olmuşdur. Osmanlı Türkiyəsindən isə 3682 erməni ailəsi (11,8%) və ya 21666 erməni (13,2%)[1] köçürülmüşdür. Gördüyümüz kimi köçmüş ermənilər bu dövrdə vilayət əhalisinin 34,9% təşkil edirdilər.

Arxiv məlumatlarına görə, 1843-cü ildə İrəvan qəzasında 58280 azərbaycanlı (34250 kişi və 27855 qadın) və 42540 erməni (22641 kişi və 19879 qadın) yaşayırdı.[2] Lakin bu qaynaq həmin məlumatlardan İrəvan şəhəri üzrə olan rəqəmləri müəyyənləşdirməyə imkan vermir. Başqa qaynaqlara müraciət edərək XIX əsrin I yarısında İrəvan şəhəri və əhalisinin say dinamikasını izləməyə cəhd edək:

### 1829-1856-cı illərdə İrəvan şəhərinin əhalisi

| 1829-1832-ci illər[3] | | | 1842-ci il[4] | | | 1856-cı il[5] | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Kişi** | **Qadın** | **Cəmi** | **Kişi** | **Qadın** | **Cəmi** | **Kişi** | **Qadın** | **Cəmi** |
| 5897 | 5566 | 11463 | 6365 | 5945 | 12310 | 6744 | 6435 | 13179 |

---

**www.iranica.com/newsite/articles/v8f561.html,(04.07.2022**);

[1] Ениколопов, И.К. **Грибоедов и Восток / Айастан, 1974**,с. 129.

[2] Шопен, И. **Исторический памятник состояния Армянской области…**/ СПб, 1852, с. 539.

[3] Yenə orada, ss. 543-546.

[4] **Статистические таблицы городов Российской Империи/** СПб, 1842, с. 8-9, 48-49.

[5] Yenə orada, вып.V за 1856 , СПб, 1858, с. 174-175.

Yuxarıda verilmiş cədvəldən görünür ki, 1829-1832-ci illərdən 1842-ci ilədək şəhərin əhalisi 847 nəfər (7,3%), 1842-1856-cı illərdə isə 869 nəfər (7,1%) artmışdı. Bütövlükdə isə 1829-1832-ci illərdən 1856-cı ilədək buradaki əhali 1716 nəfər (14,5%) artmışdı ki, bu da, daha çox Nork kəndinin şəhərə daxil edilməsinin nəticəsi idi.[1]

Belə bir hal diqqəti cəlb edir ki, 1842-ci və 1856-cı illərdə qadınların sayı kişilərin sayından az idi: 1842-ci ildə 420 nəfər, 1856-cı ildə isə 309 nəfər. Göstərilən bu hal, təbii ki, əhalinin təbii artımına təsir edirdi. Bu fakt dolayısı yolla ona da dəlalət edir ki, İrəvan əhalisinin artımı təbii artımdan daha çox köçürmələrin hesabına baş verirdi.

Nəzərdən keçirilən dövrdə İrəvan əhalisinin milli tərkibi və burada yaşayan millətlərin say nisbəti böyük dəyişikliklərə məruz qalmışdı. İrəvan xanlığı dövründə İrəvan şəhərində 2400 ailə var idi. Bunlardan, eləcə də əhalinin ümumi sayından 15%-ni ermənilərin, 84,6%-i azərbaycanlıların payına düşürdü.[2]

Rusiya istilasının gedişində azərbaycanlıların bir hissəsi məhv edilmiş, bir hissəsi isə İrəvanı tərk etmək məcburiyyətində qalmışdır. İrəvanlıların rus istilaçılarına necə gərgin müqavimət göstərdikləri hamıya məlumdur. İ.Şopen qeyd edirdi ki, İrəvan xanlığının Rusiya tərəfindən istilasından sonra bu əyalətin ərazisində 2984 azərbaycanlı ailəsindən 847 ailə (və ya 28%) qalmış, yəni yerli azərbaycanlıların sayı 3,5 dəfə azalmışdı. Gedənlər əsasən Qacar və Osmanlı imperiyalarına mühacirət edirdilər.[3]

Rusiya tərəfindən İrəvanın istilasından sonra şəhər qarnizonu rus qarnizonu ilə, xan məmurları isə – rusiyalılarla əvəzləndilər. Xan ailəsinə yaxın olanların çoxu şəhəri tərk etmək, Qacarlar səltənətinə mühacirət etmək məcburiyyətində qaldılar.

---

[1] Акопян, Т.Х. **Очерк по истории Еревана/** Ереван, 1977, с. 174.

[2] **История армянского народа/** Ереван, ч.I, 1951, с. 219-220, 236; **Исмаил-заде, Д.И**. Население городов Закавказского края в XIX - начале XX вв./Москва,1991, s. 69.

[3] Шопен, И. Указ. раб., с. 541; Verdiyeva, H.Y. Göst.əsəri/ s. 113.

İrəvanda erməni əhalisinin artması baxımından Türkmənçay müqaviləsinin, konkret olaraq onun 15-ci maddəsinin xüsusi rolu oldu: bu maddə ermənilərə Qacar ərazisindən sərbəst surətdə köçmək və 1828-ci ildə rusiyanın yenicə işğal etdiyi ərazilərdə – İrəvan və Naxçıvan xanlıqlarının ərazisində məskunlaşmağa imkan verdi.

Köçürmələrə rəhbərlik polkovnik L.Y.Lazarevə həvalə olunmuşdu.[1] A.Qroboyedov Paskeviçə raportunda yazırdı: "Ermənilər ən çox müsəlman mülkədarların torpaqlarında məskunlaşırdılar... Köçkünlər darısqallıqdadırlar və hey əsaslı olaraq deyinən müsəlmanları sıxışdırırlar."[2]

1828-1829-cu illərdə Şimali Azərbaycan hüdudlarına Qacarlar İranından 40000-45000 erməni, cəmisi 8249 erməni ailəsi köçürülmüşdür. Onlardan 1715 nəfəri (366 ailə) İrəvanda məskunlaşmışdı.[3]

1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsindən sonra Şimali Azərbaycana daha çox erməni köçürülmüşdü. Osmanlı imperiyasından olan belə köçkünlərin sayı təxminən 90 min nəfərə çatırdı. Onlardan cəmisi 48 nəfəri (11 ailə) İrəvanda məskunlaşdırılmışdı.[4]

Osmanlı imperiyasından köçüb gəlmiş ermənilər cənubdakı mahallarda və Göyçə gölündən qərbdə məskunlaşmağa üstünlük verərək şəhərlərdə yaşamaq istəmirdilər. Bu bölgələrdə onlar Kəvər kəndinin yerində Yeni Bəyazid şəhərinin əsasını qoydular.[5]

Bu səbəblər, habelə Türkmənçay və Ədirnə sülhlərinin imzalanmasından sonra ermənilərin şəhərə axışması nəticəsində 1832-ci il ərəfəsində İrəvan əhalisinin mənzərəsi belə idi:

---

[1]Глинка, С. **Описание переселения армян азербайджанских в пределы России/** М, 1831, с. 52.

[2] Грибоедов, А. **Записка о переселении армян в наши области/ Полное собрание сочинений//** т.3. Пгр, 1917, с. 267-270.

[3] Шопен, И. Указ. раб., / с. 539.

[4] Акопян, Т.Х. **Очерк истории Еревана**/ Е, 1977, с. 174.

[5] Ерицев, А.Д. **Данные об армянском населении России/ Известия КОИРГО**// Тифлис, 1882-1883, т.77, с. 93.

## Milli və cinsi tərkibi göstərməklə 1832-ci il ərəfəsində İrəvan şəhərinin əhalisi[1]

| Azərbaycanlılar | | | Ermənilər | | | | | | Cəmi | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kişi | Qadın | Cəmi | Yerlilər | | | Köçkünlər | | | Kişi | Qadın | Cəmi |
| | | | Kişi | Qadın | Cəmi | Kişi | Qadın | Cəmi | | | |
| 3749 | 3582 | 7331 | 1220 | 1149 | 2369 | 928 | 835 | 1763 | 5897 | 5566 | 11462 |

Gördüyümüz kimi, azərbaycanlılar üçün hətta belə əlverişsiz şəraitdə şəhərin azərbaycanlı əhalisi erməniləri xeyli üstələyirdi: əhalinin 65%-ini azərbaycanlılar, 35%-ni ermənilər (20%-i yerli, 15%-i köçkün) təşkil edirdilər.

XIX əsrin ortaları və II yarısında İrəvan şəhər əhalisi sayının dinamikası növbəti cədvəldə əks olunmuşdur:

## 1859-cu ildən 1880-ci ilədək İrəvan şəhər əhalisinin sayı[2]

| 1859 | 1863 | 1865 | 1873 | 1880 |
|---|---|---|---|---|
| 12267 | 12575 | 14070 | 12050 | 12449 |

1859-1880-ci illərdə şəhər əhalisinin sayı, demək olar ki, dəyişməmiş qalmışdır. Təkcə 1865-ci il istisna təşkil edir ki, bu da 1147 nəfərlik qarnizon hərbi qulluqçularının şəhər əhalisi sırasına daxil edilməsi ilə izah olunmalıdır. Həmin 1865-ci ilin göstəricilərinə həm də 300 nəfərədək müvəqqəti yaşayan sakinlər daxil edilmişdirlər ki, buna da, adətən, statistika qeydiyyatında yol verilmirdi.[3]

İrəvan əhalisinin ləng artım tempi başqa səbəblərlə yanaşı

---

[1] **RDTA**, F.384, siy.4, iş.8, v.23; Шопен, И, Указ. раб., с. 539.

[2] **Эриван, (Географическо-статистический словарь Российской империи)**/ т.5, с. 870; **Статистический временник Российской империи,** сер.2, вып.1, СПб, 1871, с. 191; Yenə orada, вып.10, СПб, 1875, с. 108; Акопян, Т.Х. Указ. раб., / с. 174.

[3] Акопян, Т.Х. Указ. раб., / с. 174.

onun zəif iqtisadi inkişafının nəticəsi idi. Əlli il ərzində şəhərin əhalisi cəmisi 986 nəfər artmışdı, yəni əhalinin orta illik artımı təxminən 0,1% təşkil etmişdi. Bunun səbəbi, məhsuldar qüvvələrin ləng inkişaf tempi ilə yanaşı, həm də aşağı təbii artım idi. Daxili miqrasiya prosesi, yəni əhalinin iqtisadi cəhətdən daha inkişaf etmiş mərkəzlərə axını da kifayət qədər genişmiqyaslı idi.

XIX əsrin 80-90-cı illərində İrəvan əhalisi daha sürətlə artmışdır. Beləki, 1886-cı ildə şəhərin əhalisi 14683 nəfərə,[1] 1897-ci ildə isə 29006 nəfərə çatmışdır. Yəni, demək olar ki, ikiqat artmışdır. Demoqrafiya qanunlarına əsasən normal təbii artım şəraitində əhalinin sayı hər 25 ildə ikiqat arta bilər. Lakin 1886-cı ildən 1897-ci ilədək cəmisi 11 il keçmişdir, nəzərə də alsaq ki, ermənilər içərisində uşaq ölümləri 64%-dən 84%-dək təşkil edirdi, onda tamamilə aydın olur ki, əhalinin bu artımı onun mexaniki hərəkəti ilə bağlı idi. Məsələ burasındadır ki, erməni “Hnçaq” və “Daşnaksütyun” partiyalarının təsiri altında XIX əsrin 90-cı illərində Sasun və Vanda ermənilər arasında həyəcanlar başlamışdı. Vanda erməni qiyamının yatırılmasından sonra Osmanlı imperiyasından Cənubi Qafqaza, əsasən də Şimali Azərbaycana erməni qaçqınları sel kimi axışırdı. Arxiv məlumatlarına görə, onların sayı 75 min nəfərə çatırdı.[2] Görünür ki, bu qaçqınların xeyli hissəsi İrəvan şəhərində məskunlaşmışdılar və həmin dövrdə şəhər əhalisinin kəskin artımı da elə bununla izah olunur.

XIX əsrin 50-ci illərinin ortalarında azərbaycanlılar əvvəlki tək İrəvan əhalisinin çox hissəsini təşkil edirdilər. Hərçənd ki, onların xüsusi çəkisi bir qədər azalaraq şəhər əhalisinin 52,6%-nə enmişdi. Həmin illərdə ermənilər İrəvan əhalisinin 46,4%-ni təşkil edirdilər.[3] Şəhərdəki rus əhalisi əsasən məmurlar və ruhanilərdən ibarət idi, onların xüsusi çəkisi 1%-ə güclə çatırdı.[4]

Ayrı-ayrı etnosların şəhərdə yerləşməsi durumu da xüsusi

---

[1] **RDTA/** F.1293, siy.167, iş.28, xəritə 8.
[2] **ARPİİSSA/** F.276, sih.8, iş 265, v.12; Verdiyeva, H.Y. Göst.əsəri, s. 125.
[3] Исмаил-заде, Д.И. Указ. раб., с. 85.
[4] Yenə orada, s. 87.

maqar doğurur. İrəvanda olmuş Linc yazırdı: “Şərq hissədə tatarlar (azərbaycanlılar – Z.Q.), qərbdə isə ermənilər məskunkaşıblar. Onlardan birincisində siz məscidlərə, ikincisində isə kilsələrə rast gələcəksiniz”.[1]

Etnosların şəhərdəki lokallaşdırılması bir daha sübur edir ki, ermənilərin çox böyük əksəriyyəti İrəvan üçün gəlmə elementlərdən ibarət idi. Şəhər əhalisinin 1829-1832 və 1880-ci illərdəki etnik tərkibinin tutuşdurulması zamanı çox maraqlı mənzərə alınır:

**İrəvan şəhərinin əhalisi 1829-1832 və 1880-ci illərdə[2]**

| İllər | Həyətlərin sayı | | | | Əhalinin sayı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Ruslar | Erməni | Azərbaycanlı | Gürcü | Ruslar | | Ermənilər | | Azərbaycanlı | | Gürcü | |
| | | | | | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| 1829-1832 | - | 944 | 1807 | - | - | - | 2148 | 1984 | 3749 | 3582 | - | - |
| | Cəmi | 2751 | | - | - | - | 4132 | | 7331 | | - | - |
| 1880 | 46 | 1509 | 1318 | 7 | 79 | 76 | 3216 | 2759 | 3252 | 3041 | 18 | 8 |
| Cəmi | 2880 | | | | 155 | | 5975 | | 6293 | | 26 | |

Gördüyümüz kimi, göstərilən dövrdə azərbaycanlıların sayı 1038 nəfər (14%) azalmış, ermənilərin sayı isə 1843 nəfər (44,6%) artmışdı. Lakin ermənilərin buraya çoxsaylı axınına baxmayaraq hətta 1880-ci ildə də azərbaycanlılar say çoxluğunu (50,6%) qoruyub saxlamışdılar.

Belə bir fakt da maraqlıdır ki, 1880-ci ildə hər erməni həyətinə orta hesabla 3,9 nəfər, azərbaycanlı həyətinə isə 4,8 nəfər düşürdü. Ola bilsin ki, erməni əhalisinin daimi “axınları”, yerdə-

---

[1] Линч, Х.Ф.Б. **Армения: путевые очерки и этюды**/ ч.I, 1910, с.275-276;
[2] **СМОМПК**/ вып. I, 1881, с. 40-41.

yişmələri, onların “oturaqlaşmalarının” başa çatmaması bu kiçik saylı ailələrin səbəblərindən biri idi. Çünki, çar hakimiyyətinin himayəsi hesabına ermənilərin güzəranı sıxışdırılan azərbaycanlıların güzəranından daha yaxşı idi. Buna baxmayaraq azərbaycanlı ailələrində doğum daha yüksək idi. Məhz elə bu hal azərbaycanlılar üçün əlverişsiz olan şəraitdə belə hətta nəzərdən keçirilən dövrün sonuna yaxın onlar şəhərdə əhalinin çoxluğunu təşkil edirdilər. Cənubi Qafqaz quberniyaları və vilayətlərinin etnik xəritələrindən birində göstərilirdi ki, 1886-cı ildə İrəvan şəhərində azərbaycanlıların sayı 7228 nəfər (əhalinin 49,2%-i), ermənilərin sayı – 7142 (48,6%), rusların sayı 313 (2,2%), cəmi 14683 nəfər idi.[1]

Şəhər əhalisinin sosial tərkibi də xeyli maraq doğurur. İlkin mərhələdə çar hökümətinin işğal edilmiş Şimali Azərbaycan ərazisinin imtiyazlı təbəqələrinə münasibətdə yürütdüyü siyasət vahid xəttə malik deyildi, çünki bu siyasət müxtəlif amillərin təsiri altında formalaşırdı. Sosial statusların kodlaşdırılmadığı, xeyli dərəcədə adi hüququn normaları ilə tənzimləndiyi Şimali Azərbaycan hüdudlarındaki, o cümlədən də İrəvandaki, feodal torpaq sahibliyi formalarının spesifikliyi müəyyən əhəmiyyətə malik idi. Burada mövcud olan sosial bölgü mütləqiyyət üçün bu baxımdan tanış olan təsəvvürlərə tam əks idi.

Belə bir fakt da az əhəmiyyət kəsb etmirdi ki, bu diyarın Rusiya tərəfindən işğalı prosesində doğma yerlərindən köçənlərin və məcburən köçürülənlərin xeyli hissəsini kübar, əyan nəsillərin nümayəndələri təşkil edirdilər. Türkmənçay müqaviləsinin şərtlərinə görə, “öz şəxsi nümunələri, təlqinləri və gizli əlaqələri ilə özlərinin idarəsi altında olmuş və ya onlara tabe olmuş keçmiş soydaşlarına zərərli təsir göstərə biləcək publik rütbələr daşıyan və ya xan, bəy, ruhani rəis və ya molla titullarına malik” azərbaycanlıların Qarabağ, Naxçıvan və İrəvan xanlıqları ərazi-

[1] **RDTA/** F.1293, siy.167, iş.28, xəritə.8; Пагирев, Д.Д. **Эриванский сборник/** вып.I, Эриван, 1892, с. 32.

sində məskunlaşmaqları və ya yaşamaqları qadağan olunurdu.[1]

Buna baxmayaraq, 1829-cu il ərəfəsində şəhərdə 4 xan ailəsi (41 nəfər), 51 bəy və sultan ailəsi (304 nəfər), 8 məlik ailəsi (55 nəfər) var idi.[2]

XIX əsrin 20-30-cu illərində Azərbaycanda xüsusi feodal torpaq sahibliyinin olmaması barədə məxsusi olaraq, bilərəkdən rəsmi bir nəzəriyyə formalaşdırılmışdı ki, bu da yerli feodalların silki hüquqlarının hökümət tərəfindən tanınmamasına imkan yaradırdı.[3]

1840-cı illərin inzibati - məhkəmə islahatlarına görə yerli feodallar özlərinin tiyul torpaq mülklərindən məhrum olmalı idilər. Lakin bu islahat uğursuzluğa məruz qaldı, bu da höküməti Azərbaycanda hakim təbəqələrin vəziyyətinə öz münasibətini, görüşlərini yenidən nəzərdən keçirməyə məcbur etdi. Artıq 1843-cü ildə çar Cənubi Qafqazda ali müsəlman silkinin mövcudluğunu etiraf etdi: 1846-cı il 6 dekabr tarixli çar reskripti isə bəylərin və ağaların sahibkarlıq hüquqlarının təsbit edilməsi və tanınması idi.

Çoxsaylı qaynaqların məlumatlarına görə, Azərbaycan şəhərlərinin əksəriyyətində olduğu kimi, İrəvanda da feodal aristokratiyası şəhər əhalisinin azsaylı təbəqəsini təşkil etsə də şəhər həyatına güclü təsirə malik idi.

“Erməni vilayəti” adlandırılmış ərazinin kameral təsviri İrəvan şəhərində zadəganlar və məmurların etnik və cinsi tərkibini əks etdirən növbəti cədvəli tərtib etməyə imkan vermişdir:[4]

| **Etnik mənsubiyyət** | **Ailələrin sayı** | **Kişilərin sayı** | **Qadınların sayı** | **Əhalinin ümumi sayı** |
|---|---|---|---|---|

[1]**Сборник пограничных договоров, заключенных Россией с соседними государствами,** СПБ, 1891, с.171; Балаев, А. **Азербайджанская нация**/ М, 2012, с. 63.

[2] Шопен, И. Указ. раб. / с. 690.

[3] **Колониальная политика российского царизма в Азербайджане,** ч.I, М.-Л, 1936, с. 101.

[4] **RDTA**/ F.384, siy.4, iş.8, v.24.

| | | | | |
|---|---|---|---|---|
| Azərbaycan xanları | 4 | 22 | 19 | 41 |
| Bəylər | 51 | 167 | 137 | 304 |
| Mirzələr (məmurlar) | 19 | 64 | 41 | 105 |
| Erməni məlikləri | 3 | 13 | 13 | 26 |
| Erməni bəyləri | 5 | 16 | 13 | 29 |
| Erməni mirzələri (məmurlar) | 1 | 1 | 3 | 4 |
| Cəmi | 83 | 283 | 226 | 509 |

Əhalinin bu qrupu içərisində azərbaycanlıların kifayət qədər böyük üstünlüyü nəzərə çarpır.

Göründüyü kimi, XIX əsrin 30-cu illərinin əvvəllərində İrəvanda 83 xan, bəy, məlik və mirzə ailəsi vardı ki, bu da şəhər əhalisinin 3%-ni təşkil edirdi.[1] Lakin İ. Şopenin məlumatları digər qaynaqların göstəricilərindən bir qədər fərqlənir və onlara zidd gəlir. Məsələn, 1842-ci ilin məlumatlarına görə, İrəvan şəhərində zadəgan və məmurların ümumi sayı cəmisi 90 nəfər (12310 nəfərdən) idi (şəhər əhalisinin 0,7%-i).[2]

Gördüyümüz kimi, hələ 1842-ci il kameral təsvirindən 10 il əvvəl İ.Şopen İrəvanda imtiyazlı təbəqədən olan şəxslərin daha çoxsaylı olduğunu göstərirdi. Görünür ki, belə uyğunsuzluq, müəyyən dərəcədə, "zadəganlıq" və "məmur" anlayışlarının hələlik dəqiq müəyyən edilməməsi ilə bağlı idi; artıq, yuxarıda da göstərildiyi kimi, 1843-cü ilədək çar hökuməti ali müsəlman silkinin mövcudluğunu qəbul eləmirdi. Eyni zamanda güman etmək olar ki, 1842-ci ilin göstəricilərində ailə üzvləri nəzərə alınmamaqla, ancaq zadəgan və məmurların özləri qeydə alınmışdılar.

"Qafqaz təqvimi"nin məlumatlarına görə, XIX əsrin 50-ci illərində İrəvanda xan və bəy ailələrinə məxsus olan 126 nəfər (bütün şəhər ailəsinin 0,9%-i) yaşayırdı.[3] İrəvan zadəganları təkcə şəhərdə bağ, bostan, dəyirman, hamam, dükan kimi mülkiy-

---

[1] Шопен, И. Указ. раб., / с. 690.

[2] **Статистические таблицы о состоянии городов Российской империи/Великого Княжества Финляндского и Царства Польского//** СПб, 1842, с. 8-9.

[3] **Кавказский календарь на 1855 год**/ 1854, с. 280-281.

yətə deyil, həmçinin kənd yerlərində torpaq mülklərinə malik idilər.

Digər bir qaynağın[1] məlumatlarına görə 1880-ci ildə İrəvanda ailə üzvləri ilə birlikdə zadəgan təbəqəsinin ümumi sayı 553 nəfər (333 azərbaycanlı və 320 erməni) idi. S.Akopcanyanın tarixi-iqtisadi oçerkində göstərilir ki, 1887-ci ildə İrəvanda zadəganlar 1250 nəfər idi.[2]

1897-ci il əhali sayımının materiallarında burada artıq zadəgan zümrəsinə mənsub olan 2043 nəfər qeydə alınmışdı[3] ki, bu da şəhər əhalisinin 7%-ni təşkil edirdi.

İrəvan haqqında statistik məlumatların saxlandığı arxiv sənədlərinin birində göstərilirdi ki, 1897-ci ildə İrəvanda 1318 nəsli və 852 şəxsi zadəgan var idi.[4]

Qaynaqların göstərdikləri müxtəlifliyi  o dövrdəki Rusiya statistikasında hökm sürən qarmaqarışıqlarla bağlamaq olar. Amma cəsarətlə iddia etmək olar ki, İrəvan əhalisi içərisində zadəganların sayı və xüsusi çəkisi sürətlə və durmadan artırdı.

Ruhanilərin sayının müəyyənləşdirilməsi də heç də az mürəkkəblik təşkil etmir. “Erməni vilayəti”nin kameral təsvirinin məlumatlarına görə, XIX əsrin 30-cu illərinin əvvəllərində İrəvandakı ruhanilərin sayı aşağıdakı cədvəldə əks olunmuşdu:[5]

| **Dini mənsubiyyət** | **Ailələrin sayı** | **Kişilərin sayı** | **Qadınların sayı** | **Cəmi** |
|---|---|---|---|---|
| Mollalar | 50 | 181 | 151 | 332 |
| Seyidlər | 39 | 92 | 96 | 188 |

[1] **СМОМПК/** вып.I, с. 40-41.

[2] Акопджанян, С. Ереван: историко-экономический очерк / Ереван, 1941, с. 22.

[3] **Первая всеобщая перепись Росс. империи 1897 г/** Эриванская губерния// СПб, 1905, с. 168.

[4] **RDTA/** F.1288, siy.25, iş.81, v.23.

[5] Yenə orada, F.384, siy.4, sən.8, v.24.

| | | | | |
|---|---|---|---|---|
| Dərvişlər | 3 | 6 | 4 | 10 |
| Xristian Ruhaniləri | 13 | 55 | 35 | 90 |
| **Cəmi** | **105** | **334** | **286** | **620** |

Cədvəlin məlumatları müsəlman ruhanilərinin xeyli say üstünlüyünü aydın şəkildə göstərir. Qeyd edək ki, yekun göstəricilərə təkcə bilavasitə ruhanilər deyil, həmçinin onların ailə üzvləri də daxil edilmişdilər.

1842-ci ilin məlumatlarına görə, ruhanilər bu şəhərin əhalisinin cəmisi 1%-ni (119 nəfər) təşkil edirdilər.[1] Ruhanilərin sayının belə az olması çox yəqin ki, onunla izah edilirdi ki, 1842-ci ilin statistik məlumatlarında ruhanilərin ailə üzvləri nəzərə alınmamışdır.

Lakin XIX əsrin 50-ci illərində Şimali Azərbaycanın, demək olar ki, bütün şəhərlərində, o cümlədən də İrəvanda ruhanilərin sayının sərt artımı müşahidə olunurdu. İrəvanda bu say 504%[2] artaraq təxminən 720 nəfərə çatmışdı. Ruhanilərin dini tərkibi onların təkcə dini mənsubiyyətini araşdırmağa deyil, həm də etnik tərkibi haqqında mülahizə yürütməyə imkan verir, belə ki, bu iki əlamət bir-biri ilə birbaşa əlaqədardır. XIX əsrin 50-ci illərində İrəvan ruhanilərinin 80,6%-ni azərbaycanlılar (580 nəfər), 19,4 %-ni (140 nəfər) ermənilər təşkil edirdilər.[3] 1880-ci ilin məlumatlarına görə isə ruhanilər içərisində 151 nəfər erməni, 58 azərbaycanlı və 7 gürcü[4] (cəmi 216 nəfər) var idi. 1887-ci ildə burada erməni-qriqoriyan ruhanilərinin sayı 32 nəfər, pravoslav ruhaniləri 2, müsəlman ruhaniləri 14 nəfər idi.[5] Və nəha-

---

[1] **Статистические таблицы о состоянии городов Российской империи/Великого Княжества Финляндского и Царства Польского//** СПб, 1842, с. 8-9.

[2] **Кавказский календарь на 1855 год/** с. 280-281.

[3] Исмаил-Заде Д.И. Указ. раб., сс. 119, 121.

[4] **СМОМПК/** вып.I, с. 40-41.

[5] Акопджанян, С. Указ. раб., с. 22.

yət, 1897-ci ildə İrəvanda 334 nəfər (əhalinin 1,1%-i) ruhani var idi. Bunlardan 251-i erməni, 57-i azərbaycanlı və 26 nəfəri rus idi[1]. Erməni ruhanilərinin böyük say üstünlüyü, çox güman ki, monastır kimi dini müəssisənin varlığı ilə izah olunur. Arxiv sənədlərində bildirildiyi kimi, Üçmüəzzin monastırı özü İrəvan şəhərində aşağıdakı mülklərə malik idi: Nuraguni (5 des, gəliri 600 rubl) və Zərovari (5 des, gəliri 650 rubl) bağları, 9 dükan və 3 dəyirman.[2] Bunlardan başqa şəhərdəki üzümlüklərdən biri də Sevan (Göyçə) monastırına məxsus idi. Ancaq ruhanilərin sayının hesablanması hansı prinsiplə aparılırdırsa aparılsın, bir şey şübhəsiz idi ki, XIX əsrin sonuna doğru İrəvanda müsəlman ruhanilərinin sayı xeyli azalmışdı.

XIX əsrin 50-ci illərinin ortalarına doğru İrəvanda əhalinin 1,8%-ni (252 nəfəri) tacirlər təşkil edirdilər. Bunlardan 195-i (77,38%) azərbaycanlılar, 57-i (22%) ermənilər idi.[3] 1880-ci ildə isə tacirlərin sayı artıq 563 nəfər idi (307 azərbaycanlı, 256 erməni)[4]. Bir sözlə, 25 ildə tacirlərin sayı 2 dəfədən də çox artmışdı. Tacirlər içərisində ermənilərin xüsusi çəkisi də xeyli (45,5%) artmışdı.

1897-ci il siyahıya alınmasının nəticələrinə görə, İrəvanda ticarətin müxtəlif sahələrində 1503 nəfər çalışırdı ki, bunlardan da 849 nəfəri (56%) azərbaycanlı idi. 1897-ci il siyahıya alınmasının materiallarında tacirlər xüsusi şəkildə, ayrıca qeyd olunurdu. Həmin il tacirlərin sayı 183 nəfər idi: 22 azərbaycanlı və 158 erməni.[5] Bu məlumatlar iddia etməyə imkan verir ki, XIX əsrin sonuna doğru ermənilər iri ticarətdə böyük say üstünlüyünə yi-

---

[1] **RDTA,** F.1288, siy.25, iş.81, v.23; **Первая всеобщая перепись населения Российской империи 1897г, Эриванская губерния**/СПб,1905, с. 168-169.

[2] Yenə orada.

[3] **Кавказский календарь на 1855 год/** с. 323-333.

[4] **СМОМПК**/ вып.I, с. 36.

[5] **Первая всеобщая перепись населения Российской империи 1897, Эриванская губерния/** с. 168-169.

yələnmişdilər. Qafqaz Tədris Dairəsi hamısının qeydlərində də qeyd olunduğu kimi, "erməni əhalisinin böyük bir kütləsi ticarət silkinə mənsub idi. Bu xalq bütün Qərbi Asiyada yayılaraq hər yerdə özlərinin ticarətə mənsubluqlarını qoruyub saxlamışdılar. Ermənilər, ayrıca dövlət yaratmayaraq, ümumi idarəçilik formasına malik deyildilər".[1]

İrəvan şəhəri əhalisi içərisində kəndli təbəqəsi də var idi. Kəndlilərin şəhərə köçməsi onların silki-peşə funksiyalarını itirmələri ilə müşayiət olunurdu. Onların müxtəlif istiqamətlərdə transformasiyası prosesi gedirdi: onları sənətkarlıq istehsalı sahəsinə, ticarət-sənaye fəaliyyətinə qoşurdular və ya muzdlu fəhlələrə çevrirdilər.

Şəhərin vergi verən əhalisi şəhər sakinləri adlandırılırdılar. Bu sonuncular sənətkarlar, kiçik tacirlər, günəmuzdlular və kənd təsərufatı ilə məşğul olanlar idi. Öz iqtisadi və hüquqi durumlarına görə, bunlar dövlət kəndliləri ilə eyniləşdirilirdilər: onlar dövlət kəndliləri ilə eyni vergiləri ödəyir, eyni mükəlləfiyyətləri yerinə yetirirdilər. Ona görə də rəsmi sənədlərdə və statistik materiallarda onlar dövlət kəndliləri kimi göstərilirdilər. Lakin 1837-ci ildən etibarən şəhər əhalisi dövlət torpaqları və bağlarında biyardan azad olundular.

XIX əsrin 50-ci illərinin ortalarında İrəvanda kəndlilər içərisindən çıxmış şəhər sakinləri aşağıdakı şəkildə bölünürdü: – azərbaycanlılar 51,3%, ermənilər – 48,6%.

Şəhərdə bilavasitə əkinçiliklə məşğul olanlara gəldikdə isə onlar şəhər sakinlərinin 3,7%-ni təşkil edirdilər. Bunlardan 80%-i ermənilərin, 20%-i isə azərbaycanlıların payına düşürdü[2].

İrəvan şəhərinin əkin sahələrinin böyük bir hissəsi Nork kəndinin sakinləri tərəfindən becərilirdi. Bu torpaqlar, artıq qeyd edildiyi kimi, 1837-ci ildə İrəvan şəhərinə qatılmışdı. Şəhər du-

---

[1] **RDTA**/ F.33, siy.82, iş.259, v.22.

[2] **Кавказский календарь на 1855 год**/ с. 280-281, 332-333; Исмаил-Заде Д.И. Указ. раб., / s.149.

masının qərarına görə, Nork sakinləri bu torpaqlardan istifadə müqabilində götürdükləri məhsulun 23%-ini şəhər özünüidarəsinə verməli idilər. 1882-ci ildə Nork sakinləri şəhərin payını 16%-ə endirməyi tələb etdilər. Lakin şəhər duması onların tələbini rədd etdi. Sonralar şəhərin əkin torpaqları icarəyə verilməyə başlandı, Nork sakinləri isə icarədarların əsarəti altına düşdülər.[1]

1897-ci il siyahıya alınmanın materiallarında "meşşanlar" və "kəndlilər" ayrı-ayrılıqda göstərilmişdirlər. Şəhərdə 14685 nəfər meşşan (əhalinin 50,6 %-i) qeydə alınmışdı. Bunlardan 8092 nəfəri azərbaycanlı, 6318 nəfəri erməni və 275 nəfəri rus idi.

Eyni qaynaqda bu şəhərdə 7715 nəfər kəndli (2259 azərbaycanlı, 4269 erməni və 1187 rus) qeydə alınmışdı.[2]

XIX əsrin 50-ci illərinin ortalarında sənətkarlar bu şəhərdə əhalinin 2,3 %-ni (320) təşkil edirdilər. Özü də sənətkarlar içərisində ermənilər azacıq say üstünlüyünə malik idilər: sənətkarlardan 163 nəfər (50,6%) ermənilərin, 157 nəfəri isə (48,7%) azərbaycanlıların payına düşürdü.[3]

1886-cı ilin məlumatlarına görə İrəvan şəhərində 396 usta-sənətkar, 138 usta köməkçisi və 239 şagird var idi.[4]

İrəvan şəhərində sənətkarların peşələr üzrə bölgüsü (1886-cı il)

| | | **Ustalar** | **Usta köməkciləri** | **Şagirdlər** |
|---|---|---|---|---|
| I | Ərzaq hazırlanması sahəsində çalışanlar | | | |

---

[1] Акопян Т.Х. Указ. раб., / с. 240.

[2] **Первая всеобщая перепись населения Российской империи 1897, LXXI, Эриванская губерния**/ с. 168-169.

[3] Исмаил-Заде Д.И. Указ. раб., с. 140.

[4] **Развитие Еревана после присоединения Восточной Армении к России/** Сб. документов - Ереван, 1978, с. 127.

| | | | | |
|---|---|---|---|---|
| | - çörəkçilər | 19 | 60 | - |
| | - kökəbişirənlər (булочники) | 2 | - | - |
| | -Qəssablar | 32 | - | - |
| | -Şirniyyatçılar | 3 | - | - |
| II | Geyim əşyaları hazırlayan sənətkarlar | | | |
| - | - Dərzilər | 59 | 21 | 48 |
| - | - Çəkməçilər | 95 | 18 | 75 |
| - | - Stilistlər (модисты) | 1 | 2 | - |
| - | - papaqçılar | 35 | - | 35 |
| III | Məişət əşyaları hazırlayan sənətkarlar | | | |
| | -Sobaçılar | 19 | - | 19 |
| | -Dülgərlər | 34 | 7 | 32 |
| | -Misgərlər | 27 | 17 | 18 |
| | -Sərraclar | 11 | - | 11 |
| IV | Başqaları | | | |
| | -Arabaçılar | 47 | - | - |
| | -Saatsazlar | 4 | - | - |
| | -Baytarlar | 8 | 6 | 1 |
| **Cəmi** | | **396** | **138** | **239** |

"Qafqaz yerləri və tayfalarının təsviri üçün materiallar" adlı topluda İrəvan sənətkarları haqqında gətirilmiş məlumatlara görə, 1880-ci ildə İrəvan şəhərində 944 usta, 901 nəfər usta köməkcisi və şagirdi var idi. Bunlardan azərbaycanlılar müvafiq olaraq 525 və 542 (56,6%) nəfər, ermənilər isə 415 və 359 (41,1%) nəfər idi.[1]

Sənətkarların sayındakı fərqlər onunla izah edilir ki, adı yuxarıda çəkilən topluda çayçılar, musiqiçilər, rəssamlar və b. da sənətkarlar sırasına salınmışdılar. 1897-ci il siyahıyaalmasına görə İrəvanda sənətkarların sayı 1607 nəfərə bərabər idi.[2]

---

[1] **СМОМПК**/ вып.I, Тифлис, 1881, с. 37.

[2] Распределение населения по группам занятий.1897 г.

XIX əsrin 50-ci illərinin ortalarında İrəvanda 118 nəfər,[1] 1880-ci ildə isə 168 nəfər[2] məmur var idi. Onlar şəhərdəki rus əhalisinin əksəriyyətini təşkil edirdilər.

Artıq qeyd edildiyi kimi, 1880-1897-ci illərdə şəhər əhalisi sərt şəkildə artmış, 12449 nəfərdən 29006 nəfərə qalxmışdı. Lakin artım təbii artım hesabına baş verməmişdi. Belə ki, 1897-ci il siyahıyaalmasının materialları sübut edir ki, şəhərin 29006 nəfər sakinindən İrəvan şəhəri və eyniadlı qəzada doğulanların sayı cəmisi 16673 nəfər olmuş, qalan 12373 nəfər isə buraya başqa yerlərdən gəlmişdilər.[3]

1897-ci il siyahıyaalmasının aşağdakı cədvəldə əks olunmuş məlumatları da xeyli maraq doğurur:[4]

**İrəvan şəhəri əhalisinin cinsi tərkib və ana dili üzrə bölgüsü:**

| **Kişilər** | **Qadınlar** | **Cəmi** | **Azərbaycan dili** | | **Erməni dili** | |
|---|---|---|---|---|---|---|
| | | | **Kişilər** | **Qadınlar** | **Kişilər** | **Qadınlar** |
| 17328 | 11678 | 29006 | 6940 | 5419 | 7331 | 5192 |
| | | | 12359 | | 12523 | |

Hər şeydən əvvəl gözə dəyən odur ki, qadınlar kişilərə nisbətən 5650 nəfər az idi. Qadınlar əhalinin cəmisi 40,3%-ni təşkil edirdilər. Bu halda da, qeyd-şərtsiz olaraq təbii artıma mənfi təsir göstərirdi.

Lakin İrəvan əhalisinin təbii artımına ekologiya daha güclü şəkildə mənfi təsir göstərirdi. İrəvanlıların sağlamlığı, əsasən, bataqlıqlardan və yaxşı icməli suyun çatışmamasından zərər çəkirdi. Şəhərin quyu suyu bataqlıq suyu kimi idi və onda üzvi maddələr var idi.

Pis ekologiya ölüm hallarının yüksək olmasına gətirib çıxarmışdı. Özü də ən çox ölüm halları bir yaşından 10 yaşadək uşaqlar arasında baş verirdi. Məsələn, 1870-ci ildən 1879-cu ilə-

---

[1] **Кавказский календарь на 1856 г**/ с. 484-485.

[2] **СМОМПК**/ вып.I, с. 40-41.

[3] Yenə orada, s. 97.

[4] Распределение населения по группам занятий, 1897 г.

dək olan 10 ildə İrəvanda 2719 xristian vəfat etmişdi (yəni ruslar və ermənilər; müsəlmanlarda doğum qeydiyyatı kitabları olmadığından onların arasındakı doğum və ölüm halları arasında məlumatlar yox idi). Bunlardan 48,7%-i, yəni 1324 nəfərini 10 yaşınadək uşaqlar təşkil edirdi.[1] Sonralar İrəvanda uşaq ölümləri daha da artdı. 1886-cı ildə bu göstərici 64,3%, 1896-cı ildə 84,7%, 1906-cı ildə 64,8%, 1910-cu ildə isə 87,8% təşkil etmişdi.[2]

Göstərilən 1870-1879-cu illərdə İrəvandakı ölümlərin sayı haqqında fərqli məlumatlar da var. Məsələn, bəzi qaynaqlar həmin dövrdə İrəvanda 3271 uşağın doğulduğunu, 2299 nəfərin öldüyünü bildirir.[3] Deməli, 10 il ərzində şəhərin xristian əhalisi 972 nəfər (ildə 97 nəfər) artmışdır.

Digər məlumatlara görə, 1858-1897-ci illərdə İrəvanda əhalinin artımı 15827 nəfər, yəni ildə orta hesabla 395 nəfər olmuşdur (bu qaynaqda artımın ancaq xristianlara aid olduğu göstərilmir). Lakin 1897-ci ildən 1904-cü ilədək əhali cəmi 148 nəfər, ildə təxminən 21 nəfər, 1904-cü ildən 1910-cu ilədək isə cəmisi 96 nəfər, ildə 16 nəfər artmışdır.[4] Lakin burada təkcə əhalinin təbii artımı nəzərdə tutulmur. Belə aşağı göstəricilər onunla izah oluna bilər ki, şəhər iqtisadiyyatının ləng inkişafı nəticəsində köçkünlərin əksəriyyəti şəhəri tərk edirdilər. Əhalinin şəhərdən getməsi İrəvan əhalisinin təbii artımının onsuz da yarıtmaz olan nəticələrini "udaraq" əhalinin təbii artımında özünü göstərirdi. 1913-cü ilin məlumatlarına görə, İrəvanda 818 nəfər doğulmuş, 689 nəfər isə vəfat etmişdi.[5] Yəni artım 129 nəfər olmuşdu.

XIX əsrin sonu XX əsrin əvvəllərində şəhər əhalisinin dinamikasını izləsək maraqlı mənzərə ortaya çıxacaqdır. Beləki, 1904-cü ildə İrəvan əhalisi 28910, 1910-cu ildə 32369,1913-cü ildə isə 29006 nəfər olmuşdu.[6] Nəticələrin bu qalxıb-düşməsi

---

[1] **СМОМПК**/ вып.I, с.18.
[2] **Развитие Еревана….**/ Сб. док-в, с. 216.
[3] **СМОМПК**/ вып.1, с. 22.
[4] **RDTA**/ F.1288, siy.25, iş.81, v.27, arx-28.
[5] **RDTA**/ F.1284, siy.194, iş.15, v.30.
[6] **RDTA**/ F.1288, siy.25, iş.15, v.3.

xeyli dərəcədə onunla şərtlənirdi ki, İrəvan şəhəri köçkün ermənilər üçün bir növ bölüşdürmə, aşırım məntəqəsi idi. Məsələn, 1902-ci ildə İrəvanda Osmanlı imperiyasından olan 3896 nəfər erməni-qaçqın var idi.[1] Lakin onların heç də hamısı İrəvanın daimi sakinlərinə çevrilmirdilər.

1897-ci il siyahıyaalmasının materiallarında İrəvan şəhərində 29006 nəfər mövcud əhali qeydə alınmışdı. Ana dilini nəzərə alsaq onların arasında 12359 azərbaycanlı, 12523 erməni, 3171 nəfər rus vardı. Erməni müəllifləri belə növ məlumatlara arxalanaraq erməni əhalisinin sayca azərbaycanlıları üstələdikləri barədə tələsik nəticələr çıxarırlar. Bu zaman onlar siyahıyaalma məkanında əksəriyyəti erməni qaçqınlardan ibarət olan müvəqqəti olaraq burada məskunlaşmış sakinlər haqqındakı məlumatları tamamilə şərt-nəzər edirlər, nəzərə almırlar. Elə həmin siyahıyaalmanın məlumatlarına əsasən İrəvanda 2980 nəfər xarici təbəə və burada müvəqqəti yaşayanlar qeydə alınmışdı.[2]

Bu 2980 nəfərdən ancaq 643 nəfərinin qadın olması da həmin kateqoriya üzrə qeydə alınmış adamların məhz müvəqqəti məskun olduğunu dolayısı yolla sübut edir.[3] B.İşxanyanın yazdığı kimi, bunu "onunla izah etmək olar ki, kişilər köcürlər, ailə və qadınlar isə əvvəlki yaşayış yerlərində qalırdılar"[4].

Belə bir fakt da maraqlıdir ki, İrəvanda qeydə alınmış xarici təbəələr icərsində İrəvanda doğulmuşların sayı 1258 nəfər, Osmanlı Türkiyəsində doğulanların sayı 663 nəfər (cəmi1921) idi[5].

Irəvan elə böyük sənaye və ticarət mərkəzi deyildi ki, Cənubi Azərbaycandan buraya azərbaycanlı kəsbkarları cəlb etsin. Onda bircə versiya qalır: bu xarici dovlət təbəələri, əsasən, rus çarizmindən dəstək və himayə axtaran və çar hökuməti tərəfindən buradan yerli əhalini xristianlaşdırmaq kimi müstəmləkəci

---

[1] **RDTA**/ F.1288, siy.25, iş.15, v.3.

[2] Акопян, Т.Х. Указ. раб., / с. 242.

[3] **Первая всеобщая перепись населения Российской империи, 1887 г. LXXI Эриванская губерния/** с.1.

[4] Ишхандияр, Б. **Народности Кавказа**/ Петербург, 1917, с. 36.

[5] **Первая всеобщая перепись населения Российской империи, 1887 г. LXXI, Эриванская губерния/** с. 28.

siyasətini həyata kecirtmək üçün istifadə olunan ermənilərdən ibarət idilər.

XIX əsrin sonu XX əsrin əvvələrində Qafqazda ermənilərin intevsiv şəkildə məskunlaşdırılması Rusiyanın hakim dairələrinin özündə ciddi narazılıqlar dogururdu. Belə ki, İrəvan qubernatoru qraf Tizenhauzen özünün 1896-cı il üçün hesabatında yazırdı: "Türkiyədəki ixtişaşlarda qaçmış Türkiyə ermənilərinin quberniyada cəmləşməsi xalq həyatındakı əlverişsiz hallar sırasına aid edilməlidir. Onların arasında əmək qabiliyyəti olmayan çoxlu qadın, uşaq və qoca var; lakin müxtəlif milli-siyasi nəzəriyyələrdə pozulmuş, rəqabət və köməklə ərköyünləşdirilmiş əmək qabiliyyətli kişilər də işləmək istəməyən tüfeylilərə çevirilmişdilər. Köçkünlərin saxlanılması kifayət qədər vəsaitə malik olmayan yerli əhaliyə ağır təsir göstərir.

Ümumiyyətlə, erməni köçkünlər ən etibarsız, kifayət qədər arzuolunmaz elementdirlər; onlar yerli, əhalinin rifahını dağıtmaqla yanaşı, bu əhalini pozurlar. Onların bizim ərazilərimizdən, nə qədər mümkündür, tez çıxarilması fövqəladə dərəcədə arzuedilən olardı"[1].

Məşhur qafqazşünaz N.Şavrov da, habelə onun tərəfdarları da çar administrasiyasının Qafqazda nə yaratmaq, Rusiya, ya Ermənistan istədiyini araşdırmağı təklif edirdilər[2].

M.Menşikov bununla əlaqədar qəzəblə qeyd edirdi: "Viranə Qafqazdakı əsryarımlıq müharibə Rusiyadan o qədər güc qoparıb almışdı ki, bu güc Çinin istilasına kifayət edərdi, lakin biz Qafqaza yiyələnmək anını ən az Rusiya məskünlaşdırılmasına verdik". Ona görə də Menşikov rusları "dünyada ən kör istilacılar" hesab edirdi.[3] Bütün bunlara baxmayaraq XX əsrin əvvəllərində Azərbaycan türkləri İrəvanda üstünlüklərini qoruyub

---

[1] **Отчет начальника Эриванской губернии за 1896 год, ГАРФ библиотека**/ оп.1, д.116, v.115, arx.

[2] Шавров, Н. **Русская колонизация на Кавказе, вопросы колонизации**/ т.8, СПб, 1911, с. 65; Balayev, A. Göst.əsəri/ s. 68.

[3] Меньшиков, М. **Национальная империя**/ М, 2004, с. 466; Balayev, A. Göst.əsəri/ s. 68.

saxlamaqda davam edirdilər və sayca ermənilərdən çox idilər[1].

Sonraki illərdə də erməni əhalisinin Osmanlı Türkiyəsindən İrəvana axını davam etmiş və bu axın Birinci Dünya müharibəsi illərində maksimum həddə çatmışdır. 1914-1916-cı illərdə təxminən 350 min erməni Qafqaza mühacirətə qəlmişdi. 1914-cü ilin sonu 1915-ci ilin əvvəllində İrəvana ən azı 40 min erməni qəlmişdi. Ermənilərin axını sonraki illərdə də davam etmişdi. Ancaq gələn ermənilərin heç də hamsı İrəvanda qalmırdı. Bu şəhər qaçqın paylaşdırma məntəqələrindən biri idi. 1917-ci ildə İrəvanda hələ də 17505 nəfər qaçqın qalmaqda idi. Osmanlı imperiyasından olan erməni qaçqınlarının əsas kütləsi İrəvandan keçməklə Göyçə gölü hövzəsinə və daha şimal ərazilərə yönəlirdi[2].

İrəvan tarixinin sovet tədqiqatçılarından biri olan T.X. Akopyanın aşağıda göstərilən hesablamaları xüsusi maraq doğurur:[3]

**İrəvan əhalisi 1912-1916-cı illərdə:**

| **1912** | **1914-cü il** | | | **1916-ci il** | | |
|---|---|---|---|---|---|---|
| **Əhalinin ümumi sayı** | **Yerli** | **Müvəqqəti** | **Cəmi** | **Yerli** | **Müvəqqəti** | **Cəmi** |
| 36836 | 20204 | 9162 | 24366 | 22001 | 29285 | 51286 |

Şəhər əhalisinin ümumi sayının tez-tez kəskin sürətdə dəyişilməsinin özü də bir daha sübut edir ki, İrəvan bir növ aşırım – keçid məntəqəsi idi. Adı yuxarıda çəkilən erməni müəllifi öz cədvəlinə belə bir şərh verir: "Əhalinin böyük əksəriyyətini ermənilər təşkil edirdilər. Belə ki, 51286 nəfər şəhər əhalisindən 37204-ü ermənilər, 12257-si azərbaycanlılar, 1059-u isə ruslar

---

[1] Бокгауза, Ф.А. **Эриван – энциклопедический словарь/** И.А.Эффона, ч.81, СПб, с. 15.
[2] **ARPİİSSA/** F.276, siy.8, iş.513, v8, arx-9.
[3] Акопян, Т.Х. Указ. раб., / с. 321.

idi”[1].

Ani bir baxış kifayət edər ki, müəllifin digər şəhərlər və qəzalar üzrə bölünməli olan erməniləri müvəqqəti olaraq şəhərdə yerləşdirilməsindən İrəvanda erməni əhalisinin sayca üstünlüyünü əsaslandırmaq üçün istifadə etdiyini başa düşəsən. Bəs əslində vəziyyət necə idi? T.X.Akopyanın məlumatlarından istifadə etdikdə belə görürük ki, İrəvanın 22001 daimi sakinindən ermənilər 8685 nəfərini (22001 nəfərinin ümumi əhalinin 12257 nəfəri azərbaycanlılardan, 1 059 nəfəri isə ruslardan ibarət idi), yəni şəhər əhalisinin 40%-ə yaxını təşkil edirdi. Azərbaycanlılar İrəvan şəhərinin daimi əhalisinin 55%-dən çoxunu təşkil edirdilər (22 001 nəfər ümumi əhalidən 12 257 nəfəri azərbaycanlı idi). Yəni, erməni əhalisinin buraya kütləvi axınına baxmayaraq, hətta 1916-cı ildə azərbaycanlılar İrəvan şəhəri əhalisinin əksəriyyətini təşkil edirdilər.

Sonraki 2-4 il ərzində, hətta qaçqınların axını fonunda belə, aclıq epidemiyaları üzündən şəhər əhalisi azalmışdır. Qaçqınların tərkibi də bir çox şeylərdən xəbər verir. Belə ki, 1917-ci ildə İrəvana qəlmiş 17505 nəfər qaçqın erməninin 5491nəfərini qadınlar, 8350 nəfərini uşaqlar, 2881 nəfərin qocalar və əlillər , ancaq 783 nəfəri əmək qabiliyyətli kişilər təşkil edirdilər.[2] Qaçqınların bütün diqər qruplarında da eyni vəziyyət müşahidə olunurdu.

Yuxarıda deyilənlərə yekun vuraraq qeyd etmək olar ki, çarizmin İrəvan şəhərinin erməniləşdirməyə və xristianlaşdırmaya yönəli məqsədəyönlü və planauyğun siyasətinə baxmayaraq, çarizm arzuladığına tam şəkildə nail ola bilmədi. Nəzərdən keçirilən dövrün sonunda da İrəvan şəhəri Azərbaycanlı-türk əhalisinin üstünlük təşkil etdiyi Azərbaycan şəhəri olaraq qalmaqda idi.

---

[1] Yenə orada, s. 321.

[1]**Развитие Еревана после присоединения Восточной Армении к России/** Сборник документов, Ериван, 1978, с. 216.

# III FƏSİL

## ŞƏHƏRİN İQTİSADİ HƏYATI

### 3.1. Sənətkarlıq və sənaye

**İrəvan şəhərinin sənətkarlığı.** Azərbaycanda şəhərlərin hələ qədimdən mövcud olması sənətkarlığın inkişafı üçün müxtəlif yollar açırdı. Azərbaycanın yerləşdiyi təbii-coğrafi mühit və yerli əhalinin sənətə olan meyilliliyi, habelə ölkəmizin ticarət yollarının üzərində yerləşməsi sənətkarlığın inkişafına rəvac verirdi. Dərziçilik, papaqçılıq, boyaçılıq, dabbaqçılıq, tornaçılıq, tənəkəçilik, saatsazlıq, baftaçılıq, təsərrüfat-məişət məmulatı istehsalı, tikinti materialları istehsalı, eləcə də yeyinti-ərzaq sahələri, habelə bəzək əşyalarının, musiqi alətlərinin hazırlanması, toxuculuq, metal emalı və digər sənət sahələri ölkənin iqtisadi həyatında əhəmiyyətli yer tuturdu. Tədqiqatçıların qənaətinə görə, Azərbaycanda 100-dən çox sənət və peşə sahələri məlum olmuşdur.

Sənətkarlıq məmulatı istehsalına birinci olaraq insanların vacib istifadə etdiyi geyim əşyaları, mətbəx ləvazimatı və əmək alətləri daxil edilirdisə, ikinci sırada isə insanların həyatında mühüm rol oynayan digər vasitələr aid edilirdi. Sənətkarlıqla həm kişilər, həm də qadınlar məşğul olurdular. Yundan olan əşyaların hazırlanmasında əsasən qadınlar məşğul olurdularsa, metal, ağac, habelə saxsı məmulatların hazırlanmasında kişilərin əməyi böyük olurdu.[1]

Xanlıq dövründə İrəvan şəhərində sənətkarlıq yüksək inkişaf etmişdi. İşğal dövründə bir çox imkanlı sənətkarların şəhəri tərk etməsi bu sahənin geriləməsnə gətirib çıxarmışdı. İrəvan şəhəri işğal edildikdən sonra sənətkarlıq hələ də varlığını qoruyub

[1] Пиралов, А.С. **Краткий очерк кустарных промыслов Кавказа/** Тифлис, 1900, с. 9, 50.

saxlaya bilsə də, sonrakı illərdə sənətkarlığa maraq kəskin azalmışdı. Belə ki, 1829-1832-ci illərdə şəhərdə yaşayan sənətkarların (ustalar, usta köməkçiləri və şagirdlər birlikdə) sayı 1115 idisə, 50-ci illərin əvvəllərində onların sayı yarıya 559 nəfərə qədər azalmışdı. İrəvanda rus idarəçiliyi yaradılandan sonra şəhərdə sənətkarlığın inkişaf etməsi daha çox 60-70-ci illərə təsadüf edir. Lakin bu inkişaf uzun müddət davam etmədi. 1865-ci ilin məlumatına görə şəhərdə sənətkarlıqla 2204 nəfərin məşğul olduğu halda, 80-ci illərin əvvəllərində sənətkarların sayının 1845 nəfərə qədər azalması müşahidə olunurdu.[1]

Ölkənin siyasi və iqtisadi həyatında baş verən bəzi dəyişikliklər şəhərdə çalışan sənətkarların kəmiyyət və keyfiyyət dəyişikliklərinə öz təsirini göstərməyə bilməzdi. Zaman keçdikcə köhnə sənət sahələri sıradan çıxır və öz yerini yeni sənət sahələrinə verirdi. XIX əsrin 50-ci illərində İrəvan şəhərində 65-ə qədər sənətkarlıq sahəsi qeydə alınmışdı.[2] 1863-cü ilin məlumatına görə isə İrəvan şəhərində 816 ustanın, 692 usta köməkçisinin və 667 şagirdin çalışdığı 28 emalatxana fəaliyyət göstərirdi.[3]

1881-ci ildə 46 sənətkarlıq sahəsində ixtisaslaşmış 555 emalatxanada 944 ustanın, 901 usta köməkçisinin və şagirdin çalışdığı qeydə alınmışdır.[4] XIX əsrin sonlarında isə zavod və fabriklərin sayının sürətlə artması sənətkarlığın əhəmiyyətinin azalmasına rəvac vermiş oldu və nəticə etibarı ilə sənətkarlıq sahələrinin sayı 17-ə qədər enmişdi.[5]

XIX əsrin 80-ci illərində başmaqçılıqla 256, dəmirçiliklə 104, dabbaqçılıqla 118, ağacişləmə ilə 102, silahqayırma ilə 71,

---

[1] Шопен, И. Указ. раб., / сс. 843-844; Орловский, К.Эривань. **Кавказский календарь на 1852 г/** 3 отдел, с. 450; Зелинский, С. **Город Эривань/** (историческое сведение); **СМОМК/** Выпуск 1, 1 отдел, с. 37.

[2] Орловский, К.Эривань. Указ. раб., / 3 отдел, с. 450.

[3] **Сборник статистических сведений о Кавказе/** т.1, отдел I, с. 28-32.

[4] Зелинский, С. Указ. раб., / с. 37-38.

[5] **Производительность Эриванской губернии в 1900 году, Памятная книжка Эриванской губернии на 1902 года/** Эриван, типография Р.К.Эдильсона, 1902, 3 отдел, с. 107.

dərziçiliklə 150, zərgərliklə 60, çəkməçiliklə 106, çörəkbişirmə ilə 167, papaqçılıqla 134[1] nəfər məşğul olurdu. 1886-cı ilin göstəricilərinə görə, şəhərdə dərziçilikldə 128 nəfər (59 usta, 48 şagird, 21 işçi), çəkməçiliklə 188 nəfər (95 usta, 75 şagird, 18 işçi) fəaliyyət göstərir, habelə burada 70 papaqçı (35 usta, 35 şagird), 73 nəfər çilingər (34 usta, 32 şagird, 7 işçi), 63 nəfər misgər (27 usta, 18 şagird, 17 işçi) və s. sənətkar çalışırdı.[2] Həmin əsrin 90-cı illərin əvvəllərində isə lifli əşyaların hazırlanması ilə 39, heyvandarlıq məhsullarının istehsalı ilə (dabbaqçılıq və s.) 143, ağac işləmə ilə 205, metal emalı ilə 223, dulusçuluq işi ilə 17, bitkiçilik və heyvandarlıq yeyinti məhsulları istehsalı ilə 260, zərgərliklə 55, dərziçilikdə 665 nəfər məşğul olurdu.[3] On il müddətində sənətkarlıqda baş verən dəyişikliklər kapitalizmin sürətlə inkişafından irəli gəlirdi. İstehsalın digər sahələrindən fərqli olaraq, sənətkarlıqda nəzərə çarpan geriləmə bir sıra sənaye sahələrinin inkişaf etməsi və xaricdən fabrik-zavod istehsalı olan daha ucuz məişət əşyalarının, paltar və digər məmulatın idxalı ənənəvi sənətkarlıq sahələrinin zəifləməsinə və yaxud aradan çıxmasına səbəb olurdu.

Sənətkarlıq emalatxanaları quruluşuna, məhsulun istehsalı və satışa çıxarılması ənənələrinə görə dəyişilməz qalmasına baxmayaraq, kapitalist istehsal prosesi zaman keçdikcə özünü büruzə verməyə başlayırdı. 1879-1914-cü illərdə şəhər sənətkarlığında baş verən dəyişikliklər, sənətkarlığın keyfiyyətcə yeni mərhələyə daxil olması ilə bağlı idi. Yeni sənətkarlıq sahələrinin yaranması sənətkarların sayının artmasına bilavasitə təsirini göstərməyə başlamışdı. Şəhərdə bəzi sənətkarlıq sahələri öz yerini

---

[1] Зелинский, С. Указ. раб., / с. 37.

[2] **Развитие Еревана после присоединения Восточной Армении к России (сборник документов 1801-1917)/** Ереван, Ереванский университет, 1978, с. 492,127.

[3] **Распределение населения Закавказья по группам занятий 1897 года, Кавказский календарь на 1908 год/** Тифлис, типография К.П.Козловского, 1907, 2 отдел, с. 146-147.

dövrün tələblərinə cavab verən yeni sənətkarlıq sahələrinə verməli olurdu.[1]

Sənətkar emalatxanaları xanlıqlar dövründə olduğu kimi, adətən bir-birinin yanında və yaxud ayrı-ayrı qruplar halında ən çox da ticarət mərkəzlərində fəaliyyət göstərirdi. Sənətkarlarının çoxunun ticarət mərkəzlərində emalatxanaları olmadığı üçün, onlar evlərində sənətkarlıqla məşğul olur və digər işləri görürdülər. Bəzi sənətkarlar sifarişlə işləyirdilər. Şəhərdə çəkməçilik, başmaqçılıq, paltar tikmə, dəri işi, dülgərlik, çilingərlik, dəmirçilik, silahqayırma, gümüş - sazlıq, xarratlıq, sərraclıq, tənəkəçilik və dulusçuluq kimi sənətkarlıq sahələri daha geniş yayılmışdı.[2] İrəvan quberniyasında xalçaçılığın geniş yayılmasına baxmayaraq, şəhərdə bu gəlirli sənət növü ilə məşğul olan ailələr yox dərəcəsində idi.[3]

XIX əsrin 60-cı illərində şəhərdə fəaliyyətdə olan emalatxanalardan yalnız bəzzazlar ticarət emalatxanası nüfuzlu və müştərili hesab olurdusa, ikinci yeri kiçik qəlyanaltılar tuturdu. İrəvan şəhərində daha çox gəlir gətirən sənətkarlıq sahələrinə çəkməçilik, başmaqçılıq, dabbaqçılıq, dərzilik, xarratçılıq və zərgərlik daxil idi. 80-90-cı illərdə də belə vəziyyət müşahidə olunurdu. XIX əsrin son ilinə aid məlumata görə, çəkməçilikdən 21000, başmaqçılıqdan 24000, dərziçilikdən 21000, dabbaqçılıqdan 11700, xarratçılıqdan 11600, zərgərlikdən isə 17000 rubl gəlir əldə edilmişdi.[4] İrəvan şəhərində istehsal olunmuş sənətkarlıq məhsullarının dəyəri, quberniyada istehsal olunmuş sənət-

---

[1] Акопян, Т.Х, **Очерк истории Еревана**/ Ереван, Ереванский университет, 1977, с. 490, 226-227.

[2] **Производительность Эриванской губернии в 1900 году, Памятная книжка Эриванской губернии на 1902 год/Эривань,1902** с. 107.

[3] **О ковровом производстве в Эриванской губернии, Памятная книжка Эриванской губернии на 1902 год/** Эриван, типография Р.К.Эдильсона, 1902, 4 отдел, с. 133-134.

[4] **Производительность Эриванской губернии в 1900 году, Памятная книжка Эриванской губернии на 1902 год/** с. 107; **Развитие Еревана.../** с. 156.

karlıq məhsulunun 50,9 faizini təşkil edirdi ki, bu da təxminən 157 300 rubl demək idi. Bu, digər istehsal sahələrinin cüzi hissəsi, 1,1 faizi idi.[1]

XIX əsrin sonu XX əsrin əvvəllərində şəhərə içməli suyun çəkilməsi məsələsi reallaşandan sonra dulusçuluqla məşğul olanların işini artırmış oldu. Belə ki, şəhər duması şəhərə içməli suyun çəkiilməsi üçün lazım olan dəmir boruların çox baha başa gəldiyini nəzərə alaraq, daha ucuz saxsı borularla suyun gətirilməsi qərarına gəldi*. 1899-cu il mart ayının 15-16-da duma suyun çəkilməsinə 4125 rubl 33 qəpik lazım gəldiyini bildirmişdi.[2]

Sənətkarlıq və sənətkarlıq məhsulları ticarəti ilə məşğul olmaq üçün əsas və əlavə vergilər olmaqla iki cür vergi ödəməli idi. Əsas vergi sənətkarlıqla məşğul olması haqqında xüsusi şəhadətnamə alındıqdan sonra ödənilirdi. Belə sənəd olmadan heç kim 14 gündən yuxarı sənətkarlıqla məşğul olmaq hüququ əldə edə bilməzdi. Əsas vergilərin miqdarı sənətkarların istifadəsindəki emalatxanaların kateqoriyasına görə müəyyən olunurdu. Sənətkarlardan və tacirlərdən alınan vergilər 1863-cü il 1 yanvar tarixli qanunu ilə nizamlanırdı.[3] 1865-ci il fevralın 9-da isə həmin qanuna bir sıra əlavələr edilmişdi.[4] Lakin bu qanun ancaq 1875-ci ildən başlayaraq həyata keçirilməyə başlanılmışdı. Qanuna görə vergilərin müəyyən edilməsi və yığılması, sənətkarlıq, ticarət və digər sahələrlə məşğul olmaq hüququn təmin edən şəhadətnamələrin verilməsi, müəssisələrə nəzarət edilməsi polis idarəsinin əllərində cəmlənmişdi.

---

[1] **Производительность Эриванской губернии в 1900 году, Памятная книжка Эриванской губернии на 1902 год/** с. 108.

*Məsələ, yəqin ki, təkcə qiymətdə deyildi; saxsının ekoloji saflığı, ənənə və s. də bu məsələdə az rol oynamamışdı, -red.

[2] Акопджанян, С. **Ереван, Историко-экономический очерк**/ Ереван, Исполком Ереванского совета депутатов, 1940, с. 28.

[3] **ПСЗ-II** / т.38, отд.I, 1863, Санкт-Петербург, Типография II отделения собственной Е. И. В, Канцелярии, 1866, с. 39118.

[4]Yenə orada, 1867, s. 41779.

XX əsrin əvvəllərində sənət və sənətkarlıq sahələrinin inkişaf etdirilməsi məqsədi ilə İrəvan şəhərində sənət məktəbinin açılması məsələsi, artıq 1901-ci ildə qaldırılmışdı. Açılması nəzərdə tutulan sənət məktəbinin nəzdində kənd təsərrüfatı şöbəsi təsis edilməli idi. Məktəbin açılmasının əsas məqsədi bacarıqlı texniki cəhətdən savadlı fəhlələrin, habelə kənd təsərrüfatı avadanlıqları işi üzrə lazımi biliklərə malik olan mütəxəssislərin hazırlanmasından ibarət idi. Hesablamalara görə, şöbələrdə 80-100 şagirdin təhsil alacağı məktəbin fəaliyyətə başlamasına hər bir şagirdə 6050 rubl, tədris binasının tikintisinə 50000 rubl, eyni zamanda avadanlığın alınmasına 7500 - 10000 rubl vəsait tələb edilirdi.[1] Ona görə də bu tip məktəbin açılması məsələsi uzun illər təxirə salınmışdı.

İrəvan şəhərində sənət məktəbinin açılması məsələsi 1913-cü ildə yenidən müzakirə obyektinə çevrildi və müsbət həllini tapmış oldu. Məktəbin açılması üçün şəhər dumasının qərarı 1914-cü ilin mayın 24-də qubernatora təqdim olunmuşdu.[2]

Beləliklə, Şimali Azərbaycanın digər şəhərləri ilə yanaşı, İrəvan şəhərinin də istehsal sahələrinin kapitalist inkişafı yoluna düşməsi, ticarət əkinçiliyinin, əmtəə istehsalı və bazar əlaqələrinin artması üzündən bəhs olunan dövrdə bir tərəfdən, ənənəvi ev peşələrinin fəaliyyət dairəsi tədricən məhdudlaşmağa başlamış, digər tərəfdən isə əmtəə-pul münasibətlərinin artması gedişində bəzi ev peşələri xeyli inkişaf edərək, əmtəə istehsalı səviyyəsinə yüksələ bilmişdi. Sənət və xırda əmtəə istehsalının inkişafında əhalinin, o cümlədən şəhər əhalisinin artmasının, deməli sənətkarlıq məhsullarına tələbatın çoxalmasının müəyyən təsiri olmuşdur.

**Sənaye.** İqtisadiyyatın əsas sahələrindən birini təşkil etsə də, XIX əsrin birinci yarısında İrəvanda sənətkarlıq və manufaktura istehsalı üstünlük təşkil edirdi. Kapitalist münasibətlərin

---

[1]**Развитие Еревана...**/ Ереван, Ереванский университет, 1978, с. 117, 492.

[2]Yenə orada, s. 177.

tədriclə inkişafı və ümumi bazarın formalaşması nəticəsində keyfiyyət dəyişiklikləri baş verirdi.

Sənətkarlıq inkişaf etdikcə onun bir sıra sahələrində keyfiyyət dəyişiklikləri baş verirdi. Bu sahənin ustaları getdikcə daha çox bazara işləyir, sənətkarlıqda muzdlu əməyin tətbiqi artırdı.

Bütün bölgədə olduğu kimi İrəvanda da sosial-iqtisadi xırda əmtəə istehsalından fabrik-zavod istehsalına keçid üçün sosial-iqtisadi şərait yaranmaqda idi. Lakin bu proses çarizmin sənaye inkişafının istehsalat həddi mərhələsi ilə tamamlanmasına imkan verməyən müstəmləkəçilik siyasəti nəticəsində kifayət qədər ləngiyirdi. Başqa sözlə, müstəmləkə ucqarlarında, həmçinin İrəvanda, yalnız xammalın ilkin emalı üzrə sənaye sahələrinin meydana gəlməsi mümkün idi.

XIX əsrin I yarısında xüsusilə də ilk sülsündə İrəvanda vəziyyəti çətinləşdirən digər amillərdən biri də istehsalatda məşğul olan yerli azərbaycanlı əhalinin sıxışdırılıb bu ərazilərdən çıxarılması, əvəzində isə əsasən ticarətlə, yəni qeyri-istehsal əməyi ilə məşğul olan ermənilərin bu ərazilərdə yerləşdirmələri idi.

Qafqaz tədris dairəsi müdirinin 1854-cü ilə aid qeydlərində deyilirdi: "Şəhərdə məskunlaşan erməni əhalisinin böyük əksəriyyəti tacir təbəqəsinə mənsub idi. Bu xalq hər yerdə öz ticarət mənsubluğunu qoruyub saxlamaqla, Qərbi Asiya boyu məskunlaşmışdı. Bu isə gəlmə əhaliyə xarakterik xüsusiyyətdir".[1]

Doğrudur, sonradan məhz ticarət və ermənilərə verilən imtiyazlar sayəsində onların bəzi nümayəndələrinə "təkan" kapitalını toplayaraq onu kapitalist istehsalına yönəltməyə imkan verdi. Lakin bütün bu hadisələr hələ XIX əsrin II yarısında baş verəcəkdi. XIX əsrin I yarısında isə qeyd olunduğu kimi, İrəvanın köklü istehsalçı qüvvəsi olan azərbaycanlılar öz əzəli torpaqlarından sıxışdırılıb çıxarılırdılar.

İrəvanda sənayenin inkişafı, demək olar ki, birtərəfli gedirdi. Şəhərdə nisbətən qida sənayesi və onun bəzi sahələri – şə-

---

[1]**RDTA** / F.733, siy.82, iş.259, v.22.

rabçılıq və araq istehsalı, unüyütmə, çəltiktəmizləmə, konserv istehsalı inkişaf etməkdə idi.

İrəvanın ilkin fabrik və zavod müəssisələrinə Əliəşrəf bəy Sultanovun 1857-ci ildən fəaliyyətə başlamış çəltiktəmizləmə müəssisəsi və Nikolay Smakovun 1862-ci ildən fəaliyyət göstərən pivə zavodu aid idi. 1875-ci ildə isə hər birində 6 muzdlu işçi olmaqla, daha 3 çəltiktəmizləmə müəssisəsi işə salındı. Bütün çəltiktəmizləmə müəssisələri buxar mühərrikləri ilə təhciz olunmuşdu.[1]

1884-1885-ci illərdə şəhərdə artıq 6 çəltiktəmizləmə və 45 unüyütmə müəssisəsi fəaliyyət göstərirdi.[2] Gildiya və qeyri-gildiya sənaye müəssisələri siyahısında 9 unüyütmə müəssisəsinin adı çəkilirdi ki, onlardan biri də K.Q Silçenkoya məxsus idi. Bu müəssisə elektrik dəyirmanı olaraq buğda və unun saxlanılması üçün dəmir anbarlara malik idi.[3] Onların sayının kəskin şəkildə azalmasını güman ki, müəssisələrin birləşərək iriləşməsi ilə əlaqələndirmək olar. İstehsal həcminin göstəriciləri haqda məlumatların olmaması bunu tam və əsaslı şəkildə təsdiqləməyimizə imkan vermir. Digər tərəfdən də bu, sözügedən müəssisələr barədə kifayət qədər ətraflı məlumatın toplanmaması ilə də əlaqədar ola bilərdi. Çox güman ki, 1884-1885-ci illər məlumatlarına xırda əmtəə istehsalı mərhələsində olan müəssisələr əlavə olunmayıb.

1914-cü il məlumatlarına əsasən şəhərdə illik dövriyyəsi 14 min rubl təşkil edən 11 çəltiktəmizləmə və illik dövriyyəsi 24 min rubla olan unüyütmə müəssisələri var idi.[4]

Tədqiq olunan dövrdə İrəvanda yeyinti-dad sənayesinin inkişaf etməkdə olan digər bir sahəsi isə meyvə konservləri istehsalı idi. İrəvanda meyvələrin qurudulması işində ilk cəhd F.Zolotaryev və Blankenburq tərəfindən edilmişdir. Onların rəhbərliyi altında bu işlə məşğul olan zavod iyun ayından noyabr

[1] **RDTA** / F.20, siy.12, iş.245, v.1-5.
[2] **RDTA** / F.1405, siy.83, iş.11224, v.44.
[3] **RDTA** / F.20, siy.6, iş.862, v.7 arx-8.
[4] **RDTA** / F.1284, siy.194, iş.15, v.29.

ayına qədər fəaliyyət göstərmiş və burada istehsal mövsümi xarakter daşımışdır. 1890-cı ildə zavodda 32 nəfər çalışırdı. O, Rifer sistemli sobası olan 14 qurutma aparatı ilə təhciz olunmuşdur. İstehsalın illik həcmi isə 34 min rubl təşkil edirdi[1]. XX əsrin əvvəllərində şəhərə dəmir yolunun çəkilməsi istehsalın inkişafına yeni təkan vermiş oldu. Belə ki, 1911-ci ildə nəhəng konserv zavodu işə salındı. 1913-cü ildə, artıq bu zavodda 213 ton meyvə konservi, 197.7 ton ərik püresi və 10 min banka marinə edilmiş xiyar konservi hazırlamış 60 nəfər fəhlə çalışırdı. Zavodun istehsalının maya dəyəri həmin ildə 99 min rubla bərabər idi. Bundan başqa, XX əsrin əvvəllərində İrəvanda daha 2 ortahəcmli kompot hazırlayan konserv müəssisəsi fəaliyyət göstərirdi.[2]

Tədqiq olunan dövrdə İrəvanda şərab və araq istehsalı nəzərə çarpacaq dərəcədə inkişaf etmişdi. Şəhərdə sənayenin bu sahəsi üçün kifayət qədər xammal bazası var idi. Belə ki, 1895-ci ilin məlumatlarına əsasən İrəvan şəhərinin ümumi torpaq fondu 1206 desyatin təşkil edirdi ki, bunun da 1185 desyatini üzüm bağlarının payına düşürdü (98.2 %).[3]

XIX əsrin sonlarında bu sənaye sahələri manufaktura mərhələsindən fabrik, zavod mərhələsinə keçid etdilər. 1887-ci il 17 iyun qanununa əsasən şərab və spirt zavodları təkmilləşdirilmiş və təkmilləşdirilməmiş olaraq 2 hissəyə bölündü. Təkmilləşdirilmiş müəssisələr o müəssisələr sayılırdı ki, qovucu kubu və soyuducusu ilə yanaşı, rektifikasiya üçün zəruri mexaniki avadanlığı olsun. İstehsalın miqyası artdıqca bu təkmilləşdirilmiş müəssisələr digər kiçik müəssisələri özlərinə tabe edirdi[4].

1865-ci ildə N.Tahirov İrəvan qalası ərazisində çox da böyük olmayan şərab zavodu tikdirmişdi. Bu zavod 1887-ci ildə

---

[1] Гулишамбаров, С.Т. **Обзор фабрик и заводов Закавказского края/** Тифлис, 1894 г., с. 373-374.

[2] Акопян, Т.Х. Указ. раб., / с. 224.

[3] **Сборник сведений по виноградству и виноделию на Кавказе**/ вып.VI, Тифлис, 1986, с. 154.

[4] Туманян, О.Е. **Экономическое развитие Армении/** ч.1, Ереван, 1954, с. 169.

rektifikasiya üçün mexaniki avadanlıq alaraq ilk təkmilləşdirilmiş zavod oldu. Həmin zavodda şərab, konyak və araq istehsal olunurdu. 1890-cı ildə Tahirov zavodu 167.886 dərəcə spirt çəkmişdi[1].

Bütövlükdə götürüldükdə şərabçılıq iki sahəyə bölünürdü:

a) Sadə şərab istehsalı

b) Konyak istehsalı

Birinci halda şərab istehsalı zamanı qalan artıqlardan spirt çəkilirdi. Bu dövrdə iri şərab zavodu sahibkarları təkmilləşdirilmiş konstruksiyaya malik qovucu aparatlar əldə edirdilər. Konyak məxsusi olaraq, məhz bu təkmilləşdirilmiş aparatların çaxırından istehsal edilirdi.[2]

Qeyd etmək lazımdır ki, istehsal edilmiş şərablar bütövlükdə ilə ixrac oluna bilmirdi. Belə ki, istehsal olunan şərab tələbi üstələyirdi, bu isə öz növbəsində daxili bazarda şərabın qiymətinin enməsinə gətirib çıxarırdı. Araq və konyak istehsalı daha rentabelli idi.

1893-cü ildə İrəvanda Afrikovun, Gözəlovun, 1894-cü ildə isə Saradcevin konyak zavodları işə salınmışdı. 1893-1894-cü illərdə İrəvanda konyak istehsal edən artıq 3 iri zavod fəaliyyət göstərirdi.

Həmin illərdə İrəvanda konyak istehsalı ayrı-ayrı zavodlar üzrə aşağıdakı kimi idi (dərəcə ilə):[3]

***1-ci cədvəl***

| Zavodlar | 1893 | 1894 |
|---|---|---|
| Afrikovun | 115.749 | 84. 811 |
| Saracevin | - | 156439 |
| Gözəlovun | 31977 | 202283 |

Aşağıdakı məlumatlar İrəvanda konyak istehsalındakı vəziyyət barədə müəyyən təsəvvür yaradır***(dərəcə ilə)***:[4]

[1] **RDTA** / F.1284, siy.194, iş.15, v.16.
[2] Гулишамбаров, С.Т. Указ. раб., / с. 169.
[3] Акопян, Т.Х. Указ. раб., / с. 218.
[4] **RDTA** / F.575, siy.3, iş.4957, v.147-148.

*2-ci cədvəl*

| | |
|---|---|
| 1914-cü il 1 yanvar tarixinə konyak spirtindən qalan qalıq | 9.125 |
| 1914-cü il ərzində zavodlardan olan ixrac | 115255 |
| CƏMİ: | 124.470 |

| | |
|---|---|
| 1915-ci ilin 1 yanvarına qalan qalıq | 106. 332 |
| Spirt sərfi | 18.138 |
| Onlardan: yerli satışa buraxılanlar | 13.510 |
| Xaricə ixrac edilənlər | 613 |
| Buxarlanma nəticəsində itki | 4.015 |

Göründüyü kimi, İrəvanda spirtə olan tələbat o qədər də yüksək deyildi. Məlumdur ki, 1914-cü ildə İrəvan quberniyasında 6.820.645[1] dərəcə spirt istehsal edən cəmi 15 konyak müəssisəsi fəaliyyət göstərirdi. Beləliklə, İrəvanda konyak istehsalı bütün quberniyada olan istehsalatın yalnız 2%-ə qədərini təşkil edirdi.

İri şərab-araq istehsalı Varşava, Kişinyov və Səmərqənddə iri şərab və spirt zavodları olan Şustov qardaşlarının adı ilə bağlı idi. 1899-cu ildə Şustovlar Tahirovdan ona məxsus olan zavodu alaraq burada spirtli içkilər istehsal etməyə başladılar. Onlar özlərinin xüsusi çəllək istehsalına və eləcə də, yeraltı çaxır zirzəmilərinin inşasına başladılar. 1902-ci ildə artıq İrəvanda Şustov qardaşlarının 13 nəfər işçisi olan konyak zavodu fəaliyyət göstərirdi.[2]

1907-ci ildə Şustovlar iri mexanikləşdirilmiş konyak və araq zavodları və hidroelektrostansiya inşa etdirdilər. Alınan elektrik enerjisini onlar spirt istehsalı üçün istifadə edirdilər. 1913-cü ildə İrəvanda "Şustov və oğulları" şirkətinin müəssisələrində 80 nəfər fəhlə çalışırdı. 1914-cü ilə qədər İrəvan quberniyasında istehsal olunan konyakın 50%-ə qədərini İrəvan şəhərində yerləşən Şustovların konyak zavodu verirdi.

XX əsrin əvvəllərində A. Soğomonyana məxsus daha bir konyak zavodu fəaliyyətə başladı. Bu, iri zavod idi. 1914-cü ildə

---

[1] **RDTA** / F.575, siy.3, iş.4957, v.147.

[2] **RDTA** / F.1284, siy.194, iş.15, v.29.

quberniya üzrə istehsal olunan 6.820.000 dərəcə konyak spirtinin 4.026588 dərəcəsi (60% qədəri) İrəvan şəhərində yerləşən beş konyak zavodunun payına düşürdü.[1]

Təəssüf ki, tədqiq olunan dövr üzrə olan materiallar İrəvanda sənaye istehsalının inkişaf dinamikasını isıqlandırmağa imkan vermir. Olan məlumatların müxtəlifliyi üzündən onları müqayisə etmək mümkün deyil. Lakin ümumi mənzərənin yaradılması üçün aşağıdakı cədvəldə 1896-1900-cü illər ərzində İrəvan şəhərində olan sənaye müəssisələri, onların ümumi istehsal həcmi və fəhlələrinin sayı haqda məlumat verməyə çalışmışıq:[2]

***3-cü cədvəl***

| **Sənaye sahələri** | **Müəssisələrin sayı** | | **Istehsalatın həcmi (rublla)** | | **İşçi sayı** | |
|---|---|---|---|---|---|---|
| | **İllər** | | **İllər** | | **İllər** | |
| | **1896** | **1900** | **1896** | **1900** | **1896** | **1900** |
| Piyəritmə | 2 | 2 | 400 | 700 | 4 | 4 |
| Sabunbişirmə | 2 | 1 | 600 | 1200 | 5 | 3 |
| Dəri emalı | 18 | 18 | 6700 | 7500 | 65 | 57 |
| Üzüm, meyvə, araq istehsalı | 61 | 12 | 22200 | 20000 | 127 | 40 |
| Spirttəmizləmə | 2 | 2 | 96000 | 98000 | 40 | 35 |
| Pivə istehsalı | 2 | 2 | 8170 | 1500 | 8 | 13 |
| Unüyütmə | 9 | 17 | 5700 | 29000 | 27 | 27 |
| Çəltiktəmizləmə | 8 | 8 | 11760 | 17250 | 32 | 25 |
| Kərpic istehsalı | 5 | 5 | 635 | 800 | 32 | 29 |
| Dulusçuluq | 3 | 4 | 2500 | 700 | 32 | 29 |
| Əhəng istehsalı | 4 | 5 | 3220 | 4000 | 18 | 25 |
| Boyaqçılıq | 10 | 7 | 710 | 560 | 18 | 14 |
| Süni mineral su istehsalı | 3 | 4 | 2790 | 6000 | 11 | 15 |
| Kauçuk ştempellərinin hazırlanması | _ | 1 | _ | 1800 | _ | 1 |
| **CƏMİ:** | 125 | 88 | 161385 | 202510 | 403 | 297 |

[1] Акопян, Т.Х. Указ. раб., / с. 218-219.
[2] **Обзор Эриванской губернии за 1896г /** Эриван, с. 19-20; **Обзор Эриванской губернии за 1900г /** Эриван, с. 22-23.

Cədvəldə göstərilən sənaye sahələrindən piyəritmə, sabunbişirmə, dəri emalı, unüyütmə və tikinti materialları istehsal edən müəssisələr xırda əmtəə istehsalı səviyyəsində qalmışdılar.

Cədvəldə verilən məlumatlar onu sübut edir ki, XIX əsrin sonu XX əsrin əvvəllərində bəzi müəssisələrin ixtisara düşməsi şəraitində (129-dan 88-ə) istehsal həcminin 16138 rubldan 202510 rubladək artması müşahidə olunurdu. Bununla da demək olar ki, göstərilən dövrdə istehsalın mərkəzləşdirilməsi və kapitalın təmərküzləşməsi prosesi gedirdi. Cədvəldəki məlumatlardan görünür ki, spirtli içkilər istehsalında bu proseslər özünü daha aydın göstərirdi. Bundan başqa, XX əsrin əvvəllərində bu proses daha da sürətlənmişdi. Belə ki, arxiv materiallarına əsasən, 1914-cü ildə İrəvanda 150 nəfər fəhləsi 601 min rubl istehsal həcmi olan 14 şərab-araq, 4 spirt təmizləyici zavod, eləcə də 20 nəfər işçisi və 36 min rubl istehsal həcmi olan 1 pivə zavodu fəaliyyət göstərirdi.

1887-ci il 15 iyun aksiz qanunvericiliyinə əsasən spirt zavodları 2 dərəcəyə sənaye və "bağçılıq" və ya qeyri-təkmil olanlara bölünürdü. Qeyd etmək lazımdır ki, araq istehsalı çox vaxt "bağçılıq" zavodlarında həyata keçirilirdi, belə ki, bununla əlaqədar qanun onlara imtiyazlar vermişdi. Bir qayda olaraq, iri sahibkarlar üzüm bağları əldə edərək həmin ərazilərin sahibkarlarına çevrilir və bununla da limitsiz araq istehsalı hüququna malik olurdular. Bu iri istehsalçı tacirlər kiçik bağçılıq təsərrüfatı olanlardan da üzümü satın alırdılar.

Bu "bağçılıq" zavodları arağı yalnız bazar satışı üçün istehsal edirdilər[1]. 1904-cü il məlumatlarına görə bu dövrdə İrəvanda "bağçılıq" şərabçılığı ilə 40 nəfər məşğul olurdu.[2]

Sənaye müəssisələrinin iriləşdirilməsi kərpic istehsalında da özünü göstərirdi. Belə ki, 1914-cü ildə İrəvanda artıq 20 nəfər işçisi və istehsal həcmi 4 min rubl təşkil edən 4 kərpiç zavodu fəaliyyət göstərirdi.[3]

---

[1] Туманян, О.Е. **Экономическое развитие Армении** / ч.1, с. 192-193.

[2] **RDTA** / F.1290, siy.5, iş.216, v.3.

[3] **RDTA /** F.1284, siy.194, iş.15, v.29.

İrəvanda inkişaf etmiş digər sənaye sahələrindən biri də pambıqtəmizləmə istehsalı idi. İlk pambıqtəmizləmə maşını (kotton-cın) "Qafqaz Kənd Təssərrüfatı Cəmiyyəti" tərəfindən İrəvan quberniyasına hələ XIX əsrin 60-cı illərdə göndərilmişdi. 1888-ci ildən başlayaraq Moskvanın firma-tədarükçüləri İrəvan quberniyasında pambıqtəmizləmə işini təşkil etmişdilər. Həmin ildə İrəvan qəzasında 60, Eçmiədzin qəzasında isə 70 pambıqtəmizləmə qurğusu var idi.[1]

İrəvanın ən böyük pambıqtəmizləmə zavodunun əsası türk taciri Seylanoğlu tərəfindən qoyulmuşdu. Bu zavodda gündəlik olaraq 1000 puda yaxın pambıq təmizləmək mümkün idi. Pambıqtəmizləmə zavodlarında pambığı təmizləyərək alınan mahlıcı presləyib daşımalar üçün rahat olan yüklər şəklində bağlayırdılar.

1887-ci ildə çar hökuməti pamçılıq rayonunda nümunəvi plantasiyaya malik təcrübə stansiyasının yaradılmasını faydalı hesab etdi. Stansiyanın İrəvanda yaradılmasına qərar verildi. Şəhərdə buna uyğun 16 desyatin torpaq sahəsi mövcud idi. Lakin suvarma ilə bağlı çətinliklərin olması səbəbindən bu torpaq sahəsindən imtina olundu. Təcrübə plantasiyası üçün İrəvan şəhər bağında ümumi sahəsi 8 desyatin olan sahədən 2 desyatin ayrılaraq təcrübə səpini aparıldı. İşlərin aparılması Amerikada pambıqçılığı öyrənmiş aqronom Taratınova tapşırılmışdı.

İrəvan pambığı yalnız Moskvaya deyil həmçinin Lodzada da ixrac olunurdu (40%-dən az olmayaraq).[2] Bəhs olunan dövrdə İrəvanda pambıq daşınması ilə iki nəqliyyat kontoru – "Rusiya cəmiyyəti" və "Nadejda" məşğul olurdu. Pambıq, daha doğrusu mahlıc Ağstafaya qədər nəqliyyat kontorları tərəfindən İrəvan şossesi ilə karvanlarla, öküz, at və dəvələrlə dəmir yolu stansiyasına daşınırdı. Karvanlar oradan isə geriyə ağ neftlə qayıdırdılar. Hər 4 atdan ibarət arabaya təxminən 1.5 ton, 2 öküz-

---

[1] Туманян, О.Е. Указ. раб., / сс.193-194.

[2] **Обзор фабрик и заводов Закавказского края** / Тифлис, 1894 г, с. 274-282.

dən ibarət qoşquya 960 kq, hər dəvəyə isə 240 kq mahlıc yüklənirdi[1]. 1902-ci ilin məlumatlarına əsasən İrəvan şəhərində 7 fəhləsi olan pambıqtəmizləmə müəssisəsi fəaliyyət göstərirdi[2].

1914-cü il arxiv sənədlərində göstərilir ki, İrəvanda 40 fəhləsi və illik dövriyyəsi 12 min rubl olan 3 mexaniki çilingər müəssisəsi fəaliyyət göstərirdi [3]. Emalatxanalar şərab zavodlarına xidmət göstərir, habelə şəhər əhalisinin metal əşyalara olan tələbatını təmin edirdi.

XX əsrin əvvəllərində sənayenin inkişafı ilə əlaqədar enerji daşıyıcıları məsələsi xüsusi aktuallıq kəsb etməyə başlamışdı.

1907-ci ildə zəngin irəvanlılardan biri olan Hacı İbrahim oğlu Zəngi çayı üzərində su elektrik stansiyası tikməyi təklif etdi. 1909-cu ildə mühəndis Xəlil bəy Qasımbəyov "Kooperasiya" şirkəti adından şəhər idarəsinə su elektrik stansiyası tikilməsi ilə əlaqədar müraciət etdi. Lakin o dövrdə bu layihə həyata keçirilmədi.

XX əsrin əvvəllərində Qırxbulaq çayından İrəvana 19 km uzunluğunda su kəməri çəkilmişdi. Bu kəmərin çəkilişində Abbasqulu xan İrəvanskinin böyük xidməti olmuşdur[4].

Beləliklə də, nəzərdən keçirilən dövrdə İrəvanda sənaye sahəsinin bütün inkişaf mərhələləri – kustar sənətkarlığı, manufaktura və fabrik-zavod mərhələləri mövcud idi. İnkişafın manufaktura mərhələsində yalnız unüyütmə və çəltiktəmizləmə müəssisələri idi. Nəzərəçarpacaq inkişaf spirtli içki istehsalı, mexaniki pambıqtəmizləmə sahələrini əhatə edirdi. Lakin bu istehsal sahələrində də fabrik-zavod mərhələsində olan kifayət qədər iri mexaniki müəssisələrlə yanaşı, xırda manufakturalar, hətta kustar müəssisələri də mövcud idi. Məsələn, spirtli içkilər istehsalında iri müəssisələr olduğu kimi, xırda bağçılıq müəssisələri də var idi. Bununla yanaşı, nəzərdən keçirilən dövrdə, xüsusən də

---

1 Пагирев, Д.Д. **Эриванский сборник /** вып.1, Эривань, 1892, с. 103.
2 **RDTA** / F.22, siy.2, iş.2928, v.1-7.
3 **RDTA** / F.1284, siy.194, iş.15, v.29.
4 Nazim Mustafa. **İrəvan şəhəri** / Bakı, 2020, s. 27-28; Акопян, Т.Х. **Очерк истории Еревана /** Ереван, 1977, s. 269-273.

XIX əsrin sonu XX əsrin əvvəllərində müəssisələrin iriləşdirilməsi və təkmilləşdirilməsi prossesi aydın şəkildə nəzərə çarpırdı.

Əgər 1896-cı ildə İrəvanın 125 müəssisəsində 403 fəhlə, 1908-ci ildə isə 61 müəssisəsində 482 fəhlə çalışırdısa, artıq 1913-cü ildə şəhərdə 800 fəhlənin olduğu qeydə alınmışdı.[1] Əgər 1887-ci ildə İrəvan sənayesinin ümumi gəliri 74279 rubl, 1908-ci ildə isə 724.600 rubl təşkil edirdisə, artıq 1913-cü ildə bu göstərici 3 milyon rubla çatmışdı.[2]

Yerli xammal resurslarının artımı, kapital yığımı, yol çəkilişi, xüsusən də dəmir yolu çəkilişi və s. amillər şəhərdə kapitalist münasibətlərinin yaranmasına və inkişafına yardım etmiş oldu.

Lakin qeyd etmək lazımdır ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Şimali Azərbaycan sənayesi üçün xarakterik olan inhisarlaşma prosesi İrəvanda çox ləng gedirdi.

## 3.2. Ticarət

Yaxşı məlumdur ki, İrəvan xanlığının işğalı ilə Rusiya Cənubi Qafqazda yeni bazarlar və zəngin xammal mənbələri əldə etmiş oldu. Bölgənin təbii ehtiyatlarının mənimsənilməsi üçün ilk növbədə imperiya idarəçiliyini tətbiq edilməklə yanaşı yerli sərvətlərin daşınmasına başlanıldı. Cənubi Qafqaza rus sənayesinin xammal bazası və satış bazarı kimi baxan alimənsəb Rusiya dairələri geniş fəaliyyətə başladılar. Bu nöqteyi-nəzərdən düşünən imperiya maliyyə naziri Kankrin də 1827-ci ilin oktyabrında tərtib etdiyi "Maliyyə nazirliyinin İrəvan əyalətinin birləşdirilməsi ilə bağlı təklif olunan tədbirləri" adlı hesabatında yeni vilayətin ümumi idarə edilməsi sisteminin öncədən müəyyənləşdirilməsi üçün İrəvana rus məmurlarının göndərilməsinin vacibliyini vurğulayırdı.[3]

---

[1] Акопян, Т.Х. Указ. раб., / с. 226.

[2] Yenə orada.

[3] Рожкова, М.К. Экономическая политика царского правительства на Среднем Востоке во второй четверти XIX века и русская буржуазия. – Москва: Изд-ва Акад. наук СССР, 1949. – 392 с. / с. 94.

Elə İrəvan xanlığı işğal olunan gün Qafqazdakı Rusiya qoşunlarının baş komandanı Paskeviç özünün tərtib etdiyi "Ümumi Qaydalar" əsasında İrəvan vilayətinin idarə edilməsi üçün mülki hissə üzrə bütün işləri aparılmalı olan müvəqqəti idarə təşkil etdı. 19 maddədən ibarət olan həmin "Qaydalar"a görə, bu İdarə başqa işlərlə yanaşı iqtisadi məsələlər, o cümlədən, Gürcüstanla, Abaran və Dilican dərəsi ilə ticarət əlaqələrini bərpa etməli və gediş-gəlişin təmin edilməsinə nail olmalı idi. İdarə həmçinin İrəvan və Sərdərəbadda rus qoşunlarının ələ keçirdiyi çit ehtiyatının əlverişli satışının qeydinə qalmalı və bu məhsulun emalı işinin və ticarətinin dəstəklənməsinə çalışmalı idi.[1]

İmperatorun tapşırığı üzrə xarici işlər, daxili işlər və maliyyə nazirlikləri ilə birlikdə 1827-ci ilin dekabrında imperiya Baş qərargah rəisi tərəfindən İrəvan və Rusiya silahı ilə tabe edilmiş digər ərazilərin idarə olunması ilə bağlı yeni bir layihə hazırlandı. Layihəyə görə, İrəvan vilayət idarəsi ticarət əlaqələrini və sənayeni bərpa etməli, onlara himayəçilik etməli, bununla yanaşı pambıq becərilməsini yaxşılaşdırmağa və gücləndirməyə diqqət yetirməli, taxılçılıq, maldarlıq, ipəkçilik, bağçılıq və ümumiyyətlə ticarət, fabriklər və sənaye haqqında məlumat toplamalı idi. İdarə həmçinin məlumatların rahat əldə edilməsi üçün xan və bəylərin gəlirləri və digər bilgilər qeyd olunmuş sənədləri əldə etməyə çalışmalı, ticarət və gömrük tranziti, xüsusilə gömrük sisteminin qurulması, gömrük və zastava məntəqələrin yerləşdirilməsi, habelə rəhdar rüsumları və bununla bağlı digər məlumatları maliyyə nazirliyinə təqdim etməli idi.[2]

1831-ci il iyunun 3-də imperator tərəfindən eyni gündə iki

---

[1] Общие правила, начертанные ген. Паскевичем для управления Эриванской областью, от 6-го октября 1827 года – Эривань // Акты собранные кавказскою археографическою комиссией. Том VII. Тифлис, 1878. Док.№432, с. 480-481.

[2] Отношение гр. Дибича к. ген. Паскевичу, от 15-го декабря 1827 года, № 2417 // Акты собранные кавказскою археографическою комиссией. Том VII. док.№436, с. 482-484.

əsasnamə təsdiq olundu. Bunlardan biri "Cənubi Qafqaz diyarının gömrük idarəçiliyi haqqında əsasnamə"[1], digəri isə "Cənubi Qafqaz diyarında ticarət və gömrük işlərinin qurulması haqqında əsasnamə"[2] adlanırdı. Birinci əsasnaməyə görə Cənubi Qafqaz Gömrük Dairəsi təşkil edilir, Qacar və Osmanlı dövlətləri ilə sərhəddə Ağoğlan, Naxçıvan və İrəvan gömrükxanaları yaradılırdı. Həmçinin Tiflis və Bakı şəhərlərində "anbar gömrükxanaları" təsis olunurdu. Erməni vilayəti ərazisindən keçən quru sərhədlər boyunca Mehri (Miğri), Ordubad, Culfa, Abbasabad, Şahtaxtı, Qaraoğlan, Bağicuvazlı, Gümrü zastavaları təşkil edilirdi.[3]

İkinci "Əsasnamə" əslində 1821-ci il 8 oktyabr tarixli fərmanın 10 illik müddəti başa çatdığı üçün verilən əsasnamə idi. Burada deyilirdi ki, diyarın gömrük işinin və ticarətinin yenidən qurulmasına, bir tərəfdən yeni vəziyyətin – diyarın yeni tərkibi və yerli manufaktura sənayesinin mənafelərinin müqayisə edilməsi, digər tərəfdən isə, imkan daxilində, xarici ticarətin yüngülləşdirilməsi ilə başlanılır.[4] Bu əsasnamə ilə 1832-ci il yanvarın 1-dən etibarən diyardakı güzəştli ticarət ləğv olunur-

---

[1] Высочайше утвержденное положенеие о Таможенном управлении в Закавказском крае // Полное собрание законов Российской империи. Собрание 2-е. Том VI. 1831. Отделение 1-ое. СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1832. №4621, с. 432-435 / с. 432.

[2] Высочайше утвержденное положенеие об устройстве торговых и таможенных дел в Закавказском крае // Полное собрание законов Российской империи. Собрание 2-е. Том VI. 1831. Отделение 1-ое. СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1832. №4622, с. 435-449.

[3] Отношение гр. Паскевича к гр. Канкрину, от 5-го октября 1830 года, №342 // Акты собранные кавказскою археографическою комиссией. Том VII. Док. 108. С. 136-141

[4] Высочайше утвержденное положенеие об устройстве торговых и таможенных дел в Закавказском крае // Полное собрание законов Российской империи. Собрание 2-е. Том VI. 1831. Отделение первое. СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1832, №4622, с. 435-449.

du.[1] Əvəzində Asiya malları üzərində 5 faizlik gömrük rüsumu saxlanırdı; diyara Avropa malları yalnız Qara dəniz limanları vasitəsilə, özü də Avropa tarifi ilə müəyyən edilmiş şərtlər əsasında gətirilə bilərdi; Rusiya sənayeçilərinə "ziyan verən" malların diyara gətirilməsi qadağan edilirdi; Cənubi Qafqazdan Rusiyaya xarici malların aparılmasına icazə verilmirdi; Cənubi Qafqazdan xaricə, yerli və Rusiya mallarını gömrük rüsumu alınmadan aparmaq olardı.[2] 1821-ci ilin güzəştli gömrük tarifi ilə müqayisədə bu yeni əsasnamə "qadağa gömrük tarifi" adı altında düşmüşdür.

Maliyyə nazirliyinin Dövlət Şurasında nəzərdən keçirilmiş təqdimatının nəticəsində diyarda ticarət və gömrük işlərinin quruluşu haqqında 1831-ci il 3 iyun əsasnaməsində gömrük hissəsi üzrə olan maddələrin müddəti imperatorun senata verdiyi 2 yanvar 1836-cı il fərmanı ilə daha bir il – 1837-ci il yanvarın 1-dək uzadıldı.[3]

1831-ci il əsasnaməsinin qüvvədə olduğu müddətin başa çatması ilə əlaqədar olaraq maliyyə nazirinin 1836-cı il iyunun 4-də xüsusi komitədə və Dövlət Şurasında nəzərdən keçirilmiş təqdimatına uyğun olaraq, çar tərəfindən Cənubi Qafqaz diyarında gömrük işi barəsində əsasnaməyə əlavə qaydalar təsdiq edildi.[4] Qanuna görə, Cənubi Qafqaz Gömrük dairəsinin yeni ştatına

---

[1] Отношение кн. Воронцова к кн. Чернышеву, от 31 августа 1846 года, № 725. – Кисловодск // Акты собранные кавказскою археографическою комиссией. Том X. – Тифлис: Типография Канцелярии Главноначальствующего гражданскою частью Кавказа, 1885. Док.№187. – С. 181-187 / с. 186.

[2] Yenə orada.

[3] О продолжении действия постановлений по таможенной части Закавказском крае, по 1 января 1837 года // Полное собрание законов Российской империи. Собрание 2-е. Том XI. Отделение 1-е. 1836. – СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1837. № 8739. – С. 1.

[4] Высочайше утвержденные дополнительные правила к положению о Таможенном производстве в Закавказском крае, помещенному в Своде Учреждений и Уставов Таможенных, Том 6, - статьи 1911-1912 //

əsasən İrəvan gömrükxanası ləğv olundu.

XIX əsrin 40-cı illərin əvvəllərində Cənubi Qafqaz ticarət qanunvericiliyinə yenidən baxılması məsələsi gündəmə gəldi. Cənubi Qafqaz vasitəsilə ticarət dövriyyəsinin dayanmasından narahatlıq keçirən Qafqaz canişini Voronsov Avropa mallarının rüsumsuz tranzitinin təşkil edilməsi zərurəti ilə bağlı bir sıra təkliflərlə çıxış edirdi. Yerli hakimiyyət orqanları, xüsusən də canişin Voronsov güzəşt dövrünün hüquqlarını bərpa etmək üçün əlindən gələni etməyə çalışırdı, lakin onun səylərinə baxmayaraq, o, əvvəlki gömrük qaydalarını bərpa edə bilmədi. Bu məsələ ilə bağlı Voronsov hələ Qolovinin özünə də müraciət etmişdi. Onda Voronsov ticarəti dirçəltmək üçün bir sıra təkliflərini ona təqdim etmişdi.[1] Qacar sərhədindən Cənubi Qafqaz gömrüyünə gətirilən bəzi nəqliyyat vasitələrinin yoxlanılması zamanı aşkar edilməyən mallardan gömrük haqqından əlavə 50% məbləğində cərimənin tutulması ilə bağlı Qafqaz canişinin məktubuna münasibət bildirən maliyyə naziri Qafqaz komitəsinə göndərdiyi təliqəsində canişin Voronsovun fikirləri ilə həmrəy olduğu bildirilirdi. Canişinin bu təklifi həm nazirlik və həm də çar tərəfindən bəyənildiyi üçün yeni qanunda yer almalı idi.[2] Canişin Voronsovun 1846-cı il avqustun 31-də Çernışevə yazdığı məktubunda ticarət tranziti haqqında qaydaların təsdiqi zamanı Tiflisdən sərhədədək olan yolda Qori, Həsənbəyli, Dilican və İrəvanda gömrük postların qurulması ilə

---

Полное собрание законов Российской империи. Собрание 2-е. Том XI. Отделение 1-е. 1836. – СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1837. №9250. – С. 648-651 / с. 648.

[1] Отношение гр. Воронцова к ген. Головину, от 31-го марта 1842 года, №182 // Акты собранные кавказскою археографическою комиссией. Том IX. – Тифлис: Типография Канцелярии Главноначальствующего гражданскою частью Кавказа. Док. 67. С. 61.

[2] О штрафе за не оказавшиеся товары, привозимые с Персидской границы //Журнал мануфактур и торговли. Часть IV. Кн. 1. – Октябрь. – 1849. №10. С. 1.

bağlı maliyyə nazirliyinə məlumat verildiyi bildirilirdi.[1] Nəhayət, canişinin təşəbbüsü 1846-cı il dekabrın 14-də Cənubi Qafqaz diyarında ticarət qaydalarının yüngülləşdirmələri haqqında fərman şəklində təsdiqləndi[2] və həyata keçirildi. Fərmana görə, 1847-ci ildən etibarən 5 il müddətində Kerçdən Redutqala və Suxumqalaya gətirilən Rusiya pambıq parçalarına, xarici parçalardan ümumi tarif üzrə alınan rüsumun yarısı qədəri hədiyyə olunurdu. Təsdiq olunan qaydalar əsasında Redutqala və Suxumqaladan Avropa mallarının tranziti rüsumsuz həyata keçirilirdi. Bu fərman ancaq 1848-ci ildən fəaliyyət göstərməyə başladı.[3] 1850-ci il yanvarın 26-da verilən və 1851-ci ilin yanvarın 1-dən qüvvəyə minən yeni qanunda tranzitin asanlaşdırılması öz əksinin tapırdı.[4] Bu qanun gömrük rüsumunun miqdarı endirildiyinə və bu vaxtadək qadağan olunmuş malların gətirilməsinə icazə verildiyinə görə yerli əhali üçün də müəyyən əhəmiyyət kəsb edirdi.[5]

---

[1] Отношение кн. Воронцова к кн. Чернышеву, от 31 августа 1846 года, № 725. – Кисловодск // Акты собранные кавказскою археографическою комиссией. Том X. – Тифлис: Типография Канцелярии Главноначальствующего гражданскою частью Кавказа, 1885. Док.№187. – С. 181-187 / с. 183.

[2] Об облегчениях Закавказского края в торговле // Полное собрание законов Российской империи. Собрание 2-е. Том XI. Отделение 2-е. 1846. – СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1847. №20699. – С. 642-646 / с. 644; О ходе пограничной торговли Закавказского края в 1847 году // Закавказский вестник, 19 февраля 1848 года, №8.

[3] Тихоцкий Е.А. Закавказский транзит и наша с ним конкуренция по торговле с Персией в 1862-81 гг. – Киев: Типография С.В. Кульженко, 1883. – 37 с. / с. 9.

[4] О мерах облегчения транзита Европейских товаров через Закавказский край в Персию // Полное собрание законов Российской империи. Собрание 2-е. Том XXV. Отделение 1-е. 1850. – СПб.: Типография 2-й отделении собственной е. и. в. канцелярии, 1851. №23878, с. 90-91.

[5] Статистическое описание губерний и областей Российской империи. Том XVI. Кавказский край. Часть 5. – СПб.: Типография Департамента Генерального штаба, 1858. 334 с. / с. 112.

1865-ci il martın 25-dən etibarən Cənubi Qafqaz diyarı vasitəsilə Avropa mallarının Qacar dövlətinə və əksinə yük daşımaları "Rus gəmiçilik və ticarət cəmiyyəti" və "Nadejda" kompaniyası tərəfindən ("Nadejda" kompaniyasının İrəvan şəhərində kontoru yerləşirdi[1]) həyata keçirilməsinə başlandı.[2] 1868-ci ildə ayrıca Gömrük idarəsinin təsis olunması tranzit malların hərəkətini tezləşdirən qərarların verilməsinə şərait yaratmış oldu.[3] 1877-ci il yanvarın 4-də verilən qanunda isə tranzit qaydalarında bir sıra dəyişikliklərin edilməsi nəzərdə tutulurdu.[4]

"Cənubi Qafqaz diyarında ticarət və gömrük işlərinin qurulması haqqında əsasnamə" xanlıq dövründən qalan gömrük rüsumu olan rahdarı ləğv etmədi və bu səlahiyyəti Qafqaz rəhbərliyinin sərəncamına buraxdı. Qafqaz administrasiyası hələ Yermolovun dövründən Cənubi Qafqazda rəhdarın ləğv edilməsinin tərəfdarı kimi çıxış etmirdi. Yermolovun 1824-cü ildə verdiyi sərəncamın 6-cı maddəsində göstərilirdi: " ... etiraf edirəm ki, ... indi rahdar dərəcələri adlanmaqla iltizamda olan və xəzinəyə əhəmiyyətli şəkildə gəlir gətirən gömrük rüsumu növbəti sərəncam verilənədək olduğu kimi saxlanmalıdır."[5] Na-

---

[1] Контора С.-Петербургской компании под фирм. «Надежда» // Кавказский календарь на 1866 год. – Тифлис: Типография Главной Управлении наместника Кавказского, 1865. Отдел II. С. 112.

[2] Эксельбирт М. Краткий обзор транзитных операций Персии с Европою в 1863 году // Кавказ, 6/18 февраля 1866 года, № 11.

[3] Эксельбирт М. О промышленной и торговой деятельности Закавказского края // Кавказский календарь на 1869 год. Тифлис: Типография главного управлении наместника Кавказского, 1868, Литературный отдел, с. 37-54 / с. 53-54.

[4] Об изменении Правил о транзите, через Закавказской край, Европейских товаров в Персию и Турцию и Азиатских из Персии и Турции в Европу // Полное Полное собрание законов Российской империи. Собрание 2-е. Том LII. Отделение 1-е. 1877. – СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1879. № 56796. – С. 1-7.

[5] Отношение ген. Ермолова к ген.-л. Канкрину, от 31-го августа 1824 года, №97. – Кр. Нальчик // Акты собранные кавказскою археологиче-

zirliyin təlimatında da rahdar adlanan daxili ticarət gömrüyünün ləğv edilməsinin arzuolunanlığı təsdiq olunurdu.[1] İmperiya mərkəzini təmsil edən maliyyə nazirliyi isə, bu cür maneələrin fəaliyyətini mümkün qədər tez ləğv etməyə çalışırdı.

Lakin Pankratovdan sonra diyarı idarə etmiş Rozen "Əsasnamə ilə bağlı olan tədbirlərin, o cümlədən rahdarın ləğvi məsələsi üzrə tədbirlərin həyata keçirilməsini ləngitməyə çalışırdı."[2] Rahdarın saxlanmasının qatı tərəfdarı kimi çıxış edən Rozen 1832-ci ilin yanvarında, hətta rahdar rüsumunun ləğvinə görə İrəvan gömrükxanasına ciddi töhmət vermiş və rahdarın bərpa olunmasını əmr etmişdi.[3] Rozen bu məsələ ilə bağlı maliyyə nazirliyinin razılığını əldə edə bilmişdi.[4] Dövlət Şurasının 1836-ci ildə keçirilən iclasların birinin jurnalından Cənubi Qafqazda mallardan alınan ikili rüsumun – rahdar və gömrük rüsumun saxlandığı məlum olur.[5]

İrəvan şəhərinin ticarət obyektlərində müxtəlif pullardan istifadə olunurdu. Burada 1 Rusiya imperialı 10 gümüş rubla,

---

ской комиссией. Том V. – Тифлис: Типография Главного Управления наместника Кавказского, 1873. Док. №286, с. 232.

[1] Записка ген.-адъютанта Сипягина о. с.с. Сальватори и н.с. Хрипкове, командированных в Закавказский край. – Представлена гр. Паскевичу при рапорте, от 19-го сентября 1828 года, №4098 // Акты собранные кавказскою археографическою комиссиею. Том VII. – Тифлис: Типография Главного Управления наместника Кавказского, 1878. Док.№105, с. 125-126..

[2] Рожкова, М.К. Экономическая политика царского правительства на Среднем Востоке во второй четверти XIX века и русская буржуазия / М-Л, 1949, с. 98.

[3] Yenə orada.

[4] Выписка из записки гр. Канкрина, внесенной в Государственный Совет 20-го марта 1836 года, №3845 // Акты собранные кавказскою археографическою комиссиею. Том VIII. Док. 97. С. 172.

[5] Выписка из журнала Государственного Совета 11-го мая 1836 года по делу о предположениях насчет коммерческих сношений России с Азиею вообще и о Закавказской торговле нашей в особенности // Акты собранные кавказскою археографическою комиссиею. Том VIII. Док. 98. С. 177.

Holland çervonu 16 gürcü abası və ya 8 Qacar minaltınına, Qacar tüməni 20 gürcü abasısına, darülxli-axfası Rusiya gümüş pulu ilə 1 rubl 34 qəpiyə, üç cürə - 4, 2 və 3 olmaqla mahmudiyyə Rusiya gümüş pulu ilə 1 rubla, rupilər Rusiya gümüş pulu ilə 50 qəpiyə, digəri isə 30 qəpiyə, Rusiya rublu 5 gürcü abası və ya 2 ½ Qacar minaltınına, gürcü abasısı ½ Qacar minaltınına və ya 10 Qacar şahısına, Qarabağ pənabadı 1 gürcü abasına, Qacar sahibqıranı 2 gürcü abasısına, Osmanlı quruşunun biri 2 gürcü abasısına, digəri isə 1 ½ abası və ya 6 Rusiya mis qəpiyinə bərabər idi. Həmçinin Rusiya gümüş pulu ilə 10 qəpik, 7-si 6 Rusiya mis qəpiyinə bərabər tutulan para və xanlıq dövründən qalma 6 Rusiya qəpiyinə bərabər tutulan 4 mis qara pullar dövriyyədə olmuşdur.[1] Gürcü bir abasısı 20 Rusiya gümüş qəpiyinə bərabər idi.[2]

Cənubi Qafqaz diyarında ticarət və gömrük işlərinin qurulması haqqında əsasnaməyə görə, Qara dənizi limanları vasitəsilə Cənubi Qafqaza çervon, taler və 5 franklıq pullardan başqa digər Avropa pulların gətirilməsi qadağan edilirdi. Cənubi Qafqaz gömrükxanalarında rüsumlar Rusiya qızıl və gümüş pulları, habelə çervonla ödənilməli idi. Gümüş pullar 1 rubl 1 rubl, yarımimperial 5 rubl, çervon isə 2 rubl 80 qəpik dəyərində hesablanırdı. Maliyyə nazirliyinə möhkəm davamlı Avropa və Qaçar pullarından istifadəsinə icazə verilirdi. Assiqnasiya (əskinas – müəl.) qəbulu illik müəyyən edilən ümumi gömrük kursu üzrə yalnız Tiflis şəhərində həyata keçirilirdi.[3]

---

[1] Зубарев Д. Эриванская провинция // Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть 4. – СПб.: Типография департамента внейней торговли. – 1836. – С. 252-300 / s. 287

[2] Зубов П. Картина Кавказского края, принадлежащаго России и сопредельных оному земель. Часть первая. – СПб.: Типография Конрада Вингебера, 1834, с. 270 / с. 225

[3] Высочайше утвержденное положение об устройстве торговых и таможенных дел в Закавказском крае // Полное собрание законов Российской империи. Собрание 2-е. Том VI. 1831. Отделение первое. СПб.: Типография 2-й отделении собственной его императорского

Senatorlar Kutaysev və Meçnikovun imperatora təqdim etdikləri hesabatda Cənubi Qafqazın digər şəhərləri ilə yanaşı İrəvan şəhərində də Probir (əyar) palatasının təsis edilməsini və əhalinin istifadəsindəki Asiya pullarını həmin palatalarda Rusiya pulları ilə dəyişdirilməsini təklif edilirdi. Belə palatalar bir il fəaliyyət göstərməli idi. Tiflis istisna olmaqla digər şəhərdə onların fəaliyyəti dayandırılırdı. Lakin bu və ya digər təkliflərə maliyyə nazirinin münasibəti birmənalı olmadı. O, belə palatanın yalnız Tiflis şəhərində yaradılmasının tərəfdarı kimi çıxış etdi və əvəzində Tiflis zərbxanasının ləğvini istədi.[1] Belə də oldu, 1832-ci il 1 iyun qanunu ilə Tiflis zərbxanası ləğv edildi və 1835-ci il 14 avqust qanunu ilə Tiflis Probir (əyar) palatası yaradıldı. 1837-ci ilin məlumatına görə, Tiflis Probir (əyar) palatası tərəfindən İrəvan şəhərində 30 min Rusiya gümüş rublu dəyərində sahibqıran, 20 min gümüş rubl dəyərində panabad, 60 min rubl dəyərində qazi və yarımqazı qızıl pullar, 10 min rubl dəyərində gürcü ikiabaslığı və 10 min rubl dəyərində gürcü abasılıq pulları dövriyyədən çıxarılmışdır. Həmin ilin kursuna görə 1 sahibqıran Rusiya gümüş rublu ilə 35 qəpiyə, panabad 17 ½ qəpiyə, qazı 1 rubl 40 qəpiyə, yarımqazı 70 qəpiyə bərabər idi.[2] Bundan başqa şəhərdə həmçinin tümən, əşrəfi və habelə İrəvan xanlarının zərbxanalarında hazırlanmış mis xırda pullardan da istifadə olunurdu. 1849-cu il 18 iyun qanununa görə Cənubi Qafqazda Qacar və habelə Osmanlı pulları hələ də dövriyyədə qalırdı.

Çəki və ölçü vahidlərinin müxtəlifliyi istər daxili, istərsə də xarici ticarətin inkişafına mənfi təsir göstərirdi. Bütün xanlıq dövründə və ondan sonrakı ilk onilliklərdə Rusiya, Qacar, Osmanlı və yerli xan dövründən qalma çəki daşlarından istifadə olunurdu. İrəvan xalvarı 100 batman və ya çanağa, batman 4 çərəkə, çərək 5 stilə, 89 Rusiya funtuna hesablanan stil 4 çürük

---

величества канцелярии, 1832, №4622, с. 435-449.

[1] Монеты царствования императора Николая 1. – СПб.: Типография Министерства путей сообщения, 1890. С. 40-41.

[2] Yenə orada, s. 67.

və ya 50 misqala bərabər idi. Burada xalvar 28 pud 3 funt 57 tam 15/89 zolotnikə, batman 11 tam 21/89 Rusiya çəki funtuna bərabər hesablanırdı. Topdansatış irisi 2 batman, xırdası 1 batman və çərəki olan tilanla həyata keçirilirdi. Təbriz batmanı ilə ipək, bal, qalay, şəkər, ədviyyat, xına və digər mallar çəkilirdi. Taxılı çəkmək üçün təcri və ya somar, çanaq və koddan istifadə olunurdu. Təcri və somar 6 koda bərabər idi. Çanaq İrəvan batmanından azca balaca və ya böyük olurdu. Ölçü vahidi kimi 24 Rusiya verşokuna bərabər olan arşından istifadə olunurdu.[1]

XIX əsrin 40-cı illərin məlumatına görə, İrəvanda istifadə olunan çəki vahidləri olan 1 kantar 40 batman və ya 12 pud, 1 batman 12 stilə və ya 12 funta, 1 stil 96 zolotnikə və 1 funta, xalvar 10 təçgir və ya 30 pud, təçgir, kod və somar hər biri 10 batman və ya 3 pud, batman və ya çanaq 12 stil və ya 12 funta bərabər olmuşdur. Ölçü vahidləri isə xan arşını 23 verşok, Osmanlı alabisi isə 15 tam ½ verşok idi.[2]

Qafqazda, o cümlədən İrəvanda 1832-ci ilin avqustun 2-də imperiya çəki və ölçü vahidlərinə keçilməsi haqqında qanun qəbul edildi.[3] Lakin bu qanun xeyli gec reallaşdırıldı. Belə ki, XIX əsrin 40-cı illərində həddindən artıq müxtəlif olan ölçü və çəki sistemlərinin vahid imperiya ölçüləri ilə əvəz olunmasına başlandı. Bununla belə Cənubi Qafqazda, o cümlədən İrəvanda xanlıq dövründən qalma çəki, ölçü və habelə pul vahidlərindən

---

[1] Зубарев Д. Эриванская провинция // Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть 4. – СПб.: Типография департамента внейней торговли. – 1836. – С. 252-300 / s. 287.

[2] Таблица весов и мер, употребляемых в Закавказском крае, в сравнении их с русскими // Кавказский календарь на 1846 год. – Тифлис: Типография главного управления Закавказским краем, – 1845. – С. 127-128 / с. 127 .

[3] О введении в Грузии и Закавказском крае российских мер и весов // Полное собрание законов Российской империи. Собрание 2-е, Том VII, 1832 год. СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1833. № 5 535, с. 538-539.

istifadə davam etdirilirdi.[1]

Qeyd edək ki, İrəvan şəhərindən İrəvan – Eçmiədzin – Sərdarabad – Gümrü, İrəvan – Naxçıvan – Ordubad, İrəvan – Sərdarabad – Bəyazid, İrəvan – Sərdarabad – Kulp duz mədəni, İrəvan – Naxçıvan – Culfa keçidi ilə Qacar dövləti ərazisi, İrəvan – Yenibəyazid – Səlim karvansarası – Göyçə gölünün şərq sahili, İrəvan – Eçmiədzin – Qars, İrəvan – Dilican – Yeni yol – Tiflis istiqamətində və əksinə gedən yollar daha çox istifadəyə yararlı yollar hesab olunurdu.[2] Culfadan bu yol Mərənd və Sufiyan vasitəsilə Təbrizə gedirdi.[3] Tiflisə gələn mallar Hərbi-Gürcüstan yolu ilə Qafqaz xəttinə sonra da Rusiyaya aparılırdı. Tiflisdən həm cənub və həm də şimal istiqamətində yola salınan mallar çeşidlənlənir, lazım qədəri Qafqazda saxlanır, digər hissəsi müvafiq ünvanlara yola salınırdı.[4]

1856-cı ildə Təbrizdəki Ralle evinin nümayəndəsi Təbrizdəki Rusiya konsulluğuna Tiflisə doğru uzanan bir sıra tranzit yolların yenilənməsi ilə bağlı müraciətindən [5] sonra hökumətin diqqətini nəzərdə tutulan istiqamətdə yolların yenidən qurulması məsələsinə yönəltdi. 1863-1864-cü illərdə Potidən Orpari, habelə "Çar yolu" adlandırılan (1837-ci ildə çar I Nikolayın getdiyi yol – müəl.) İrəvan – Gümrü – Ahalkələki – Ahalsıx – Kutaisi yolunun qurulmasına başlandı.[6] 1865-ci ildə

---

[1] Воронкевич-Бассанец К. Описание мер, весов и монет Закавказского края // Журнал министерства внутренних дел, № 9, 1840, с. 380-415

[2] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи. – СПб.: Типография Императорской Академии наук, 1852. С. 719-720.

[3] Берже, А. Отрывки из путешествия в Персию в 1853 и 1854 г // Кавказский календарь на 1855 г / Тифлис, 1854, отд.IV, с. 596-597.

[4]Зубов П. Картина Кавказского края, принадлежащего России и сопредельных оному земель. Часть первая. – СПб.: Типография Конрада Вингебера, 1834, с. 208-234.

[5] Зейдлиц Н. Заметка об отношении г. Баку к Закавказскому транзиту // Кавказ, 23 июня /5 июля 1866, № 48 .

[6] Отчет по главному управлению наместника Кавказского за первое десятилетие управления Кавказским и Закавказским краем его

üç ilə başa çatdırılması nəzərdə tutulan Tiflisdən Qacar dövləti sərhədinədək – Culfayadək şosse yolunun çəkilməsi istiqamətində bir sıra işlər görüldü.[1] Bu yol tranzit yol kimi nəzərdə tutulurdu. Qafqazda, habelə Cənubi Qafqazda karantin-gömrük hissəsi barədə əsasnamədə qeyd edildiyi kimi, tranzit postlarının funksiyası tranzit ticarətini müşahidə etməkdən ibarət idi.[2] Yolların yenidən qurulması başa çatdırılandan sonra, 1870-ci ilin oktyabrın 6-da isə Dövlət Şurasının qərarı ilə tranzit yollardan istifadəyə görə şosse yol vergisi müəyyən edildi.[3] 1871-ci il iyunun 1-də Qafqaz canişini Tiflis – Dilican – Gümrü – İrəvan və Tiflis – Bakı birinci dərəcəli yolları əsas tranzit yolları kimi təsdiq etdi.[4] 1871-ci il avqustun 17-də Tiflis – Poti yolunun istifadəyə verilməsi[5] yüklərin daşınmasına böyük təsir göstərmiş oldu. 1883-cü ildə Tiflis – Bakı dəmir yolunun işə

---

императорским высочеством великим князем Михаилом Николаевичем 6 декабря 1862 – 6 декабря 1872. Тифлис: Типография главного управления наместника Кавказског, 1875, 474 с. / с.341.

[1] Эксельбирт М. О промышленной и торговой деятельности Закавказского края // Кавказский календарь на 1869 год. Тифлис: Типография главного управлении наместника Кавказского, 1868, Литературный отдел, с. 37-54 / с. 53.

[2] Высочайше утвержденное Положение о карантинно-таможенной части Кавказа и за Кавказом // Полное собрание законов Российской империи. Собрание 2-е, Том XVII. Отделение 2-е. 1867. – СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1871. №45266, с. 399-404 / с. 399.

[3] Отчет по главному управлению наместника Кавказского за первое десятилетие управления Кавказским и Закавказским краем его императорским высочеством великим князем Михаилом Николаевичем 6 декабря 1862 – 6 декабря 1872. Тифлис: Типография главного управления наместника Кавказского, 1875, 474 с. / с.145.

[4] Герсеванов М. Сет Кавказских дорог, утвержденная великим князем наместником 1 июля 1871 г. / Кавказ, 8(20) августа 1871 года, № 92.

[5] Отчет по главному управлению наместника Кавказского за первое десятилетие управления Кавказским и Закавказским краем его императорским высочеством великим князем Михаилом Николаевичем 6 декабря 1862 – 6 декабря 1872. Тифлис: Типография главного управления наместника Кавказског, 1875, 474 с. / с.210.

düşməsi nəticəsində İrəvan tranzit postunun fəaliyyəti dayandırılmasına qərar verildi. Belə ki, 1883-cü il fevralın 1-də imperator Dövlət Şurasının Sərhəd mühafizəsinin Qara dəniz briqadasının qurulmasının başa çatdırılması və İran və Xəzər dənizi ilə sərhədlərdə gömrük nəzarətinin gücləndiriməsi haqqında rəyini (əslində qanun layihəsini) təsdiq etdi. Bu qanuna əsasən, 1883-cü il yanvarın 1-dən etibarən 20 səyyari karantin gömrük postu və 3 tranzit postu – Tiflis, Yelisavetpol və İrəvan postları ləğv olunurdu.[1] 1883-cü il mayın 13-də verilən "Cənubi Qafqaz diyarından xarici malların tranzit daşınmasının dayandırılması haqqında" çar fərmanını "Dövlət Şurasında Cənubi Qafqaz tranzit məsələsi haqqında səsləndirilmiş müxtəlif fikirləri" nəzərdən keçirərək diyar vasitəsilə xarici malların daşınması qaydalarını ləğv edərək belə tranzit mallarının dayandırılmasını hökm etdi.[2]

1864-cü ilin yanvarın 21-dən Tiflisdən Dilican, İrəvan, Naxçıvan, Culfadan Qacar dövlətinə keçən teleqraf xəttinin çəkilməsi[3] ticarətin inkişafına da təsir göstərmişdir.

Qeyd edək ki 1831-ci il 3 iyun tarixli qanunda nəzərdə tutulan məsələlərdən biri də Cənubi Qafqazda tacirlərə gildiya dərəcələrinin verilməsi ilə bağlı olmuşdur. Lakin bu məsələ Cənubi Qafqazda gömrük idarələri və ticarət işləri təşkil edilənənədək təxirə salınmışdı. Baron Rozen maliyyə nazirliyinə

---

[1] О довершении устройства Черноморской бригады пограничной стражи и об усилении таможенного надзора на границах, прилегающих к Персии и Каспийскому морю // Полное собрание законов Российской империи. Собрание 3-е, Том III. 1883. – СПб.: Государственная типография, 1886. №1355 с. 30.

[2] О прекращении транзитного провоза иностранных товаров через Закавказский край // Полное собрание законов Российской империи. Собрание 3-е, Том III. 1883. – СПб.: Государственная типография, 1886. №1581 с. 234.

[3] Отчет по главному управлению наместника Кавказского за первое десятилетие управления Кавказским и Закавказским краем его императорским высочеством великим князем Михаилом Николаевичем 6 декабря 1862 – 6 декабря 1872. Тифлис: Типография главного управления наместника Кавказског, 1875, 474 с. / с.300.

bildirir ki, onun fikrincə, ticarət şəhadətnamələrinə əsaslanan sadə qaydalar ilk vaxtlar üçün Cənubi Qafqazda gildiya sisteminin tədricən yaranmasına kifayət edirdi.[1] 1858-ci ildə Qafqaz komitəsi Cənubi Qafqazda Gildiya əsasnaməsinin verilməsi məsələsini qaldırdı. Lakin onda Qafqaz canişinin rəyində Cənubi Qafqaz diyarında canişinin icazəsi ilə etibarlı kimi tanınan əcnəbilərə 10 nəfərdən çox olmamaqla şəhər və zemstvo rüsumlarını ödəmək üçün on il müddətinə güzəştlər verildiyi üçün gildiyaların təşkili ilə bağlı yeni əsasnamə layihəsi Maliyyə Nazirliyi yanında xüsusi komissiya tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilənədək gildiya əsasnaməsinin tətbiqi məsələsinə baxılmasının təxirə salındığı bildirilirdi.[2]

XIX əsrin 60-ci illərin əvvəllərində bu sahədə müəyyən işlərin görülməsinə başlandı. Belə ki, 1863-cü il dekabrın 20-də tacir və sənətkarlara 1864-cü il üçün ticarət və sənətkarlıq hüququna dair birillik şəhadətnamələrin və biletlərin Tiflisdə II, Kutaisi, İrəvan, Suxumqala, Bakı, Dərbənd, Lənkəran və Vladiqafqazda III, digər yerlərdə IV dərəcə olmaqla verilməsi nəzərdə tutulan qanun təsdiq olundu.[3]

Nəhayət, 1875-ci il yanvarın 28-də təsdiq olunan qanun Cənubi Qafqazda sənətkarlarla yanaşı, istehsal müəssisələri və o tacirlər tərəfindən müəyyən rüsumların ödənilməsini təsdiq

---

[1]Выписка из записки гр. Канкрина, внесенной в Государственный Совет 20-го марта 1836 года, №3845 // Акты собранные кавказскою археографической комиссиею. Том VIII. Док. 97. С. 174.

[2] Макиевский–Зубок, Н. Г. Кавказ и кавказские наместники. Статья III // Вестник Европы . – 1906. – Т. 2. С. 91–130. С. 109.

[3] О причислении местностей Закавказского края и Земли Войско Донского к классом по платежу пошлин, в 1864 году, за свидетельства на право торговли и промыслов и билетов на торговые и промышленные заведения // Полное собрание законов Российской империи. Собрание 2-е. Том XXXVIII. 1863. Отделение 2-ое. СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1866. №40409, с.304.

etdi.[1] Qanun ticarətlə məşğul olanları I, II və III gildiya tacirləri olmaqla üç qrupa bölürdü. Qanuna görə Rusiyada həyata keçirilən 1865-ci il 9 fevral əsasnaməsi Cənubi Qafqaz diyarına da şamil edilirdi. Həmin qanun verilənədək irəvanlı tacirlər gildiya dərəcəsinə malik olmadıqları üçün şəhər xəzinə kəndlilərinə şamil edilir və onlar kapitallarını elan etmədən, əvvəllər olduğu kimi, adi qaydada ticarətlə məşğul olurdular. Lakin 1876-cı ilin martın 1-dən başlayaraq həyata keçirilən[2] həmin qanun onların ticarət qaydalarında köklü dəyişiklik etdi. Həmin "Ticarət və digər istehsalçı hüququ üçün rüsumlar haqqında əsasnamə"yə görə, rüsumlar tacirlərdən şəhadətnamə, digər istehsalçılardan isə biletlər üzrə alınırdı. Tacirlik şəhadətnaməsi topdansatışla məşğul olan birinci gildiya və pərakəndə ticarətlə məşğul olanlara ikinci gildiya tacirlərinə, istehsalçı şəhadətnaməsi isə xırda, çatdırılma ticarəti, sövdələşmə ticarəti ilə məşğul olanlara və ticarət sifarişçilərinə verilirdi. Ticarət, bankir, komissioner, sığorta, məlumat, makler, nəqliyyat, paroxod kontorları, onların başqa yerlərdəki köməkçi şöbələri, habelə səhmdar cəmiyyətləri və tərəfdaş firmaları əsasnaməyə görə biletlər ala bilərdilər. Bilet rüsumu ödəyən fabrik və digər istehsal müəssisələrinin sahiblərinə müəssisənin nəzdində istehsal etdikləri malları satmaq üçün biletsiz dükan açmağa icazə verilirdi. Birinci gildiya taciri şəhadətnaməyə görə vahid məbləğdə rüsum ödəməli idi. İkinci gildiya tacirlərinin ödədikləri rüsumlar imperiyanın ayrı-ayrı yerlərində müxtəlif idi və dərəcələrə bölünürdü. Şəhadətnamə və biletlər noyabrın 1-dən yanvarın 1-dək olan müddətdə rüsumlar ödənilməklə yenilənməli idi. Şəhadətnamə və biletlər yanvarın 1-dək yenilənmədiyi təqdirdə onlar bu hüququndan məhrum edilirdilər

[1] О введении в Закавказском крае Высочайше утвержденного, 9 февраля 1865 года, Положение о пошлинах за право торговли и других промыслов // Полное собрание законов Российской империи. Собрание 2-е. Том L. 1876. Отделение 1-ое. СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1877. №54329, с. 95-96.
[2] Кавказская летопись // Кавказ, 10(22) марта 1876 года, №30.

və s.[1] Qüvvədə olan digər qanuna görə fasiləsiz şəkildə 20 il müddətində birinci gildiya taciri olanlar ailəsi ilə birlikdə fəxri irsi vətəndaşlığa yüksələ bilirdilər.[2] İrəvan qubernatorunun 1888-ci ilin hesabatına görə, İrəvan şəhərinin 1037 tacirinə 19775 rubl 25 qəpiklik tacirlik şəhadətnaməsi verilmişdi.[3]

İrəvan – Tiflis və Tiflis – İrəvan istiqaməti üzrə həm xarici tranzit ticarəti gedirdi, həm də diyar daxili əlaqələr saxlanılırdı. İrəvan tacirləri təbii olaraq Naxçıvan, Ordubad, bütövlükdə digər Azərbaycan bölgə və şəhərləri ilə ticarət aparırdılar. Tiflisin siyasi səbəblər üzündən süni şəkildə diyarın inzibati mərkəzi kimi müəyyən edilməsi, burada anbar gömrükxanasının təsisi ilə bu şəhərin Cənubi Qafqaz ticarətinin mərkəzinə çevrilməsi, İrəvanın işğalından sonra onun ticarətinin strukturundakı dəyişikliklər bu şəhərin Qacarlar səltənəti ilə ticarətin mərkəzi olması rolunu azaltmırdı. Qeyd edək ki, Rusiya qoşunun İrəvana sonuncu yürüşü İrəvan şəhərinin ticarətinə güclü zərbə vurmuşdu. Müharibə ilə əlaqədar şəhərin imkanlı tacirləri şəhəri tərk etmiş,[4] şəhərdə qalan əhalinin bir hissəsi qırılmış, bir hissəsi də var-dövlətini itirmişdi. Müharibə başa çatanda şəhər əhalisi evlərini bərpa etməyə çalışmış, ticarətini yenidən qurmağa başlamışdı ki, 1829-cu ilin baharında şəhəri bürüyən taun xəstəliyi dükanların bağlanmasına, karvansaraların boşalmasına

---

[1] Высочайше утвержденное положение о пошлинах за право торговли и других промыслов // Полное собрание законов Российской империи. Собрание второе. Т. XL. 1865 год. Отделение первое. СПБ.: Типография 2-й отделениисобственной Е.И.В. канцелярии. Ст. 41 779. с. 157-175 / с. 157-162.

[2] О порядке возведения купцов в потомственное почетное гражданство // Полное собрание законов Российской империи. Собрание 2-ое. Т. XL. 1865 год. Отделение 1-ое. – СПб.: Типография 2-й отделении собственной Е.И.В. канцелярии. №41 789. С. 182.

[3] Обзор Эриванской губернии за 1888 год. – Эривань: 1889. - 136, [51] с. / с. 54 .

[4] Шопен И. Хозяйственные очерки части Аракской долины, вошедшей в состав Грузино-Имеретинской губернии. – СПб: Печатано в привиллегированной типографии Фишерь, 1843. – 135 с. / с.116.

gətirib çıxardı. Belə bir vəziyyətdə 1830-cu ildə hökumət Qacar dövləti olan gömrükxalarından rüsumsuz olaraq taxıl və digər vacib ərzağın daşımasına icazə verdi.

Müharibənin nəticələri şəhərin borc götürülmüş kapital hesabına ticarət edən adamları ödənilməsi mümkün olmayan borclara düçar etmişdi. Şəhərdaxili ticarət dövriyyəsi artıq böyük gəlirlər vermədiyi üçün İrəvan ticarəti yenidən, tamamilə yeni əsaslar üzərində dirçəlməli, meydana çıxmalı idi.[1]

İrəvan sərdarının illərlə uğurla idarə etdiyi əyalətdən uzaqlaşdırılması, Rusiya tərəfindən işğal olunan ərazilərin rifahı üçün zərərli nəticələrə çıxarmışdı. Müharibənin izləri uzun müddət aradan qaldırıla bilmədi. Əhalinin xeyli hissəsi bu əraziləri tərk etmiş, buraya köçürülənlər isə böyük çətinliklər yaradırdı.[2] 1831-ci il iyunun 3-dən başlayaraq verilən gömrük qanunları qaçaqmalçılığın yaranmasına və genişlənməsinə şəraitin yaratması şəhərin həyat şəraitinin acınacaqlı olduğunu göstərirdi. Bu qanuna birinci etiraz edənlər elə Tiflis tacirləri oldular. Onlar bundan əvvəlki qanunun müddətini daha 10 ildə artırmaq üçün hökumətə xahişlə müraciət etdilər. Çar I Nikolay 1837-ci ildə İrəvanda olduğu zaman irəvanlı tacirlər 9 nəfər olmaqla qadağayadək düyü və pambığı dəyişdirərək Qərbi Avropa mallarını gətirdiklərini və indi heç yerdə sata bilmədikləri üçün Qərbi Avropaya satmağa aparmalarına icazə verilməsi xahişi ilə müraciət etmişdilər. Onların xahişinə cavab olaraq I Nikolay tacirlərə rus məmulatlarının diyara gətirilməsinə köməyin göstərilməsi məqsədilə rus fabrik sahibləri ilə əlaqələr qurmaq üçün öz nümayəndələrini Moskvaya göndərmələrini təklif etmişdi.[3] Nəticədə tanınmış irəvanlı tacir Hacı Əli Qası-

---

[1] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи. – СПб.: Типография Императорской Академии наук, 1852. s. 875-876.

[2] Военно-статистическое обозрение Российской империи. Том XVI. Часть 6. Эриванская губерния. – СПб.: Типография Департамента Генерального Штаба, 1853. – 300 с. / s. 163-164.

[3] Рожкова, М.К. Экономическая политика царского правительства на

mov nümayəndə kimi Moskvaya göndərilmişdi. Çara təqdim olunan Qasımov öz həmkarları adından yeni xahişnaməni çara təqdim etmişdi.[1] Danışıqların nəticəsi olaraq Vladimir quberniyasında pambıq-parça fabriki və pambıq ipəyirmə müəssisəsi olan II gildiya taciri Baburin İrəvanla ticarət etməyə başlamışdı. 1838-ci ilin payızında Baburin tərəfindən İrəvana 85 000 rubl dəyərində mal göndərilmişdi. Həmin malların böyük bir hissəsi 12 aylıq kreditlə satılmışdı, digər hissəsi isə tacirin pambıq iplik müəssisəsi üçün 400 pud pambığa dəyişdirilmişdi. Lakin Baburin İrəvanda ticarətin çətin aparıldığı üçün manufakturaçı müşavir rütbəsi aldıqdan sonra ora ilə ticarət əlaqələrini kəsmişdi.[2]

XIX əsrin 50-cı illərin məlumatına görə, İrəvan şəhər ticarətinin zəif olmasına baxmayaraq, müəyyən inkişaf var idi və burada bir sıra tacirlər fəaliyyət göstərirdilər. Onlar sövdəkarlar, binəkdar, bəzzaz və çərçılər adlanan 4 qrupa bölünürdülər. Sövdəkarlar topdansatış sövdələşmələrini həyata keçirir, binəkdarlar dükanlarında ticarət edir, bəzzazlar xırda ticarətlə məşğul olur, çərçılər isə səyyar satıcılar olaraq, mallarını özləri ilə daşıyaraq satırdılar. Şəhərdə varlı tacir 6 min rubl dövriyyə kapitalı olan tacirlər hesab olunurdu. Belələrin sayı çox az idi.[3]

Sonrakı illərdə şəhərdə ticarət qaydaları mütəmadi dəyişdiyi üçün bir sıra digər ticarət sahələri yaranırdı. XIX əsrin 60-cı illərində İrəvan şəhərində ən çox dövriyyə kapitalına malik olan "bəzzaz" adlanan tacirlərin sayı daha çox idi. Belə ki, 223 nəfər bəzzazın illik dövriyyə kapitalı 310 min gümüş rubla bərabər idi.

Avropa bəzək əşyaları (qalanteriya) mallarının satışı ilə

---

Среднем Востоке во второй четверти XIX века и русская буржуазия. – Москва: Изд-ва Акад. наук СССР, 1949. – 392 с. / s. 100-101.

[1] Рожкова, М.К. Экономическая политика царского правительства на Среднем Востоке во второй четверти XIX века и русская буржуазия. – Москва: Изд-ва Акад. наук СССР, 1949. – 392 с. / s. 271-272.

[2] Yenə orada, s. 272.

[3] Орловский К. Эривань // Кавказский календарь на 1852 г. III отдел. – С. 436-452 / с. 447

məşğul olan tacirlərin sayı 30 nəfər idi. Onların ticarət dövriyyəsinin məbləği 43 min gümüş rubldan aşağı deyildi. Asiya qalanteriya mallarının satışı ilə məşğul olan "əttar" adlanan tacirlərin sayı 52 nəfər idi. Onların ticarət dövriyyəsi 20 min gümüş rubla bərabər idi. "Ələf" adlanan 67 tacirin ticarət dövriyyəsi 16 min gümüş rubl, 42 baqqalınkı 14 min gümüş rubl, içki ticarəti ilə məşğul olan 63 tacirin dövriyyə kapitalı isə 1500 gümüş rubl edirdi. XIX əsrin 60-cı illərinin ortalarında bütünlükdə İrəvan şəhərinin ticarəti ilə 480 tacir məşğul olurdu ki, onların da ümumi ticarət dövriyyəsi 437 min gümüş rubla çatırdı.[1] İrəvanlıların özlərinin dedikləri kimi, şəhərdə ən çox tacir malı hesab olunan arşın malı və qalanteriya malları satılırdı. İrəvanlılar daha çox Tiflis və Moskva ilə ticarət aparırdılar. 1878-ci ildə şəhərə 600 min gümüş rubl dəyərində mal gətirilmişdi. Gildiya qanunu veriləndən sonra bu ilk belə artım idi. Tacirlər orta hesabla ildə şəhərə 250 min rublluq mal gətirə bilirdilər. Əvvəllər olduğu kimi, əsas ixrac malları pambıq və düyü hesab olunurdu. Hər il 700 min gümüş rublluq (95 min pudadək) pambıq və 300 min gümüş rublluq (150 min pud) düyü ixrac olunurdu.

XIX əsrin 70-ci illərin sonlarında şəhərdə 77 nəfər əllaf (yarma, duz və s. satan), 56 nəfər əttar (məişət, kimyəvi mallar satan), 62 nəfər baqqal (meyvə satan), 135 nəfər bəzzaz (arşın malı satan), 8 nəfər dəllal (köhnə mal satan) var idi. Bundan əlavə şəhərdə xalça, palaz və kəndir satışı ilə 9, paltar satışı ilə 22, xırda mallar (iynə, sap və s.) satışı ilə 42, şam satışı ilə 1, metal məmulatı satışı ilə 6, şəkər satışı ilə 7, saxsı qabları satışı ilə 10, neft və kerosin satışı ilə 12, ayaqqabı satışı ilə 5, bostan toxumları satışı ilə 2, mis qab satışı ilə 6, tütün və tütün məmulatı satışı ilə 29, ipək sap, bafta və s. satışı ilə 21, gön-dəri satışı ilə 2, göyərti satışı ilə 4 nəfər məşğul olurdu. Həmçinin 1

[1] Статистическое описание городов Тифлисской и Эриванской губернии // Кавказский календарь на 1866 год. – Тифлис: Типография Главной Управлении наместника Кавказского, 1865. Отдел III. - С. 47-98 / С. 63-64.

nəfərin çalışdığı şərab dükanı, 36 nəfərin çalışdığı meyxana fəaliyyət göstərirdi.[1]

Əvvəllər şəhərdə fəaliyyət göstərməklə məhdudlaşan, az məbləğdə ticarət kapitalına malik olan tacirlər zaman keçdikcə əlverişli satış dairəsinə meyl edir və daha iri ticarət əməliyyatlarına qoşulurdular. 1883-cü ildə Tiflis – Bakı dəmir yolunun istifadəyə verilməsi və dördtəkərli arabaların yük daşımalarda rolunun artması ticarətin həyata keçirməsini asanlaşdırırdı.[2] Dəmir yolu istifadəyə veriləndən sonra Naxçıvan – İrəvan – Ağstafa istiqamətində malların aparılmasına başlanıldı. Artıq İrəvan şəhəri ticarət dövriyyəsinin həcminə görə Cənubi Qafqazda ikinci iri bazara çevrilmişdi.[3] Həmin dövrün mütəxəssislərindən birinin yazdığına görə, Qacar dövləti ilə ticarət əlaqələrində İrəvan şəhəri daha çox əlverişli ərazidə yerləşən şəhər sayılırdı.[4]

Fon-Qrebnerin qeyd etdiyi kimi, XIX əsrin sonlarında artıq İrəvan şəhəri kifayət qədər zəngin bir şəhərə çevirmişdi. 1895-ci ilin məlumatına görə, şəhərdə dövlət bankının İrəvan şöbəsi, 3 bank kontoru, 1 pul xırdalama dükanı, 2 əczaxana, 8 hamam, 5 şərab dükanı, 18 qalanteriya dükanı, 3 dəmir dükanı, 2 zərgərlik dükanı, 3 dəftərxana dükanı, 1 kitab dükanı, 1 xalça dükanı, 5 dəri-xəz dükanı, 8 “müstəmləkə” malları dükanı, 1 şirniyyat dükanı, 31 manufaktura malları dükanı, 2 mis qabları dükanı, 2 hazır paltar dükanı, 1 duz, taxıl və taxıl məhsulları dükanı, 1 fotoqraf, 1 tikiş maşını dükanı, 1 dərzixana fəaliyyət

---

[1] Зелинский С.П. Город Эривань / Сборник материалов для описания местностей и племен Кавказа. Выпуск I. – Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1881. – С. 1-54 / С. 36.

[2] Фон-Гребнер А.В. Торговые дороги Закавказья. – СПб.: Типография Исидора Гольдберга, 1896. – 55 с. / с. 20.

[3] Yenə orada.

[4] Гольмсен Н.А. Приараксская долина и тифлисско-эриванская торговая дорога (Экономическо-статистический очерк //Сборник сведений о Кавказе. Том IX. – Тифлис: Типография Канцелярии Главначальствующего гражданскою частью на Кавказе, 1885. С. 43-50 /С. 41.

göstərirdi.[1]

1897-ci ilin birinci ümumrusiya siyahıyaalmasına görə, İrəvan şəhərinin əhalisi 29 006 nəfərdir ki, bunun 187 nəfəri tacir idi.[2] Həmin siyahıyaalmanın nəticələrinə görə, 1635 nəfər (o cümlədən 11 nəfər qadın) və ya İrəvan şəhər əhalisinin 5,7%-i ticarət fəaliyyətinin 15 müxtəlif ticarət növü üzrə çalışırdı. Şəhərdə ən çox kənd təsərrüfatı məhsulları satışı ilə məşğul olurdu. Bunlar diri heyvan satışı (22), taxıl (34) və digər kənd təsərrüfatı məhsulları (745) satanlar idi. Parça və geyim əşyaları ticarəti ilə 290 nəfər məşğul olurdu. Dəqiq müəyyənləşməyən ümumi ticarətdə 171 nəfər, qəlyanaltı, müsafirxana, klub və onların mebel təchizatı işlərində çalışanların sayı isə 135 nəfərə çatırdı. İçki ticarəti ilə 29 nəfər məşğul olurdu. İnşaat materialları və yanacaq satışını 26 nəfər həyata keçirirdi. Məişət avadanlığı satışında 11, metal, dəzgah və silah satışında 11, xəz-dəri satışında 25 nəfər və digər əşyaların satışında 46 nəfər tacir qeydə alınmışdı. Şəhərdə həmçinin səyyar (çərçilik) ticarəti ilə məşğul olanlar da var idi. Belələrin sayı 60 nəfər idi. Bütün bunlardan əlavə şəhərdə 33 nəfər ticarət vasitəçisi, eyni zamanda 22 nəfərin çalışdığı kredit və ictimai ticarət idarələri fəaliyyət göstərirdi.[3]

1897-ci ilin məlumatına görə, şəhərdə Dövlət bankının (1893-cü ildən fəaliyyət göstərirdi[4] – müəl.) və Tiflis ticarət bankının (1895-ci ildən fəaliyyət göstərirdi[5] – müəl.) hərəsinin bir şöbəsi, Dövlət bankı, Gömrükxana idarəsi, Qəza xəzinə

---

[1] Вся Россия. Русская книга промышленности, торговли, сельского хозяйства и администрации. Том I, Часть 2-я. – СПб.: Типография А.С. Суворина, 1895. – 2319 с. / с. 2063-2064.

[2] Первая всеобщая перепись населения Российской империи, 1897 г. LXXI. Эриванская губерния. – СПб.: Типография кн. В.П. Мещерского, 1905. с. 1.

[3] Yenə orada, s. 105.

[4] Обзор Эриванской губернии за 1893 год. – Эривань: Типография-скоропечатня Р.К. Эдельсона, 1894. 39, [45] с. / с. 10

[5] Обзор Эриванской губернии за 1895 год. – Эривань: Типография-скоропечатня Р.К. Эдельсона, 1896. 32, [43] с. / с. 8

idarəsi və Poçt-teleqraf kontorunun nəzdində əmanət kassaları, 2 əczaxana, 4 hamam, 1 şərab dükanı, 15 qalanteriya dükanı, 4 müsafirxana, 2 odun dükanı, 3 dəmir dükanı, 2 zərgərlik dükanı, 2 dəftərxana dükanı, 4 kerosin dükanı, 1 kitab dükanı, 1 xalça dükanı, 6 dəri-xəz dükanı, 5 müstəmləkə malları dükanı, 2 şirniyyat dükanı, 2 yarma dükanı, 1 taxta dükanı, 22 manufaktura malları dükanı, 4 un dükanı, 1 sabun dükanı, 1 ayaqqabı dükanı, 2 ət dükanı, 1 ətriyyat dükanı, 6 çörək dükanı, 4 paltar dükanı, 3 podratçı, 2 mis qabları dükanı, 2 qarışıq mallar dükanı, 1 duz anbarı, 1 spirt anbarı, 2 tütün dükanı, 3 fotoqraf, 7 quru meyvə dükanı, 2 pambıq dükanı, 2 taxıl dükanı, 2 tikiş maşını dükanı, 1 yun anbarı, 1 tərəzixana var idi.[1]

1899-cu ilin məlumatına görə şəhərdə irili xırdalı 458 ticarət müəssisəsi fəaliyyət göstərirdi ki, bu müəssisələrinin 260-ının dövriyyə kapitalı 5 min rubladək, 149 müəssisəninki 20 min rubladək, 34 müəssisəsinin ticarət dövriyyəsi 50 min rubladək, 15-ininki isə 50 min rubldan çox idi.[2]

XX əsrin əvvəlləri bu şəhərin ticarət kapitalının təmərküzləşməsi və mərkəzləşməsi prosesinin sürətlənməsi, inhisar və kredit ticarətinin inkişafı, ticarət müəssisələrinin sayının çoxalması, iri topdansatış ilə yanaşı xırda ticarətin də inkişafı, iri şirkət və kompaniyaların satışı geniş ölçüdə təşkil edilməsi ilə səciyyələnmişdi. Bu dövrdə daxili ticarətin təşkilat sistemi təkmilləşir, onun formaları genişlənir və keyfiyyətcə yeni məzmun kəsb etməyə başlayırdı.

1898-ci il iyunun 8-də "Dövlət ticarət vergisi haqqında əsasnamə" çar tərəfindən təsdiq olundu.[3] 1899-cu ildən qüvvəyə

---

[1] Вся Россия. Русская книга промышленности, торговли, сельского хозяйства и администрации. Том 2, Часть 2-я. – СПб.: Типография А.С. Суворина, 1897. – 3888 с. / с. 3115-3118.

[2] Торговые заведения в 1899 году // Памятная книжка Эриванской губернии за 1902 год. – Эривань: Типография Р.К. Эдельсон, 1902. с. 109.

[3] Высочайше утвержденное Положение о государственном промысловом налоге // Полное собрание законов Российской империи. Собрание III. Том XVIII. 1898. Отделение I. – СПб.: 1901. №15601. С. 489-515;

minən bu qanuna görə, ticarət müəssisələrinin illik dövriyyəsi 20 min rubldan çox olan tacirlər I kateqoriyaya (gildiyaya), 6 min rubldan 20 min rubladək olanlar II kateqoriyaya (gildiyaya), 1 200 rubldan 6 min rubladək olanlar isə III kateqoriyaya (gildiyaya) şamil edilirdilər. Ticarət vergisi kredit, sığorta, vasitəçi ticarət müəssisələri, bütün növ podratçılar, tədarükçülər və b.-dan alınırdı.

XIX əsrin sonlarında olduğu kimi, XX əsrin əvvəllərində də ticarət müəssisələri topdansatış, topdan və pərakəndə satış, yalnız pərakəndə satış, habelə xırda satış olmaqla fəaliyyət göstərirdi. Eyni zamanda çərçilik qalmaqda davam edirdi. İrəvanda çərçiliklə məşğul olanların sayı 99 nəfər idi.[1]

XX əsrin əvvəllərində İrəvan şəhərində ağac (7 verst), xan arşını (22 verşok), alabi (1 arşın), batman (10-12 funt), girvənkə (76 zolotnik), kantar (11 pud 10 funt), misqal (1 zolotnik), somar (10 batman), stil (½ funt), təcrigir (2 ½ pud), tanab (900 kv. xan arşını və ya 180 kv. sajen), tilan (15 funt), tunga (8 funt), xalvar (25 pud), şahı (5 qəpik), abası (20 qəpik), manat (1 rubl) və s. kimi çəki, ölçü və pul vahidlərindən istifadə olunurdu.[2]

1902-ci ilin məlumatına görə, şəhərdə 1 Asiya malları dükanı, 2 əczaxana, əczaçılıq malları satışı müəssisəsi, 8 baqqal, 8 qalanteriya, "Orqant" müsafirxanası, 4 dəmir və dəmir məmulatı dükanı, 1 dəyirmandaşı karxanası, 2 zərgərlik dükanı, 5 gön-dəri dükanı, 8 "müstəmləkə" malları dükanı, 1 şirniyyat dükanı, 34 manufaktura malları dükanı, 1 mebel dükanı, 3 xırda ticarət dükanı, 1 un dükanı, 2 hazır qadın üst paltarı dükanı, 4

---

Государственный промысловый налог // Кавказский календарь на 1910 год. – Тифлис: Типография и переплетная т-во «Либерман и Ко», 1909. Отдел V. С. 634-637 .

[1] Памятная книжка Эриванской губернии на 1908. – Эривань: Типография Губернского Правления, 1908. Отдел IV. с.12.

[2] Алфавитный перечень употребительнейших туземных мер в Закавказье // Кавказский календарь на 1908. – Тифлис: Типография К.П. Козловского, 1907. Отдел I. с.222-224 .

qab-qacaq dükanı, 9 meyvə dükanı, 4 pambıq firması, 3 taxıl dükanı, 1 tikiş maşını dükanı var idi.[1]

İrəvan şəhərində ayrı-ayrı malların ticarətində həlledici mövqe tutan, Rusiyanın daxili quberniyaları və xarici ölkələrlə geniş ticarət aparan, çox böyük kapitalı olan tacirlər zümrəsi meydana gəlmişdi. Tədricən beynəlxalq ticarətin mühüm mərkəzinə çevrilən İrəvan şəhərində tacirlərin sayı, onların kapitalları daha sürətlə artır, ticarət əməliyyatları genişlənirdi. 1902-ci ildə İrəvan şəhərində 1 nəfər I gildiya taciri, 11 nəfər II gildiya taciri qeydə alınmışdı.[2] Şəhərdə həmçinin Dövlət bankının İrəvan şöbəsi, Tiflis ticarət bankının İrəvan şöbəsi, İrəvan qarşılıqlı kredit cəmiyyəti,[3] 5 Poçt-teleqraf əmanət kassası, İrəvan quberniya xəzinədarlığı fəaliyyət göstərirdi.[4]

1905-ci ildə baş vermiş erməni-müsəlman qırğınlarına görə fevralın 28-də[5] və martın 18-də İrəvan şəhərində gücləndirilmiş mühafizə vəziyyəti elan edildi.[6] Mayın 13-də İrəvan quberniyasının digər ərazilərində də qırğınlar baş vermişdi.[7] İyunun 16-da yenə də İrəvan şəhərində gücləndirilmiş mühafizə vəziyyəti elan edildi.[8] Avqustun 28-də İrəvan və Naxçıvan şəhərlərində ermənilərlə müsəlmanlar arasında qırğınlara son qoyulması haqqında təntənəli andiçmə mərasimi həyata keçirilməsinə[9] baxmayaraq, sentyabrın 18-də İrəvanda

---

[1]Кавказ и Закавказье // Вся Россия. Русская книга промышленности, торговли, сельского хозяйства и администрации. – СПб.: Типография А.С. Суворина, 1902. с. 2758-2760.

[2] Памятная книжка Эриванской губернии на 1904 год. – Эривань: Типография Р.К. Эдильсон, 1903. Отдел IV. с. 16.

[3] Yenə orada, ss. 75-76.

[4] Yenə orada, s. 138.

[5] Хронологический указатель // Кавказский календарь на 1906. – Тифлис: Типография К.П. Козловского, 1906. – С. 231-260 / с.237.

[6] Yenə orada, s. 238 .

[7] Yenə orada, s. 240.

[8] Yenə orada, s. 241.

[9] Yenə orada, s. 244.

yenə erməni-müsəlman qırğınları baş verdi.[1] 1906-cı ilin mayın 27-də və iyunun 8-9-da belə hadisələr bir daha təkrarlandı. Bütün bu və ya digər hadisələr İrəvan şəhərində ticarətin durumuna güclü mənfi təsir göstərdi və iki ilə yaxın ticarətdə canlanma baş vermədi.

Birinci Cahan savaşı ərəfəsində şəhərdə İrəvan xəzinə palatası, İrəvan quberniya xəzinədarlığı, Dövlət bankının İrəvan şöbəsi, Tiflis ticarət bankının İrəvan şöbəsi, İrəvan xırda kredit əmanəti yoldaşlığı,[2] əsas kapitalı 133 300 rubl olan 2 qarşılıqlı kredit cəmiyyəti, 3 ssuda-əmanət kassası, 42 sığorta agenti,[3] Azov-Don ticarət bankının İrəvan şöbəsi, Voljsi-Kamski ticarət bankının İrəvan kommissionerliyi [4] kimi bank-kredit müəssisələrinin fəaliyyət göstərmələri burada ticarət kapitalının tədricən təmərküzləşməsi prosesinin sürətlənməsinə təsir göstərirdi.

1912-ci ilin məlumatına görə, şəhərdə 4 nəfər nəfərə məxsus 3 əczaçılıq malları dükanı, 2 nəfərə məxsus 2 əczaçılıq dükanı, 11 nəfərə məxsus 4 baqqal və "müstəmləkə" malları gükanı, 2 nəfərə məxsus dəyirmandaşı karxanası, 2 zərgərlik dükanı, 2 dəftərxana ləvazimatı dükanı, 2 kerosin dükanı, 6 nəfərə məxsus kitab dükanları, 2 xalça dükanı, 7 müstəmləkə malları dükanı, 1 şirniyyat dükanı, 1 meşə materialı dükanı, 1 tikiş maşını dükanı, 1 mebel dükanı, 3 xırda mallar dükanı, 1 rəngsazlıq malları dükanı, 1 mis qabları dükanı, 1 ayaqqabı dükanı, 2 hazır qadın paltarı satışı dükanı, 4 qab-qacaq dükanı, 2 saxsı qabları dükanı, 12 nəfərə məxsus 3 meyvə satışı kontoru və 5 nəfərə məxsus 2 meyvə satışı dükan fəaliyyət göstərirdi.

---

[1] Хронологический указатель // Кавказский календарь на 1906. – Тифлис: Типография К.П. Козловского, 1906. – С. 231-260 / с. 247.

[2] Памятная книжка Эриванской губернии на 1908 год. – Эривань: Типография Губернского Правления, 1908. Отдел I. С.37-42.

[3] Памятная книжка Эриванской губернии на 1908 год. – Эривань: Типография Губернского Правления, 1908. Отдел IV. с.25.

[4] Памятная книжка Эриванской губернии на 1912 год. – Эривань: Типография Губернского Правления, 1912. Отдел IV. с. 55-60.

Şəhərdə həmçinin çaxır ticarəti ilə 19 nəfər, qalanteriya malları satışı ilə 6, dəmir və dəmir məmulatı satışı ilə 7, gön-dəri satışı ilə 3 nəfər, manufaktura ticarəti ilə 60 nəfər, un məmulatı satışı ilə 1 nəfər, Qacar malları satışı ilə 2 nəfər, pambıq satışı 7 nəfər, taxıl ticarəti ilə 5 nəfər məşğul olurdu. Şəhərin iki müsafirxanası var idi.[1] Şəhərin həmçinin 148 meyxana, qəlyanaltıxana və çayxanası olmuşdur.[2] Şəhərdə çörəyin 1 funtu 2,3 qəpiyə, ətin 1 funtu 11 qəpiyə, duzun 1 funtu 2, qəndin 1 funtu 16 qəpiyə satılırdı.[3]

Tiflis-Qars dəmir yolunun çəkilməsi və Gümrü-İrəvan yolunun yenidən istifadəyə verilməsi yükdaşımalarla məşğul çarvadarların gəlirlərini kəskin şəkildə azaltmışdı. İrəvan şəhərindən Ağstafa stansiyasına şosse yolun çəkilməsi ilə həmin istiqamətdə yükdaşımalar tamamilə kəsilmişdi.[4]

Tiflis-İrəvan dəmir yolunun çəkilməsi şəhər ticarətinin inkişafında müstəsna əhəmiyyət kəsb edirdi. İrəvan şəhərinin müxtəlif malların ən mühüm istehlakçısına çevrilməsi, quberniyanın daxili qəzaları, eləcə də Rusiya və Qacarlar dövləti arasında ticarət-iqtisadi əlaqələrin genişlənməsində rolunun yüksəlməsi onun mal dövriyyəsinin xeyli artmasına da səbəb oldu. 1908-cu ildə İrəvandan 909 021 rublluq mal aparılmış, buraya 3 120 296 rublluq mal gətirilmiş,[5] 1910-cu ildə şəhərdən 891 616 rublluq mal aparılmış, 3 116 700 rublluq mal gətirilmiş,[6] 1912-ci ildə 1 098 105 rublluq mal aparılmış, buraya

---

[1] Вся Россия. Русская книга промышленности, торговли, сельского хозяйства и администрации. Часть 6. – Москва: Типография В. Каракина, 1912. с. 4950-4952.

[2] Памятная книжка Эриванской губернии на 1908 год. – Эривань: Типография Губернского Правления, 1908. Отдел IV. с.13.

[3] Yenə orada, s.16.

[4] Обзор Эриванской губернии за 1901 год.– Эривань: Типография Губернского Правления, 1902. - 35, [4] с. / С. 9.

[5] Памятная книжка Эриванской губернии на 1910 год. – Эривань: Типография Губернского Правления, 1912. с. 46.

[6] Памятная книжка Эриванской губернии на 1912 год. – Эривань: Типография Губернского Правления, 1912. Отдел IV. с. 16.

isə müvafiq surətdə 3 262 389 rublluq mal gətirilmişdir.[1]

İrəvanda birinci dərəcəli, yəni topdansatış ticarətlə məşğul olan ticarət müəssisələrinin fəaliyyətə başlaması şəhər ticarətinin sürətli inkişafına dəlalət edirdi. 1914-cü ildə şəhərdə 1 səhmdar cəmiyyəti, 7 ticarət evi fəaliyyət göstərirdi.[2] İrəvan şəhərindəki məhsulun istehsalı və tədavülü ilə məşğul olan ticarət evlərinin diqqəti cəlb edən cəhəti onların bütün ticarət sahələrinə nüfuz etmələri idi.

İrəvan şəhərinin xarici ticarətində əvvəllər olduğu kimi, Qacar və Osmanlı dövlətləri ilə ticarət mühüm yer tuturdu. Bu ölkələrə kişmiş, badam, meyvə qurusu, diri heyvan, gön-dəri və pambıq ixrac olunur, oradan isə İrəvan bazarlarına qənd, şəkər tozu, kerosin və müxtəlif pambıq parçalar gətirilirdi.[3]

Yuxarıda deyilənlərə yekun vuraraq, iddia etmək mümkündür ki, İrəvanın rus qoşunları tərəfindən işğalının gedişində və çarizmin müstəmləkə siyasətinin nəticəsində bu şəhərin ticarətinə ciddi zərər vurulmuşdur. Ancaq XIX əsrin sonu - XX əsrin əvvəllərinə doğru o dövr üçün xarakterik olan kapitalın təmərküzləşməsi və istehsalın mərkəzləşməsi prosesləri ilə əlaqədar olaraq, kommunikasiya vasitələrinin inkişafı, bank müəssisələri şəbəkəsinin genişlənməsi şəhərdə səhmdar ticarət cəmiyyətləri, ticarət evləri və bu qəbildən olan digər iri ticarət müəssisələrinin meydana çıxması nəticəsində İrəvan yenidən təkcə Azərbaycanın yox, həm də bütün Cənubi Qafqaz və Ön Asiyanın mühüm ticarət qovşağına çevrilmişdir.

### 3.3. Nəqliyyat və rabitə

**Nəqliyyat.** Cənubi Qafqazın bir çox şəhərlərində olduğu kimi, İrəvan şəhərində də nəqliyyat-kommunikasiya strukturu-

---

[1] Памятная книжка Эриванской губернии на 1914 год. – Эривань: Типография Губернского Правления, 1914. Отдел III. с. 105.

[2] Yenə orada, s. 185.

[3] Обзор Эриванской губернии за 1901 год. – Эривань: Типография Губернского Правления, 1902. - 35, [4] с. / с. 13.

nun inkişafı XIX əsrin ikinci yarısından, təsərrüfatçılığın kapitalist formalarının, xüsusən də sənaye sahəsində, onun ardınca isə ticarətdə tətbiqinin sürətləndiyi zamandan başlamışdı. Şimali Azərbaycan iqtisadiyyatının vahid Rusiya xalq təsərrüfatı orqanizminin üzvi tərkib hissəsinə çevrilməyə başlaması nəqliyyata da öz təsirini göstərirdi. Bu zəngin ölkədən iqtisadi gəlirlər götürmək cəhdləri nə qədər çox güclənirdisə, bu ölkə ilə əlaqə yollarının yaxşılaşdırılması vəzifəsi daha intensiv şəkildə qoyulurdu.

XIX əsrin 50-ci illəri və 60-cı illərinin əvvəllərində Lısoqovsk və Abdalyar arasında (Qarabağda) yol çəkildi. Yevlax-Şuşa-Gorus-Naxçıvan-İrəvan şosse yolu Quzey Azərbaycanın bir sıra rayonlarını birləşdirmək baxımından böyük əhəmiyyətə malik idi. O, bir çox baxımdan Mərkəzi Rusiyanın Şimali Azərbaycanla, həmçinin İranla ticarət-iqtisadi əlaqələrinin möhkəmlənməsinə şərait yaradırdı. Gəncəçay üzərindən çuqun körpü salındı, Ağsu şossesi uzadıldı.[1]

Quzey Qafqazda dəmir yollarının çəkilməsi planı hələ 1861-ci ildə təsdiq olunmuşdu, lakin onun icrasına ancaq 1867-ci ildən başlanmışdı. 1872-ci ildə Potidən Tiflisədək dəmiryolu xəttinin çəkilişi başa çatdırıldı.[2] 1883-cü ilin mayın 8-də Tiflis və Bakı arasındakı dəmiryolu istismara verildi ki, bu da diyarın həyatında ən böyük hadisə idi.[3] Dəmiryolu xəttinin İrəvan şəhərinə çatdırılması sonralar – XX əsrin əvvəllərində baş versə də, artıq XIX əsrin 80-90-cı illərində İrəvan quberniyasında dəmiryolunun çəkilməsi planları işlənib hazırlanmışdı. İrəvan quberniyasının 1894-cü il üzrə xülasəsindən də göründüyü kimi, həmin il Tiflisdən Aleksandrapola, Qarsa və İrəvana dəmiryolunun çəkilişi məqsədilə axtarışlar aparılmışdır. Layihəyə görə, dəmiryolu xətti İrəvan şəhərinin yaxınlığından ötərək Çaharbağ, Cəfərəbad, Parakər, Vaqarşabad və Sərdarabad məntəqələrindən keçib daha sonra qurumuş çay yatağı olan Selavməsdərin sağ sahili

---

[1] **Azərbaycan tarixi (** 3 cilddə), II c., Bakı, 1960, s. 230.
[2] Yenə orada.
[3] Yenə orada, s. 231.

boyunca, Qaraburun postunun yanından Boqutlu dağına və Qaragül və Qızılgül qışlaqlarına doğru uzanmalı idi. Burada yol Selavməsdəri keçərək Arpaçayın sol sahili ilə Göyərçin kəndinin xarabalıqlarından yan ötərək Buğdaşen, Qızılkilsə, Koğac, Qazarabad, Dovşanqışlaq və Bayandur kəndlərinin torpaqlarından keçib Daharlı kəndinin yanından Qarsa gedən xətlə birləşməli idi.[1]

Əlimizdə olan sənədlərdən də göründüyü kimi, İrəvan şəhərinin 1827-ci ilin oktyabrında Rusiya qoşunları tərəfindən zəbt edilməsindən başlayaraq, demək olar ki, bütün XIX əsr ərzində bu şəhərdə yol-nəqliyyat infrastrukturu faktiki olaraq inkişaf etməmişdir. 1837-ci ilə dair "İrəvan şəhərinin statistik durumu haqqında raport" un əlaqə yolları barədəki bölümündən məlum olur ki, "şəhərdə su ilə daşımalar yox" idi, "quru yollar isə saz halda" idi; "Zəngi çayını keçmək üçün bərələr yoxdur. Şəhərdə bir körpü var. Poçtun, arabaların, kuryerlərin..., böyük və yan traktlarla keçib gedənlərin hərəkəti üçün bir poçt stansiyası var ki, burada da 16 at saxlanılır."[2]

28 il sonra "1865-ci ildə İrəvan şəhərinin vəziyyəti haqqında şəhər polisinin hesabatı" nda deyilirdi ki, "İrəvan şəhərində şosse yolları yoxdur. Poçt yolları 17 verst uzunluğundadır ki, onlara da xeyli təmir tələb olunur. Şəhərdə iri və xırda cəmi 23 körpü var. Poçt stansiyası bir dənədir ki, burada da 21 at saxlanılır." [3]

Yuxarıdakı şərhdən göründüyü kimi, göstərilən dövrdə İrəvan şəhərində praktiki olaraq ancaq körpülər və körpücüklərin sayı artmış, poçt atlarının sayı isə cəmisi 5 baş çoxalmışdır.

Cənubi Qafqazda yol-nəqliyyat infrastrukturunun yaradılması sahəsində müəyyən tərpəniş XIX əsrin 70-ci illərində baş vermişdir. Mülki qurğular üzrə Baş müfəttişin Tiflis-İrəvan sahəsində tikinti-yol komitəsi tərəfindən aparılan yol işlərinin və-

---

[1] **Обзор Эриванской губернии за 1894 год / Эривань,1895,** отд.5, с.187.

[2] **Развитие Еревана...**/ с. 424.

[3] Yenə orada, s. 429.

ziyyəti haqqında Qafqaz canişininə hesabatından da göründüyü kimi, 1872-ci ildən 1875-ci ilədək, şosselərin təmiri çıxılmaqla, yolların tikintisinə 725 000 rubl ayrılmışdır, bu da ilkin 1800000 rublluq ayrılma ilə birlikdə cəmisi 2 525 000 rubla bərabərdir. İşlərə 2 270 000 rubl təyin olunub. Bu məbləğ hesabına da həm Tiflisdən İrəvanadək şosse çəkilib, həm də İrəvandan sonra Arpaçay yaxınlığında və Dilicandan Həmzəçəmənədək hissələr (Aleksandrapol şossesi), habelə Yelizavetpolda (Bakı yolunda) dəmir körpülər tikilib. Cənab Vinçin 1865-ci il və sonrakı illərdə apardığı araşdırmalara əsasən Tiflis-Culfa yolunun Tiflisdən İrəvanadək hissəsinin ən əlverişli və ən rahat istiqamət Tiflisdən Qırmızı körpüyə, oradan sonra İorarxdan Ağstafa çayının sol sahilinə – poçt stansiyasına, daha sonra Ağstafa çayı boyunca yuxarıya-Göyçə aşırımına, oradan isə Göyçə gölünün sahili boyunca Yelenovka kəndindən keçməklə və buradan Zəngi çayına paralel olaraq İrəvan şəhərinədək yolun çəkilməsi hesab edilmişdir.”[1]

Daha sonra hesabatda qeyd edilirdi ki, “Tiflis-Culfa yolu üzrə 1865-ci ildə başlamış işlər sahələr üzrə aparılırdı; İrəvanadək çatdırılmış, yəni 250 verst uzunıuğu olan şosse yolu bütün Qafqaz diyarı üzrə başdan-başa şosselənmiş ən uzun yoldur.” [2]

Hesabatda Tiflis-İrəvan şosse yolunun tikintisinə sərf olunmuş maliyyə vəsaitinin analizi də müəyyən maraq kəsb edir. Buradan məlum olur ki, “bütövlükdə Tiflis-İrəvan yolu Tiflisdə köhnə gömrükxananın yanında, 184,72 sajen hündürlükdə öz başlanğıcını götürür, dəniz səviyyəsindən 461 sajen hündürlükdə İrəvana gəlib çatır və 250 verst 62 sajen uzunluqda olan [bu yol] un çəkilişi 1 712 200 rubla başa gəlmiş və ya hər verstə orta hesabla 6849 rubl xərclənmişdir. Rusiyanın daxili quberniyalarındakı şosse yollarının orta qiymətləri ilə müqayisədə bu qiyməti tamamilə mülayim qiymət saymaq lazımdır. Yollar Nazirli-

---

[1] **Кавказский календарь на 1876 год** / Тифлис, 1875, отд.II, ч.2, с. 95-96.

[2] Yenə orada, s. 95-96.

yinin 1871-ci ilə aid jurnalındakı məlumatlardan görünür ki, 1870-ci ildə Rusiyada cəmisi 7363 verst şosse yolu olmuşdur və onların ilkin ümumi qiyməti 85,5 mln rubl təşkil etmişdir ki, bu da hər verstin orta 11600 rublluq qiymətini verir.”[1]

İrəvan sahəsinin Cənubi Qafqaz kommunikasiya sistemindəki əhəmiyyətinin aşağıda göstərəcəyimiz növbəti qiyməti xeyli xarakterikdir: “Ağstafada rels yoluna öz strateji və ticarət əhəmiyyətinə görə, Cənubi Qafqazın ən mühüm yollarından biri qoşulur; bu, Dilicandan keçən dəmir yolunun bir tərəfdən İrəvanla, digər tərəfdən  Aleksandrapol və Qarsla əlaqələndirən şossedir... diqqətinizi İrəvandan gələn şosse üzərində cəmləməyə cürət edirəm... Özü də ki, Culfa, Ordubad və Şərur gömrükxanalarında üzərinə gömrük qoyulmuş şossedir. Bu yol İrəvandan başlayaraq şosselәndirilib.[2] Daha sonra müəllif belə bir nəticəyə gəlirdi ki, “öz ticarət dövriyyəsinə görə İrəvan, Bakıdan sonra, Cənubi Qafqazın ikinci bazarıdır. Yerli mallar, pambıq və şərablarla yanaşı, İrəvan İranla ticarətdə kifayət qədər mühüm məntəqədir. Kifayət qədər çox kiçik istisnalarla, demək olar ki, bütün İran malları burada yenidən satılır, qablaşdırılması dəyişdirilir və başqa sahibin əlində yolunu davam etdirir. Öz mallarını satmaq və rus mallarını almaq üçün bütün Azərbaycandan farslar buraya axışırlar. Bu, malların İrana və geriyə getməsi yolunda stansiyadır.”[3]

Artıq yuxarıda qeyd edildiyi kimi, Tiflis-Aleksandrapol-İrəvan-Culfa dəmiryolu xəttinin çəkilməsi İrəvan şəhərinin inkişafı üçün böyük əhəmiyyətə malik idi. 1895-ci ildə Tiflis-Qars dəmir yolunun çəkilişinə başlanıldı. Bu yol 1899-cu il dekabrın 1-də istismara verildi. Aleksandrapol-İrəvan dəmir yolu üzrə axtarış-araşdırma işləri və müvafiq layihələrin hazırlanması hələ 1894-cü ildə, Tiflis-Qars dəmiryolu xətti üzrə axtarış-araşdırma işləri ilə eyni vaxtda başa çatmışdır, amma onun yekun layihəsi

---

[1] **Кавказский календарь на 1876 год /** Тифлис, 1875, отд.II, ч.2, с. 99.

[2] Фон-Гребнер, А.В. **Торговые дороги Закавказьяю /** СПб, 1896, с. 41.

[3] Yenə orada, s. 43.

1898-ci ildə təsdiqə verilmişdir. Məlum oldu ki, layihəyə görə, bu dəmiryolu Aleksandrapoldan başlayaraq Sərdərabad və Uluxanlıdan keçib Uluxanlıdan 13 verst aralıda yerləşən İrəvandan yan ötərək Rusiya-İran sərhəddindəki Culfaya qədər uzanacaqdır.

Həmin ilin iyun ayının sonunda çağırılmış şəhər duması öz fövqəladə iclasında şəhər idarəsi (uprava) vasitəsilə müvafiq orqanlar qarşısında Aleksandrapol-Culfa dəmiryolunun İrəvanın özündən keçirilməsi barədə məsələ qaldırıb bununla bağlı 6 nəfərdən ibarət xüsusi komissiya yaratdı. Dumanın tələbi yerinə yetirilmədi: İrəvan “dalanda qaldı”, əsas magistral Uluxanlıdan keçdi, sadəcə İrəvan xüsusi ayrıca xətlə Uluxanlı stansiyası ilə birləşdirildi.[1] İrəvanda dəmiryolunun təntənəli açılışı 1902-ci il dekabrın 5-də oldu.

Güney Qafqaz dəmiryolunun cənub magistralının sonuncu kəsiyi – İrəvan-Culfa xətti Aleksandrapol-İrəvan xəttinin ardınca çəkildi. Onun çəkilişi 1906-cı ildə yekunlaşdı, lakin həmin yolla hərəkət müntəzəm deyildi. 1916-cı ildə Culfa-Təbriz dəmiryolu xətti istismara verildi.[2]

Beləliklə, dəmiryolu İrəvan üçün başlıca əlaqə arteriyasına çevrildi. Lakin bununla yanaşı, burada kəsişən dövlət şosse və yerli yollar da onun iqtisadi həyatında mühüm rol oynamaqda davam edirdi. Hərbi hakimiyyət orqanlarının vəsatətinə əsasən, XIX əsrin 80-ci illərindən 1913-cü ilədək əsaslı şəkildə yenidən qurulan və birinci dərəcəli dövlət yoluna çevrilən İrəvan-Üçmüəzzin-İqdır yolu istisna edilməklə İrəvana daxil olan və oradan başlayan bütün relssiz yollar əvvəlki vəziyyətdə qalmaqda idi. Əvvəllərdə olduğu kimi, İrəvan üçün relssiz yollardan ən mühümü İrəvan-Ağstafa şossesi idi. Lakin dəmir yolunun çəkilməsi ilə bu yol öz əvvəlki əhəmiyyətini itirmişdi. XIX əsrin 80-ci illərində İrəvandan hər pud yükün müxtəlif istiqamətlərdə 100 verstə daşınması üçün 25 qəpik tələb olunurdu. Sonralar – XIX əsrin 90-cı illəri və XX əsrin əvvəllərində bu fraxt xeyli bahalaşmışdı.

---

[1] Акопян, Т.Х. **Очерк истории Еревана** / с. 228.

[2] Yenə orada.

Hərçənd ki, dəmiryolunun çəkilməsindən sonra İrəvan-Ağstafa xətti üzrə və onun yan qolları ilə yükdaşımalar (qeyri-dəmiryolları ilə - red.) xeyli azalmışdı.[1]

Dəmir yollarının çəkilməsi və relssiz yolların abadlaşdırılması şəhər ticarətinin inkişafına, xüsusən də xarici və tranzit ticarəti üçün böyük dəstək idi. Mal dövriyyəsi artmış, idxal olunan malların çeşidi zənginləşmiş, ticarət və ticarət-sənaye kompaniyaları meydana çıxmışdı.

Çar hökuməti hər bir vəchlə çalışırdı ki, İrəvan quberniyası və digər sərhədyanı rayonlar zəruri malları xaricdə sifariş etməsinlər, Rusiyanın mərkəzi quberniyalarından alsınlar.

XIX əsrin 90-ci illərinin əvvəllərindən etibarən İrəvan quberniyasının mərkəzi ilə iri ticarət qovşağı olan İrəvan şəhəri və Rusiya arasındakı ticarətdə iki yükdaşıma kompaniyası – "Nadejda" ("Ümid") və "Russkoe tovarişstvo" ("Rus şirkəti") kompaniyaları fəaliyyət göstərirdi. Natamam məlumatlara görə, dəmiryollarının çəkilməsindən 8-9 il əvvəl "Nadejda" şirkəti, təkcə bir il (1893-cü il) ərzində İrəvan-Ağstafa şossesi ilə 215942 pud müxtəlif mal göndərmiş və 103280 pud belə mal almışdır. Elə həmin il "Russkoe tovarişstvo" 285000 pud mal göndərmiş və 90000 pud mal almışdı. İrəvandan mahlıc, meyvə, spirt, konyak göndərilir, Rusiyadan parça, metal əşyalar, habelə şəkər, taxıl və s. gətirilirdi.[2] Dəmiryolunun çəkilməsindən sonra Rusiyanın müxtəlif rayonlarından gətirilən malların növləri artmışdı. XX əsrin əvvəllərindən İrəvana gətirilən malların içərisində yuxarıda sadalananlarla yanaşı, tikinti üçün ağac məmulatları, neft, antrasit və başqalarının adları çəkilirdi.[3]

İrəvan dövlətdən heç bir dotasiya almırdı. Əksinə, dövlət-inzibati xərclərin çoxu şəhər vəsaitlərinin hesabından ödənilirdi. Şəhər daim borclar içərisində idi. Onun gəlirləri xərcləri və dövlət vergilərini ödəmirdi. Şəhər klubunun, xəstəxanasının və digər

[1] Акопян, Т.Х. Указ. раб., / с. 228.
[2] Yenə orada, s. 229.
[3] Yenə orada.

obyektlərin tikintisinin ləngiməsi başlıca olaraq, məhz bununla izah olunurdu; daha böyük xərc tələb edən tədbirlərin – içməli su məsələsi, konka, elektrik stansiyasının və s. tikintisi kimi məsələlərin şəhər vəsaiti hesabına həll edilməsi tamamilə qeyri-mümkün idi.

İlk növbədə konka (at dəmiryolu) məsələsi həll olundu. Onun istismara verilməsinədək şəhər nəqliyyatı müstəsna şəkildə faytonlarla məhdudlaşırdı. Fayton və karetalar baha idi və ancaq imkanlı şəhərlilər üçün əlçatan idi. Fəhlələrin birgünlük qazancı şəhərin o başından dəmiryolu vağzalına faytonla getmək haqqına güclə çatardı. Fayton və arabaların sayı güclə 100-ə çatırdı.[1]

Konka məsələsi hələ XIX əsrin 90-ci illərində gündəliyə çıxarılmışdı. Artıq qeyd edildiyi kimi, konka çəkilməsi üçün şəhərin pulu yox idi. Yeganə çıxış yolu onun səhmdar cəmiyyətlərə və ya xüsusi şəxslərə icarəyə verilməsi idi.

1895-ci ildən başlayaraq müxtəlif kompaniyalar və ayrı-ayrı şəxslər konka tikintisi üzrə müqavilələr barəsində şəhər idarəsinə və ya dumasına müraciətlər etməyə başlamışdılar. Bunların içərisində mühəndis-mexanik A. Babov tərəfindən edilmiş təkliflər şəhər üçün ən əlverişli şərtlər sayıldı. A.Babov iki kontrakt layihəsi təqdim etmişdi: bunlardan biri konka tikintisi, digəri isə su kəmərinin çəkilməsi ilə əlaqədar idi.[2]

1903-cü il mayın 2-də hər iki kontrakt qəti olaraq təsdiqləndi. 1904-cü il fevralın sonlarında konkanın tikintisinə başlanıldı. Tezliklə bağlanılmış bu müqavilənin yerinə yetirilməsi, heç bir dəyişiklik edilmədən, başqa şəxsin ixtiyarına keçdi. Bu şəxs, özünün nümayəndəsi vasitəsilə İrəvan konkası üçün dəmiryolunun çəkilişinə başladı.[3]

Kontrakta görə, 4 verst uzunluğundakı bu yol iki hissədən (kəsikdən) ibarət olmalı idi. Yolun birinci hissəsinin baş bazarı

---

[1] Акопян, Т.Х. Указ. раб., / с. 228.
[2] Yenə orada.
[3] Yenə orada, s. 267-268; **Развитие Еревана…** / с. 342.

dəmiryolu vağzalı ilə, ikinci hissəsinin isə Astafyev küçəsindən keçməklə həmin bazarı məhkəmənin binası ilə “birləşdirməsi” nəzərdə tutulurdu. Təsdiq olunmuş layihələrin alınmasından sonra konkanı ilyarım ərzində tikib istismara vermək nəzərdə tutulurdu. İcarədar yolu saz halda saxlamağı və qoyulmuş tarifləri artırmamağı öhdəsinə götürürdü. Konkadan götürüləcək gəlirin 20 %-i şəhərə, 80%-i icarədara məxsus olmalı idi. Şəhər idarəsi aparılacaq işlərə nəzarət üçün xüsusi komissiya seçmişdi. Konkanın Astafyev xətti 1906-cı il sentyabrın 16-da, vağzala doğru gedən xətti isə dekabrın 11-də istismara verildi. Konkanın tikintisi konsessiyaçılara 100 min manatdan baha başa gəldi.[1]

Konkanın vaqonları kiçik, sərt və yaraşıqsız idi. Hərəkətin xüsusi cədvəli var idi, lakin bu cədvəl tez-tez pozulurdu. Xəttə xeyli texniki çatışmazlıqlar var idi. Və əsasən bu konka nəqliyyat problemini həll etmədi. Bu yol böyük əraziyə yayılmış şəhərin kiçik hissəsindən keçir və fasilələrlə işləyirdi. Konka çox ləng hərəkət edirdi, bəzən piyada yeriş daha sürətli idi. İrəvan şəhəri üçün ənənəvi olan fayton və arabalar öz rollarını saxlamışdı. 1913-cü ildə avtomobillərin meydana çıxması ilə də şəhərin nəqliyyat təminatı ciddi şəkildə dəyişmədi. Artıq 1914-cü ilin əvvəllərində şəhərdə xüsusi şəxslərə və ya müəssisə və təşkilatlara, kompaniyalara müxtəlif markalı yük və minik avtomobilləri satan xüsusi texniki-tikinti kontoru mövcud idi. O dövrün avtomobilləri texniki baxımdan qeyri-mükəmməl, azsaylı idi və şəhər üçün xüsusi əhəmiyyətə malik deyildi. Artıq 1918-1920-ci illərin daşnak idarəçiliyi dövründə şəhər idarəçilik orqanları və konsessioner Mirzəyev arasındakı razılığa əsasən 1918-ci il avqustun əvvəlindən İrəvan konkası öz fəaliyyətini dayandırdı.

**Rabitə.** Ölkənin iqtisadi inkişafında, o cümlədən daxili və xarici əlaqələrinin qurulmasında rabitə vasitələrinin əhəmiyyətini başa düşən çar hökuməti, Şimali Azərbaycan işğal olunduqdan sonra, bu diyarın idarə edilməsindəki çətinlikləri nəzərə alaraq, rabitə işinin nizama salınması sahəsində müəyyən tədbirlə-

---

[1] **Развитие Еревана …** / с. 333-335.

rin həyata keçirilməsinə çalışılsa da, XIX yüzilliyin ortalarına qədər bu istiqamətdə, demək olar ki, nəzərəçarpacaq dəyişikliklər baş verməmişdi.

İşğalın ilk dövrlərində olduğu kimi, sonralar da, daha doğrusu, XIX əsrin 60-cı illərinə qədər Şimali Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvanda da rabitənin ilk növü olan poçt rabitəsi şəbəkəsinin yaradılması ilə əlaqədar heç bir ciddi iş görülmədiyindən, bu sahə çox ləng inkişaf edirdi. Bu, bir tərəfdən, çarizmin müstəmləkəçilik siyasətinin təzahürü kimi ucqarların inkişafının şüurlu surətdə ləngidilməsi ilə izah olunurdusa (heç də təsadüfi deyildi ki, rabitə üçün ayrılan vəsait Daxili İşlər Nazirliyinin nəzarəti və sərəncamında idi),[1] digər tərəfdən rabitə əlaqələrinin həyata keçirilməsi üçün başlıca şərt olan yolların bərbad vəziyyətdə olması ilə bağlı idi. Bu yolların çoxu adi kəndarası yollar olmaqla, bəzən çox dar və daş-kəsəkli olurdu.

Həmin yollarda həyata keçirilən poçt daşımaları, təkərli nəqliyyat vasitələri olmadığından, yalnız yük heyvanları vasitəsilə həyata keçirilirdi. Bu məqsədlə dəvələrdən, at və öküzlərdən istifadə edilirdi.

O dövrdə İrəvandan başlayan və oradan keçən əsas poçt yolları aşağıdakılar idi:[2]

a) İrəvan və Eçmiədzindən keçərək Gümrünü Naxçıvan və Ordubadla birləşdirən əsas (böyük) poçt yolu;

b) İrəvan-Zod-Qarabağ poçt yolu;

c) İrəvan-Baş-Abaran-Cəlaloğlu poçt yolu;

d) İrəvan-Eçmiədzin-Qars poçt yolu.

İqtisadi baxımdan bu yollardan İrəvan ücün ən əhəmiyyətlisi, Cəlaloğlu və Buzovdaldan kecməklə Tiflisə aparan yol hesab edilirdi.

Qeyd olunduğu kimi, XIX əsrin 60-cı illərinə qədər poçt rabitəsinin inkişafında elə də nəzərə çarpacaq dəyişikliklər baş

---

[1] **Azərbaycan tarixi** / 7 cilddə, IV c, Bakı, 2000, s. 236.

[2] Акопян, Т.Х. **История Еревана (1801-1879)** / Автореф. дисс. на соиск. уч. ст. д-ра ист // Ереван, Наук, 1980, с. 24.

vermədiyindən, 40-50-ci illərdə də əsas rabitə vasitəsi kimi heyvanlardan (xüsusən də yükdaşımalarda) istifadə edilirdi. İrəvandan Tiflisə və digər yerlərə göndərilən yüklər içində əsas yeri buğda, un və pambıq tuturdu. Yüklərin daşınması həddindən artıq baha başa gəlirdi. Məsələn, bir pud buğdanın İrəvandan Tiflisə göndərilməsi, orta hesabla 60 qəpiyə başa gəlirdisə, Arazyanı vadilərdən İrəvana gətirilən hər pud yükün qiyməti də təxminən elə o qədər, yəni 60-80 qəpik civarında olurdu.

Bu daşımaların dəyəri Rusiyadan (məs., Tambov vilayətindən) gətirilən taxılın dəyəri ilə demək olar ki, eyni idi.[1] Əlbəttə ki, vəziyyətin belə olması yolların rahatsızlığı, relyefin mürəkkəbliyi, poçt rabitəsi vasitələrinin azlığı ilə bağlı olduğundan, İrəvanın digər ərazilərlə əlaqəsini çətinləşdirir və yükdaşımaların səviyyəsini azaldırdı.

Sözügedən dövrdə poçt rabitəsinin çox zəif olduğu səbəbindən, İrəvanda yalnız bir poçt stansiyası fəaliyyət göstərirdi ki, orada da poçt xidmətlərini həyata keçirən 16 at saxlanılırdı.[2]

1865-ci ilin məlumatına əsasən, İrəvan şəhərində yenə də yalnız bir poçt stansiyası qeydə alınsa da, bu dövrdə xidmət atlarının sayı artırılaraq 21-ə çatdırılmışdı [3].

Qeyd olunmalıdır ki, şəhərdə bir poçt stansiyasının olmasına baxmayaraq, o imperiyanın fransız və alman dillərində beynəlxalq korrespondensiyası olan poçt stansiyalarının siyahısına salınmışdı.[4]

Mənbələrin verdiyi məlumata görə, bu dövrdə şəhərin poçt yollarının ümumi uzunluğu 17 verstə bərabər idi. Lakin həmin yolların abad olmaması və hamısının ciddi təmirə ehtiyacı olma-

---

[1] Гольмсен, Н.А. **Приараксинская долина и Тифлисско-Эриванская торговая дорога/ Сборник сведений о Кавказе//** т.9, Тифлис, 1885, с. 43.

[2] **Развитие Еревана после присоединения Восточной Армении к России/** Сборник документов, 1801-1917 гг// Ереван, 1978, с. 424, (сост. Т. Х. Акопян).

[3] Yenə orada, c. 424.

[4] **Календарь на 1873 г**, Под ред. А.Гатцука, М, 1873, с. 190,195.

sı, bu məqsədlə də şəhərə 300 rubl pul məbləğinin ayrılması barədə məlumatlar da mənbələrdə öz əksini tapmışdır.[1]

XIX əsrin 60-cı illərindən etibarən Şimali Azərbaycanın siyasi-iqtisadi və mədəni həyatında baş verən dəyişikliklər, eyni zamanda yeni rabitə növünün yaranmasına da təkan vermiş oldu.

1864-cü il yanvar ayının 21-də Tiflis-İrəvan-Naxçıvan-Culfa teleqraf xəttinin Naxçıvanı Culfa ilə birləşdirən[2] hissəsinin istifadəyə verilməsi ilə Şimali Azərbaycan ərazisində ilk dəfə olaraq yeni, daha doğrusu, ikinci rabitə növü olan teleqraf rabitəsinin əsası qoyuldu.[3] Həmin rabitə xətti Dilicandan keçməklə, Tiflislə İrəvanı birləşdirirdi.[4]

1868-ci ildə isə Bakı-Tiflis teleqraf xəttinin çəkilməsi ilə, İrəvanın Bakı ilə də teleqraf rabitəsi təmin edilmiş oldu.

Qeyd edilməlidir ki, teleqraf rabitəsinin yaradılması, eyni zamanda daimi poçt əlaqələri və daimi poçt xidmətlərinin yaranmasına da səbəb oldu.

Bu dövrdə, bütün Şimali Azərbaycan ərazisində olduğu kimi, İrəvandakı poçt-teleqraf müəssisələri də Daxili İşlər Nazirliyinin tabeçiliyində olmaqla, dövlət müəssisələrinə aid edildilər.

Poçt və teleqraf işinin bir-biri ilə bağlılığını nəzərə alan çar hökuməti, 1884-cü ildə həmin sahələri birləşdirərək, Baş Poçt və Teleqraf İdarəçiliyini yaratdı.[5] Bu yenilik bütün Azərbaycan ərazisində olduğu kimi, İrəvanda fəaliyyət göstərən poçt və teleqraf idarələrinə də şamil edildi.

Yuxarıda adları çəkilən rabitə növlərindən fərqli olaraq, üçüncü rabitə növü olan telefon rabitəsinin yaradılması və inki-

---

[1] **Развитие Еревана...** / с. 428,436.

[2] Багирова, Р.Г, “Возникновение и развитие телеграфа в дореволюционном Азербайджане” / **Известия АН Азерб. ССР: Серия экономики,** 1968, №3, с. 61.

[3] **RDTA** / F.1289, siy.1, iş 1919, v.218, arx-223, s. 233, 234, 236; Bağırova, R.Q. Göst.əsəri / s. 61.

[4] **Кавказский календарь на 1868 г** / Тифлис, 1868, с. 134; **Памятная книжка Эриванской губернии на 1902 г** / Эривань, 1902, отд.V, с. 40.

[5] **Почтово-телеграфный журнал /СПб,** 1905, № 4, с. 375; Bağırova, R.Q. Göst.əsəri / s. 61.

şafı Azərbaycanda daha sürətlə gedirdi. Yeni rabitə növü 1876-cı ilin fevral ayının 14-də Vaşinqtonda rəsmi surətdə təsdiq edildikdən sonra, artıq 1880-cı ilin sonunda "Qafqaz və Merkuri" gəmiçilik şirkəti tərəfindən Bakıda ilk telefon xətti çəkildi.[1]

Dövlət mülkiyyətində olan poçt-teleqraf müəssisələrindən fərqli olaraq, telefon müəssisələri xüsusi kapitalist mülkiyyəti formasına aid qurumlar kimi formalaşmağa başladılar (Ayrı-ayrı şəxslərə telefon rabitəsi yaratmağa imkan verən qanun 1881-ci ilin fevralında təsdiq edilmişdi).[2]

XIX əsrin son rübündən etibarən, artıq bir çox şəhərlərin həyatında adi hala çevrilmiş telefon rabitəsi, İrəvanın poçt-teleqraf kontorunun laqeydliyi üzündən bu şəhərin həyatına daxil ola bilmirdi. İrəvan şəhər poçt-teleqraf kontoru nədənsə, bu rabitə növünün yaradılmasına tələsmirdi. Nəhayət, 1896-cı ildə İrəvanda ilk dəfə olaraq, telefon rabitəsinin yaradılması məsələsi qaldırıldı. Lakin, həmin məsələ tezliklə unudularaq, yalnız 5-6 ildən sonra yenidən müzakirə mövzusuna çevrildi. 1902-ci ilin yanvar ayının əvvəllərində İrəvan şəhər idarəsi Tiflis poçt-teleqraf dairəsi qarşısında İrəvan şəhərində telefon rabitəsinin yaradılması ilə bağlı vəsatət qaldırdı. Tezliklə dairə rəisindən şəhər idarəsinin adına alınan cavab məktubunda, ilk növbədə, hökumət telefonu abonentlərinin sayının müəyyənləşdirilməsi təklif olundu. Məktubda o da bildirildi ki, daxili telefon qovşağının yaradılması, çox yüksək olan abonent haqları və s. məsələlərlə bağlı məsləhətləşmələr isə yalnız tələb olunan siyahı hazır olduqdan sonra həyata kecirilə bilər.[3]

Qeyd olunmalıdır ki, telefon qovşağının yaradılması ilə əlaqədar İrəvan şəhərinə müstəsna bir hüquq da verilmişdi ki, o da həmin şəhərdə yerləşən hər hansı bir şirkət və ya müəssisənin konsessiya əsasında şəhərin telefonlaşdırılmasını öz üzərinə götürməsindən ibarət idi. Belə bir hüququn verilməsinə baxmaya-

---

[1] **Кавказ** / 1880, № 279; **Azərbaycan tarixi** / 7 cilddə , IV c, s. 237.
[2] Yenə orada.
[3] Yenə orada, s. 274.

raq, müəyyən yazışma və müzakirələrdən sonra, bu iş yenə də unuduldu. Yalnız 7 ildən sonra, yəni 1909-cu ildə Danimarkanın Bakıdakı konsulu Bierinqlə aparılan intensiv yazışma, sonuncunun İrəvan və Aleksandropol şəhərlərində telefon qovşağının yaradılması ilə bağlı özünün konsessiya xidmətlərini təklif etməsi ilə nəticələndi. Bierinqin bu məsələ ilə əlaqədar İrəvan qubernatorunun adına yazdığı ərizə, sonuncuya Qafqaz canişini vasitəsilə çatdırıldı. İrəvan quberniya rəisi şəhər duması ilə müəyyən məsləhətləşmələr apardıqdan və bu sahədə vəziyyəti öyrəndikdən sonra, ilin sonunda, telefon xəttinin çəkilişi lə bağlı müəyyən şərtlərini irəli sürməklə, müsbət cavabını Bierinqə göndərdi.[1]

Tezliklə daha bir sahibkar, mühəndis-elektrik N.V.Falaza İrəvan şəhərində telefon qovşağının yaradılmasını öhdəsinə götürmək arzusunda olduğunu bildirdi. Bundan istifadə edən şəhər idarəsi qubernator qarşısında məsələ ilə bağlı, adları şəkilən şəxslər arasında müsabiqə keçirilməsinə icazə verməsi və abonent haqqinin 75 rubla endirilməsi barədə Qafqaz canişini qarşısında vəsatət qaldırmasını xahiş etdi.[2]

Nəhayət, 1912-ci ilin yanvar ayında İrəvan şəhərində telefon qovşağının yaradılmasına hökumət tərəfindən rəsmi icazə verildi, daha doğrusu layihə bəyənilərək təsdiq edildi. Həmin ilin noyabr ayının əvvəllərində isə Tiflis poçt-telefon dairəsinin mexaniki Kukulinski və bir qrup fəhlə şəhər telefon şəbəkəsini yaratmaq, telefon aparatlarını quraşdırmaq məqsədilə İrəvana göndərildi.[3]

Qeyd etmək lazımdır ki, İrəvan şəhərinin telefonlaşdırılması layihəsində telefon xətlərinin çəkilməsi üçün, şəbəkədə heç

---

[1] Акопян, Т.Х. Указ. раб., / с. 275.

[2] Yenə orada, s. 307. Yuxarıda gətirilən bəzi faktlar həmin müəllifin tərtib etdiyi sənədlər toplusunda 1901-ci ilə aid edilir, eyni zamanda orada Bierinq fiziki şəxs kimi deyil, hüquqi şəxs qismində verilir, yəni söhbət "E. F. Bierinq və K$^{0}$" şirkətindən gedir. Abonent haqqının isə 75 rubla deyil, 70 rubla endirilməsinin təklif olunduğu göstərilir. Bax: **Развитие Еревана…** / с. 307, (сост. Т.Х.Акопян).

[3] Yenə orada, s. 275.

olmasa 30-40 abonentin olması tələb olunurdusa, həmin ilin, yəni 1912-ci ilin sonlarında İrəvanda onların sayı artıq 80-ə çatırdı. Abonentlər sırasına, ilk növbədə "Rus naviqasiyası və ticarəti cəmiyyəti", Şustovun çaxır-konyak zavodu, quberniya idarəsi, dairə məhkəməsi, şəhər xəstəxanası, həmçinin digər idarə və müəssisələr daxil olmaqla yanaşı, eyni zamanda şəhərin adlı-sanlı şəxslərinin adları da salınmışdı.

Telefon xətlərinin çəkilişi və aparatlarının quraşdırılmasına təxminən 6 ayadək vaxt sərf edildikdən sonra, nəhayət, 1913-cü il may ayının 13-də İrəvan şəhər telefon stansiyasının təntənəli açılışı oldu.

Beləliklə, İrəvanda poçt-teleqraf, telefon rabitəsinin yaradılması şəhər həyatında müsbət dəyişikliklərin baş verməsinə, əhalinin məişət şəraitinin müəyyən qədər yaxşılaşdırılmasına xidmət etmiş oldu.

# IV FƏSİL

## ŞƏHƏRİN İCTİMAİ - SİYASİ VƏ MƏDƏNİ HƏYATI

### 4.1. Şəhərinin ictimai-siyasi həyati

XIX əsrin sonu  XX əsrin əvvəllərində Azərbaycanda kapitalist münasibətlərinin sürətli inkişafı milli şüurun oyanışı və ictimai-siyasi qüvvələrin fəallığının artması ilə müşayiət olunurdu. Bu amillərin yaranması sosial-siyasi hüquqsuzluğa, amansız istismara, milli əsarətə məruz qalan, ağır məişət şəraitində yaşayan fəhlələrin öz hüquqları uğrunda mübarizəyə başlamaları üçün təkanverici qüvvə rolunu oynamış oldu.

XX əsrin əvvəllərində imperiyanı bürümüş iqtisadi böhran digər milli ucqarlarda olduğu kimi İrəvanda da özünü göstərərək, onsuz da ağır olan vəziyyəti daha da dözülməz etdi. Həmin dövrdə burada istismarçılara qarşı başlamış fəhlə çıxışları mübarizənin ilk mərhələsi olaraq1901-1904-cü illəri əhatə etmiş oldu. Sarocevun, Şustovun şərab-konyak zavodlarında, dəmir yolu qovşağı və poçt-teleqraf kontorunda, gimnaziyalarda (kişi və qadın) və digər yerlərdə baş verən çıxışlar inqilabi intibahnamə və vərəqələrin yayılması ilə müşayiət olunurdu.[1]

Mübarizə dalğasının tədricən bütün İrəvan quberniyasını bürüdüyü bir şəraitdə çar hökuməti erməni qriqoryan kilsə varidatının müsadirə edilməsi haqqında 1903-cü il 12 iyun tarixli qanununu qəbul etdi ki, bu da ermənilərin böyük narazılığına səbəb olaraq bütün Cənubi Qafqazda olduğu kimi İrəvanda da erməni hərəkatının yaranmasına gətirib çıxardı.

Yerlərdə qanunun həyata keçirilməsi isə ermənilərin kütləvi silahlı müqavimətinə səbəb olaraq, bir neçə il davam etdi. Bu-

---

[1] Овсепян, С.М. **Деятельность большевиков и революционное движение в Ереване (1901-1920 гг.)**/ Автореф. дисс. канд. ист.наук, Ереван, 1971, с. 8.

nunla da, həmin dövrdə "ermənilər özləri belə istəmədən mütləqiyyətə qarşı mübarizənin ön sıralarına keçmiş oldular".[1]

İrəvanda genişlənməkdə olan tətil hərəkatına ilk olaraq dəmiryolçular başladılar və bunun nəticəsində bir həftə ərzində Tiflis-İrəvan-Gümrü və Qars istiqamətində gedən qatarların hərəkəti dayandırıldı. Bundan sonra hərəkata İrəvanın digər müəssisələrinin fəhlə və qulluqçuları da qoşuldular. Əvvəlki illərdən fərqli olaraq, bu dəfə fəhlələr sahibkarlara qarşı artıq siyasi və iqtisadi tələblər irəli sürməklə çıxış edirdilər.[2] 1905-ci ilin tətil hərəkatı poçt və teleqraf işçilərinin uzunmüddətli, noyabrın 15-dən dekabrın 23-nə kimi davam edən tətili ilə başa çatmış oldu.[3]

Ümumiyyətlə, qeyd olunmalıdır ki, İrəvanda baş verən inqilabi hərəkatın müəyyən özünəməxsusluqları var idi. Belə ki, Bakı, Tiflis və digər iri şəhərlərlə müqayisədə burada fəhlə çıxışlarının bir qədər gec başlaması və vahid mərkəzin olmaması səbəbindən, əsasən ayrı-ayrı sosial-demokrat qrupları tərəfindən idarə edilməsi və bəzən də düzgün istiqamətləndirilməməsi hərəkata qeyri-mütəşəkkillik və pərakəndəlik xarakteri verirdi. Elə bu səbəbdən, hərəkatın daha düzgün istiqamətləndirilməsi və mütəşəkkilliyin təmin edilməsi məqsədiy ilə şəhərdə fəaliyyət göstərən sosial-demokrat qruplarının vahid bir təşkilatda birləşdirilməsi məqsədəuyğun hesab edildiyindən, 1905-ci ilin mayında Rusiya Sosial-Demokrat Fəhlə Partiyası (RSDFP) Qafqaz diyar komitəsinin göstərişi ilə İrəvanda keçirilən yığıncaqda bu məsələ müsbət həllini tapmış oldu, sözügedən partiyanın İrəvan şəhər komitəsi yaradıldı.

Qeyd etmək lazımdır ki, həmin dövrdə baş verən hadisələr və inqilabi hərəkatın genişlənməsi hakim rejimi qorxudaraq onu müxtəlif üsullara, o cümlədən millətlərarası qırğınların törədilməsi üsuluna da əl atmağa vadar edirdi. Lakin hakim rejimlə ya-

---

[1] Süleymanova, S. "**Azərbaycanda ictimai-siyasi hərəkat (X1X yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri)"**/ Bakı, 1999, s. 208.

[2] Арутюнян, А.Б. **Народы Закавказья в борьбе против царизма в годы первой русской революции** / Ереван, 1957, с. 54.

[3] Акопян, Т.Х. **Очерк истории Еревана** / Ереван, 1977, с. 256.

naşı İrəvanda gedən proseslərə öz planı, mövqeyi və mübarizə üsulu olan digər quvvələr də müdaxilə edirdilər. Məsələn, hökumət orqanları küçələrə silahlı dəstələr çıxararaq, erməniləri müsəlmanlara, müsəlmanları isə ermənilərə qarşı qızışdırarkən, "daşnaklar, hınçaklar, başlayan xalq hərəkatı sinfi xarakter almasın deyə, matəm libası geymək, əldə qara bayraq küçələrə çıxmaq, ancaq milli məsələ haqqında danışmaq, yas saxlamaq, ermənilər yaşayan yerlərdə başqa millətlərə mənsub nə varsa, hamısını alt-üst etmək şüarını irəli sürürdülər".[1]Artıq deyildiyi kimi "xalqların bir-birinin üzərinə salındırılması" siyasətini həyata kecirən çarizmin, bu məqsədlə "Daşnaksütyun" partiyasından istifadə etməsini erməni müəllifləri özləri də etiraf edərək, bu partiyanı erməni xalqının qatı düşməni adlandırırdılar.[2]

Yazılarında "Daşnaksütyun"u "erməni mühitinə şovinizm zəhəri yoluxduran ən prinsipsiz, ən mürtəce partiya" adlandıran S.Şaumyan, "daşnakların siyasətini ifşa etmək, həqiqəti erməni zəhmətkeşlərinə çatdırmaq gərəkdir" deyə bildirirdi. O, göstərirdi ki, "Daşnaksütyun" öz üzvlərinin – "daşnaktsakan"ların içərisində belə, nüfuza, hörmətə malik olmayan, cılız, əhəmiyyətsiz bir partiya olaraq, erməni-tatar (azərbaycanlı) düşmənçiliyini daha da dərinləşdirir, kəskinləşdirirdi". [3] Digər erməni lideri A.Myasnikyanın da sözügedən partiya ilə bağlı fikirləri maraq doğurur: "Daşnaklar qəribə psixologiyaya malik siyasi avantüristlərdir. ... onlar inamla və cəzasız olaraq müsəlmanları qırırdılar. ...Türkiyədə türkləri kəsib-doğrayan, Qafqazı isə türklərdən "təmizləmək" fikrinə düşən daşnakları" Myasnikyan "…daima ardıcıl olaraq müsəlmanyeyən insanlar" deyə səciyyələndirərək bildirirdi ki, "…türkəfobiya ölçü və hədd tanımırdı. … Daşnak siyasətinin istinad nöqtəsi … Ermənistanı bütün müsəlmanlar-

---

[1] Məmmədov, İ. **İrəvan dəftəri: İctimai fikir tariximizin qəribsəyən üfüqləri /** Baki, 2002, s. 48.

[2] Арутюнян, А.Б. **Народы Закавказья в борьбе против царизма в годы первой русской революции** / Ереван, 1957, с. 63.

[3] Шаумян, С.Г. **Избранные произведения** /В 2-х томах, т.1, М, 1978, с. 52, 194, 195, 216.

dan, ilk növbədə isə mənfur tatar (azərbaycanlı – S.M.) və insan olmayan türklərdən təmizləməkdir. Daşnaksütyun belə düşünür və belə hərəkət edirdi. Alov və qılıncla müsəlman kəndləri məhv edilirdi…”.[1] Daha bir erməni müəllifi B.Ananikyanın məsələ ilə bağlı qələmə aldıqlarını da nəzərə çatdırmaq istərdik. Onun fikrincə, “Daşnaksütyunun bu təhlükəli xəstəliyi və sərsəmliyi çarəsiz dərd idi. ... Müəyyən qədər güc topladıqdan sonra daşnaksütyun meydana atıldı və Qafqaz xalqlarını yandırmaqda olan alovun üstünə neft tökməyə başladı”.[2]

Yuxarıda qeyd edilənlərdən göründüyü kimi, vaxtılə bir sıra erməni liderləri və müəlliflərinin “Daşnaksütyun” partiyasının erməni xalqına düşmən kəsildiyini tutarlı faktlar və sanballı sübütlarla bəyan etmələrinə və sonralar da bu mövqeyi müdafiə etmələrinə baxmayaraq, XX əsrin 80-cı illərinin sonlarından etibarən əvvəllər daşnakların törətdiklərini tənqid və ifşa edən, onların hakimiyyətə gəlməsini isə erməni xalqına xəyanət kimi qiymətləndirən[3] əksər erməni müəlliflərinin və digərlərinin sonradan daşnakların fəaliyyətini müsbət qiymətləndirmələri, daşnak hökumətinin isə demokratik prinsiplər əsasında fəaliyyət göstərmiş olduğunu təbliğ etmələri təəssüf doğurur.

Diqqətçəkən məqamlardan biri də odur ki, Azərbaycanda ilk milli ictimai-siyasi təşkilatların yaradılması da XX əsrin əvvəllərinə təsadüf edir. 1904-cü ilin oktyabrında bir qrup azərbaycanlı ziyalı tərəfindən yaradılan ilk milli sosial- demokrat təşkilatı olan “Hümmət”in təsiri bütün Cənubi Qafqazda olduğu kimi , İrəvanda da hiss olunmaqda idi. Təşkilat formal olaraq Rusiya Sosial-Demokrat Fəhlə Partiyası Bakı Komitəsinin şöbəsi kimi yaransa da, əslində müstəqil fəaliyyət göstərirdi.[4] Bu dövrdə, yəni təşkilatlanmanın ilk dövründə, Azərbaycan ziyalılarının bir

---

[1] Мясникян, А.Ф. **Избранные произведения** / Ереван, 1965, с. 360, 361, 634, 643, 644; Məmmədov, İ. **Tariximiz, torpağımız, taleyimiz** / Bakı, 2003, s. 493.

[2] Məmmədov, İ. Göst.əsəri / s. 489.

[3] Yenə orada, s. 421.

[4] **Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası** / Ic, Bakı, 2004, s. 430.

çoxunun məhz sosial-demokratiyaya meyl etməsi, azlıqların hüquqlarının pozulduğu bir şəraitdə, bolşevik partiyasının proqramında milli məsələ ilə bağlı müddəaların olması, şübhəsiz ki, inqilabi-demokratik ruhlu yerli ziyalıların və fəhlələrin müəyyən hissəsinə çox cəzbediçi və vədveriçi təsiri ilə izah olunurdu. Göstərildiyi kimi, "Hümmət"in digər yerlərlə yanaşı İrəvanda da şöbəsi fəaliyyət göstərirdi. Bu şöbə 1905-çi ildən fəaliyyətə başlamış "Müsəlman sosial-demokrat (menşevik) Hümmət partiyası"nın Tiflis komitəsi tərəfindən yaradılmışdı. Bu barədə müəyyən məlumatları şöbənin təşkilatcılarndan olan, əvvəllər Tiflisdə mollalıq edən və yalnız N.Nərimanovla tanışlıqdan sonra sosial-demokratiya mövqeyinə keçən Mirbağır Mir Heydərzadənin tərcümeyi-halından da almaq olar. Orada deyildiyi kimi, "...Batum ..., İrəvan və Naxçıvanda "Hümmət"in şöbələrini yaratmaq və fəhlələr arasında təşviqat işi aparmaq üçün ...Tiflis təşkilatı onu həmin yerlərə ezam etmişdi".[1]

1905-ci ildə Məşrutə inqilabının başlanması ilə əlaqədar "Hümmət"in fəaliyyəti xeyli genişləndi. Cənubi Azərbaycanın azad edilməsinə olan ümidlərini İran inqilabının qələbəsinə bağlayan "Hümmət"çilərin, demək olar ki, hamısı bu inqilabda iştirak edirdi. Bir cox yerlərdə İran inqilabçılarına yardım komitələri fəaliyyət göstərirdi. Cənubi Azərbaycana yardım komitəsinə N.Nərimanovdan başqa, M.M. Heydərzadə, Ə.Bayramov və b. daxil idilər. Yardım göstərilməsi işi 1908-ci il Təbriz üsyanı zamanı daha da güclənmişdi. Əksəriyyəti azərbaycanlılardan ibarət olan Cənubi Qafqaz könüllülərinin sayı 800 nəfərə çatırdı ki, onlardan da 50-si Təbrizin müdafiəsi zamanı həlak olmuşdu.[2] 1911-ci ildə Məşrutə inqilabı yatırıldıqdan sonra, İranda, Rusiyada "Hümmət"çilərin sürgün və həbs olunması təşkilatın Azərbaycandakı müxtəlif şəhər və qəza filiallarına, o cümlədən, İrə-

---

[1] **ARPİİSSA** / F.456, s.18, iş.73, v.5; Багирова, И.С. **Политические партии и организации Азербайджана в начале ХХ века** / Баку, 1997, с. 41.

[2] Магеррамов, Дж. **Пролетариат Азербайджана и Иранская революция 1905-1911 гг /** Автореф.канд. дисс, Баку, 1987, с. 19.

van filialına da ciddi zərbə vurdu. Artıq bu zamandan etibarən "Hümmət"lə bağlı məlumatlara tək-tək hallarda təsadüf edilir və yalnız 1917-ci ilin fevralından sonra onun fəaliyyətinin bərpa olunması məlumdur.

Milli-siyasi qüvvələrin fəallaşması və inqilabi hərəkatın günü-gündən güclənməsi mütləqiyyəti artıq əməli fəaliyyətə keçməyə vadar etdi. Əvvəllər "kökə"dən "dəyənəyə"dək müxtəlif vasitələrdən istifadə edən çarizm, bu dəfə də, yuxarıda qeyd olunduğu kimi, "sevimli mübarizə metodu" olan milli nifaq salmaq, millətlərarası toqquşmaları təşkil etmək üsulundan istifadə etmək qərarına gəldi. Rejimin fikrincə, inqilabi hərəkatın genişləndiyi bir şəraitdə bu üsul eyni zamanda xalqı mübarizədən çəkindirməyin də yollarından biri idi. 1905-ci ilin fevralında Bakıda başlamış erməni-azərbaycanlı toqquşmaları sonralar bütün XX əsr boyu dəfələrlə təkrarlanan erməni-azərbaycanlı qırğınlarının əsasını qoymuş oldu və həmin qırğınlar tezliklə Qərbi Azərbaycanda, İrəvanın azərbaycanlılar yaşayan məhəllələrində həyata keçirilməyə başladı ki, bu da ümumilikdə şəhərin ictimai-siyasi həyatına öz mənfi təsirini göstərmiş oldu. O dövrdə, İrəvanda baş vermış hadisələrin canlı şahidləri olmuş M.Ordubadi[1] və M.Nəvvab[2] həmin qanlı hadisələri tam təfərrüatı ilə əsərlərində belə əks etdirmişlər: "Şəhərdə may ayının 24-dən 31-dək davam etmiş qırğınlarda erməni atəşlərinə hökumət tərəfindən əsla maneçilik olmayıb, iğtişaşa dair bir tədbir də görülmədi. Ermənilər ürəkləri istədikləri qədər atəş açır və hücum edirdilər. Bunlara mane olan yox idi".[3] Bütün bu hadisələrdə müşahidəçi mövqeyi tutan hakimiyyət orqanları tərəfindən yalnız may ayının 31-də vəziyyəti normallaşdırmaq, toqquşmaların qarşısını almaq məqsədilə müəyyən tədbirlər görülməyə başladı. Həmin gün onların təşəbbüsü ilə Şeyxülislam, İrəvan qazisi, erməni katalikosu və hər iki xalqın digər nümayəndələrinin iştirakı ilə A.İrəvanski-

---

[1] Ordubadi, M.S. **Qanlı illər /** Bakı, 1991.

[2] Nəvvab, M.M. **1905-1906-cı illərdə erməni-müsəlman davası** / Bakı, 1993.

[3] Ordubadi, M.S. Göst.əsəri / s. 25.

nin evində keçirilən yığıncaqda sülh və barışığın əldə edilməsi barədə qərar qəbul edildikdən sonra, müvəqqəti də olsa, İrəvanda atəşin səngiməsinə nail olundu. Şəhərin özündə nisbi sakitliyə riayət olunsa da, ətraf kəndlərdə dəhşətli qırğınlar, qarət və talanlar davam edirdi. O dövrdə erməni vandalları tərəfindən törədilənləri M.Ordubadi belə səciyyələndirirdi: "İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda, boğmaqda idi".[1] Baş verən hadisələrdə təəccüb və təəssüf doğuran məqamlardan biri erməni kilsəsi və erməni din xadimlərinin baş verən qırğınlara, vəhşilik və talanlara "xeyir-dua" vermələri və hətta özlərinin də bu prosesin fəal iştirakçısı olmaları idi.

Ermənilərlə müsəlmanlar arasında yaranan nifrətin kökündə məhz erməni kilsəsinin dayandığı və onun siyasətə qarışaraq "separatizm və ekstremizm üçün zəmin yaratdığı" faktının bir sıra əcnəbi, o cümlədən amerikalı müəlliflərin əsərlərində[2] də öz əksini tapmasını, XIX əsrin sonlarından başlayaraq bölgədə cərəyan etməkdə olan bu hadisələrə münasibətdə neytral mövqedən çıxış edən tərəfin tamamilə obyektiv münasibəti kimi dəyərləndirmək olar.

Bir fakta toxunmaq yerinə düşər ki, "1905-ci ilin iyununda yeni vüsətlə davam edən iğtişaşları yatırmaq məqsədilə Şeyxülislam və erməni katalikosu apardığı danışıqların gedişində Şeyxülislamın tam səmimi və sakit tərzdə sülh çağırışlarına baxmayaraq, erməni katalikosu çox kəskin aqressivliklə münasibətlərin dinc yolla nizama salınmasına qarşı çıxmışdı. Hətta hökumət nümayəndəsi general Şvedov və İran konsulunun da iştirak etdiyi bu danışıqlar nəticəsiz başa çatmış və sülh baş tutmamışdı.[3]

---

[1] Ordubadi, M.S. Göst.əsəri / s.7; Məmmədov, İ. **İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri** / s. 48.

[2] Weems, S. **Armenia. Sekrets of a "Christian" Terrorist State. Dallas: St.John Press** / 2002, pp.10,14,44; Маккарти, Дж. **Тюрки и армяне: Руководство по армянскому вопросу** / К. Маккарти, Баку, 1996, с. 14.

[3] **Həyat** / 1905, 9 iyun.

Bu dövrdə "Daşnaksütyun"un fəaliyyətinin genişlənməsi və bu fəaliyyətin əsasən türk və müsəlmanlara qarşı yönəlməsi faktının hakim dairələrə məlum olmasını onların öz aralarında apardıqları yazışmalar da sübut edir. Məsələn, Vorontsov-Daşkovun Vitteyə ünvanladığı məruzədə "daşnakların Qafqazda tamlıqla müsəlmanların əleyhinə mübarizənin təşkili ilə məşğul olduqları" bildirilirdi.[1] Stolıpinin Vorontsov-Daşkova göndərdiyi məktubun məzmunu isə aşağıdakından ibarət idi: "Daşnaksütyun partiyası faktiki olaraq öz üzərinə polis funksiyalarını götürmüşdür. ... o məhkəmə və inzibati hakimiyyətə malik olaraq, böyük məbləğdə pul vəsaiti toplayaraq silah alıb, emalatxana və laboratoriyalarını bomba hazırlanması üçün uyğunlaşdırmış, ...öz həbsxanalarını yaratmış, azadlıqdan məhrumetmə və pul cərimələri tətbiq etmişdir. Adı çəkilən təşkilat hakimiyyət tərəfindən tanınaraq burada açıqca fəaliyyət göstərir...".[2]

"Parçala və hökm sür" siyasətilə heç vaxt Cənubi Qafqazda milli sülhün əldə olunmasına ciddi səy göstərməyən hakimiyyət orqanlarının gözü qarşısında fəaliyyət göstərən və fəaliyyəti "böyük Ermənistan dövləti" yaradılması naminə nəinki müsəlmanlara, ümumilikdə insanlığa qarşı yönələn "Daşnaksütyun" və digər erməni millətçi partiyalarının geniş mənada siyasi arenaya çıxmaları XX əsrin əvvəllərinə təsadüf edirsə, onların yaranma tarixləri bir qədər əvvələ XIX əsrin sonlarına aiddir.[3] Məhz bu dövrdə erməni millətçilərinin Osmanlı dövlətindəki təxribatları iflasa uğradıqdan və bundan da ermənilərin özlərinin daha çox zərər çəkmələrindən sonra, adı çəkilən partiyaların fəa-

---

[1] Арутюнян, А.Б. **Народы Закавказья в борьбе против царизма в годы первой русской революции** / с. 63.

[2] Yenə orada.

[3] "Hnçaq" – 1887-ci ildə Cenevrədə, "Daşnaksütyun " isə 1890-cı ildə Tiflisdə yaradılmışdı. Marseldə "Armenakan" adlı erməni millətçi partiyasının yaradılması isə daha əvvələ, 1885-ci ilə təsadüf edir. Hələ XIX əsrin əvvəllərindən Osmanlı dövləti ərazisində fəaliyyətə başlayan "Erməni icmasının xilaskarları" cəmiyyətini isə adları çəkilən partiyaların sələfi hesab etmək olar. Bax: Наджафов, Б. **Лицо врага. История армянского национализма в Закавказье в конце XIX – начале XX в** / Баку, 1993, с. 11-55.

liyyət mərkəzi demək olar ki, Cənubi Qafqaza keçdi. Bununla da, o dövrədək dinc şəraitdə qonşuluq edən reqion xalqlarının həyatında çətin bir dövr – erməni millətçilərinin həyata keçirdikləri və sonralar da zaman-zaman təkrarlanan siyasi qətllər, basqınlar, dinc əhalinin kütləvi şəkildə məhv edilməsi dövrü başlandı.

Qeyd olunmalıdır ki, arxiv sənədlərində İrəvan ərazisində millətçilik ideyalarının təbliği ilə məşğul olan qurumların fəaliyyətinə məhz elə bu dövrdən, yəni XIX əsrin sonlarından etibarən rast gəlinir. Həmin sənədlərdə hələ 1882-ci ildə İrəvanda "Erməni xeyriyyə cəmiyyəti" adlı şöbənin mövcud olması və onun nizamnamə fəaliyyətindən yayınaraq "erməni dövləti" yaradılması məqsədilə "erməni birliyinə nail olmağı" qarşısına bir vəzifə kimi qoyması göstərilir.[1] Sənədlərdə həmin dövrdə İrəvanda fəaliyyət göstərmiş "Qaya-ser" və "Aska-ser" adlı siyasi dərnəklərin işi ilə bağlı məlumatlar da verilir. Göstərilir ki, yarandığı dövrdə əsas məqsədi erməni dili, erməni mədəniyyəti və məktəbi uğrunda mübarizə olan bu dərnəklərin, sonradan fəaliyyət istiqaməti dəyişdirilərək "azad Ermənistan dövləti"nin yaradılması uğrunda mubarizə oldu. Məqsədlərinə nail olmaq üçün bu qurumlar erməni gəncliyi və ümumilikdə erməni cəmiyyətinin "tərbiyələndirilməsi"ndən tutmuş bu sərsəm ideyanın həyata keçirilməsində yollarında sipər olmuş milliyyətcə rus olan bəzi vəzifəli şəxslərin qorxudulması, hətta öldürülməsi, Osmanlı dövləti ərazisində yaşayan ermənilərin mübarizəsi üçün gizli surətdə pul toplanılması və silah alınmasınadək hər bir üsulu məğbul hesab edirdilər.[2] Adı çəkilən dərnək üzvlərinin erməni xalqı, erməni dili və dininin düşməni hesab etdikləri bir neçə məmura qarşı artıq əməli fəaliyyətə keçməsi hakimiyyət orqanları tərəfindən həmin dərnəklərin fəaliyyətinin araşdırılması ilə nəticələndi. Məlum oldu ki, erməni ziyalıları və vəzifəli şəxslərindən təşkil edilən bu dərnəklərin məqsədi heç də təkcə erməni təhsili və maarifçiliyinin inkişafı deyil, "onların fəaliyyətinin əsas mahiy-

[1] **RDTA** / F.1405, siy.83, iş.11224, v.237.
[2] Yenə orada.

yətini Rusiya və Osmanlı dövlətləri əleyhinə işin aparılması, öz dövlətlərinin yaradılması və Türkiyə ermənilərinin mübarizəsi üçün vəsaitin toplanması təşkil edir”.[1]

Əlbəttə, hakim dairələrdə yaxşı başa düşürdülər ki, bu dərnəklərin fəaliyyəti siyasi məna kəsb edir və sözügedən dövlətlərin ərazilərində yaşayan ermənilərin həmin dövlətlərin mənafelərinə qarşı yönəldilmiş ümumerməni hərəkatının bir hissəsidir. Bəlkə, elə bu səbəbdən tezliklə, yəni dərnək üzvlərinin cəzalandırılmasından az sonra, erməni məktəblərinin bağlanması haqqında çar fərmanı verildi və yəqin ki, bu addımın atılmasında İrəvanda baş verən hadisələrin də müəyyən mənada rolu oldu.

Qeyd olunmalıdır ki, erməni millətçi partiyaları “Hnçaq” və “Daşnaksütyun” fəaliyyətlərinin müəyyən dövrlərində bir-birləri ilə yaxınlaşsalar da, geniş erməni kütlələrinə təsir göstərilməsi ilə bağlı aralarında gedən daimi rəqabətdə demək olar ki, ekstremist ruhu ilə seçilən “Daşnaksütyun” üstünlük qazandı və artıq bildirildiyi kimi, 1903-cü il qanununun verilməsi ilə gözlənilən məqamın yetişdiyini anlayan daşnaklar ciddi təbliğata başlamaqla sıralarının və fəaliyyət coğrafiyalarının genişləndirilməsinə və millətçilik hərəkatının başlanılmasına nail oldular. Artıq həmin dövrdən etibarən “hər bir erməni rus hökuməti ilə mübarizədə partiyaya köməklik göstərməyi özünün borcu hesab etdi”.[2]

Həmin dövrdə ermənilərin kütləvi yaşadıqları digər yerlərdə olduğu kimi, İrəvanda da baş verən tətillərdə sosial-demokratlar aparıcı rola malik olsalar da, “Daşnaksütyun” fəhlə çıxışlarına yamanmaqla, onlara millətçilik ahəngi qatmaq istəyirdi. Sözügedən partiyanın regional komitələrinin, həmçinin İrəvan komitəsinin formalaşması da məhz, bu dövrdə, tətil hərəkatının genişlənməsi fonunda baş verirdi. Cənubi Qafqazda yaradılan yeddi regional komitədən biri kimi İrəvan komitəsinin də adı

---

[1] **RDTA** / F.1405, siy. 83, iş.11224, v.237 .

[2] **ARPİİSSA** / F.276, siy.8, iş.465, v.21; Наджафов, Б. **Лицо врага. История армянского национализма в Закавказье в конце XIX – начале XX в /** Баку, 1993, с. 132.

şifrələnərək ”Mirkastan” adlandırılmışdı.[1] Qeyd edilməlidir ki, digər komitələr kimi İrəvan komitəsinin də fəaliyyəti yalnız İrəvan ərazisi ilə məhdudlaşmayaraq Naxçıvanı və digər yerləri əhatə edirdi.[2]

Artıq qeyd edildiyi kimi, bu dövrdə İrəvanda tətil hərəkatı da genişlənməkdə idi. 1906-cı ilin avqust ayında Tiflis ticarət bankı İrəvan şöbəsi işçilərinin tətili 1905-1907-ci illərdə şəhərdə baş verən tətillərin ən güclüsü, ən mübarizi və ən uzunmüddətlisi idi. Tətilə rəhbərliyi sosial-demokrat təşkilatı həyata keçirərək, müdiriyyətə 10 maddədən ibarət tələbnamə təqdim etdi. Tətilə qoşulan digər işçilərin, məsələn, usta köməkçilərinin tələbləri də yerinə yetirildi. Beləliklə, irəvanlıların bu tətili üç ay – avqust ayından noyabr ayınadək davam etdi.[3] Həmin ilin noyabr-dekabr aylarında isə şəhərin digər müəssisələrində baş verən tətillərin hamısı uğur qazanmasa da, bəziləri qoyulan tələblərin yerinə yetirilməsi ilə nəticələndi. Sonrakı dövrdə irtica rejimi və təqiblərlə əlaqədar İrəvan əhalisinin mübarizəsi bir qədər zəifləsə də tamamilə dayandırılmadı və demək olar ki, 1917-ci ilin fevral inqilabına qədər hər il İrəvanın bir neçə müəssisəsində fəhlələr tətil edərək öz hüquqlarının müdafiəsinə qalxırdılar.[4]

Nəzərə alınmalıdır ki, həmin dövrdə və bir qədər sonra İrəvanda bir sıra erməni cəmiyyət və təşkilatları fəaliyyət göstərirdilər ki, onların da bəzilərini (daha doğrusu böyuk əksəriyyətini) “Daşnaksütyun” partiyasının yardımçı, köməkçi təşkilatları adlandırsaq, heç də yanılmarıq. Bunların sırasında həmkarlar ittifaqlarını, “Qırmızı xaç” cəmiyyətini, şagird təşkilatlarını, o cümlədən “İrəvan erməni şagird ittifaqı”nı, “Təhsili sevənlər ittifaqı”nı, “Erməni qadınlarının erməni könüllü qruplarına yardımı cəmiyyəti”ni və s. göstərmək olar. Daşnaklar adı çəkilən qurum-

---

[1] **Дашнаки (Из материалов Департамента полиции),** Баку, 1990, с. 13.

[2] Yenə orada. s.14.

[3] Акопян, Т.Х. **Очерк истории Еревана** / с. 259.

[4] Yenə orada, s. 256-260; Овсепян, С.М. **Деятельность большевиков и революционное движение в Ереване (1901-1920 гг.) / Автореф. дисс. канд. ист.наук, Ереван, 1971,** с. 19.

ları təsir altında saxlamaqla kifayətlənməyərək, eyni zamanda "gəncləri aşxana və çayxanalara çağırır", "bir stəkan çay" adlanan təşkilatın ətrafına yığmağa cəhd edirdilər.[1]

1906-cı ilin yazında toqquşmaların yenidən başlanması və bu qarşıdurmalarda ordunun ermənilərə ya köməklik göstərməsi, ya da laqeydliklə seyrçi mövqe tutması, hakimiyyət orqanları tərəfindən isə erməni təcavüzkarlığının qarşısının alınması üçün demək olar ki, heç bir cəhdin göstərilməməsi, artıq buna bəslənilən bütün ümidlərin də itirilməsi, həmçinin, həmin ilin fevral ayının 20-dən mart ayının 6-dək Tiflisdə Qafqaz canişini İ.İ.Vorontsov-Daşkovun sədrliyi ilə keçirilən və ermənilərilərlə azərbaycanlıların barışdırılmasını nəzərdə tutan qurultayda ermənilərin inadkarlıq və barışmazlıq nümayiş etdirmələri azərbaycanlı nümayəndələrin bir hissəsində erməni terrorçularına qarşı mübarizədə duruş gətirə biləcək mütəşəkkil müsəlman təşkilatının yaradılması ideyasının qəti şəkildə formalaşmasına səbəb oldu.

Qurultayın keçirildiyi ilin qış, yaz və yay aylarında daşnaklar yenidən əməllərini bərpa edərək, bir çox yerlərdə, həmçinin İrəvanda azərbayçanlılara qarşı soyqırımları törətdilər. Belə bir şəraitdə Əhməd bəy Ağayev başda olmaqla bir qrup ziyalı "Qafqaz ümummüsəlman müdafiə komitəsi – Difai" partiyasının yaradılması barədə qərar qəbul etdi. Mərkəzi Komitəsinın Bakıda yerləşdiyi və fəaliyyət dairəsinə əsasən Azərbaycanın qərb bölgələrının,[2] o cümlədən İrəvanın da daxil olduğu "Difai"nin əsas vəzifələrindən biri silahsız azərbaycanlıların mütəşəkkil və yaxşı silahlandırılmış daşnak quldur dəstələrindən ("xumbalar"ından) qorunması məqsədilə hərbi drujinalarının yaradılması, həmçinin silahli əməliyyatların, terror aktları və qırğınların əsas təşkilatçısı olan çar hökumətinin təxribatçı əməllərindən əl

---

[1] Məmmədov, İ. **İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri** / s. 189; **Дашнаки...** / с. 15-17; Акопян, Т.Х. **Очерк истории Еревана** / с. 308.

[2] Багирова, И.С. **Политические партии и организации Азербайджана в начале XX века (1900-1917)** / Баку, 1997, с. 171.

çəkməyə məcbur edilməsi idi.[1] 1906-cı ilin oktyabr ayının ortalarından etibarən Cənubi Qafqazın digər yerlərində olduğu kimi İrəvanda da " ...Qafqaz ümummüsəlman müdafiə komitəsi Difai"nin rus və azərbaycan dillərində vərəqələri yayılmağa başladı.[2] Bu vərəqələrdə Komitə tərəfindən ermənipərəstlikdə təqsirləndirilən və müsəlman əhalisinə ziyan vura biləcək hər bir vəzifəli şəxs terrorla hədələnirdi. Bu dövrdə mövcud olan bir çox partiyalardan fərqli olaraq, "Difai" xalqın lap içərilərinə dərin nüfuz edərək, onun fəal nümayəndələrini öz sıralarına cəlb etməklə İrəvanda da fəaliyyətini genişləndirmiş oldu. Tez-tez təqiblərə məruz qalan və daim hökumətin ciddi nəzarəti altında olan partiya, vəziyyətdən çıxış yolu kimi, bir sıra leqal ictimai təşkilat və cəmiyyətlərin adı altında fəaliyyət göstərməyə məcbur oldu. Əsasən maarifçilik və xeyriyyəçiliklə məşğul olan bu qurumlara ... "Nicat", "Nəşri-maarif", "İrəvan müsəlman xeyriyyə cəmiyyəti" daxil idi.[3] Bir faktı vurğulamaq yerinə düşər ki, yuxarıda adları çəkilən təşkilatların yaranmasından xeyli əvvəl İrəvanda maarifçilik fəaliyyəti ilə məşğul olan bir cəmiyyət də mövcud olmuşdur. X1X əsrin 50-ci illərindən fəaliyyətə başlamış bu ictimai qurum "Müqəddəs Ripsime" qadın cəmiyyəti idi. Fəaliyyətinin ilk illərində 63 üzvündən 8-nin azərbaycanlı olduğu bu cəmiyyətin işində 1865-ci ildə artıq 42 azərbaycanlı qızı yaxından iştirak edirdi.[4] Əsasən dövlət məmuru, hərbi xidmətçi, bəy və zadəgan ailələrindən olan bu qadınlar xeyriyyəçilik hərəkatına qoşulmaqla müsəlman qadınını cəhalətdən çıxarmaq, ona savad öyrətmək, rus və qərbi Avropa mədəniyyətinə yaxınlaşdırmaq məqsədi güdürdülər. Onlar öz övladlarını Rusiya və ... Avropanın ən gözəl ali məktəblərinə təhsil almağa göndərirdilər ki,

---

[1] **Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası** / 1c, Bakı, 2004, s. 306.

[2] **RDTA** / F.62, siy.1, iş.59, v.163.

[3] **Документы по русской политике в Закавказье** / Баку, 1920, v.7, s. 19,35.

[4] **Вышка** / 1990, 23 сентября; Süleymanova, S. **Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri)** / Bakı, 1999, s. 181.

gələcəkdə öz xalqına layiqli xidmət etsinlər.[1]

1917-ci ilin fevralında mütləqiyyət quruluşunu devirmiş inqilab xəbəri İrəvanın da ictimai-siyasi qüvvələrini hərəkətə gətirdi. Şəhərin həyatında yeni bir dövr – demokratik quruluşun yaradılması uğrunda mübarizə dövrü başlandı. İrəvanda şəhər dumasına keçirilən seçkilərlə yanaşı, yeni hakimiyyət orqanları olan Fəhlə və Əsgər Deputatları Sovetləri yaradıldı. Mütərəqqi fikirli azərbaycanlı ziyalıların səyi nəticəsində isə burada səkkizədək təşkilat və cəmiyyət yaradıldı ki, bunlardan da “İrşad”, “İttihad”, “Yeni firqə”, “Müdafiəyi-məzluman”, “Müsəlman komitəsi” kimi təşkilat və cəmiyyətlərin adlarını çəkmək olar.[2] “Müdafiəyi-məzluman” təşkilatından fərqli olaraq, sözügedən digər təşkilat və cəmiyyətlər öz fəaliyyətlərində xalqı inqilaba, sosialist ideyalarının təbliğinə deyil, mövcud şəraitdə yeganə düzgün yol olan, milli azadlıq və dövlətçilik ideyaları uğrunda mübarizəyə səsləyirdi.

“Müdafiəyi-məzluman” təşkilatının fəaliyyətinə gəldikdə isə o, 1917-ci ilin yayında parçalandı və sol qolu “İrəvan sosial-demokrat təşkilatı” adını aldı.

Əsas fəaliyyətini İrəvan azərbaycanlıları ilə işin qurulmasına yönəldən təşkilatın “Hümmət”lə sıx əlaqələrinin olduğu da məlumdur. İrəvan azərbaycanlıları arasında marksist dərnəklərinin yaradılması da bu təşkilatın adı ilə bağlıdır. Siyasi ədəbiyyatın Azərbaycan dilinə tərcümə edilərək yayılması, Bakıda Azərbaycan dilində çıxan “Hümmət” qəzetinin İrəvana gətirilməsi və xalq içində yayılması da sözügedən təşkilatın fəaliyyətinə daxil idi.[3] “Müdafiəyi-məzluman”ın fəal üzvlərindən Cəlil Həsənoğlu, Məhəmmədəli Nasir İrəvani və Hüseynağa Şahtaxtlının adları məlumdr. M.İrəvaninin öz əli ilə yazdığı bir sənəddə deyilir: “1917-ci ildə sosial-demokrat “Müdafiəyi-məzluman” firqəsinə

[1] Süleymanova, S. Göst.əsəri / s. 181.

[2] **Bürhani-həqiqət** / 1917, №3, 18 mart; Məmmədov, İ. **İrəran dəftəri. İctimai fikir tariximizin qəribsən üfüqləri** / Bakı, 2002, s. 167.

[3] Мамедов, И.С. **Азербайджанская печать в Армении** /Автореферат канд. дисс., Ереван, 1971, с. 23-24.

daxil olmuşam”.[1] Vahan Xeronyan adlı bir erməni kommunistinin xatirələrində isə H. Şahtaxtlının həyatı və təşkilatdakı fəaliyyətilə əlaqədar bildirilir ki, o, “Müdafiəyi-məzluman”ın ən fəal nümayəndəsi idi, ”...təşkilatın tapşırığı ilə Culfaya göndərilmişdi. Vətənə qayıtmaq istəyən qaçqınların vəziyyətini öyrənmək üçün İrəvana qayıdarkən yolda atası Baxşəli və qardaşı Sultanla birlikdə öldürülmüşdü”.[2] O da qeyd olunmalıdır ki, təşkilatın tərkibinə azərbaycanlılarla yanaşı ermənilər də daxil olmuşdular.[3]

Sözügedən təşkilatla bağlı onu da qeyd etmək olar ki, ”... daşnakların özbaşınalıqlarınadək İrəvanda aşkar fəaliyyət göstərmiş, ... və özünə partiya statusu vermiş bu təşkilat daşnakların hakimiyyəti illərində gizli fəaliyyətə keçmişdir”.[4] Təşkilatın ətrafında birləşən bir qrup ziyalı İrəvan əhalisinin əksər hissəsini, o cümlədən gəncləri də siyasi mübarizəyə cəlb etmək məqsədilə “Beynəlmiləl Gənçlər Şurası” adlı qurumun yaradılmasının təşəbbüskarı oldu.[5] Adından məlum olduğu kimi, Şuranın əsas məqsədi aparılan siyasi mübarizədə gənclərin fəallığını təmin etmək və ən əsası, İrəvanın azərbaycanlı və erməni gənclərinin qüvvələr birliyini təmin etməkdən ibarət idi.[6] İrəvanın “Beynəlmiləl Gənclər Şurası” “Cavanlar Şurası”[7] adlı mətbuat orqanını da yaratmışdı.[8]

Beləliklə, qeyd etmək olar ki, mütləqiyyətin müstəmləkəçilik, milli əsarət və zülm siyasətinə qarşı mübarizədə İrəvan

---

[1] Məmmədov, İ. **Ermənistan azərbaycanlılarının həyat salnaməsindən /** İrəvan, 1970, s. 17-19.

[2] Yenə orada.

[3] Dəmirli, M. **Azərbaycan tarixi( Mühazirə mətnləri)** / Məmmədli M, Bakı, 1997, s. 128.

[4] Məmmədov, İ. **Ermənistan azərbaycanlılarının həyat salnaməsindən** /s. 17-19; Yenə onun, **İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri,** s. 168.

[5] Axundov, N. “Azərbaycanda dövri mətbuat (1832-1920)” / **Yoldaş** / 1920, №3; **Biblioqrafiya /** Bakı, 1965, s. 36,53,70,136.

6 Axundov, N. **“Azərbaycanda dövri mətbuat (1832-1920)”** , s. 123-124./ **Yoldaş / 1920**, №3;

[7] Мамедов, И.С. **Азербайджанская печать в Армении / Автореф. канд. дисс. Ереван. 1971,** с. 26.

[8] Bununla bağlı məlumat əsərin müvafiq bölümündə verilmişdir. – red.

əhalisi, Azərbaycan xalqının ayrılmaz tərkib hissəsi olaraq fəal iştirak etmiş və mübarizənin daha mütəşəkkil olması üçün təşkilatlanmağı da vacib saymışdır. Millətçilik bəlasına düçar olan bəzi qurumlardan başqa, İrəvanda yaradılan təşkilat və cəmiyyətlərin mübarizə üsulları müxtəlif olsa da, onların hamısını azadlıq istəyi, müstəqillik amalı birləşdirirdi.

### 4.2. Maarif, ədəbiyyat, mətbuat və nəşriyyat

Şimali Azərbaycan xalqının müstəqillik əldə etməsi ilə tarixi keçmişi qərəzsiz və ölçülüb-biçilmiş şəkildə araşdırılması və öyrənilməsi üçün şərait yaradıldı, lakin bütün bu bəlli ehtiyaclara baxmayaraq, tədqiqatçıların yolunda bir sıra həm subyektiv və həm də obyektiv xarakterli maneələr mövcuddur. Bu, ilk növbədə həm Qafqaz xalqlarına qarşı əvvəlcə çar rejimi, ardınca isə sovet hakimiyyəti tərəfindən edilmiş keçmiş tarixi ədalətsizliyi ört-basdır etmək üçün hazırlanmış siyasi və ideoloji məqsədəuyğunluqdan, həm də bədnam qonşularımızın həddindən artıq ərazi iştahasından, siyasi-mədəni ambisiyalarından irəli gəlir.

Əvvəlcə qısaca olaraq, XIX əsrin əvvəllərində Qafqazda hadisələrin necə cərəyan etdiyini xatırlatmaq lazımdır, çünki sonrakı əsərlərdə və tədqiqatlarda (xüsusən də Sovet dövründə) hərbi hadisələr və onların siyasi-hüquqi nəticələri əsas tədqiqat obyekti olduğundan, şüurlu və ya "təvazökarlıq" hissi ilə onların ümumiyyətlə bu meqa bölgə etnik duruma və xüsusən də İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarındakı vəziyyətə təsirləri haqqında susurdular. Dərhal qeyd etməliyik ki, bu, heç bir halda həmin dövrdən bizə gəlib çatan mənbələrə və sənədlərə aid edilmir.

1804-1813-cü illər Rusiya-Qacar müharibəsindəki uğurları Rusiyaya Cənubi Qafqaza xeyli sayda ermənini cəmləməyə imkan vermədi. Amma ermənilər yenə də ruslara böyük ümidlər bəsləyirdilər. Belə ki, 1822-ci ildə Osmanlı dövlətinin Qars və Ərzurum vilayətlərinin erməniləri general A.P.Yermolovdan "rusların – xilaskarlarımızın yaxınlaşması" barədə soruşurdular.[1]

[1] Нерсесян, М. **Из истории русско-армянских отношений** / т.1, Ере-

Şimali Azərbaycanda məskunlaşmış ermənilər 1826-1828-ci illər Rusiya-Qacar müharibəsi, o cümlədən İrəvan qalasının mühasirəsi zamanı rus ordusuna fəal kömək edirdilər.[1]

Rus-Qacar (1826-1828) və rus-osmanlı (1828-1829) müharibələrinin işğalçılar üçün uğurla başa çatması Rusiyaya ermənilərin Cənubi Qafqaza köçürməsi üçün geniş imkanlar açdı. Lakin Rusiya Qacar dövləti ilə sülh müqaviləsini bağlamağa tələsmirdi. Belə ki, mümkün qədər daha çox fayda əldə etmək məqsədilə I Nikolay İ.F. Paskeviçə "farsların ilk tələbi ilə onlarla sülhü müzakirə etməyə razılıq vermək barədə" təlimat versə də, eyni zamanda imperator yazırdı: "*İrəvan qalası əldə edilənə və Arazın o tayında möhkəmlənənə qədər onlarla danışıqlara girə bilərsən, ancaq hərbi əməliyyatları da davam etdirməlisən* (kursiv bizimdir - müəllif). Yuxarıda göstərilən bütün faydaları əldə edən kimi, sülh danışıqlarının sonuna qədər barışığa meyl edin."[2]

İrəvan və Naxçıvan xanlıqlarının Rusiya imperiyasının tərkibinə keçməsi ilə nəticələnən 10 fevral 1828-ci il tarixli Türkmənçay müqaviləsinin bağlanması Peterburq hökümətinə Cənubi Qafqazdakı mövqelərini gücləndirməyə və köçürmə siyasətini sürətləndirməyə imkan verdi. Müqavilənin "Azərbaycan vilayətinin bütün sakinlərinə və məmurlarına ailələri ilə birlikdə İran vilayətlərindən rus vilayətlərinə maneəsiz keçmək üçün birillik müddətin" verilməsini nəzərdə tutan XV maddəsinin xüsusi yeri vardı.[3] Bu hüquqi cəhətdən mürəkkəb ifadədə ilk növbədə, "İran erməniləri" nəzərdə tutulurdu.

Qacar dövlətindən Cənubi Qafqaza erməniləri köçürən Rusiya onları əsasən keçmiş Azərbaycan xanlıqları – İrəvan və

---

ван, 1956, s. 232; Həmçinin bax: Хаджар Вердиева. **Родословная» армян и их миграция на Кавказ с Балкан** / Рауф Гусейн-заде, Эссе. Изд. Elm, Баку, 2003, s. 32-33.

[1] Yenə orada.

[2] **RDTA** / F.1018, siy.9, iş.21, v.2; həmçinin.bax: Həcər Verdiyeva, Rauf Hüseynzadə. Göst. əsəri, s. 33.

[3] **Под стягом России: Сборник архивных документов /** Русская книга, M, 1992, s. 320.

Naxçıvan ərazilərində, habelə Qarabağda, yəni Şimali Azərbaycanda yerləşdirdi.[1]

1828-1829-cu illərdə ermənilərin Qacar dövlətindən kütləvi şəkildə Şimali Azərbaycana köçürülməsi nəticəsində burada 6946 ailə və ya 35560 miqrant yerləşdirildi.[2] 1828-1829-cu illər ərzində İrəvan torpaqlar 1458 erməni ailəsi yerləşdirildi.[3]

1828-1829-cu illər rus-osmanlı müharibəsinin başa çatmasından sonra bağlanmış Ədirnə sülh müqaviləsi bölgənin etno-konfessional mənzərəsinə öz düzəlişlərini etdi. Sülh müqaviləsinin bağlanmasından sonra Şimali Azərbaycana erməni köçkünlərinin axını başladı. İlk iki ildə - 1829-1830-cu illərdə 84 mindən çox insanın Osmanlı torpaqlarından Cənubi Qafqaza, əsasən Şimali Azərbaycana köçdüyünü,[4] onların da əksəriyyətinin İrəvan və Naxçıvan bölgələrində məskunlaşdığını qeyd etmək kifayətdir.[5]

Təbii artım hesabına deyil, mexaniki hərəkət səbəbi ilə ilk öncə İrəvan xanlığı, daha sonra İrəvan əyalətinin hüdudlarında erməni əhali sayının davamlı şəkildə artmasına baxmayaraq, mənbələrə görə yerli azərbaycanlı əhalisinin çəkisi İrəvanda və xüsusən də İrəvan qəzasında (İrəvan şəhəri istisna olmaqla) müvafiq olaraq 49% və 53,5%, ermənilər isə 48% və 37% təşkil edirdi,[6] hərçənd ki, bütövlükdə İrəvan quberniyasında 1897-ci ilədək əhalinin 53,2%-i, 1916-cı ilədək isə 58,01%-i ermənilər

---

[1] **Собрание актов, относящихся к обозрению истории армянского народа (далее – Собрание актов) /** ч.II, с. 167,369; Глинка, С. **Описание переселения переселения армян аддербиджанских в пределы России /** Баку, Элм, 1990, с. 108; Həcər Verdiyeva, Rauf Hüseynzadə. Göst.əsəri / s. 36.

[2] Шопен, И. Указ. раб., / с. 539; Həcər Verdiyeva, Rauf Hüseynzadə. Göst.əsəri / s. 38.

[3] Yenə orada.

[4] Потто, В.А. **Утверждение русского владычества на Кавказе /** т.IV, ч.2, с. 453.

[5] Yenə orada, s. 455.

[6] **Энциклопедия Брокгауза и Ефрон**а, "Эривань"//См: **http://www.cultinfo.ru/fulltext/1/001/007/119/119478.htm (istifadə tarixi 22.05.2020)**

təşkil edirdi.[1]

XIX əsrin birinci qərinəsində baş vermiş rus-Qacar və rus-osmanlı müharibələri, habelə bölgənin sonrakı inzibati-ərazi bölgüləri nəticəsində yerli əhalinin mövcud həyat tərzinin daim pozulduğu bir şəraitdə, həm yeni müstəmləkə hakimiyyətində, həm də xalqda təhsilin vəziyyəti ilə bağlı ciddi narahatlığın doğurduğunu düşünmək çətindir, çünki ilk növbədə "harada" və "necə" sağ qalmaq suallarını həll etmək lazım gəlirdi.

XIX əsrin əvvəllərinə kimi uzun müddət məktəblər və mədrəsələr Qafqazdakı Azərbaycan türk etnosu arasında yeganə maarif mərkəzləri olmuşdur. Onların bəzilərində Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri ibtidai təhsil almışdılar. Bir sıra məktəb və mədrəsələr şagirdlərə şərq dilləri və ədəbiyyatı sahəsində yaxşı təhsil vermişdir. Ancaq bu təhsil müəssisələrinin əksəriyyətində dünyəvi elmlər son dərəcə əhəmiyyətsiz yer tuturdu.[2] Lakin, fikrimizcə, həmin məktəblərin xüsusən də kasıb təbəqədən olan uşaqlara oxumağı və yazmağı öyrətmək sahəsindəki rolu hələ də kifayət qədər araşdırılmamışdır. Məktəblərə qəbul olunan uşaqlara əvvəlcə ərəb əlifbası öyrədilirdi. Bir neçə duanın oxunmasını mənimsədikdən sonra onlar Quran oxumağa başlayırdılar.

Təhsilin növbəti mərhələsi kitab oxumaq və yazı yazmaqdan ibarət idi. Şagird kitablardan ilk növbədə, farsca-azərbaycanca lüğətdən gün ərzində ana dilinə tərcüməsi ilə birlikdə xeyli sayda fars sözlərini öyrənməli idi. Belə bir lüğət şiə məktəblərində vacib dərs vəsaiti hesab olunurdu. Sünni məktəblərində isə şagirdlərə oxumaq üçün şeir şəklində olan qısa hekayələr toplusu verilirdi.

Lüğətə yiyələnən şagirdlər, kitabın sətiraltı tərcüməsi yolu ilə tədris olunan fars dilinin daha mükəmməl öyrənilməsinə keçirdilər. Bu zaman istifadə olunan ədəbiyyatın sırasında Nizami, Füzuli, Hafiz, Sədi və digər Azərbaycan və Şərq klassiklərinin

---

[1] Həcər Verdiyeva, Rauf Hüseynzadə. Göst.əsəri, s.147.

[2] **История Азербайджана в 3-х тт /** Баку, 1960, т.2, s. 101.

poemaları olurdu. Onlarla yanaşı, məktəblərdə Molla Məmmədbağırın tərtib etdiyi şəriət qaydaları toplusu (Müsəlman hüququ), Nadir şahın yürüşlərinin tarixi ("Tarixi-Nadir"), ərəb-farsca şeir lüğəti, fars dilində yazı kitabı və s. öyrədilirdi. Yazmağı öyrənmək, hesab kitablarını tərtib etmək, ticarət və s. üçün lazım olan biliklərin verilməsi məqsədi daşıyırdı.[1]

I Nikolay hökuməti Qafqaz diyarını istila edərkən, ruhanilərin müsəlmanların həyatında nə dərəcədə rol oynadığı haqqında özünə hesabat verirdi. Belə ki, Cənubi Qafqazın idarə edilməsi üçün əsasnamə hazırlayan Komitənin sədri senator Qanın, Qafqazın baş idarəçisi E.A. Qolovin və Cənubi Qafqaz diyarının qurulması üçün təsis edilmiş komitənin üzvlərinin yazdıqları məktubda deyilirdi ki, "müsəlman ruhaniləri keçmiş xanlıqlar dövründə həm xanların, həm də xalqın hörmətini qazanan xüsusi bir zümrə təşkil edirlər.... Xanlıqlar dövründə ruhani sinfinin öz xüsusi idarəçiliyi olmuşdur və onlar əhalidən gələn müəyyən gəlirlərdən istifadə edirdilər."[2]

Daha sonra Komitə üzvləri qeyd edirdilər ki, "Rusiya hakimiyyəti zamanı müsəlman dini etiqadına aid olan hər şey toxunulmaz qalmışdır". Bundan əlavə, müsəlman ruhanilərini şərti olaraq ən yüksək və ən aşağı olmaqla iki dərəcəyə – (birinciyə müctəhidlər, qazılar, axundlar və əfəndilər, ikinciyə molla və dərvişlər şamil edilirdi - red.) bölən çar hökuməti qeyd edirdi ki, "...mollalar, dərvişlər və digər adları çəkilən şəxslər dini ayinlərin icrası və *gənclərin təhsili* ilə məşğuldurlar (kursiv bizimdir – E.Ə.). Onlardan yalnız cəmiyyət tərəfindən dini ayinlərin icraçısı kimi tanınan mollalar vergi və mükəlləfiyyətlərdən azad edilirdilər."[3]

Müsəlman ruhanilərinin diyarın əhalisi arasındakı gücünü və nüfuzunu düzgün qiymətləndirməklə çar adminstrasiyası, Qafqazdakı dəyişikliklər proseslərini özlərinin sayıq nəzarətinə

---

[1] **История Азербайджана в 3-х тт /** Баку, 1960, т.2, s. 101,318.
[2] **Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX века /** ч.1, М-Л, 1936, с. 125.
[3] Yenə orada.

alaraq, bu vəziyyətdən mənafeləri üçün istifadə etməyə çalışırdı. Bu istiqamətdə fikirlərini inkişaf etdirən baron P.V. Qanın 1837-ci ilin sentyabrında I Nikolaya yazdığı məktubunda deyilirdi: "Üzrlü səbəb olmadan dəyişdirilməsi əlverişsiz olan ruhanilərin səmimi yardımına nail olmaq üçün, xidməti gəlirlərindən asılı olmayaraq hökumətə sədaqətliliyinə görə onlara illik mükafatlar təyin etmək mümkündür; ... mühüm ruhani yerləri tutmaq arzusunda olanlar üçün Rusiyada yaradılan qurumlarda tələb olunan daha ali məlumatın əldə edilməsi təmin edilir (bizim tərəfimizdən vurğulanmışdır - red.). ... Cənubi Qafqaz ruhanilərinin xarici dövlətlərlə əlaqələri kəsiləcək və onda hökumətimiz bizim Rusiya hökuməti ruhunda tərbiyə olunmuş ruhanilər dəstəsini əldə edəcəkdir (bizim tərəfimizdən vurğulanmışdır - red.)."[1]

Ali müsəlman zümrəsinin dünyəvi təhsilə yenidən cəlb edilməsinin faydalılığı haqqında özünün tövsiyəsini P.V. Qan artıq yuxarıda adı çəkilən məruzə qeydlərində ilk növbədə bu şəkildə əsaslandırırdı: "Xalqın bütün zümrələrinin təhsilini bu əsasda gücləndirməklə varlı valideynlərə uşaqlarını ali biliklərini artırmaq üçün Rusiyaya göndərmələrinə icazə vermək olar, qabiliyyətliliyi, çalışqanlılığı və yaxşı düşüncəsi ilə seçilən kasıb uşaqlarını isə, siz Əlahəzrət İmperatorun lütfündən universitetlərdə və imperiyanın digər müəssisələrində təhsil almaları üçün yol xərcləri və təminatından bir mükafat kimi istifadə edəcəklər.

Bundan əlavə ... dövlətin milli rus təhsili alaraq ürəkləri ali xeyirxahına sevgi və minnətdarlıqları ilə dolu vətənlərinə qayıdan yaxşı durumu və istedadı olan gənclərin timsalında böyük xeyir əldə etmiş olar" (bizim tərəfimizdən vurğulanır – red.).[2]

Təhsil alanlara rejimə loyal olan, Rusiya imperiyasının sadiq təbəələri kimi tərbiyə verməyə meyl edən hakimiyyətin Qafqazın yerli xalqları, o cümlədən də Azərbaycan türkləri üçün təhsil sisteminin təşkilinə yanaşma bütövlükdə bu cür idi.

---

[1] **Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX века /** ч.1, М.-Л, 1936, s. 311

[2] Yenə orada, s. 313.

Yuxarıda qeyd edildiyi kimi, XIX əsrin əvvəllərində və bütünlüklə həmin əsr boyu, eləcə də XX əsrin əvvəllərində Azərbaycan türk etnosunun əsas maarifçilik ocaqları ənənəvi olaraq ibtidai təhsil və şərq dilləri və ədəbiyyatı sahəsində yaxşı hazırlıq verdiyi məktəblər və mədrəsələr olaraq qalırdı. Onlar əhalinin möhkəm etibarını qazanmışdılar, çünki nəinki lazımi ibtidai təhsili verirdilər, həm də şagirdləri ənənəvi ruhda tərbiyə edir və onlara milli mentalitetə yaxın dəyərlər aşılayırdılar.

Bu, İrəvan xanlığının mərkəzi olan İrəvan şəhərinin yerli əhalisinə də aid idi. Rus işğalı anında (1827) şəhərdə 1700 bina, 850 dükan, 89 məscid, 7 kilsə, 10 hamam, 7 böyük karvansara, 5 meydan, 2 bazar və 2 məktəb vardı.[1] XIX əsrin sonu XX əsrin əvvəllərində şəhərdə yerli azərbaycanlı əhali 49% təşkil edirdi. Çarizmin köçürmə siyasəti nəticəsində ermənilərin çəkisi 48%-ə çatdı, ruslar isə 2% təşkil edirdi. Şəhərdə, artıq 8 kilsə (6 erməni və 2 pravoslav) və 7 şiə məscidi var idi.[2] Bu gün, erməni hakimiyyətinin "mədəni siyasəti" nəticəsində şəhərdə İrəvan məscidlərindən, yalnız bu yaxınlarda İran ustaları tərəfindən bərpa edilmiş (bizim tərəfimizdən vurğulanır. - red.) Hüseynəli Xan (Göy Məscid, 1776) qorunub saxlanılır.[3]

Malik olduğumuz məlumatlara görə, 1875-ci ilə qədər İrəvan şəhərində 208 şagirdin təhsil aldığı 12 dini məktəb var idi və bunlarda 12 müəllim – müdərris dərs deyirdi.[4]

1888-1890-cı illərdə İrəvan şəhərində hər birində 12-dən

---

[1] **Encyclopaedia Iranica** /George A.Bournoutian, Hewsen, Robert.H – Erevan, Колумбийский университет,США, 1982.

[2] **Энциклопедический словарь Брокгауза и Ефрона** / Эривань// **http://www.cultinfo.ru/fulltext/1/001/007/119/119478.htm, (23.02.2022)**

**"Ереван" Материал из Википедии — свободной энциклопедии https://ru.wikipedia.org/w/index.php?title=%D0%95%D1%80%D0%B5%D0%B2%D0%B0%D0%BD&printable=yes%20--%3E (23.07.2022)**

[4] Вафа Кулиева. **Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в XIX – начале XX вв. в ракурсе армяно-азербайджанских политических отношений /** Баку, Нурлан, 2003, с. 95; **ARDTA** / F.290, siy.19, sən.12557, v.12-14.

46-a qədər şagirdin təhsil aldığı 8 məktəb açıldı. 1891-ci ilə qədər məktəblərin sayı 15-ə yüksəldi. Müəllimlərin aylıq məvacibi şagirdlərin sayından asılı olaraq 9-42 rubl arasında dəyişirdi. Bunlar şiə məktəbləri idi.[1]

Bir qədər irəli gedərək qeyd etmək lazımdır ki, 1898-ci ildə İrəvan şəhərində iki sinifli rus-tatar məktəbi açılmışdı. Bu məktəb İrəvan şəhər müsəlman əhalisinin hesabına fəaliyyət göstərirdi. Məktəbə əvvəlcədən nəzərdə tutulmuş 70 uşaq əvəzinə 110 uşaq qəbul edilmişdi. İrəvan qubernatorunun 2 dekabr 1908-ci il tarixli əmri üzrə 1907-1917-ci illərdə İrəvan şəhərindəki cümə məscidinin vəqf torpaq sahələrindən əldə edilən gəlirin 2/3 hissəsi Maarif Nazirliyinin hesabına köçürülməli idi, 1909-1916-cı illər üçün köçürülən 1 015 160 rubl məbləğdən rus-tatar məktəbi də maliyyələşdirilmişdi.[2]

Qeyd etmək lazımdır ki, tədqiq olunan dövrdə İrəvan şəhərində İslam şəriət qanunlarının da tədris edildiyi şiə ruhani seminariyası fəaliyyət göstərirdi. Orada axundlar dərs deyirdilər. Birinci sinifdə həftəiçi 4 məşğələnin keçirilməsi nəzərdə tutulurdu. İslamın mahiyyəti, namaz, duaların oxunma vaxtı və ardıcıllığı, oruca riayət olunması öyrədilirdi. 2-ci sinifdə zəkat və xüms, həcc və onun müxtəlif növlərinin məna və qaydaları öyrədilirdi. Dərslər həftədə 3 dəfə keçirilirdi. Üçüncü sinifdə dərslər həftədə bir dərs olmaqla bir dəfə keçirilirdi. Burada islam tarixi, peyğəmbərin doğulduğu andan bütün həyatı, onun ölümündən sonra baş verən hadisələr, Əli və digər imamların həyatından bəhs olunan hadisələr öyrədilirdi. Bu seminariya 1881-ci ildə açılmışdı.[3]

Əgər XIX əsrin sonlarında İrəvan şəhərində 15 müəllimin dərs dediyi və 242 şagirdin təhsil aldığı 15 məktəb var idisə, 1915-ci ildə bütövlükdə İrəvan qəzasında 70 müəllimin dərs de-

---

[1] Vəfa Quliyeva. Göst.əsəri / s. 96; **ARDTA** / F.290, siy.3, sən.1572, v.18; F. 291, siy.16, sən.10895, v.1.

[2] Yenə orada, F.290, siy.9, sən.5339, v.11.

[3] Yenə orada, F.290, siy.25, sən.80. v.1-7; V. Quliyeva. Göst.əsəri, s. 96- 97.

diyi və 213 şagird təhsil aldığı məktəblərin sayı 67-ə çatmışdı.[1]

Tədqiq olunan dövrdə məktəblərin tədris proqramı fars, ərəb və türk dillərini əhatə edirdi. Əlifba öyrədildikdən sonra oxu keçirilirdi. Dərslər Abasqulu Ağa Bakıxanovun "Nəsihətlər", "Came-i Abbas" kitabları, Sədinin məcmuələri, Füzulinin və Hafizin əsərləri, "Tarix-i Nadir" və "Tarix-i Muacam" əsasında aparılırdı. Dərslər cümə və bayram günləri istisna olmaqla hər gün keçilirdi. Məşğələlər gündüz fasiləsi ilə səhərdən axşama qədər davam edirdi. Fasilədə evə gedirdilər, sonra dərslərə qayıdaraq axşama qədər məşğul olurdular.[2]

Bütün Cənubi Qafqaz üzrə ümumrusiya təhsil müəssisələri sisteminin tətbiqindən sonra da uşaqların özəl məktəblərdə, məscidlərdə və onlardan kənarda tədrisi Azərbaycan əhalisi üçün hələ də əsas təhsil növü idi.[3] Belə mövcud şəraitdə, uşaqlara tədrisin müxtəlif formalarını birləşdirildikdə hər bir şagirdi qeydə almaq qeyri mümkün idi.

Təhsil idarəsinin hesabatlarında bəzən məktəblərin "yaşı" haqqında məlumatlar vardır. Şəhər və ya iri kənd məscidləri nəzdindəki məktəblər ən stabil məktəblər idi. 1859-cu ilin məlumatına görə, bu məktəblərin əksəriyyətinin təşkil olunduğu vaxt bəlli deyildir, onların əksəriyyəti "uzun müddətə" mövcud idi.[4]

Qeyd etmək lazımdır ki, Rusiya Qafqazı işğal etdikdən sonra məscidlərin nəzdində məktəblərin açılması qaydası quberniya məclislərinin təklifi və quberniya rəhbərliyinin mütləq icazəsi ilə həyata keçirilirdi. Ruhani idarələrin təklifi və Qafqaz rəisliyinin icazəsi ilə məscid məktəblərindən əlavə, ruhanilər hazırlayan dini məktəblər (mədrəsələr) də açılırdı. Məscidlərin nəzdindəki məktəb və mədrəsələrin saxlanılmasının mənbələri

---

[1] **ARDTA** / F.290, siy.3, sən.1572, v.11,14,16,18; Yenə orada, siy.4, sən.1817, v.1; Yenə orada, siy.23, sən.15146a. v.91; Quliyeva, V. Göst.əsəri, s. 97, 304.

[2] Yenə orada, s. 99.

[3] Таирзаде, Н. "О мектебах в Азербайджане в 30-50-е гг. XIX в", **Известия АН Азерб. ССР**, **Серия общественных наук,** 1961, № 11, s. 51.

[4] Yenə orada.

vəqf əmlakından əldə edilən gəlirlər, yerli əhalinin və məscidə gələnlərin verdiyi ianələrindən ibarət idi.[1]

Bu təhsil müəssisələrinə nəzarət yerli qazılara, ümumi nəzarət isə quberniya məclislərinə və ruhani idarələrinə həvalə edilirdi. Rütbəsi təsdiq edilməyən, habelə Rusiya imperiya təbəəsi olmayan şəxslərə məktəblər açmağa, dərs keçməyə icazə verilmirdi.

Məktəblərdə dərsi deməyə buraxılan müəllimlər "müəllim" adı almaq üçün xüsusi sınaqdan keçirilirdilər. Onlar Azərbaycan və fars qrammatikasını və xəttatlığını yaxşı bilməli, bu dillərdə kitablarda oxuduqlarını həmin dillərdə izah edə bilməli, mühasibatlığı yaxşı bilməli, Quranı düzgün tələffüzlə oxumalı idilər. Bu sınaqlar quberniya məclisində rəisliyin deputatları və müsəlmanlardan olan fəxri şəxslərin iştirakı ilə keçirilirdi.[2]

Ayrı-ayrı şəxslər çox vaxt evlərində qanunla qadağan edilmiş məktəblər açırdılar. Məktəblər yuxarı idarələrin icazəsi olmadan açıldığı təqdirdə, dərhal da bağlanırdı. Belə qərar təhsil müəssisələrində hakimiyyət üçün "xoşagəlməz və zərərli təlimlərin" yayılması təhlükəsi səbəbindən, hökumət tərəfindən nəzarət edilməyən təhsil müəssisələrinin açılması və fəaliyyətinin qarşısının alınması siasəti ilə izah olunurdu.[3]

Əlavə etmək lazımdır ki, XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərindən etibarən ənənəvi məktəblərin rus dili tədrisinin tətbiq olunduğu yeni üsullu məktəblər tərəfindən sıxışdırılmasına başlandı. Rus dilinin tədrisi tətbiq edilmədən yeni təhsil müəssisələrinin açılması müsəlman ruhaniləri üçün mümkünsüz hala gəldi. Bu, İrəvan da daxil olmaqla bütün Qafqazda istisnasız olaraq bütün müsəlman təhsil müəssisələri üçün mütləq şərt idi.

Araşdırılan problemin tam mənzərəsini yaratmaq üçün, öyrənilən dövrdə İrəvan şəhərində dünyəvi təhsil sahəsindəki vəziyyəti də nəzərdən keçirmək lazımdır. Vəziyyətə baxmaya-

---

[1] **RDTA** / F.291, siy.1, iş.3359, v.18; V. Quliyeva. Göst.əsəri / s. 66.

[2] **RDTA** / F.291. siy.1. iş.3359. v.18. Həmçinin bax: Quliyeva, V. Göst.əsəri / s. 66.

[3] Yenə orada, F.291, siy.2, iş.137, v.2; Quliyeva, V. Göst.əsəri / s. 67-68.

raq, yuxarıda qeyd edildiyi kimi, Azərbaycan ailələrində uşaqların ənənəvi olaraq məscidlərin nəzdində, özəl məktəb və mədrəsələrdə təhsil almasına üstünlük verilirdisə, azərbaycanlı şagirdlərin müəyyən hissəsi dünyəvi məktəblərdə təhsil alırdı. Onlar əsasən varlı və əyan zümrələrdən olanların uşaqları idi.

Yuxarıda qeyd olunmuşdu ki, partiya-inzibati sisteminin təzyiqi altında Azərbaycan tarix elmində möhkəmlənmiş ənənələrə görə öz tarixi torpaqlarında, eləcə də İrəvan şəhərində yaşayan Azərbaycan türklərinin tarixi ilə bağlı məsələlərə toxunmaq yumşaq desək, təşviq edilmirdi, lakin əvvəlki ümumiləşdirilmiş əsərlərdə bu məlumatlar prinsipcə nəzərə alınmadığı üçün indiki şəraitdə, İrəvan şəhərində Azərbaycan türk şagirdlərinin sayının dinamikasını göstərmək üçün ciddi ehtiyac yaranmışdır. Qafqaz təhsil dairəsi qəyyumunun müxtəlif illərə dair hesabatları bu gün əlimizdə olan ən mötəbər mənbələrdən biri olduğunu nəzərə alaraq, bu məlumatlar əsasında İrəvan şəhərində orta təhsil sahəsində vəziyyətin necə olduğunu nəzərdən keçirməyə çalışacağıq.

Qəyyumun 1890-cı il üçün təhsil müəssisələrinin vəziyyəti ilə bağlı hesabatından məlum olur ki, "1890-cı ilin yanvarın 1-dən 1891-ci ilin yanvarın 1-dək gimnaziya və progimnaziyalarda şagirdlərin sayı 3461-dən 3693-dək artmışdı. ... Sayına görə İrəvanda 223 və Yelizavetpolda 187 şagird var idi.

Şagirdlərin ümumi sayında milli mənsubiyyətinə görə ruslar 46,8%, ermənilər 23,4%; zümrələrə görə zadəganlar 61,7% və şəhərlilər 27,8% üstünlük təşkil edirdi". Hesabatda daha sonra deyilirdi ki, "Yelizavetpol, İrəvan ... progimnaziyalarında ermənilər üstünlük təşkil edir; birincisində onlar 55,1%, ikincisində 63,2% təşkil edir. ... Digər millətlərdən ən aşağı faiz tatarlar (Azərbaycan türkləri - E.Ə.) 1,9% və dağlılara 1,5% (bu ümumilikdə Qafqaz təhsil dairəsi üzrə nəticələrdir- E.A.) olmaqla aid edilir: Tatarlar daha çox Yelizavetpol (10,7%) və İrəvan (9,0%)

gimnaziyalarındadırlar."[1]. Hesabatda İrəvan gimnaziyasının 223 şagirdindən ruslar 49, gürcülər 7, ermənilər 141, azərbaycan türklərinin isə 20 nəfər təşkil edildiyi ayrıca qeyd olunur.[2]

Bəhs olunan dövrdə İrəvan gimnaziyasında zümrə baxımdan göstəricilər aşağıdakı kimi idi:[3]

zadəganlar.......................................................123 (55,2%)
ruhanilər.......................................................... 10 (4,5%)
fəxri vətəndaşlar................................................ 1 (0,4%)
başqa şəhər zümrələri....................................... 76 (34,1%)
kəndlilər........................................................... 10 (4,5%)
digər zümrələr.................................................... 2 (0,9%)

Qəyyumun 1895-ci ilə dair hesabatına görə, müvafiq dövr üçün İrəvan gimnaziyasında vəziyyət aşağıdakı kimi idi:[4]

Gimnaziya şagirdlərinin ümumi sayı artıq 280 nəfər idi ki, onlardan:

ruslar ............................................................ 82 (29,3%)
ermənilər ...................................................... 160 (57,1%)
azərbaycanlılar ................................................. 24 (8,6%)

Zümrələrə üzrə:[5]

zadəganlar ..................................................... 173 (61,8%)
ruhanilər .......................................................... 4 (1,4%)
başqa şəhər zümrələri ......................................... 98 (35%)
digər zümrələr ................................................... 5 (1,8%)

Hesabatdan bəlli olur ki, milli və faiz nisbəti baxımından

---

[1] **Отчет Попечителя Кавказского Учебного округа /** (далее Отчет Попе-чителя..-red.). О состоянии учебных заведений за 1890// Тифлис, 1891, s. 11-12.
[2] Yenə orada, s. 29.
[3] Yenə orada.
[4] **Отчет Попечителя..... за 1895**, Тифлис, 1896, с. 17, 56-59.
[5] **Отчет Попечителя .....за 1900 г**, Тифлис, 1901, с. 60-63.

1900-cü ilə qədərki vəziyyət, bir qədər dəyişmişdi.[1]

Bu dövrdə İrəvan gimnaziyasında təhsil alan şagirdlərin ümumi sayı 326 nəfər idi ki, onlar milli tərkibinə belə bölünmüşdülər:

ruslar ........................................................... 80 (24,5%)
ermənilər ..................................................... 183 (56,1%)
azərbaycanlılar ................................................ 42 (12,9%)
yəhudilər .......................................................... 2 (0,6%)

İrəvan gimnaziyası üzrə zümrələrə görə:[2]

zadəganlar .................................................... 151 (46,3%)
ruhanilər .......................................................... 5 (1,5%)
digər şəhər zümrələri ..................................... 152 (46,6%)
kəndlilər ........................................................... 9 (2,8%)
digər zümrələr ................................................... 9 (2,8%)

Gətirilən göstəricilərə görə 1900-cü il üçün azərbaycanlı şagirdlərin sayında 4,3% artımın baş verdiyi müşahidə edilir, bu da əvvəlki hesabatla müqayisədə 18 nəfər çox şagird demək idi. Burada eyni zamanda şəhər zümrələrinin də çəkisinin əhəmiyyətli dərəcədə artdığını müşahidə edirik.

Qəyyumun hesabatına görə 1905-ci ildə İrəvan gimnaziyasındakı şagirdlərin sayı 476-a çatdı,[3] onlar milli tərkibinə belə bölünmüşdülər :

ruslar ......................................................... 102 (21,4%)
ermənilər ..................................................... 270 (56,7%)
azərbaycanlılar ................................................ 59 (12,4%)
yəhudilər .......................................................... 6 (1,3%)

1900-cü illə müqayisədə azərbaycanlı şagirdlərin sayında cüzi artım olsa da, onların xüsusi çəkisi 0,5% olmuşdur.

Zümrə baxımdan aşağıdakı dəyişikliklər baş vermişdi:[4]

zadəganlar .................................................... 198 (41,6%)
ruhanilər........................................................... 15 (3,1%)

---

[1] **Отчет Попечителя .....за 1900 г**, Тифлис, 1901, с. 60-63..

[2] Yenə orada.

[3] **Отчет Попечителя ....за 1905 г** /Тифлис, 1906, с. 56-57.

[4] **Отчет Попечителя ....за 1910 г** / Тифлис, 1911, с. 58-59.

fəxri vətəndaşlar və tacirlər ................................ 31 (6,5%)
digər şəhər zümrələri .................................... 185 (38,9%)
kəndlilər ........................................................... 35 (7,4%)
digər zümrələr .................................................... 7 (1,5%)

Burada həmçinin 1900-cü illə müqayisədə kəndli ailələrindən olan şagirdlərin sayının 4,6% artması səbəbindən zadəganların, digər şəhər zümrələrinin və aşağı rütbəlilərin payında azalmanın baş verdiyi müşahidə olunur.

Qəyyumun 1910-cu ilə dair hesabatına görə, İrəvan gimnaziyasının şagirdlərinin sayı 590 nəfərə çatmışdı ki,[1] onlardan:

ruslar ............................................................ 98 (16,6%)
ermənilər .......................................................... 319 (54%)
azərbaycanlılar ............................................... 128 (21,7%)

1905-ci illə müqayisədə gimnaziya şagirdləri arasında Azərbaycan türklərinin sayı həm kəmiyyət, həm də faiz baxımından nəzərəçarpacaq dərəcədə artmışdır. 1905-ci illə müqayisədə azərbaycanlı şagirdlərin sayı 9,3% artmışdır.

Zümrə cəhətdən vəziyyət aşağıdakı kimi idi:[2]

zadəganlar ........................................................ 26 (4,4%)
məmurlar ...................................................... 190 (32,2%)
ruhanilər ........................................................ 14 (2,4%)
fəxri vətəndaşlar və tacirlər ................................ 42 (7,1%)
meşşanlar ...................................................... 172 (29,2%)
kəndlilər ........................................................ 110 (18,6%)

1905-ci illə müqayisədə zadəgan mənşəli şagirdlərin sayında kəskin azalma, ruhani mənşəli şagirdlərin sayında cüzi azalma, məmur, meşşan və kəndli mənşəli şagirdlərin sayında kifayət qədər artım müşahidə olunur.

Qəyyumun 1914-cü il hesabatına görə İrəvan gimnaziyasında şagirdlərin sayı 707 nəfərə çatmışdı,[3] onla milli tərkibinə belə bölünmüşdülər:

---

[1] **Отчет Попечителя ....за 1910 г** / Тифлис, 1911, с. 58-59.
[2] Yenə orada.
[3] **Отчет Попечителя ....за 1913 г** /Тифлис, 1914, с. 8-9.

ruslar ........................................................ 172 (24,3%)
ermənilər .................................................... 398 (56,3%)
yəhudilər ........................................................ 5 ( 0,7%)
azərbaycanlılar ............................................ 117 (16,5%)

1914-cü ildə azərbaycanlı şagirdlərin sayında cüzi, 5,2% azalma və erməni şagirdlərin sayının azalması hesabına rusların sayında 7,7% artım müşahidə edilir. Zümrələr cəhətdən mənzərə aşağıdakı kimi idi:[1]

zadəganlar ...................................................... 42 (5,9%)
müxtəlif rütbəlilər ......................................... 238 (33,7%)
ruhanilər ........................................................ 31 (4,4%)
fəxri vətəndaşlar və tacirlər................................ 69 (9,8%)
meşşanlar .................................................... 158 (22,3%)
kəndlilər ....................................................... 135 (19,1%)

1910-cu illə müqayisədə irsi zadəganlar və meşşanlardan olan şagirdlərin azalması davam edirdi, ruhanilərdən olan şagirdlərin sayı iki dəfə çoxalaraq 2% artmışdı, müxtəlif rütbəli mənşəli şagirdlərin, tacir mənşəli uşaqların, kəndlilərin sabit artımı davam edirdi ki, bu, XX əsrin əvvəllərində Rusiya İmperiyasının iqtisadi quruluşunda baş verən canlanma ilə əlaqədar olaraq sosial sahədəki dəyişikliklərlə bağlı olmuşdur.

Yuxarıdakı məlumatları ümumiləşdirərək, 1890-cı ildən 1914-cü ilədək İrəvan şəhərində azərbaycanlı şagirdlərin sayı dinamikasını göstərə bilərik:[2]

| | 1890 | 1895 | 1900 | 1905 | 1910 | 1914 |
|---|---|---|---|---|---|---|
| İrəvan gimnaziyası şagirdlərin ümumi sayı | 223 | 280 | 326 | 476 | 590 | 707 |

[1] **Отчет Попечителя ....за 1913 г** / Тифлис, 1914, с. 8-9.
[2] Qafqaz Təhsil dairəsinin qəyyumunun 1890-1914-cü illərə hesabatları əsasında aparılmış hesablama bizimdir.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Azərbaycan türkləri | 20 (8,9%) | 24 (8,6%) | 42 (12,9%) | 59 (12,4%) | 128 (21,7%) | 117 (16,5%) |

Cədvəldən göründüyü kimi, 1890-cı ildən 1914-cü ilə qədər İrəvan gimnaziyasında təhsil alan azərbaycanlı şagirdlərin sayında davamlı artım müşahidə olunur ki, bu da ilk növbədə, yürüdülən köçürmə və ruslaşdırma siyasətinə baxmayaraq İrəvanın Azərbaycan torpağının ayrılmaz hissəsi olması, ikincisi, çar hakimiyyəti tərəfindən törədilən bütün maneələrə baxmayaraq, İrəvan cəmiyyətinin azərbaycanlı hissəsində dünyəvi təhsilin xalqın gələcəyi üçün əhəmiyyəti anlamının artması güclənməsi ilə bağlı idi.

Tədqiq olunan dövrdə İrəvan şəhərində təhsilin vəziyyəti ilə bağlı mənzərəni, 1881-ci ildən bəri kənd ibtidai müəllimləri hazırlayan üçillik İrəvan Müəllimlər Seminariyasına dair qısa məlumatlar daha da dolğun edir.

Belə ki, İrəvan "Müəllimlər seminariyasının 1895-ci il üçün vəziyyəti haqqında hesabat"a görə, 1881-ci ildən 1895-ci ilədək bu seminariyanın kurslarını ümumilikdə 123 nəfər ibtidai kənd müəllimi dərəcəsi ilə bitirmişdir. Onlardan zadəganlar 27, ruhanilər 18, şəhər zümrələri 27, kənd zümrələri 51 nəfər olmuşdur; Kursu bitirənlərin milli tərkibi aşağıdakı kimi idi: ruslar 8, gürcülər 10, ermənilər 67, azərbaycanlılar 26, dağlılar 2, digər millətlər 10 nəfər.[1]

İrəvan Müəllimlər Seminariyasının direktoru V. Dobrıninin təqdim etdiyi sənədə əsasən, 1915-1916, 1916-1917 və 1917-1918-ci illər üçün şagirdlərin milli tərkibi aşağıdakı kimi idi:[2]

| İllər | 1915- | 1916-1917 | 1917-1918 | Cəmi |
|---|---|---|---|---|

[1] Məlumat Qriqoryanın adı yuxarıda çəkilən əsərindən (s.396-397) götürülmüşdür.-red.

[2] Məlumat Qriqoryanın adı yuxarıda çəkilən əsərindən (s.419) götürülmüşdür.-red.

| Şagirdlər | 1916 | | | |
|---|---|---|---|---|
| ruslar | 38 | 23 | 20 | 81 |
| ermənilər | 38 | 46 | 55 | 139 |
| azərbaycanlılar | 19 | 22 | 23 | 64 |
| aysorlar | 3 | 5 | 8 | 16 |
| yunanlar | 4 | 2 | - | 6 |
| abxazlar | 3 | 3 | - | 6 |
| türklər | 1 | 1 | - | 2 |
| kürdlər | 1 | 1 | - | 2 |
| **Cəmi** | **107** | **103** | **106** | **316** |

Beləliklə, 1881-1895-ci illərə dair məlumatlara əsasən İrəvan Müəllimlər Seminariyasını bitirən Azərbaycan türklərinin sayının 89 nəfər olduğu bəlli olur. 1896-cı ildən 1914-cü ilə kimi olan dövrdəki məlumat çatışmazlığı səbəbi ilə meydana çıxan boşluq nəticəsində təhsilin bu sahəsi barədə tam mənzərəni vermək hələlik mümkün deyildir. Bura yalnız Vorontsov-Daşkovanın 1905-1910-cu illər üçün hesabatından "İrəvan Müəllimlər Seminariyasında tatar-müəllimlərin (Azəri türkləri - redaktorun qeydi) hazırlanması üçün 20 təqaüd təsis edilmişdi" barədəki fakt əlavə edilə bilərik.[1]

XX əsrin əvvəllərində İrəvan şəhərində qadınların təhsili ilə bağlı ümumi mənzərəni müəyyən qədər yaratmaq olar. Belə ki, tam olmayan məlumatlar əsasında İrəvan Müqəddəs Ripsima qızlar gimnaziyasında təhsil alan şagirdlər milliyyətinə görə aşağıdakı kimi bölünmüşdü:[2]

| Milliyyəti | 1915 – 1916-cı tədris ili | 1916 – 1917-ci tədris ili | 1917 – 1918-ci tədris ili |
|---|---|---|---|
| rus | 123 | 128 | 119 |
| erməni | 256 | 310 | 352 |
| gürcü | 15 | 16 | 15 |
| polyak | 4 | 8 | 8 |
| yunan | 3 | 5 | 5 |
| aysor | 2 | 3 | 3 |

[1] **RDTA** / F.391, siy.4, iş.563, v.4.

[2] Məlumat: Qriqoryanın adı yuxarıda çəkilən əsərindən (s.420) götürülmüşdür. -red.

| | | | |
|---|---|---|---|
| osetin | 3 | 4 | 4 |
| azərbaycnlı | 13 | 11 | 11 |
| yəhudi | 6 | 5 | 5 |
| alman | 3 | 3 | 3 |
| çex | 1 | 1 | 1 |
| **Cəmi** | **429** | **494** | **526** |

Beləliklə cədvəldən göründüyü kimi, əgər 1915-1916-cı tədris ilində bu məktəbdə oxuyan azərbaycanlı qız şagirdlərinin xüsusi çəkisi 3% idisə, 1916-1917-ci tədris ilində bu rəqəm 2,2%, 1917-1918-ci tədris ilində isə 2,1% təşkil etmişdi. Bizim fikrimizcə, çox güman ki, bu, heç də qadının cəmiyyət və ailədəki ənənəvi yeri barədəki təsəvvürlərlə bağlı deyildi.

Onu da qeyd etmək lazımdır ki, Müqəddəs Ripsima gimnaziyasının nəzdində "təhsil haqları, vəsaitləri, gimnaziyaya aid olan mülkiyyət gəlirləri və xəzinədən ödənilən müavinətlərdən təşkil olunan Müqədəds Nina qadın xeyriyyə cəmiyyətinin İrəvan şöbəsi" fəaliyyət göstərirdi.[1]

İrəvan şəhərinin təhsil sahəsindəki ümumi mənzərəni arxiv materiallarında hifz olunan natamam məlumatlar müəyyən qədər tamamlaya bilər. Həmin materialların birində yazılırdı: "1913-cü ildə müsəlman qızlar üçün İrəvan şəhər ibtidai məktəbi açılmışdı."[2] Sənəddə daha sonra qeyd olunur ki, "Kişilər üçün İrəvan şəhər Alekseyev ibtidai məktəbində İrəvan şəhər idarəsinin vəsaiti hesabına 1913-cü ilin sentyabrın 1-dən karton işləri üzrə, İrəvan şəhər ibtidai qadın məktəbində isə pinəçilik üzrə şöbələr açılmışdı. Belə bir şöbə İrəvan Müsəlman Xeyriyyə cəmiyyətinin vəsaiti hesabına İrəvan rus-tatar məktəbinin nəzdində də kişilər üçün açılmışdı."[3]

İrəvan rus-tatar qadın məktəbində əl işləri və dərzilik siniflərinin açılması barədə də məlumat vardır. 1912-ci ildə isə İrəvanda şəxsi təşəbbüslə 70 şagirdi olan qadın bədii kustar emalat-

[1] **RDTA** / F.1290, siy.5, iş.216, v.3.
[2] Yenə orada, 1284, siy.194, iş.15, v.21.
[3] **RDTA** / F.1290, siy.5, iş.216, v.3.

xanası açılmışdı.[1]

XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində İrəvan şəhərində təhsil sahəsindəki vəziyyət ümumilikdə belə idi. Bu, başqa cür də ola bilməzdi, çünki cəmiyyət həyatının bu vacib sahəsinin başında idarəsinin məqsədini "bütün qeyri-rusların təhsil almalarının son məqsədinin, şübhəsiz onların ruslaşdırılması və rus xalqı ilə qaynayaraq qarışması olmalıdır" kimi ifadə edən xalq maarif naziri D.A.Tolstoy kimi məmurlar dayanmışdı.[2] Lakin Azərbaycan xalqının məşhur maarifçiləri və fikir adamlarının, demokratik əhval ruhiyyəli ziyalılarının səyləri sayəsində hakimiyyətin təzyiqlərini dəf etməklə, inkişaf və tərəqqi yolu ilə hərəkətini davam etdirmək mümkün olmuşdu.

**Ədəbiyyat.** Nəzərdən keçirilən dövrdə İrəvanda bir neçə nəsil istedadlı nasir və digər mədəniyyət xadimləri yetişmişdi. Şəhərin ədəbi mühiti çox dolğun və məhsuldar idi. İrəvanlıların ədəbi yaradıcılığında Azərbaycan türk dili aparıcı rol oynayırdı. Rusiya tərəfindən Azərbaycan torpaqları – İrəvan və Naxçıvan xanlıqları ərazilərində süni surətdə yaradılan "Erməni vilayəti"ni tədqiq edən tarixçi-etnoqraf İ.Şopen yazırdı: "Adriatik dənizindən Sakit və Hind okeanlarının sahillərinə qədər dünyanın üçdə birində tanınan bu məşhur dil (türk dili – red.) barədə bir neçə kəlmə deməmək mümkün deyil".[3]

Rus şairi M.Y.Lermontov S.Rayevskiyə məktubunda yazırdı: "Burada və ümumiyyətlə Asiyada, fransız dili Avropada olduğu qədər vacibdir Tatarcanı (Azərbaycan türkcəsini– red.) öyrənməyə başlamışam.[4]

2001-ci ildə Tehranda məşhur azərbaycanlı alim Səməd Sər-

---

[1] **RDTA** / F.1290, siy.5, iş.216, v.3.

[2] Константинов, Н.А. Е.Н.Медынский, М.Ф.Шабаева, "Школа и педагогическая мысль народов России во II половине XIX – начале XX века" **/https://www.docsity.com/ru/shkola-i-pedagogicheskaya-mysl-narodov-rossii-vo-vtoroy-polovine-xix-nachale-hh-veka/1143100/ 23.12.2022**

[3] Шопен, И. **Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи /** с. 907.

[4] Лермонтов, М.Ю. **Полное собрание сочинений, в 5-ти томах** / т.5, М-Л, 1937, с. 393.

dariniyanın "İrəvan müsəlman sakinli vilayət olmuşdur" adlı kitabı nəşr olunmuşdur. Kitab AMEA-nın Z.Bunyadov adına Şərqşünaslıq İnstitutunda İbrahim Quliyev tərəfindən fars dilindən Azərbaycan dilinə tərcümə edilmiş və 2014-cü ildə Bakıda nəşr olunmuşdu. Bu kitabda Əziz Dövlətabadinin "Qafqazda çap olunan fars şeirlər"i əsərinə istinadən "İrəvani" adı altında yazan 12 şairin adı verilmişdir. Bunların sırasında Şufta İrəvani (adı Kəlbəhüseyn), Aşub İrəvani (Mirzə İsmayıl), Çeşmə İrəvani (Rzaqulu xan), Bidil İrəvani, Xocat İrəvani, Harif İrəvani, Dəlil İrəvani, Şakir İrəvani, Şeyx Musa, Fəxri İrəvani, Qabil İrəvani, Qüdsi İrəvani, Nazim İrəvani (Əli xan)[1] kimilərin adlarını çəkmək olar.

Görkəmli ədəbiyyatşünas Firudin bəy Köçərli İrəvan gimnaziyasının müəllimi olarkən topladığı materiallar əsasında yazdığı "Azərbaycan ədəbiyyatı" əsərində qeyd edirdi ki, İrəvan böyük alimlərin, din xadimləri və şairlərin şəhəri olmuşdur. Lakin rus işğalları İrəvanın ədəbi həyatına da zərər vermişdi. Şəhər uğrunda gedən döyüşlər zamanı və yerli azərbaycanlı əhalinin qovulmasından sonra, İrəvanın şair və yazıçılarının bir çox əsərləri itirilmişdir. Şəhər rus qoşunları tərəfindən tutulduqdan sonra bir çox əlyazmalar məhv edilmişdi, əsasən məscid və mədrəsələrdə saxlanılan qiymətli əlyazmaları yandırılmışdı. F.Köçərli İrəvanda yaşayıb-yaratmış Məşədi İsmayıl Hacı Kazımzadə, Hacı Seyid Rza Əmirzadə, Mirzə Əlixan kimi sənətkarların yaradıcılığına toxunmuşdur. Bəzmi təxəllüsü ilə yazıb-yaradan istedadlı və populyar şair Məşədi İsmayıl Hacı Kazımzadə İrəvanda varlı bir tacir idi. Firudin bəy Köçərlinin qeyd etdiyi kimi, Bəzminin şeirlərindən bir kitab tərtib etmək olardı, lakin onlar dağınıq halda idi. O, "Andalib" ("Bülbül") təxəllüsü ilə də yazırdı.[2] "Mutallə" təxəllüsü ilə tanınan şair Mirzə Kazım Qazi Əsgərzadə də İrəvanda çox məşhur idi. O, hələ gəncliyində Təbrizdən İrəvana köçərək bütün ömrünü orada keçirmişdi. Mutallə bir çox şeirlə-

---

[1] Sərdariniya, S. **İrəvan müsəlman sakinli vilayət olmuşdur** / Tərcüməçi İbrahim Quliyev, Bakı, 2014.

[2] Nazim Mustafa. **İrəvan şəhəri /** Bakı, 2020, c. 144.

rini fars dilində yazırdı.[1]

Daha bir tanınmış şair "Sabir" təxəllüsü ilə şeir yazan Hacı Seyid Rza Əmirzadə idi. O, 1846-cı ildə Xoy şəhərində anadan olmuş, lakin 27 yaşından etibarən ömrünün sonuna qədər İrəvan şəhərində yaşamışdır. Onun şeirləri və nəsr əsərləri Həsən bəy Zərdabinin "Əkinçi" qəzetində dərc olunurdu.

XIX əsrin sonlarının ziyalı nümayəndələrindən olan Seyid Rza Əmirzadə "Azərbaycanda məşhur şairlərin şeirlər toplusu" adı altında 107 Azərbaycan şairinin müxəmməs, müstəzad, tərkibbənd, tərcibbənd şeir formalarından ibarət toplusunu tərtib etmişdi.[2] Bu toplu hazırda Azərbaycan Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır.

"Ləli" təxəllüsü ilə şeirlər yazan İrəvan şairi Mirzə Ağa Əli İrəvani çox məşhur idi. O, 1836-cı ildə İrəvanda anadan olmuşdur. Uşaq ikən o, atası ilə birlikdə Təbrizə getmişdir. Sonralar o, Tehranda Nəsirəddin şahın saray həkimi olmuşdu. Ləli şeirlərini fars və Azərbaycan dillərində yazırdı. Onun "Divanı" 1944-cü ildə Təbrizdə iki clddə kütləvi tirajla nəşr olunmuşdu. F.Köçərli Ləli İrəvanini "Azərbaycan ədəbiyyatı"nda Mirzə Əlixan Şəmsül-Hükamə kimi təqdim etmiş və şeirlərindən iki nümunə vermişdir.[3]

Fazil İrəvani 1782-ci ildə İrəvanda anadan olmuşdur. 20 yaşında olarkən Qahirədəki Əl-Əzhər Universitetinə daxil olmuşdur. O, əsrin dörddə birini Qahirədə yaşayaraq mükəmməl təhsil almışdır. Daha sonra İsfahanda və Təbrizdə axund olmuş İrəvani Şərq və din tarixinə dair bir sıra əsərlərin müəllifidir. Təbrizdən qayıtdıqdan sonra o, İrəvan Göy Məscidinin axundu, 1843-cü ildən Qafqaz Müsəlmanları şiə Ruhani İdarəsinin sədr müavini olmuşdur. 1847-1872-ci illərdə Qafqazın şeyxülislamı olmuş Fazil İrəvani 1872-ci ildə istefa verərək İrəvana qayıtmış və elə burada da 1885-ci ildə vəfat etmişdi. Şəhərdə yaşadığı

---

[1] Nazim Mustafa. **İrəvan şəhəri** / Bakı, 2020, c. 144.
[2] Köçərli Firudin bəy. **Azərbaycan ədəbiyyatı** / II cild, Bakı, 1981, c. 201-217.
[3] Yenə orada.

məhəllə onun şərəfinə “Şeyxülislam” adlandırılmışdı. Fazil İrəvaninin “Yüksək mənəviyyat kitabı” əsəri 1883-cü ildə Təbrizdə nəşr edilmişdi. Bundan əlavə, onun “Qızıl gül və bülbül” povesti Xoçens Markar Qeqamyan tərəfindən erməni və rus dillərinə tərcümə edilmiş və 1812-ci ildə Sankt-Peterburqda nəşr olunmuşdu. Sonralar bu əsər Avropada fransız və alman dillərində dəfələrlə nəşr olunmuşdu. Tərcüməçi Xoçens Markar özünü bu əsərin müəllifi kimi təqdim etmişdi. Fazil İrəvaninin “Qızıl gül və bülbül” povestini fransız dilinə Vayan De Floribal, alman dilinə isə Yosef von Hammer tərcümə etmişlər. Fransız tədqiqatçısı Şarl Jorjien, povestin müəllifinin türk müəllifi Fazil İrəvani, Xoçens Markarın isə tərcüməçi olduğunu bəyan edərək onu ifşa etmişdi. Hətta, bu ifşadan sonra da “Qızıl gül və bülbül” 1950-ci ildə Fresnoda (ABŞ) erməni müəllifin əsəri kimi nəşr olunmuşdu.[1] “Qızıl gül və bülbül” povestinin əsli Matenadaranda saxlanılır.

1888-ci ildə Təbrizdə Molla Hüseyn İrəvaninin “Müseyibnamə” adı altında Azərbaycan dilində illüstrasiyalı kitabı nəşr olunmuşdu. Kitab 1889-cu ildə Mirzə Ağa Əli Hakimi İrəvaninin “Divanı” yenə Təbrizdə nəşr olunmuşdu. Bu, Azərbaycan və fars dillərində olan qəzəllər toplusu idi.[2]

XIX əsrdə İrəvanda Avropa müəlliflərinin tərcümə əsərləri nəşr olunmağa başladı. Belə ki, İrəvan ziyalısı Əbülfət Şahtaxtinski tərəfindən İohann Volfqanq von Hötenin “Gənc Verterin iztirabları” əsəri tərcümə edilmiş, A.Z. Qəmərlinski Molyerin “Zorən Təbib” əsərini, Firudin bəy Köçərli isə “Sokratın təlimi”ni tərcümə etmişdilər.

İrəvana ərəb əlifbasının şriftləri gətirildikdən sonra Azərbaycan dilində kitablar nəşr olunmağa başlamışdı. Belə ki, yenə F.Köçərli tərəfindən tərcümə edilmiş A.S.Puşkinin “Balıqçı və balıq nağılı” 1892-ci ildə “Güləmiryan” mətbəəsində nəşr edil-

---

[1] Məmmədov İsrafil. **İrəvan dəftəri** / Bakı, 2002, s. 19-21.

[2] **Историческая география Западного Азербайджана /** Баку,1998, с.53.

mişdi.[1]

XX əsrin əvvəllərində İrəvanda Azərbaycan dilində olan kitablar, “R.K. Edilson” və “Güləmiryan” mətbəələri ilə yanaşı, “Kultura” və “Luys” mətbəələrində də nəşr olunurdu. 1899-cu ildə İrəvanda “R.K. Edilson” mətbəəsində İrəvan rus-Azərbaycan məktəbinin müəllimi Məhəmmədvəli Qəmərlinskinin “Atalar sözləri” kitabı işıq üzü gördü. XX əsrin əvvəllərində “Kultura” mətbəəsində Cabbar Əsgərzadənin “Qızıl yarpaq və ya Ənvər” uşaq şeirləri kitabı nəşr olunmuşdu.[2]

Məlumdur ki, keçmiş İrəvan xanlığının ərazisində bir neçə aşıq sənəti məktəbi də formalaşmışdı. Onlardan ən məşhuru Göyçə aşıq məktəbi idi. Bu məktəbin parlaq nümayəndələri Miskin Abdal, Ağ Aşıq (1754-1860) kimi tanınan Aşıq Allahverdi, Aşıq Əli (1800-1911), Aşıq Ələsgər (1821-1926) idi. Onların zəngin irsi İrəvanda ədəbi mühitin yetişməsində mühüm rol oynamışdır. Azərbaycan dilinin zənginliyi və poetikası erməni əhalisinin də bu dildə yazıb-yaratmasına səbəb olmuşdu.

Erməni yazıçısı Xaçatur Abovyan yazırdı: “Hətta qadınlar və uşaqlar da türkcəni bilirdilər. Ona görə də təbiidir ki, xalq arasında məşhur olan və poetik istedada malik insanlar tatar (Azərbaycan – red.) dilində şeirlər yazır və oxuyurdular”.[3] Azərbaycan dilində çıxış edən erməni aşıqları çoxlu dinləyici və tamaşaçı toplaya bilirdilər. Professor A. Arşaruni də Azərbaycan dilinin erməni aşıqları və erməni xalqı üçün doğma dil olduğunu təsdiq edirdi. Onlar bu dildə yazıb-yaradır və çıxışlar edirdilər. Əks təqdirdə, tamaşaçı qarşısında uğur qazana bilməz və onların dili dinləyicilər üçün anlaşılmaz olardı.[4]

İrəvanda erməni əhalisi tərəfindən Azərbaycan dilinin geniş surətdə istifadə edilməsinə XIX əsrə doğru qrabar dili (qriqo-

[1] Məmmədov İsrafil, Göst.əsəri /s. 26-27.
[2] Nazim Mustafa. Göst.əsəri / s. 148.
[3] Yerevanlı Əkbər. **Erməni-Azərbaycan şifahi xalq ədəbiyyatı əlaqələri /** İrəvan, 1958, s. 135-136.
[4] Abbasov İsrafil. **Azərbaycan folkloru XIX əsr erməni mənbələrində /** Bakı, 1977, s. 102.

rian kilsəsində formalaşmış yazı dili) ilə bir çox dialektlərdən ibarət erməni danışıq dili arasındakı fərqlərin daha çox dərinləşməsi də təsir etmiş oldu. Bu zaman bütün ermənilərin başa düşəcəyi və məktəblərdə istifadəyə yararlı olan müasir standart erməni dilinin inkişaf etdirilməsi üçün bir hərəkat yarandı. Hərəkat sonda qrabarın yazı dili, bu dövrdə yaranan aşxarabarın isə müasir ədəbi dil kimi qalması ilə nəticələndi.

Əgər İrəvanın erməni əhalisinin XIX əsrdə bu şəhərə müxtəlif yerlərdən gəldiyini nəzərə alsaq, onda aydın olar ki, bir-birlərini fərqli erməni dialektlərində başa düşmədiklərinə görə onlar üçün (çar hökumətinin ciddi səylərinə baxmayaraq, hətta 1917-ci ildə də şəhər əhalisinin əksəriyyətini təşkil edən) yerli əhalinin dilində ünsiyyət qurmaq daha asan idi.

Məşhur erməni tarixçisi Leo (Arakel Babaxanyan) yazırdı: "Aşıqlar üçün, nağıllarda və mahnılarda tərənnümü olunan həyatın təsviri üçün erməni dialektləri ilə müqayisədə türk (Azərbaycan – red.) dili daha rəvan, ifadəli və zəngin idi".[1]

Məlumdur ki, Sayat Nova, Miran, Bağıroğlu, Əmiroğlu, Gül Yegaz, Turab Dədə, Şamçı Meleko, Kiçik Nova, Gül Ovanes və b. mahnılarını Azərbaycan dilində qoşurdular.

Aşıq mahnılarının Azərbaycan türkcəsində yazıldığı İrəvanda Aşıq Şirin, Gümrüdə isə Aşıq Babək məktəbi mövcud idi.[2]

Bu barədə erməni yazıçısı Mikayıl Nalbandyan yazırdı: "... Motivlər əsasən türklərdən götürülmüşdü. Mən ermənilərin yaşadıqları bir çox yerlərdə oldum, hər zaman da məhz erməni dilində nə isə bir şey eşitmək istədim. Lakin onu eşitmək mənə müyəssər olmadı".[3]

XX əsrin əvvəllərində İrəvanın ədəbi həyatı əhalinin siyasi aktivliyi şəraitində inkişaf edirdi. Bu dövrdə İrəvanda Nəriman

---

[1] Leo (Arakel Babaxanyan), **Hayoç Patmutyun, Yerkeri Joğovacu**/ т.3, Ереван, 1973; Nazim Mustafa. Göst.əsəri / s. 138.

[2] Yerevanlı Əkbər. Göst.əsəri / s. 282.

[3] Налбандян, М. **Полное собрание сочинений**(на армянском яз.) / т.1, с. 276; Nazim Mustafa. Göst.əsəri / s. 139.

Fəxri, Telman Nəzərli, Əskər Əskərzadə, Abbas Tahir, Yusif Rizayi, Bəhlul Məmmədov, Həbib İsmayılov, Əbülfət Rəhimov, Sona Bağırova, Nurəli Qurbanov, Hüseyn Nəcəfov kimi gənc ədiblər yaşayıb-yaratmışdılar.

Yuxarıda gətirilənlər onu sübut edir ki, nəzərdən keçirilən dövrdə Rusiya işğallarının neqativ nəticələrinə baxmayaraq İrəvanda bu torpaqlarda dərin tarixi köklərə və ənənələrə malik Azərbaycan ədəbi mühitinin inkişafı geniş vüsət almışdır. Burada diqqətəlayiq məqam ondan ibarətdir ki, həmin dövrdə İrəvan ədəbi irsinin əsas dili Azərbaycan türkcəsi idi.

**Mətbuat və nəşriyyat işi.** XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın digər bölgələrində olduğu kimi, xalqımızın əsas mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin ictimai həyatında da müəyyən mütərəqqi dəyişikliklər baş verməkdə idi. XIX əsrin 90-cu illərindən başlayaraq İrəvanın azərbaycanlı əhalisi arasında bir qrup yerli ziyalı özünün yorulmaz maarifçilik fəaliyyəti ilə milli şüurun oyanışı və mədəni inkişafa nail olmağa can ataraq, bu yolda hətta çarizmin işğalçılıq və müstəmləkəçilik siyasətini tənqid etməkdən, hakim dairələrin xalqa, müsəlmanlara zidd siyasət yürütdüklərini açıq-aşkar ifşa etməkdən belə çəkinmirdilər. Eyni zamanda, onlar öz çağırışları ilə sadə xalqa müraciət edərək, onu xurafatdan, cəhalətdən çəkindirməyi də özlərinə borc bilirdilər. Belə görkəmli ziyalılar sırasında Firudin bəy Köçərlinin, Cəlil Məmmədquluzadənin, xalq müəllimlərindən Mirzə Ələkbər Elxanovun, Mirzə Əli Qəmərlinskinin, İsabəy İsmayılbəyovun, Haşımbəy Nərimanbəyovun, Xanım Əliyevanın, Abbas Razi Məmmədzadənin, Mirzə Cabbar Məmmədovun və digərlərinin adlarını çəkmək olar[1].

Xalqın maarifənməsi və inkişafında ana dilində çıxan dövri mətbuatın rolunun əvəzsiz olduğunu başa düşən yerli azərbaycanlı ziyalıların ciddi səylərinə baxmayaraq, hələ müəyyən müddət İrəvanda buna nail olmaq mümkün olmamışdı.

---

[1] Мамедов, И.С. **Азербайджанская печать в Армении** / АКД, Ереван, 1971, с. 15.

XX əsrin əvvəllərində İrəvan azərbaycanlılarına öz ana dillərində ünvanlanan iki vərəqəni burada Azərbaycan dilində işıq üzü görən ilk mətbuat nümunəsi kimi qiymətləndirmək olar. Çarizmin milli ucqarlarda, o cümlədən İrəvanda yürütdüyü siyasətin acı nəticəsi olan erməni-azərbaycanlı toqquşmalarının və kütləvi qırğınlarının qarşısının alınmasına yönələn bu vərəqələrin birincisi İrəvan və Naxçıvanda baş verən hadisələrdən dərhal sonra, Tiflisdə azərbaycanlı, rus, erməni və gürcülərin iştirakı ilə keçirilən yığıncağın qərarına əsasən yaradılan komissiyanın 1905-ci il 27 may tarixli "Qafqazlı qardaşlara" adlı müraciəti idi. Azərbaycan, erməni, rus və gürcü dillərində çap olunan bu müraciətdə deyilirdi: "... Millətinə və dininə fərq qoymadan, ölkəmizin bütün əhalisinə müraciət edirik: düşmənçilikdən əl çəkin, bir-birinizə barışıq əli uzadaraq dostcasına və yoldaşcasına yaşamaqda davam edin, ... xoşbəxtliyimiz qarşılıqlı nifaqdan və düşmənçilikdən deyil, birliyimiz və dostluğumuzdan asılıdır".[1] Çarizmin həyata keçirdiyi qanlı siyasətin mahiyyətinin açıqlandığı və milli qırğınların fitnəkarlıq olduğunun vurğulandığı ikinci vərəqə isə Rusiya Sosial-Demokrat Fəhlə Partiyası Qafqaz Komitəsi İrəvan təşkilatının 1906-cı il 19 fevral tarixli müraciəti idi. "Yoldaşlar" adlı bu vərəqədə "... Mövcud hökumət xalqın əlindən yaxasını qurtarmaq və onun quvvəsini məhv etmək, bu quvvəni özgə istiqamətə, özünün istədiyi səmtə yönəltmək istəyərək Qafqazda ermənilər və türklər arasında ... ədavət salmışdır..." deyə bildirilirdi.[2]

Sözügedən vərəqə-müraciətnamələrdən bir neçə il sonra İrəvanda ana dilində "Leylək" ("Lək-lək"), "Bürhani-həqiqət" jurnallarının və "Cavanlar Şurası" adlı həftəlik ictimai-siyasi və ədəbi qəzetin[3] çıxması orada yaşayan azərbaycanlıların həyatında mühüm rol oynamaqla yanaşı, eyni zamanda İrəvan mətbuatı

---

[1] Məmmədov, İ. **Tariximiz, torpağımız, taleyimiz /** Bakı, 2003, s. 552.

[2] Yenə onun, **İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri /** s. 52.

[3] Axundov, N. **Azərbaycanda dövri mətbuat (1832-1920)** / Biblioqrafiya. Bakı, 1965, s. 36,53,70,136.

tarixində də öz parlaq izlərini qoymuşdur.

"Molla Nəsrəddin" jurnalının təsiri altında İrəvanda fəaliyyətə başlamış "Leylək" (daha çox "Lək-lək" kimi tanınırdı) satirik jurnalı, sözün əsl mənasında burada ilk azərbaycandilli dövri mətbuat orqanı idi. Uzun illər İrəvan mollanəsrəddinçiləri doğma dildə mətbuat orqanı yaratmaq üçün müəyyən səylər göstərsələr də, buna müvəffəq ola bilmirdilər. Nəhayət, 1913-cü ilin sonunda onlara "Leylək" adlı jurnalın nəşrinə başlamağa rəsmi icazə verildi. Jurnalın nəşri ilə bağlı icazə sənədləri arasında (hal-hazırda Gürcüstan MDTA-nin fondlarında saxlanılır) İrəvan qubernatorunun həmin jurnalın buraxılması haqqında M.Mirfətullayev və C.Əsgərzadəyə verdiyi 1914-cü il 21 yanvar tarixli şəhadətnamə də vardır. Sənəddə jurnalın baş məqalələr, şeir, şəhər işləri, Qafqaz xəbərləri, teleqramlar, xarici və daxili xəbərlər, felyeton, təmsil, poct qutusu və elanlar bölmələrindən ibarət olduğu da qeyd olunurdu[1]. Həmin ilin fevral ayının 22-də "Lək-lək" həftəlik satirik jurnalının ilk nömrəsi işıq üzü gördü. "Luys" mətbəəsində ərəb qrafikası əsasında hazırlanmış şriftlə nəşr edilən bu mətbuat orqanı 8 səhifədən ibarət idi. Onun redaktor və naşirləri M.Mirfətullayev və Cabbar Əsgərzadə İrəvani (Aciz) idi. 1914-cü ilin fevral ayının 22-dən may ayının 30-dək jurnalın 12 sayı işıq üzü görmüşdü. Hər sayının əvvəlində "Türk dilində həftəlik məzhəkəli məcmuədir"[2] sözləri yazılan jurnalın səhifələrində mollanəsrəddinçi yazıçılardan C.Əsgərzadə (Aciz, Lək-Lək, Müqəllid və s.), Əli Məhzun Rəhimov (Yetim cücə), M.S.Ordubadi (Hərdəmxəyal), M.Mirfətullayev və başqaları iştirak etmişlər. İrəvan oxucularının rəğbətini qazanan jurnal, qısa müddət ərzində Bakı, Gəncə, Tiflis və Orta Asiyada da yayılmağa başladı.[3]

Xalqını müstəqil, mədəni və savadlı görmək istəyən jurnalın bütün saylarında "mədəniyyət şəfəqi" sözləri epiqraf kimi ve-

---

[1] **Gürcüstan MDTA** / F.4, s. 26, iş.172, v.10-13; Axundov, N, Göst.əsəri / s. 16-17.

[2] Məmmədov, İ. **Tariximiz, torpağımız, taleyimiz /** s. 554.

[3] Мамедов, И.С. Указ.раб.,с.13.

rilirdi. Nəşr olunduğu müddət ərzində onun səhifələrində xalq təhsili, mədəniyyət və ədəbiyyat məsələləri ilə bağlı 40-dan çox felyeton, teleqram və məktub dərc edilmişdi. Jurnalın diqqət ayırdığı əsas məsələlərdən biri və ən mühümü ana dili ilə bağlı olan məsələ idi. Bununla əlaqədar, səhifələrində yeni əlifba, yeni dərsliklər, xalq ədəbiyyatı kimi tələbləri işıqlandıran jurnal, milli mədəniyyət və milli ədəbiyyatın inkişafının əsasında məhz ana dilinin durduğunu vurğulayırdı.

Ana dili və milli mədəniyyətin inkişafı uğrunda apardığı mübarizə ilə yanaşı, "Lək-lək", eyni zamanda xalqın, müsəlmanların siyasi şüurunun yüksəldilməsinə çalışaraq, onları azadlıq və müstəqillik uğrunda həlledici mübarizəyə hazırlayırdı.

Səhifələrində mütləqiyyətin istismarçı, xalqa zidd siyasətini, pisləmək, əhalinin mənəvi, iqtisadi həyatının gerçəkliklərini olduğu kimi göstərməklə kifayətlənməyərək, yaranmış vəziyyətdən çıxış yollarını axtararaq, "dizin-dizin sürünməkdənsə, ayaq üstə ölmək daha yaxşıdır" ideyasını xalqa təlqin etmək arzusundaydı.

Qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq, jurnal demək olar ki, ölkə və quberniya miqyasında baş verən bütün siyasi, ictimai və hətta terror hadisələrinə belə münasibətini bildirməkdən çəkinmirdi. Bu mətbu orqanın səhifələrində gənc jurnalist Yusif Heydərzadənin vəhşiliklə qətlə yetirilməsi, İrəvan mollanəsrəddinçiləri M.A.Nasir və Əli Məhzuna qarşı açıq terror cəhdləri, demokratik mətbuata divan tutulması və s. halların işıqlandırılması[1] çarizmə qarşı qəti bir etiraz çağırışı idi.

1914-cü ilin yayında "Lək-lək" həyəcanla yazırdı: "müharibə yaxınlaşır, yer üzərində milyonlarla insanın qanı töküləcək, bir çox xalqların şərəf və ləyaqəti tapdanacaq. Bəlkə bütün bunlar, Vətən, din və müstəqilliyin qorunması naminə edilir? Xeyr, istilaçılara başqa şeylər lazımdır..."[2].

---

[1] Məmmədov, İ. **İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri** / s. 121,122.

[2] **Leylək** / 1917, №7, Мамедов, И.С. Указ.раб.,с.21.

Bu zaman jurnalın əsas məqsədi, müharibənin mahiyyətini acıb göstərməklə yanaşı, eyni zamanda hakim dairələrin ikiüzlü, satqın, yalançı siyasətini ifşa etməkdən ibarət idi. Müharibənin başlanması ilə əlaqədar "Lək-lək" dünya xalqlarına müraciət edərək, onları çara, knyazlara, əmir və paşalara inanmamağa, daha ayıq-sayıq olmağa, yalançı çağırış və vədlərə uymamağa, öz sıralarını möhkəmlətməyə səsləyirdi. Xalqı müharibəyə qarşı birliyə, həmrəyliyə səsləmək jurnalın artıq son imkanı oldu ki, bundan da o çox böyük məharətlə istifadə etdi.

Sonuncu, 12-ci sayında "Lək-lək" bağlandıqdan sonra əvəzinə "Cəngi" adlı satirik jurnalın çıxacağını bildirsə də, bu ad altında heç bir jurnalın çıxmadığı məlumdur.

Qeyd etmək lazımdır ki, "Lək-lək" jurnalının 1-ci sayına əlavə kimi, uşaqlar üçün nəzərdə tutulmuş və nəzmlə yazılmış, alleqorik bir kitabça da çap olunmuşdur[1]. Həmin kitabçada müxtəlif təbəqələrdən olan insanların həyatına məzəli, istehzalı bir nəzər salınmışdır.

Mürəkkəb siyasi şəraitdə İrəvanda yaranan və bir neçə ay fəaliyyət göstərən mətbuat orqanlarından biri də "Bürhani-həqiqət" jurnalı idi. Ayda iki dəfə nəşr olunan bu ədəbi, siyasi, tarixi, elmi və fənni jurnal 8 səhifə və hər bir sayı 500 nüsxədən ibarət olmaqla, 1917-ci ilin yanvar ayının 1-dən fəaliyyətə başlayaraq, həmin ilin iyun ayının 29-dək işini davam etdirmişdir. "Bürhani-həqiqət" jurnalı da "Lək-lək" jurnalı kimi "Luys" mətbəəsində çap edilirdi. Müdir və mühərriri Əli Hacı Zeynalabdinzadə Rəhimov (Məhzun), naşiri isə Həsən Mirzəzadə (Əliyev) idi.[2]

Əsasən bədii və publisistik materialların dərc edildiyi jurnalın səhifələrində Əli Məhzun, Cabbar Əsgərzadə Aciz İrəvani, Əbdülhəq Məhrülnisan, Səri Xanım, T.Fikrəti, Ə.Sədi, N.Rəmzi, Təhvil İrəvani, Mirzə Cabbar Məmmədov, Vahid Muğanlinski və başqalarının əsərləri, tərcümələri çap olunurdu. "Bürhani-həqiqət"

---

[1] Axundov, N. Göst.əsəri / s. 16-17.

[2] Məmmədov, İ. **Tariximiz, torpağımız, taleyimiz,** s. 561; Axundov, N. Göst.əsəri / s.7-8, 137; Мамедов, И.С. Указ. раб., / с. 23.

əsasən maarifçi-realist ədəbiyyatın mövqeyini müdafiə edirdi.

Qeyd etmək lazımdır ki, jurnalın həyata vəsiqə alması heç də asan olmamışdı. Digər azərbaycandilli mətbuat orqanları kimi, o da işıq üzü görənədək, keşməkeşli bir yol keçmişdir.

Hələ 1914-cü ilin iyun ayında İrəvanın görkəmli mollanəsrəddinçi ziyalılarından olan Cabbar Əsgərzadə və Əli Rəhimov (Məhzun) öz çıxışlarında yaxın vaxtlarda İrəvanda Azərbaycan dilində "Çıngi" adlı yeni bir jurnalın çıxacağını bildirirdilər. "Qığılcım" mənasını daşıyacaq bu jurnalda xalqın həyatı tam düzgünlüyü ilə öz əksini tapacaqdı. Lakin, təəssüf ki, belə olmadı. Üçillik gərgin mübarizədən sonra Əli Hacı Zeynalabdinzadə Rəhimova (Məhzun) "Çıngi" yox, "Bürhani-həqiqət" adı altında jurnal nəşr etdirməyə icazə verildi[1].

Artıq göstərildiyi kimi, "Bürhani-həqiqət" jurnalının ilk sayı 1917-ci ilin yanvar ayının 1-də işıq üzü görmüşdü. Həmin sayın baş məqaləsində deyilirdi: "Bürhan – fakt, sübut deməkdir. Həqiqətin dili ilə haqdan, ədalətdən yazmaq deməkdir. Həqiqət xalqı cəhalət və əsarət zəncirlərindən qurtararaq, sübh şəfəqinə doğru aparmağa kömək edə biləcək bir məşəldir"[2].

XX əsrin əvvəllərində Azərbaycanın bir çox şəhərləri kimi İrəvan şəhərinin də mütləqiyyətin yürütdüyü mənfur müstəmləkəçilik siyasəti nəticəsində milli nifaq və millətlərarası toqquşmaların təşkil edildiyi məkana çevrilməsini ürək ağrısı ilə bildirən jurnal, orada baş verənləri belə təsvir edirdi:" ...məcmuə dünyaya gələndə milli ədavət, məkrli şovinist siyasəti, aclıq, yoluxucu xəstəliklər İrəvan azərbaycanlılarını diri-diri yeməkdə idi. 88 kənd dağılmış, 1920 ev yandırılmış, yerlə bir edilmişdi.Təkcə İrəvan şəhərində il ərzində 13 600 adam öldürülmüşdü. Ölən azərbaycanlıların bir qismini heç hesaba daxil etmək mümkün olmamışdı" .[3]

Xalqı qəflət yuxusundan ayıldaraq, onu yeni, ədalətli cə-

---

[1] **Gürcüstan MDTA** / F.1183, siy.1, iş 680, v.9; Axundov, N. Göst.əsəri / s. 23.

[2] **Bürhani-həqiqət** /1917, №1; Məmmədov, İ. **Tariximiz, torpağımız, taleyimiz /** s. 562, Мамедов, И.С. Указ.раб.,с.24.

[3] Məmmədov, İ. Göst.əsəri / s. 562.

miyyət uğrunda əzmlə mübarizəyə səsləyən jurnal "Ədalətsizliyin günahkarları mütləqiyyətin qəlbi, ürəyi olmayan cəlladları, qara qüvvələridir, xalqın yeganə qurtuluş yolu, bu ədalətsizlik səltənətini məhv etməkdədir", – deyə bildirirdi. Mütləqiyyətin devrilməsini alqışlayan jurnal bu hadisəni "əsarət altında əzilən xalqların böyük nailiyyəti", Fevral inqilabını isə "hürriyyət baharının ilk günəşi"[1] adlandıraraq, yaranan yeni cəmiyyətlə bağlı ümidlərini də bildirirdi.

Lakin təəssüf ki, sonrakı hadisələr tamam başqa istiqamətdə cərəyan etdi və demək olar ki, bəslənilən ümidlər özünü doğrultmadı.

Siyasi məsələlərlə yanaşı, "Bürhani-həqiqət" jurnalının səhifələrində ədəbiyyat, mədəniyyət, elm və məişət məsələlərinin təhlili də öz əksini tapırdı. Ədəbiyyat nəzəriyyəsi və bədii ədəbiyyatla bağlı məsələlər də jurnalın diqqət mərkəzində idi. İrəvanın yerli şəraitini və xalqın istəyini nəzərə alan "Bürhani-həqiqət" səhifələrində evdarlıq, insanın təbiətə münasibəti, gigiyena və sanitariya, yoluxucu xəstəliklərlə mübarizə, uşaq tərbiyəsi kimi vacib məsələlərə də yer ayırırdı.[2]

Jurnal, qısa müddət ərzində (cəmi 6 ay) fəaliyyət göstərməsinə baxmayaraq, böyük tarixi əhəmiyyətə malik oldu. İctimai ədalətsizlikdən əziyyət çəkən, problemlər və zülm məngənəsində sıxılan İrəvan xalqı üçün "Bürhani-həqiqət", sözün əsl mənasında, "ilkin təcili yardım" funksiyasını oynamış oldu.

İrəvanın "Beynəlmiləl Gənclər Şurası" "Cavanlar Şurası" adlı öz mətbuat orqanını da yaratmışdı. Həftədə bir dəfə çıxan bu siyasi, ədəbi-ictimai qəzet tələbə Rza Tağıyev, M.Ə.Nəsir və M.Mirfətullayev tərəfindən redaktə edilirdi.

Qeyd edilməlidir ki, "Azərbaycanda dövri mətbuat" biblioqrafik məcmuəsində həmin qəzetin 1920-ci ildən etibarən nəşr edildiyi göstərilir. Lakin, İ.Məmmədovun araşdırmalarından mə-

---

[1] **Bürhani-həqiqət** / 1917, №5; Məmmədov, İ. **İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri** / s. 166.

[2] Axundov, N. Göst.əsəri / s. 123-124.

lum olur ki, həmin tarix 1917-1918-ci illərə təsadüf edir.[1] Qəzetin heç bir sayı əldə edilməsə də, sənədlər "Beynəlmiləl Gənclər Şurası"nın gənclər arasında ciddi təbliğat işi apardığını, yuxarıda deyildiyi kimi, azərbaycanlı və erməni gənclərinin qüvvələrini birləşdirməyə çalışdığını təsdiq edir.[2]

İrəvanda erməni dilində yaranan ilk dövri mətbuat orqanı 1880-cı ilin mart ayının 15-dən fəaliyyətə başlamış "Psak"("Çələng") qəzeti olmuşdur.[3] Bu qəzetin nəşri, ümümiyyətlə, İrəvan dövri mətbuatının ilk nümünəsi kimi şəhərin siyasi və mədəni həyatında əhəmiyyətli hadisəyə çevrildi. Səhifələrində ədəbi-tarixi və pedaqoji yönümlü məqalələrin yer tapdığı qəzet tezliklə antitürk təbliğatına başlayaraq, "Qərbi Ermənistanın türk əsarətindən azad edilməsini hər bir erməninin müqəddəs işi" kimi təqdim etməklə, bilərəkdən məkrli məqsədlərlə, "millətçi-şovinizm zəhəri ilə erməni oxucusunun etnik təfəkkürünə"[4] sirayət etmək niyyətində idi. Lakin onun bu fəaliyyəti uzun sürmədi, 1884-cü ilin 7 aprel tarixində qəzet hakimiyyət orqanları tərəfindən bağlandı. "Psak" bağlandıqdan sonra, təxminən onunla eyni vaxtda nəşr olunmağa başlayan "Tibb vərəqəsi" jurnalı və 1908-ci ilədək səhifələrində elanlardan başqa heç nə dərc etməyən "İrəvan elanları" vərəqəsi istisna olmaqla, İrəvan şəhərində demək olar ki, hələ uzun müddət – XX əsrin birinci onilliyinin sonunadək erməni dilində heç bir mətbuat orqanı nəşr olunmadı.[5] Sözügedən "Tibb vərəqəsi" jurnalı 1-2 çap vərəqindən ibarət olmaqla, İrəvan əhalisini səhiyyə sahəsində verilən rəsmi qərar və sərəncamlarla tanış etməklə yanaşı, ictimai həyatın müxtəlif aspektlərini, əhalinin məişət şəraiti, vaxtaşırı baş verən epidemiyalar, onların səbəbləri, şəhərin sanitar vəziyyəti, uşaq gigiyenası və s. məsələləri də əhatə edirdi. Səhifələrində mütləqiyyət qaydalarını tənqid edən yazıların verilməsi isə bu jurnalın da bağ-

---

[1] Məmmədov, İ. Göst.əsəri / s. 192-193.
[2] **Yoldaş** / 1920, № 3; Axundov, N, Göst.əsəri / s. 123-124.
[3] Акопян, Т.Х. **Очерк истории Еревана** / с. 293.
[4] Məmmədov, İ. **Tariximiz, torpağımız, taleyimiz** / s. 562.
[5] Акопян, Т.Х. Указ. раб., / с. 294.

lanmasına səbəb oldu.

İrəvan mətbuatı tarixində "İrəvan elanları" vərəqəsi həmin dövrün ən uzunmüddətli qəzeti olmuşdur. Həftədə 3 dəfə çıxmaqla, fasilələrlə 1917-ci ilə qədər fəaliyyət göstərmiş bu kiçik formatlı vərəqədə erməni və Azərbaycan dillərində dərc edilən elanlarla yanaşi, şəhər və qəza xəbərləri, daxili bazar, məhsulların qiyməti və lətifələr də dərc edilirdi. (1909 -cu ildən isə qəzet erməni və rus dillərində çıxırdı).[1]

1907-ci ilin fevralında İrəvanda şəhər bolşevik təşkilatının orqanı olan "Fakt" qəzeti təsis edildi. Rus dilində çıxan və cəmi 2 ay fəaliyyət göstərən qəzet, səhifələrində dərc etdirdiyi "Dövlət dumasının xarakteri və ona seçkilər", "Cənubi Qafqaz miqyasında zemstvo qurultayının çağrılması", "Müəssisə sahiblərinin zülm və istismarı" və s. başlıqlı məqalələri ilə demək olar ki, yerli hakim dairələrin qəzəbinə , eyni zamanda da qəzetin bağlanmasına səbəb oldu.[2]

1908-ci ildən etibarən İrəvanda "Razdan" adlı qəzet nəşr olunmağa başladı[3] ki, onun da fəaliyyəti yalniz bircə ili əhatə etdi. İlk baxışda tamamilə dinc məqsədlərə, səhifələrində şəhərin ədəbi-ictimai və iqtisadi həyatının işıqlandırılmasına xidmət edən qəzet, əslində erməni millətçi partiyası "Daşnaksütyun"un İrəvandakı orqanı idi.[4] "Razdan"la eyni vaxtda burada rəsmi sənədlərin, qərar, sərəncam, müxtəlif elan və statistik materialların dərc edildiyi "İrəvan quberniya xəbərləri" adlı vərəqə də nəşr etdirilirdi. Həmin vərəqə ilə eyni tipli "Şəhər elanları", "İrəvan xəbərləri", həmçinin 1911 ci ildə çıxan "Nor dzayn" adlı qəzetlərin də fəaliyyətləri qısamüddətli oldu.

---

[1] Акопян, Т.Х. Указ. раб., / с. 295.

[2]Овсепян, С.М. **Деятельность большевиков и революционное движение в Ереване (1901-1920 гг.)** / Автореф.дисс. канд.ист.наук, Ереван, 1971, с. 14.

[3] Акопян, Т.Х. **Очерк истории Еревана** / с. 295.

[4] **ARPİİSSA** / F.276, s.8, iş.334, v.3, arx; iş 235, v.38; Багирова, И.С. **Политические партии и организации Азербайджана в начале XX века** / с. 224.

İrəvanda 1911-ci ildən "Kran", 1913-cü ildən isə "Nor mamul"[1] adı altında çıxan satirik qəzetin səhifələrində ədəbi məqalələrlə yanaşı, yol qeydləri, müxtəlif məzmunlu tərcümə materialları, şeirlər və həmçinin bəzi partiyaların, o cümlədən, "Daşnaksütyun" partiyasının tənqidinə həsr edilmiş yazılar dərc edilirdi. Onu da qeyd etmək yerinə düşər ki, bu dövri nəşrin redaktoru əvvəllər, təxminən 12 il "Hnçaq" partiyasının üzvü olmuş , sonralar isə onun sıralarını tərk etmişdir.

1913-cü ildə yerli bolşeviklər fəaliyyətlərini aktivləşdirərək, ilin sonunda "Xosk" adlı həftəlik qəzetlərinin nəşr etdirilməsinə müvəffəq oldular.[2] 1914-cü ilin optalarınadək fəaliyyətdə olan qəzet o dövrdə Cənubi Qafqazdakı və İrəvandakı mövcud gerçəkliyi tənqid etməkdən də çəkinmirdi.

Qeyd etmək lazımdır ki, həmin dövrdə İrəvanda göstərilən nəşrlərlə yanaşı, "İrəvan quberniyasının icmalı" və "İrəvan quberniyasının xatirə kitabçası"[3] adlı toplular da işıq üzü görmüşdü. Toplulardan birincisi hər il çıxsa da, ikincisi yalnız cüt illərdə çıxırdı. Məzmunca bir-birlərindən az fərqlənən bu dövri nəşrlərin səhifələrində rəsmi sənədlər və ayrı-ayrı şəxslərin yazıları ilə yanaşı, quberniyanin iqtisadi göstəriciləri, qəzaları, əhalisi, tarixi, mədəniyyəti, etnoqrafiyası və s. ilə bağlı materiallar dərc edilirdi.

Xalqın maariflənməsi yolunda var gücünü əsirgəməyən İrəvanın mütərəqqi ziyalılarını kitab çapı məsələləri də maraqlandırırdı. Məhz, belə ziyalıların səyi nəticəsində XIX əsrin 80-cı illərindən etibarən İrəvanda Azərbaycan dilində nəşr edilmiş kitablar, həmçinin dərsliklər işıq üzü gördü. Lakin İrəvan mətbəələrində Azərbaycan əlifbası şriftlərinin olmaması səbəbindən yerli müəlliflərin kitabları Təbrizdə, Tehranda, Bakıda, Tiflisdə, Baxçasaray və Şuşada çap etdirilirdi. Demək olar ki, həmin şə-

---

[1] Акопян Т.Х. Указ. раб., / с. 296.

[2]Овсепян, С.М. **Деятельность большевиков и революционное движение в Ереване (1901-1920 гг.)** / с. 18

[3]Акопян, Т.Х. Указ. раб., / с. 250.

hərlərdə çıxan kitabların hamısının titul vərəqində müəlliflər soyadları ilə yanaşı, təxəllüslərini yazmaqla, doğma vətənlərini bir daha yada salırdılar (İrəvani, İrəvanski, Qəmərli, Qəmərlinski)[1].

XIX əsrin sonlarında İrəvanda fəaliyyət göstərən Edilson mətbəəsi tərəfindən Azərbaycan hərflərinin şriftləri əldə edildi. 1899-cu ildə həmin mətbəədə İrəvanlı müəllim Məhəmmmədvəli Qəmərlinnin "Atalar sözü" adlı 52 səhifəlik kitabı nəşr edildi.[2]

XX əsrin əvvəllərində isə İrəvanın artıq 4 mətbəəsində (Güləmiryan, Edilson, Kultura, Luys) Azərbaycan dilində kitablar nəşr olunurdu.[3]

İrəvan ziyalıları tərcümə işinə də biganə deyildilər. Rus ədəbiyyatının mahir bilicisi, İrəvan gimnaziyasının gənc müəllimi Firudin bəy Köçərli bu mühüm işin ilk təşəbbüskarı oldu. O, nəinki İrəvan, eyni zamanda bütövlükdə Azərbaycan oxucusunu A.S.Puşkin, M.Y.Lermontov və L.N.Tolstoyun əsərləri ilə tanış edirdi. 1891-ci ildə Baxçasarayda "Təlimati-Sokrat" adlı kitab işıq üzü gördü. Kitabın üz qabığında yazılmışdı: "Rus dilindən tərcümə edəni İrəvan gimnaziyasının elmi-ilahi müəllimi Firidun Köçərli"[4].

1892-ci ildə isə İrəvanda F.Köçərlinin tərcüməsində A.S.Puşkinin "Balıqçı və balıq nağılı" kitabı çap edildi. Bununla da, demək olar ki, İrəvanda XIX əsrin 80-ci illərindən başlayan kitab nəşri işi, 90-cı illərdə daha da genişləndirilərək, milli şüurun oyanışı və ictimai fikrin formalaşmasına müsbət təsir göstərdi.

Beləliklə, qeyd etmək olar ki, İrəvanın maarifçi-ziyalılarının təşəbbüsü ilə yaradılan sadə dilli, aydın fikirli (lakin, təəssüf ki, burada çıxan, yuxarıdakı mətndə göstərilən bəzi ermənidilli

---

[1] Məmmədov, İ. **Ermənistan azərbaycanlıları və onların acı taleyi /** Əsədov.S, Qısa tarixi oçerk. Bakı, 1992, s. 18.

[2]Yenə orada, s. 21; Süleymanova, S. **Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri) /** Bakı, 1999, s. 27.

[3] Məmmədov. İ, Əsədov. S. Göst.əsəri / s. 21.

[4] Yenə orada, s. 20.

mətbuat orqanları, tədricən antitürk şüarları irəli sürərək, öz millətçi-şovinist ideyaları ilə İrəvanın erməni əhalisinin şüurunu zəhərləməklə iki xalq arasında düşmənçilik toxumları səpirdilər), xalqın böyük əksəriyyətinin başa düşəcəyi tərzdə yazan mətbuat orqanları, sosial-iqtisadi və ictimai həyatda gedən prosesləri əks etdirməklə yanaşı, eyni zamanda, İrəvan xalqının müstəmləkə əsarəti və milli zülmə qarşı mübarizəsində də kəsərli silaha çevrilmişdilər. Qeyd etmək lazımdır ki, bu dövrdə İrəvanda müxtəlif mətbuat orqanlarının yaradılması ilə yanaşı, şəhər əhalisinin maariflənməsi və mədəni inkişafında əhəmiyyətli rol oynayan tərcümə işi və kitab çapı məsələləri də nizama salınmağa başlamışdır.

### 4.3. İncəsənət

İrəvan xanlığının ərazisindəki maddi-mədəniyyət və memarlıq abidələri, o dövrün mədəniyyəti və incəsənəti, habelə təhsil sistemi barədə orta əsrlər səyyahlarından J.Tavernye və J.Şardənin, Rusiyanın həmin ərazini işğalından sonra isə İ.Şopenin əsərlərində müəyyən məlumat verilmişdir. Çar Rusiyası tərəfindən işğal edildikdən sonra İrəvan xanlığının ərazisindəki maddi-mədəniyyət nümunələrinin, demək olar ki, hamısı Rusiya imperiyası tərəfindən XIX əsrin əvvəllərindən etibarən İrəvan xanlığının ərazisinə kütləvi surətdə köçürülən erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılmış və yer üzündən silinmişdir. Bununla belə, ilk mənbələr və ayrı-ayrı tədqiqat əsərləri İrəvan xanlığı və onun mərkəzi şəhəri olan İrəvan ərazisində mövcud olmuş maddi-mədəniyyət abidələri, habelə incəsənət, maarif və ədəbi mühit haqqında məlumat əldə etməyə imkan verir.

Azərbaycanın xanlıqlar dövrü incəsənətində yaranmış müəyyən durğunluq XIX əsrin birinci yarısında tədricən aradan qalxmaqda idi. Bu dövrdə Azərbaycanda musiqi, təsviri və tətbiqi incəsənət, memarlıq inkişaf etməkdə davam edir, ayrı-ayrı şəhərlərlə yanaşı, İrəvan şəhərində də əvəzedilməz sənət əsərləri meydana gəlirdi.

Bu dövrün təsviri incəsənətinin ən geniş yayılmış və inkişaf etmiş sahəsi, ən gözəl nümunələri XVIII əsrin memarlıq abidələrində dövrümüzə qədər çatmış divarüstü boyakarlıqdır. Avropa səyyahlarını və rəssamlarını valeh edən, tərif dolu təəssüratlarını yazmağa vadar edən də sərdar sarayının memarlığından daha çox onun zəngin bədii tərtibatı, divarları bəzəyən portret və süjetli kompozisiyalardan ibarət monumental boyakarlıq əsərləri olmuşdur. Əsrlər boyu ölkəmizin başına gələn təbii və ictimai fəlakətlər nəticəsində tarix bizə divarüstü boyakarlığın daha qədim nümunələrini saxlamışdır.[1]

Bəhs olunan dövrdə təsviri incəsənətin ayrılmaz qolu olan divarüstü boyakarlıq İrəvan Xan sarayının daxili tərtibatında hifz olunub saxlanmışdır. Qeyd edək ki, tarixi ədəbiyyatda və mənbələrdə daha çox Sərdar sarayı kimi yad olunan Xan sarayı Zəngi çayının sahilində tikilmişdir. Yeni Xan sarayı Hüseynəli xanın hakimiyyəti dövründə (1764-1783) görkəmli Azərbaycan memarı Mirzə Cəfər Xoylu tərəfindən inşa edilmişdir. Sarayın əsas hissəsi olan Güzgülü salon və Yay köşkü 1791-ci ildə Hüseynəli xanın oğlu Məhəmməd xan tərəfindən əlavə etdirilmiş və beləliklə, bina memarlıq baxımından monumental saray binası kimi təkmilləşmiş və tamamlanmışdır.[2]

1837-ci ildə Sərdar sarayının tərtib edilmiş mükəmməl planına əsasən, sarayın təxminən 1 hektar ərazini tutduğu aydın olur. Saray qala kompleksinin şimal-qərb hissəsində yerləşirmiş və qaladan saraya qapı açılırmış.

İrəvan Xan sarayının daxili tərtibatı haqqında yazılar, 1828-ci ildə rus rəssamı akademik V.Maşkovun, 1840-cı illərdə arxeoloq alim və rəssam Q.Qaqarinin çəkdikləri rəsm əsərləri və fotolar sarayın bədii tərtibatı, divar rəsmlərinin məzmunu, forma

---

[1] Mirəhmədov, Ə. “XIX əsr Azərbaycan mədəniyyəti” / **Az. SSR EA Tarix və Fəlsəfə İnstitutunun Əsərləri,** VI cild, B, 1955, s. 18; **İrəvan xanlığı Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi /** Bakı, Azərbaycan, 2010, s. 194.

[2] Kərimov, K. İrəvan sərdarının sarayı / **Yeni fikir qəzeti**, 18 oktyabr 1995, № 5.

və üslubu, professional sənətkarlıq və estetik xüsusiyyətləri haqqında fikir söyləməyə imkan verir.

K.Kərimovun araşdırmalarından aydın olur ki, Sarayın Güzgülü salonu və Yay köşkünün divarlarını bəzəyən ilkin rəsmlərin müəllifi bəlli deyil. Dekorativ və süjetli divar rəsmləri həmin dövrdə mövcud olmuş kanonlara və ənənəyə əsaslanır. Bir qayda olaraq, divarların paneldən yuxarı səthində tağlarda və tağlararası pannolarda həndəsi və stilizə edilmiş nəbati motivlərdən ibarət dekorativ kompozisiyalar, gül və çiçəklərin, heyvan və quşların canlı, real təsvirləri verilmişdir.[1]

İngilis səyyahı H.Linç İrəvan Xan sarayının Güzgülü salonunu belə təsvir edirdi: "Şəbəkəli tağların saysız-hesabsız güzgüləri ətrafa büllur kimi şölə saçır. Salonun tavanı başdan-başa bəzəyə qərq olmuşdur. Tavanın aşağısı bolluca nəbati naxışlarla bəzənib ki, bunlar da əsasən süsən və qızılgüllərdən ibarətdir".[2]

1827-1828-ci illərdə rus ordusunun İrəvana hücumunda iştirak edən V.Maşkovun çəkdiyi rəsmdə Fətəli şahla Abbas Mirzənin portretləri arasında izdihamlı ov səhnəsi təsvir olunmuşdur.[3]

Güzgülü salonun ön divarında oxşar və eynibiçimli çərçivə daxilində Fətəli şahın, onun oğlu Abbas Mirzənin, İrəvan xanı Hüseynqulu xanın və qardaşı Həsən xanın, Rüstəm Zalın, onun oğlu Zöhrabın, habelə bir qadının portretləri təsvir olunmuşdur.[4]

İstər İrəvan xanlığı dövründə, istərsə də xanlığın Rusiya tərəfindən işğalından sonra külli miqdarda dekorativ-tətbiqi incəsənət nümunələri, o cümlədən daş və ağac üzərində bədii oyma, döymə metal məmulatı, xalçalar, saxsı qablar və naxıştikmələr bugünədək qorunub saxlanılmışdır. Təəssüf hissi ilə bildirmək la-

---

[1] Yenə orada.

[2] **İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi /Bakı,2010,** s. 195.

[3] Kərimov, K. İrəvan sərdarının sarayı / **Yeni fikir qəzeti**, 18 oktyabr 1995, №5.

[4] **İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi /** s. 195.

zımdır ki, bu cür sənət nümunələrinin böyük əksəriyyəti Ermənistan Respublikasının ərazisində mövcud olan muzeylərdə "ermənilərə məxsus" sənət nümunələri kimi nümayiş etdirilir.

Belə incəsənət nümunələri arasında ən geniş yayılanı bədii tikmə olmuşdur. İrəvan xanlığı dövrünün bədii tikmə nümunələrindən 2-si hazırda Milli Azərbaycan Tarix Muzeyində saxlanılır. 1827-ci il oktyabrın 1-də İrəvan qalası rus qoşunları tərəfindən işğal edildiyi zaman İrəvan xanlığının 4 bayrağı rus qoşunlarının əlinə keçmişdi.[1] Sonralar bu bayraqlar Qafqaz Hərb Tarix Muzeyində saxlanılmışdı. Bu bayraqlardan ikisi 1924-cü ildə indiki Milli Azərbaycan Tarix Muzeyinə verilmişdir. 461 və 473 №-li inventarlar adı altında saxlanılan bayraqlar bədii tikmə sənətinin nadir nümunələri hesab olunur. Bayraqlardan birinin təsvirinə əsasən deyə bilərik ki, İrəvan sərdarına məxsus üçkünc bayrağın qumaş hissəsinin ölçüləri 145x261x217 sm-dir. Bayraq tünd qırmızı mahud parçadan hazırlanmışdır. Bayrağın yuxarı enli hissəsində şir və günəş (şiri-xurşid) təsvirləri qurama üsulu ilə tikilmişdir. Sarıya çalan, açıq qəhvəyi rəngli quramadan hazırlanmış şir yandan təsvir olunmuş, quyruğu belinə qatlanmış, sağ qabaq pəncəsi qaldırılmışdır. Şirin gözləri qara və sarı, dişləri, dili və caynaqları sarı sapla tikilmişdir. Şirin arxasından yarımdairə formasında çıxan insan sifətli günəş sarı mahud parçadan hazırlanmışdır. Günəşin burnu və qaşları qara, gözləri isə qara və sarı saplardan tikilmişdir...Bayrağa müxtəlif rəngli saplardan saçaq salınmışdır. Bayraq qumaşını bayrağın sapına taxmaq üçün tikilmiş torbacıq yaşıl mahud parçadandır. Bayraq sapının yuxarı hissəsinə gümüşü saplardan toxunmuş uzun qotaz asılmışdır. Həmin bayraq 1825-1826-cı illərdə hazırlanmışdır.[2]

XIX əsrin birinci yarısında Azərbaycanın təsviri incəsənətində realist meyllər daha çox inkişaf edirdi. Bu meyllər o dövrdə Azərbaycanın ən böyük rəssamı olan Mirzə Qədim İrəvaninin

---

[1] Потто, В.А. **Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях** / т.3, с.361.

[2] **İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi** / s. 200.

(1825-1879) yaradıcılığında öz əksini tapmışdı. Mirzə Qədim İrəvani İrəvan şəhərində varlı sənətkar ailəsində anadan olmuş və orta təhsilini Tiflisdə almışdı. Daha sonra doğma şəhərinə qayıdan İrəvani bütün ömrünü orada keçirmişdi. O, öz dövrünün təhsilli adamlarından olub, fars, rus və fransız dillərini bilir, musiqini sevirdi.[1] Rəssam hələ uşaqlıqdan şəkil çəkməyə başlamışdı. Yeri gəlmişkən qeyd edək ki, Mirzə Qədim İrəvani xüsusi rəssamlıq təhsili almamışdı, yaradıcılığının ilk dövrlərində dekorativ sənətlə məşğul olmuş və bunu ağac üzərində bədii oyma ustası olan atasından öyrənmişdi.[2] Onun ilk əsəri gənclik illərində rənglərlə güzgü üzərində çəkdiyi qadın şəkli idi.

İrəvani yaradıcılığının ilk dövrü əsasən onun təsviri və tətbiqi incəsənət sahəsində yaratdığı əsərlərlə xarakterizə olunurdu. Rəssam ipək və qızıl saplarla (güləbətin) toxunan tikmələr üçün, həmçinin divarlara çəkilmək üçün bir çox şəkillər və trafaretlər hazırlamışdı. 50-ci illərin əvvəllərində artıq usta kimi məşhur olan İrəvani İrəvandakı sərdarlar sarayının divarlarına çəkilmiş şəkilləri və yazıları bərpa etmək üçün dəvət olunurdu. Bu vaxtdan rəssamın yaradıcılığında yeni dövr başlanır. O, qalın kətan üzərində yağlı rənglərlə sərdarların bir neçə əksini çəkmiş, bu əsərlər isə Azərbaycan rəssamlığında ilk mənzərə şəkilləri idi.[3]

Rəssamın çəkdiyi “Süvari”, “Dərviş”, “Rəqqasə” portretlərində həyata bağlılıq və məişət çalarlarının bolluğu özünü göstərir. Göstərilən əsərlərdə orta əsr miniatürlərindəki şərtilik və dekorativizmdən, ibtidailikdən uzaqlaşaraq təsvirin həqiqiliyinə meyl göstərməsi özünü büruzə verirdi. Bu, şəklin çəkiliş tərzində, rəsmin xarakterində, tədricən realist ifadə və fərdi oxşarlıq əlamətləri kəsb edən şəklin şərhində öz əksini tapırdı.[4]

Rəssam 1850-ci ildə İrəvan sərdarının sarayındakı dekora-

---

[1] Миклашевская, Н.М. **Художники XIX века Мирза Кадым Еривани и Мир Мохсун Навваб** / Azərbaycan İncəsənəti, VI cild, B, 1954, s. 12.

[2] Məmmədov, İ. **İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri /** Bakı, s. 18.

[3] **Azərbaycan tarixi** / 3 cilddə, II cild, s. 141.

[4] Миклашевская, Н.М. Указ. раб., / с. 14.

tiv pannoları bərpa etmiş, sarayın Güzgülü zalında yağlı boya ilə bir neçə portret ("Fətəli şah", "Abbas Mirzə") çəkmişdi. Portretlərlə bir sırada o, çoxmövzulu rəsmlər də çəkmişdi ("Şahzadə Aleksandr arvadı ilə", "Şah və vəzir"). Yaradıcılığa dekorator-rəssam kimi başlayan Mirzə Qədimin dəzgah boyakarlığında zərif naxışlardan, mürəkkəb şəbəkələrdən, miniatürlərə xas olan cizgilərdən məharətlə istifadə olunmuşdur.[1]

Azərbaycan boyakarlıq sənətinin görkəmli nümayəndəsi, monumental boyakarlıq və portret ustası, dekorativ sənət əsərləri, süjetli kompozisiyaları, zərif naxışları ilə Azərbaycan təsviri sənətinin inkişafında yeni mərhələnin əsasını qoyan Mirzə Qədim İrəvani kimi vətənsevər insanlar öz əməlləri və "İrəvani" təxəllüsü ilə Azərbaycanın düşmən tapdağında qalan qədim torpağı İrəvan şəhərinin sahib və sakinlərinin kimliyini nəsillərdən-nəsillərə çatdırmaqla tarix qarşısında böyük xidmətlər göstərmişlər.

Bəhs olunan dövrdə İrəvan incəsənətinin görkəmli nümayəndələrindən biri Məhəmməd Rza İrəvani olmuşdur. Belə ki, müəllif miniatür rəssamlığın ən yaxşı nümunəsi sayılan Sankt-Peterburq Dövlət Ermitajında mühafizə olunan "Şikəstin sağalması" əsəri[2] ilə məşhurlaşmışdır. Bu, çoxfiqurlu məişət səhnəsi obrazların və peyzajın rəssam tərəfindən realist təsirə cəhd göstərmək baxımından fərqlənən əlamətdar əsəri hesab olunur. Əsərdə eyni zamanda klassik miniatür ənənələri və təsvirin yeni həcm-məkan həlli ustalıqla uyğunlaşdırılmışdır.[3]

Qeyd etmək lazımdır ki, İrəvan incəsənəti həm məzmun, həm də bədii forma cəhətdən ənənəvi xarakter daşıyırdı. Divar rəsmlərindəki ov və döyüş səhnələrində çoxfiqurlu kompozisiyaların düzülüşü, obrazların və peyzajların təsviri, kolorit həlli və s. təsvir vasitələri XVIII-XIX əsrin ilk yarısı İrəvan təsviri sənətinin ümumi üslubu üçün xarakterikdir.

---

[1] **Azərbaycan tarixi** / S.Əliyarlının red. ilə, Bakı, Azərbaycan Nəşriyyatı, 1996, s.767.

[2] Qazıyev, A. "XIX əsr Azərbaycan təsviri incəsənətinə dair yeni materiallar" / **Ədəbiyyat və İncəsənət qəzeti,** 18 yanvar 1958.

[3] **Azərbaycan tarixi,** 7 cilddə, IV cild, s.157.

XIX yüzilliyin ortalarından etibarən Rusiya imperiyasının sosial-iqtisadi həyatında baş verən dəyişiklilər milli mədəniyyətimizin mühüm sahələrindən birini təşkil edən incəsənətimizin inkişafında da keyfiyyətcə yeni mərhələ açmış oldu. Bu dövrdə Azərbaycanın rus mədəniyyəti və onun vasitəsilə Avropa mədəni dəyərləri ilə tanış olması incəsənətin yeni istiqamətdə inkişafına təkan verdi. Bütün bunlar ictimai və estetik fikir, elm, maarif və incəsənət sahələrində qarşılıqlı əlaqələr üçün əlverişli zəmin yaradır, incəsənətin yeni növləri və janrları meydana çıxır. Artıq XIX əsrin ikinci yarısında memarlıq, rəssamlıq, dekorativ-tətbiqi sənətlər üzrə peşəkar mütəxəsislər yetişir və onların fəaliyyəti üçün geniş imkanlar açılır.

Yuxarıda qeyd edildiyi kimi, XIX əsr mədəniyyətinin səciyyəvi xüsusiyyətlərindən biri Azərbaycan mədəniyyətinin Qərbi Avropa və Rusiya bədii yaradıcılığının mütərəqqi ənənələri ilə əlaqələri və ideya baxımından zənginləşməsi idi. Lakin mütəxəsislərin qeyd etdikləri kimi, bu ənənələr heç zaman kor-koranə şəkildə mənimsənilməmiş, onlar yerli zəminə söykənərək qədim mədəniyyətimizə uyğun şəkildə qavranılmışdır.[1]

M.Q.İrəvaninin ən müxtəlif materiallar üzərində çəkdiyi rəsmlərdə qızılgül və bülbül motivinin əsas yer tutmasını mütəxəsislər bu motivin qədim zamanlardan sevgi rəmzi sayılması ilə izah edirlər.[2]

Hazırda yalnız 23 ədədi məlum olan M.Q.İrəvaninin əsərlərindən sulu boya və qələmlə çəkilmiş 20 ədədi Azərbaycan Dövlət İncəsənət Muzeyində nümayiş etdirilir. Müəllifin əsərlərinin mühüm xüsusiyyəti onlarda rəssamın şəxsi imzasının əks olunmasıdır. M. Q. İrəvaninin 1860-70-ci illərdə yaratdığı "Vəcihulla Mirzə", "Molla", "Ayaq üstə dayanmış qadın", "Oturmuş qadın", "Gənc oğlan" rəsmləri Azərbaycan İncəsənət Muzeyində, "Çiçəklər və quşlar" Sankt-Peterburqda Ermitajda

---

[1] Rasim Əfəndi. **Azərbaycan incəsənəti** / Bakı, Şərq-Qərb, 2007, s. 114.

[2] Yenə orada, s. 115.

saxlanılır.[1]

M. Q. İrəvani ən böyük nailiyyətlərini portret janrında əldə etmişdir. “Abbas Mirzə”, “Məculla Mirzə”, “Gənc qadın”, “Qadın” portretlərində M.Q.İrəvani yerli milli ənənələrə sadiq qalmaqla yanaşı, bu, orta əsr Azərbaycan miniatürlərində köklü surətdə fərqlənir. İlk növbədə bu əsərlərdə realizm hiss edilir ki, bu da Azərbaycan rəssamlığında realizmin ilk nümunəsi hesab edilir. Xüsusilə, tarixi portret janrının müəllif tərəfindən inkişaf etdirilməsi təqdirəlayiq hal hesab edilir. Bu portretlər mütəxəsislər tərəfindən Azərbaycan incəsənəti tarixində yağlı boya ilə çəkilmiş ilk əsərlərdən hesab olunur.

Yuxarıda qeyd edildiyi, kimi M. Q. İrəvani təkcə kətan üzərində deyil, həm dəri və sümük üzərində gördüyü işlərlə məhşur olmuşdur. Bu baxımdan onun Ermitajda saxlanan bir əsəri-hədiyyə üçün nəzərdə tutulan qovluq daha səciyyəvidir. Əsərin maraqlı cəhəti onda milli ornamental sənətimizin ən gözəl nümunələrinin əks olunmasıdır.

Azərbaycan təsviri incəsənətinin maraqlı bir dövrünə təsadüf edən M. Q. İrəvaninin yaradıcılığı heş şübhəsiz incəsənətimizin bu sahəsinin inkişafına mühüm təsir göstərmişdir. Təəssüflər olsun ki, rəssamın bir çox əsərlərinin itməsi onun yaradıcılığı haqqında daha dolğun təsəvvür yaratmağa imkan vermir. Bununla bərabər, demək olar ki, rəssamın yaradıclığı Azərbaycan təsviri incəsənəti sahəsinə mühüm və müsbət yenilik gətirmişdir. M. Q. İrəvaninin yaradıcılığı üçün səciyyəvi olan ən mühüm xüsusiyyət orta əsr miniatür sənətinin üslub əlamətləri ilə realist təsviri vasitələrin ahəngdarlıq təşkil etməsi hesab edilir.[2]

İrəvanda monumental-dekorativ boyakarlığın inkişafı XIX əsrin ikinci yarısında da davam etmişdir. Kökləri orta əsrlərə gedib çıxan bu sənət sahəsinin ən görkəmli nümunələri İrəvanda azərbaycanlılar məxsus olan memarlıq abidələrinin, evlərin divarlarında əks olunmuşdu. Qeyd etmək lazımdır ki, əgər əvvəlki

---

[1] **Azərbaycan Sovet Ensiklopediyası /** VI cild, Bakı, 1980, s. 517-518.

[2] Rasim Əfəndi. Göst.əsəri / s. 116.

dövrlərdə memarlıq abidələrinin bəzədilməsində istifadə edilən ünsürlərin əsasını kaşı təşkil edirdisə, artıq XIX bunlar daha çox boyakarlıq sənəti ilə əvəz olunmağa başlamışdı.

İrəvanda dekorativ-boyakarlıq sənətinin XIX əsrin ikinci yarısındakı inkişaf mərhələsi də bilavasitə M.Q.Qədim İrəvaninin adı ilə bağlıdır. Bu sahədə M.Q.İrəvaninin gördüyü ən mühüm işlərdən biri onun 1850-ci ildə İrəvan Sərdar sarayının divar rəsmlərini bərpa etməsi hesab edilir. Sarayı qədim divar bəzəklərini bərpa etməklə yanaşı, rəssam həm də, özü bir neçə portret yaratmışdır. Rəssamın Bakıda yaşayan qohumlarının verdiyi məlumata görə o, burada yağlı boya ilə 2 m. hündürlüyündə, 1 m. enində möhtəşəm portret çəkmişdi. İrəvaninin bu əsərləri incəsənət tarixində yüksək qiymətləndirilmiş, “Asiya boyakarlığının ən yüksək nümunəsi” hesab edilmişdir.[1] Tarixi məlumatlardan aydın olur ki, 1918-ci ildə erməni vandalları Sərdar sarayını dağıtdığı zaman rəssamın çəkdiyi “Sərkərdə”, “Fətəli şah” əsərləri Gürcüstana aparılmış və indiyədək Tiflisdə Gürcüstan Dövlət Muzeyində saxlanmaqdadır. Təssüf ki, İrəvanda yerləşən memarlıq abidələrimizin əksəriyyətinin taleyi Sərdar sarayının taleyini paylaşmışdır.

İrəvan rəssamlıq məktəbinin formalaşmasında xalq sənəti növlərinin, tətbiqi incəsənətin mühüm rolu olmuşdur. Azərbaycanın digər şəhərləri ilə yanaşı, İrəvanda da yaşayan yüzlərlə sənətkar daxili və xarici bazarlar üçün müxtəlif sənət nümunələri düzəldirdilər. Bu dövrdə İrəvanda yerləşən boyaqxanalar, dulusçuluq, misgərlik, pambıq-ipəksarıyıcı müəsisələrdə yüzlərlə müxtəlif peşə sahibləri-dəmirçilər, dülgərlər, zərgərlər, milli musiqi alətləri hazırlayan ustalar çalışırdı. Kustar sənayenin bəzi sahələri, məsələn, silahqayırma hakim dairələr tərəfindən qadağan edilməsinə görə tamamilə aradan çıxmışdı. Bəzi sənət sahələri Rusiyadan gətirilən ucuz fabrik malları ilə rəqabətə dözməyərək tənəzzül edirdi.

Azərbaycanın qədim sənət sahələrindən olan xalçalıq XIX

---

[1] Kərimov, K. İrəvan sərdarının sarayı / **Yeni fikir qəzeti**, 18 oktyabr 1995, №5.

əsrdə də inkişaf dövrünü keçirirdi. Bu dövrdə digər sahələrdə olduğu kimi xalçaçılıqda da yeni gözəçarpacaq yeniliklər meydana gəlməkdə idi. Dekorativ sənətlər içərisində mühüm yer tutan xalçaçılıq sənəti İrəvanda da geniş yayılmışdı. Üslubuna görə Qarabağ və Təbriz xalçaçılıq məktəbinə yaxın olan İrəvan xalçaçılıq məktəbinin nümunələri zaman-zaman xarici ölkələrə daşınmışdır. Bu xalçalardan bir çoxu hazırda dünya muzeylərində "erməni", "Yerevan xalçaları" adı altında dünya ictimaiyyətinə nümayiş etdirilir; halbuki, ermənilər xalçaçılıqla məşğul olmamışlar, həmin xalçaların üzərində həkk olunmuş ornamentlər isə Azərbaycan milli mentalitetinin nümunələridir.

Azərbaycanın digər şəhər və kəndlərində olduğu kimi İrəvanda da inkişaf etmiş sənət sahələrindən biri də təkəlduzçuluq olmuşdur. Bu sənət İrəvanda xüsusilə qadınlar arasında geniş yayılmışdı. İrəvan təkəlduzçuları milli ornamentlərin incəsənətimizdə yaşamasında xüsusi rol oynamışdılar. Gənc yaşlarında M.Q.İrəvaninin yerli təkəlduzçular üçün nümunələr-ornamental çeşnilər hazırlaması məlumdur.[1] Bundan başqa, M.Q.İrəvaninin çəkdiyi portretlərdə bədii tikmənin ən zəngin nümunələri öz əksini tapmışdır.

Bu gün İrəvandakı Qədim Əlyazmalar İnstitunda Matenadaranda saxlanan azərbaycanlılara aid yüzlərlə əlyazma, basma naxışlı kitabda İrəvan boyakarlıq və xəttatlıq məktəbinin ən gözəl nümunələri əks olunmuşdur. İrəvanın özündə boyakarlıqla məşğul olan Şiləçi adlanan məhəllə olmuşdur[2].

**Teatr.** XIX əsrin 70-ci illərində Azərbaycanın mədəni həyatında baş verən əlamətdar hadisələrdən biri də milli teatrın əsasının qoyulması olmuşdur. 1873-cü ildə Bakıda verilən teatr tamaşası həm də müsəlman şərqində ilk teatr tamaşası hesab edilir.[3] Milli intibahın təcəssümü əlamətlərindən biri olan teatrın

---

[1] Rasim Əfəndi. Göst.əsəri / s. 114.

[2] **İrəvan Xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi** / s. 199.

[3] **Azərbaycan tarixi** / 7 cilddə, IV cild, s. 397.

yaranması Azərbaycan mədəni mühitində mühüm rol oynamış İrəvanda da izsiz ötüşmədi. İrəvanın maarifpərvər və ziyalı təbəqələri bu mütərəqqi hadisəyə tez reaksiya verdilər və analoji tamaşalar burada da təşkil edilməyə başladı.

İrəvanda Azərbaycan teatrının inkişafına istər erməni, istərsə də Azərbaycan tarixşünaslığında tədqiqat işləri həsr edilmişdir. Bu tədqiqat işlərində İrəvanda ilk Azərbaycan teatr tamaşasının verildiyi tarixin 1886-cı il olması qeyd edilir.[1] Azərbaycan Sovet Ensiklopediyasında da bu tədqiqatlara əsaslanaraq eyni fikir təkrar edilir.[2] Həmçinin, son dövr Azərbaycan tarixşünaslığının mühüm nəşrlərindən biri olan çoxcildlik "Azərbaycan tarixi"ndə də İrəvanda göstərilən tamaşanın tarixinin 1886-cı il olması göstərilir.[3]

Uzun illər Qərbi Azərbaycanın mədəni-siyasi həyatına dair tədqiqatlar aparmış İ.Məmmədov bu qənaətlərlə razılaşmır və yuxarıda göstərilən tədqiqatlarda ciddi elmi qüsurlara yol verildiyini göstərir. Müəllif İrəvanda nəşr edilən "Psak" (Çələng) qəzetinin 1882-ci il 10 aprel nömrəsində dərc edilmiş məqaləyə əsaslanaraq göstərir ki, İrəvanda ilk Azərbaycan tamaşası 1882-ci ildə göstərilmiş "Tamahkarlıq düşmən qazanır" adlı tamaşa olmuşdur.[4] İrəvanın kasıb müsəlman tələbələrinə kömək məqsədilə təşkil edilmiş tamaşa Azərbaycan dilində iki dəfə göstərilmiş və hamının rəğbətini qazanmışdır.

İrəvanda Azərbaycan teatrının qazandığı uğurlar sonralar erməni mətbuatında da etiraf edilmişdir. Məsələn, 1896-cı dekabrın 19-da "Nor dar" (Yeni əsr) qəzetində erməni dramaturqu Emin Qriqoryan həmin il dekabrın 2-də İrəvanda tamaşaya qoyulmuş "Müsyö Jordan və Dərviş Məstəli şah" tamaşası haqqında yazırdı: "Tamaşanı ümumi xeyriyyə işinin başlanğıcı hesab

---

[1] Rzayev, S. **Ermənistanda Azərbaycan teatrı** / Bakı, Ağrıdağ, 1963, s. 107.
[2] **Azərbaycan Sovet Ensiklopediyası** / VI c, Bakı, 1980, s. 129.
[3] **Azərbaycan tarixi** / 7 cilddə, IV c. s. 397.
[4] Məmmədov, İ. **Tariximiz, torpağımız, taleyimiz** / Bakı, Adiloğlu, 2003, s. 575-576.

etmək lazımdır. Tamaşa, əlbəttə, türk dilində idi və özlərinin həyatından alınmışdı. Onu ayrıseçkilik qoymadan yerli gimnaziyanın şagirdlərinin xeyrinə oynadılar..... Tamaşaçıların böyük əksəriyyəti erməni və azərbaycanlılardan ibarət idi. Ruslar da var idi, bir neçəsi də öz arvadı ilə gəlmişdi. Salon tamaşaçılarla dopdolu idi".[1] Qeyd etmək lazımdır ki, XIX əsrin 80-ci illərində həvəskarlar səviyyəsində fəaliyyətə başlayan İrəvan teatr məktəbi XX əsrdə şöhrətli sənət yolu keçmişdi. XIX əsrin sonu XX əsrin əvvəllərində İrəvan şəhəri mədəniyyətinin bütün sahələrində olduğu kimi, teatr sənətinin təşəkkülü və inkişafı baxımından da ən qabaqcıl mərkəzlərdən biri olmuşdur.

Dünya təcrübəsi göstərir ki, bu və ya digər məkanda teatrın meydana gəlməsi və inkişafı üçün əlverişli mədəni şəraitin olması vacib məqamdır. Bu, bir tərəfdən teatr sənətinin sirlərinə hərtərəfli yiyələnmiş kollektivin, digər tərəfdən teatr sənətini dərk etməyə qadir tamaşaçı kütləsinin formalaşması ilə bağlıdır. Əgər, artıq XIX əsrdə İrəvan şəhərində Azərbaycan teatrı fəaliyyətə başlayıbsa, bu, o deməkdir ki, uzun əsrlər boyu burada yaşayan Azərbaycan türkləri bu dövrdə teatr sənətini yaratmağa və onu dərk etməyə qadir yüksək mədəni səviyyəyə qalxmışlar.

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, İrəvan şəhəri XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin qabaqcıl mərkəzlərindən biri olmaqla, eyni zamanda dini fanatizmin tüğyan etdiyi məkanlardan biri idi. Göstərilən bu hal teatr sənətinin inkişafına, xüsusilə tamaşaçı kütləsinin formalaşmasına mənfi təsir göstərirdi. Teatrın inkişafı yolunda əngəl olan mövhumatla mübarizə aparmaq və onu dəf etmək üçün əsl sənət fədailəri tələb olunurdu.

İrəvan teatrının təşəkkülündə və inkişafında, onun bütün Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların ruhi-mənəvi və mədəniyyət mərkəzinə çevrilməsində hələ gənc yaşlarında İrəvan dram teatrında səhnəyə qədəm basmış, sonralar isə onun korifeyinə çevrilmiş Yunis Nurinin rolu əvəzedilməzdir. O, 1878-

---

[1] Məmmədov, İ. **Tariximiz, torpağımız, taleyimiz /** s. 577-578.

ci ildə İrəvan şəhərində anadan olmuşdur. Şərq ədəbiyyatının, o cümlədən ərəb və fars dillərinin gözəl bilicisi olan Yunis Nuri İrəvanda Azərbaycan mədəni həyatının önündə gedən fədakar ziyalılardan biri olmuşdur. O, teatra bağlandığı ilk gündən ömrünün sonunadək (1950) İrəvan Azərbaycan teatrının sütunu, yaradıcı kollektivin mənəvi atası, müəllimi olmuşdur. İrəvan Azərbaycan teatrında qadın rolunun ilk ifaçısı Yunis Nuri olmuşdur. Yunis Nuri "Müsyö Jordan və Dərviş Məstəli şah" əsərində Şəhrəbanu xanım rolunu o qədər gözəl və sənətkarlıqla yaratmışdı ki, tamaşaçılar qadın rolunu oynayanın kişi olduğunu belə müəyyənləşdirə bilməmişdilər.[1] Digər tədqiqatlardan məlum olur ki, Yunis Nuri Hüseyn Ərəblinski kimi sənətkarlarla bir səhnədə çıxış etmiş, 1903-cü ildə Mirzə Cabbar Məhəmmədzadə, Mustafa Rəcəbov, Asif bəy Şəfibəyov, Həsən Əliyev kimi açıq fikirli ziyalıların köməkliyi ilə mütəşəkkil həvəskarlar dəstəsi yaradaraq, teatrın yeni bir inkişaf mərhələsinə qədəm qoymasına yol açmışdır. Onun bilavasitə iştirakı və rəhbərliyi ilə Vasaq Mədətovun "Qırt-qırt", "Tamahkarlıq düşmən qazanar", "Gözə görünməyən şal", M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" əsərləri tamaşaya qoyulmuşdur.[2]

1905-ci il hadisələri gərginləşdiyi zaman mədəniyyətin digər sahələri kimi, İrəvan Azərbaycan teatrı da böhran dövrü keçirmişdir. Ermənilərin 1905-ci ildə törətdikləri vəhşiliklər İrəvanda Azərbaycan mədəni həyatına ağır zərbə vursa da, teatrın fədakar kollektivi bu sənət ocağının inkişafına təkan verməklə yanaşı, tamaşaların bədii səviyyəsini yüksəltməyə çalışırdılar. 1905-1918-ci illər ərzində Azərbaycan teatrının böyük sənətkarları Hüseyn Ərəblinski, Mirzəağa Əliyev, Sidqi Ruhulla, Mustafa Mərdanov, Əliqulu Qəmküsar, Zülfüqar Hacıbəyov, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mərziyyə Davudova və başqalarının etdikləri qastrol səfərləri İrəvanın mədəni həyatının oyanmasına, yerli aktyorların səhnə yaradıcılığına, teatrın dərnək səviy-

---

[1] Allahverdiyev, C. **İrəvan ədəbi mühiti** / Bakı, Elm, 2010, s. 187.
[2] Rzayev, S. **Yunis Nuri** / Yerevanlı Ə, - İrəvan, 1980, s. 56.

yəsindən peşəkar teatr səviyyəsinə yüksəlməsinə böyük təsir göstərmişdir. Əvvəllərdə olduğu kimi, yenə də Azərbaycan teatrlarının repertuarında mərkəzi yeri Azərbaycan dramaturqlarının – M.F.Axundovun, N.B.Vəzirovun, Ə.Haqverdiyevin, N.Nərimanovun, C.Məmmədquluzadənin əsərləri tuturdu.[1]

XIX əsrdə Azərbaycan memarlığında yerli ənənələrin saxlanması ilə yanaşı, bir sıra yeni əlamətlər də meydan gəlməkdə idi. İrəvanda yerləşən azərbaycanlı evləri üçün səciyyəvi cəhət eyvanların və ya örtülü bakonların, otağın interyerində müxtəlif köməkçi vasitələrin – taxça, ləmə, camaxadan, rəf, buxarının olması hesab edilir. Başqa sözlə, bu əlamətlər Azərbaycanın digər bölgələrində özünü göstərirdi. Lakin Azərbaycan yaşayış məskənləri üçün ümumi olan xüsusiyyətlər müxtəlif bölgələrin şəraitindən asılı olaraq evlərin ümumi strukturunda bu və ya digər izah və əhəmiyyət daşıyırdı.[2] XIX əsr Azərbaycan yaşayış binalarının səciyyəvi xüsusiyyətləri binaların bir qayda olaraq əsas açıq fasadla torpaq sahəsinin dərinliyində, həyət və ya bağın dərinliyinə çevrilmiş şəkildə olması idi. Əgər ev küçəyə yaxın tikilirdisə, onun küçəyə baxan divarları pəncərəsiz olurdu. Evə giriş əksər hallarda həyət tərəfdən yerləşdirilirdi.

Azərbaycanda yayılmış qədim mənzil tiplərindən biri qaradamlar olmuşdur. Qaradamların analogiyaları öz əksini Gürcüstanda tapmışdı.[3] Cənubi Qafqaz ərazisində qaradamların yealtı, yarımyeraltı və yerüstü kimi üç növü yayılmışdı. Ümumilikdə XIX əsrdə azərbaycanlılar yaşayan ərazilərdə yayılmış yaşayış məskənlərinin mütəxəsislər tərəfindən aşağıdakı növləri müəyyənləşdirilmişdir:

1) qaradam tipli evlər;

2) gümbəzli evlər;

---

[1] **Azərbaycan tarixi** / 3 cilddə, III c, Bakı, Az. SSR EA-nın Nəşriyyatı, 1968, s. 919-921.

[2] Усейнов, М. **История архитектуры Азербайджана. Госстройиздат** / Бретанский Л. Я, - М, 1963, с. 327.

[3] Ильна, М.И. **Древнейшие типы жилищ Закавказя** / М, 1944, с. 14.

3) yaşayış binaları bir cərgə ilə düzülmüş eyvansız evlər;

4) yaşayış binaları ikicərgəli düzülmüş evlər;

5) sərbəst tipli evlər qismində "vestübülü" təkcərgəli evlər.[1]

XIX əsr İrəvan memarlığında bu mənzil tiplərinin hamısına təsadüf edilirdi.

XIX əsrdə İrəvanda Azərbaycan memarlarının ucaltdıqları, Azərbaycan zadəganlarına məxsus şəxsi mülklər, yaşayış evləri öz bitkin memarlıq üslubuna görə əsl abidə adı daşımağa layiqdir. Bu baxımdan İrəvan xanı Hüseynqulu xanın qardaşı Pənah xana məxsus olan mülk[2], xüsusilə səciyyəvidir. Pənah xanın evi Avropa üslubunda, giriş qapısı küçəyə açılan və pəncərələri küçəyə baxan şəkildə inşa edilmişdir. Eyni sözləri Əli xanın Şəhər küçəsində yerləşən evi[3] haqqında da demək olar. İrəvan şəhərində sırf yeni Avropa memarlıq üslubunda inşa edilmiş binalardan biri keçmiş Astafyev küçəsində yerləşən Müəllimlər Seminariyasının binası[4] hesab edilə bilər. Ümumilikdə bu dövrdə İrəvan şəhərinin ümumi görünüşü əvvəlki dövrlərə nisbətən nəzərəçarpacaq dərəcədə dəyişməmişdi. Hətta, Ermənistan sovetləşən dövrədək şəhər özünün şərq-müsəlman şəhərlərinə xas olan ümumi görünüşünü saxlamışdı.

İrəvan ətrafında və eləcə də Qərbi Azərbaycanın digər bölgələrində XIX əsrdə yeni binaların, körpülərin, məscidlərin tikilməsi davam edirdi.

XIX əsrin ikinci yarısında İrəvanın mədəni həyatının araşdırılması göstərir ki, bölgə özünün mədəni səviyyəsinə görə Azərbaycanın seçilən ərazilərindən olmuş, bu dövrdə Azərbaycan mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilmişdir. Mədəniyyətin ən müxtəlif sahələrində şəhərin əldə etdiyi uğurlar

---

[1] Усейнов, М. **История архитектуры Азербайджана /** Бретанский Л.Я, с. 329.

[2] Арутюнян, В. **Ереван** / Асратян.М, Меликян.А, -М, 1968, s. 43; Ələkbərli, Ə. **Qərbi Azərbaycan abidələri /**Bakı, Nurlan, 2007, s. 246.

[3] Ələkbərli,Ə. Göst.əsəri / s. 248.

[4] Yenə orada.

bu fikri bir daha təsdiqləyir. İrəvanın bu dövrdə Azərbaycan mədəniyyətinə bəxş etdiyi simalar həmin dövrdə Azərbaycanın barmaqla sayılacaq qədər az iki-üç şəxsiyyətlərindən biri olmuşlar. Əgər XIX əsrin ikinci yarısında Azərbaycan rəssamlarından Mir Möhsün Nəvvab, Muğanlı Əvəzin adını çəkiriksə, bu şəxsiyyətlərlə eyni səviyyədə duran şəxslərdən biri də İrəvan mühitinin yetirdiyi M. Q. İrəvani olmuşdur. Əgər İrəvanda ilk teatr 1882-ci ildə göstərilmişdisə, bu Şuşada eyni ildə, Naxçıvanda bir il sonra, Gəncədə isə 1899-cu ildə baş vermişdi. Bütün bu faktlar İrəvanın Azərbaycan mədəniyyətində mühüm yer tutmasını, ölkədə baş verən mədəni yenililərin önündə gedən mərkəzlərdən biri olmasını göstərir.

## 4.4. Səhiyyə

İrəvan şəhərində səhiyyənin də inkişaf tarixi Azərbaycan tarixşünaslığında kifayət qədər işıqlandırılmamışdır. Lakin bütövlükdə Şimali Azərbaycanda təbabətin tarixinə və onun inkişafına həsr olunmuş bir neçə əsər vardır ki, onlarda sovet hakimiyyəti qurulana qədər olan dövrdə Şimali Azərbaycanda səhiyyənin və təbabətin vəziyyəti haqqında qısa məlumat verilir.[1]

İlk növbədə, XIX-XX əsrlərdə Qafqazda, bir hissəsi isə İrəvanda hərbi xidmətdə olmuş Oktyabr çevrilişinə qədərki müəlliflərin əsərlərini qeyd etmək lazımdır. Onlar nəinki yoluxucu xəstəliklərin yayılmasını, həm də şəhərin gigiyenik şəraitini öyrənmiş, İrəvanın sanitar vəziyyətinin tibbi-topoqrafik təsvirlərini yaratmışdılar.[2]

Nəşr olunmuş arxiv materialları arasında yoluxucu xəstəliklərlə mübarizə haqqında qiymətli məlumat verən Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarını qeyd etmək lazımdır.[3]

Məlum olduğu kimi, xalqımız qədim zamanlarda tibb sənətinə bələd olub və ənənəvi tibb müəyyən səviyyəyə çatmışdı. Ruhani-dini məktəbləri olan mədrəsələrdə ilahiyyatla yanaşı tib-

---

[1] Эфендиев, И.К. **История медицины в Азербайджане с древнейших времен до 19 века /** Баку, Изд-во АН Азерб, 1964; Эфендиев, М.Э. **Развитие научной медицинской мысли в Азербайджане (по данным врачебных съездов, конференций и совещаний) /** Мехтиев А.Д, - Баку, Изд-во АН Азерб, 1968 г; Eminova, Z.S. **XIX-XX əsrin əvvəllərində Eminova Ziyafət. XIX-XX əsrin əvvəllərində Azərbaycanda səhiyyənin tarixi** / Bakı, 2015 ; Ибрагимов, М.А. **Здравоохранение Советского Азербайджана /** Медицина, М. 1967.

[2] Бардавский, А.И (1847 г), Гульбинский (1865 г.), Гарчинский И.А (1876 г.), Торопов, Н.И. **Опыт медицинской топографии Кавказа,** его же **"Опыт медицинской географии Кавказа относительно перемежающихся лихорадок (1864 г.);** Доброславин, А.П, "Два месяца в Кавказской действующей армии" / напечатанной в журнале **"Здоровье",** - исследование в области военной гигиены в Иревани; Пантюхов, И.И. **О народном врачевании в Закавказском крае (1898г)** / Медицинский сборник Кавказского медицинского общества. № 62, 1899

[3] **АКАК** / т.7, Тифлис,1878. док.№ 447-453, s. 494-497.

bi təhsil də verilirdi, burada ruhanilərlə yanaşı, həm də təbiblər-həkimlər yetişdirilirdi.

Müalicə ilə bərbər (qan tökmə, sünnət, zəli ilə müalicə), sınıqçılar (sınıq və çıxıq olduqda kömək edənlər), çöpçülər (boğaz və s. xəstəliklərini müalicəsi ilə məşğul olanlar), mamaçalar və başqaları (mollalar, "baxıcı" və sehrbazlar və i.a.) məşğul olurdular.[1] Ümumiyyətlə, əhali arasında sanitariya mədəniyyəti çox aşağı səviyyədə idi. Bir qayda olaraq, hər hansı bir xəstəliyin müalicəsi ilə bağlı olan dini ayinlər geniş yayılmışdı.

İrəvan xanlığının işğalı və xanlığın Rusiya imperiyasına qatıldığı dövrdə İrəvanda və bütövlükdə bölgədə heç bir tibbi müəssisə olmadığından, yerli əhali tibbi yardımı avropalı həkimlərdən almağa çalışırdılar. Bu, 1810-1812-ci illərdə İngiltərənin İrandakı elçisinin şəxsi katibi və qardaşı Ausleyin dəstəsində olan cərrah Şarpi və Yaxın Şərqə səyahəti zamanı İrəvan xanlığında olan general Qardan idi.[2] Bu missiyanın tərkibində böyük miqdarda dərmanları olan, yerli əhaliyə yardım edən həkim Salvatori də var idi.[3]

XIX əsrin birinci yarısında bütün müalicə işləri İ.Şopenin qeyd etdiyi kimi, rus tədqiqatçılarının çox vaxt ərəb təbabəti üsulları ilə müalicə edən "Asiya həkimləri" adlandırdıqları türkəçarəçilərin, bərbərlərin, sınıqçıların əlində cəmləşmişdi. Onun sözlərinə görə, məsələn, 1827-ci ilə qədər İrəvan şəhərində 1 azərbaycanlı, 3 erməni həkim və həkim köməkçisi, 2 erməni sınıqçı var idi.[4]

Bərbərlərə gəldikdə isə onlar banka, zəli qoyur, qan alır və gigienik məqsədlərlə baş qırxırdılar. Burada xüsusi müalicəvi zərurət olmadan saqqalı və bığı qırxmaq qəbul olunmurdu.

---

[1] Акопян, Т.Х. **Очерки истории Еревана** / s. 188.

[2] Оганесян, Л.А. **История медицины Армениии с древнейших времен до наших дней /** В 5-ти частях, 4.4, Ереван, 1947, Тип-я АН Арм. ССР, с.3.

[3] Yenə orada, s. 4.

[4] Шопен, И. Указ. раб., / с. 916.

Məhz, buna görə də bərbərləri həkimlik peşəsinə aid edirdilər.[1] İ.Şopen yazırdı ki, bərbərlər "əla boşboğaz və böyük fırıldaqçılar idilər".[2] Bütün "Erməni vilayəti"ndə onların sayı 239 nəfər idi ki, bu da onların funksiyalarının əsas peşə məşğuliyyət növü ilə məhdudlaşmadığını göstərirdi.[3] Yerli həkimlər burada aptek olmadığına görə, lazımi dərmanları özləri hazırlayır və çatdırırdılar.[4]

Səyyah Moritsa fon Kotsebunun məlumatına görə, xanlıq dövründə İrəvan şəhərində özəl təcrübə ilə məşğul olan Avropa təhsilli şəxslər var idi.[5] Fon Kotsebunun məlumatına görə, İrəvan şəhərində Lafoss və Sanqrado kimi iki avropalı həkim tibbi təcrübə ilə məşğul olurdu.[6] İrəvan sərdarının yanında tibbi təhsili olmayan iranlı saray həkimi var idi.

Rusiyadan İrəvan şəhərinə gəlmiş azsaylı hərbi və mülki həkimlər də yerli əhaliyə tibbi yardım edirdilər.[7] Hərbi Nazirliyin (1869-cu il iyulun 15-də təsdiq edilmiş "Daimi hərbi xəstəxanaların vəziyyəti haqqında" 260 №li fərmanına İrəvan və Naxçıvan şəhərlərində hərbi və dövlət qulluqçularına xidmət edən hərbi xəstəxanalar əsasən) açılmışdı. Yerli təbiblər diplomlu həkimlərlə yanaşı, həkim kimi şəhər xidmətinə qəbul olunmuşdular.

İrəvan hərbi xəstəxanası İrəvan qalasında, sərdar Hüseynqulu xanın keçmiş hərəmxanasında yerləşmişdi. "Rusiya imperiyasının hərbi-stastistik təsvirində (İrəvan quberniyası üzrə)" orada 250 çarpayının olduğunun göstərilməsinə baxmayaraq, bu xəstəxana 300 nəfər üçün nəzərdə tutulmuşdu.[8] Xəstəxananın

---

[1] Оганесян, Л.А. Указ. раб., / с. 6.
[2] Шопен, И. Указ. раб., / с. 916.
[3] Оганесян, Л.А, Указ. раб., с.14.
[4] Yenə orada.
[5] Yenə orada, s. 14.
[6] Yenə orada, s. 7.
[7] Yenə orada, s. 11.
[8] **Эриванская крепость; Эриванские госпитали и лазарет. Военно-статистическое обозрение Российской империи: издаваемое по высочайшему повелению при 1-м отделении Департамента Генерального шта-**

bütün otaqları əlverişli və geniş idi. Sarayın içərisində böyük çarhovuz da var idi.

Qeyd etmək lazımdır ki, Qafqazdakı həkimlərin maddi vəziyyəti ağır idi. Belə ki, XIX əsr Qafqaz hərbi təbabətinin tanınmış siması İ.İ Pantyuxov yazırdı: "Hərbi xidmətə daxil olan həkim, necə deyərlər,  nə ət, nə balıq, nə hərbçi, nə də mülki şəxs olurdu. Həkimlərə mülki rütbə verilirdi, bir çox məsələlərdə onların üzərinə zabitlərlə eyni vəzifələr qoyulsa da, onlar sonuncularla bərabər hüquqlara malik deyildilər. Ona görə də, kadr problemi ilə yanaşı müharibə və silahlı üsyanlar səbəbindən əhəmiyyətli dərəcədə peşəkar iş yükü ilə yüklənən, Qafqaza tibb fakültələrini bitirən çox az sayda tələbə getməyə tələsirdi".[1]

Yuxarıda adı çəkilən xəstəxananın heyəti Baş həkimdən, aptekə rəhbərlik edən böyük və kiçik əczaçıdan, nəzarətçidən, komissardan və mühasibdən, həmçinin katib, feldşer və aptek tələbələri (17 nəfər), səyyar təkərli əlil arabaçıları və qulluqçulardan ibarət idi (75 adam).[2]

İrəvanın iqlimi kifayət qədər isti və sağlamlıq üçün əlverişsiz olduğundan, iyul-oktyabr aylarında xəstəxana daim mühəndis şöbəsi tərəfindən dövlət hesabına təmir olunan adi evlərdə və saraylarda yerləşməklə Kənəkir kəndinə köçürülürdü.[3]

Hərbi xəstəxanaların nəzdində, əsasən mülki məmurlar üçün dərmanların buraxılışına icazə verən apteklər* açılmış, "yerli əhali isə uzun müddət tibbi yardım almaqdan məhrum olunmuşdu. Onlar müxtəlif ədviyyat və hətta, zəhərli maddələrin satıldığı rəngsaz dükanlarının xidmətlərindən istifadə edirdilər". [4]

---

**ба** [трудами офицеров Генерального штаба], СПб.: Тип. Деп. Ген.штаба, 1848-1858, т.16, ч.6, Эриванская губерния / [по рекогносцировкам и материалам, собр. на месте, сост. Услар], 1853, с. 286-288, 295.

[1]Пирожков, В.В. "Демократическая направленность взглядов передовых кавказских врачей XIX и начала XX века"/ **Советское здравоохранение,** М, 1960, № 5, с. 30.

[2] **Военно-статистическое обозрение Российской империи (Эриванская губерния),** с. 295.

[3] Yenə orada.

[4] Оганесян, Л.А. Указ. раб., / с. 13.

Yerli sakinlərin hərbi xəstəxanalardakı müalicələrindən bəhs edən L.A.Ohanesyan, bəzi ədəbi mənbələrə (L.V. Orlovski) istinadən qeyd edir ki, belə nümunələr “sakinlərin rasional təbabətə qarşı qərəzliliyi və xəstələndikdə yerli təcrübəyə müraciət etmək vərdişi səbəbindən çox nadirdir”[1].

Məsələn, yerli əhali müalisə məqsədilə mineral sulardan geniş istifadə edirdi. Bunlar əsasən, Dərələyəzdə İstisu və qaşınma əleyhinə Kosapür bulaqları,[2] daha az əhəmiyyətli mineral su isə İ.Şopenin qeyd etdiyi keçmiş Əlincəçay rayonundakı bulaq idi.

L.A.Ohanesyan yazır ki, 1828-ci ildə Paskeviçin qoşunları tərəfindən İrəvan xanlığının işğalından bir neçə ay sonra Kosapür bulağının suyu kimyəvi analiz üçün Tiflisə göndərilmişdi.[3]

Qərargah həkim Tenyukov və əczaçı (provizor)* Gerştenberqə yerində mineral suyun temperaturunu, xüsusi çəkisini və karbon qazının miqdarını müəyyənləşdirmək tapşırılmışdı.[4] Ancaq sonrakı illərdə analiz dayandırıldı və Kosapür mineral su mənbələri Sovetlər dönəmində, Ermənistan SSR-in qurulduğu zaman azərbaycanlıların özlərinin köməyi ilə istismar olunmağa başlandı.[5]

Təəssüf ki, çarizmin zamanında İrəvan quberniyasının mineral bulaqlarının heç biri istismara verilməmişdi. Bu mənbələrdən geniş miqyasda rahat istifadə etmək üçün xalq özü lazımi şərait yaratmışdı. XIX əsrin 90-cı illərində bu işi təşviq etmək məqsədilə İrəvanda quberniyanın mineral sularının sərgisi də təşkil edilmişdi. Lakin bu iş uğurlu olmadı və çar hakimiyyəti dövründə İrəvanda bir dənə də balneoloji (mədən suları və palçıqlarının kimyəvi tərkibi və bunlarla müalicə üsullarından bəhs

---

[1] Оганесян, Л.А. Указ. раб., / с.13.

[2] Yenə orada, s. 17.

[3] Yenə orada, s. 13,15.

* Onun əczaçıdan əsas fərqi xüsusi orta ixtisas təhsilinin olması idi. Rusiya imperiyasında bu titul əczaçılıq dərəcəsi hesab olunurdu, bu dərəcə əczaçılıq üzrə tələbə və əczaçı köməkçisindən yuxarı və əczaçılıq magistrindən aşağı idi.

[4] **АКАК** / т.7, док.№ 447-453, с. 494-497.

[5] Оганесян, Л.А. Указ. раб., / с. 16.

edən elm) stansiyası yaradılmadı.[1]

Lakin buna baxmayaraq gigiyenik binalar, əsasən hamamlar inşa edilirdi. İ.Şopenin yazdığına görə, onlardan 9-u İrəvan, 3-ü Naxçıvan, 1-i Ordubad, 1-i İrəvan qalasında idi.

Sərdar hərəmxanasına məxsus olan hamam "mərmər və mozaika ilə bəzədilmişdi, amma nədənsə çox tez sökülmüşdü"[2]. Qalan hamamların vəziyyəti yaxşı deyildi.

Etnoqraf E.A.Lalayan, İrəvan əhalisinin etnoqrafik araşdırmasına dair əsərlərində yerli sakinlərin daşların, suyun, bitkilərin, ağacların, heyvanların, odun, günəşin müalicəvi gücünə inamı və istifadəsi haqqında yazır.[3]

XIX əsrin birinci yarısında tibbi məsələlərə dair heç bir dövrü jurnal nəşr edilməmişdi. Tədqiq olunan dövrdə İrəvanda stasionar müalicənin təşkili həm kəmiyyət, həm də keyfiyyət baxımından son dərəcə acınacaqlı vəziyyətdə idi. Çar dövründə çox məhdud sayda stasionar tibb müəssisələri fəaliyyət göstərirdi. Mövcud xəstəxanaların əksəriyyəti, nadir istisnalarla, xüsusi çarpayılara malik idi.

İrəvan şəhərində və bütövlükdə İrəvan quberniyasında xəstəxanaların vəziyyəti, "nə xəstəxanaların sayı, nə onların iş qabiliyyəti, nə də bütövlükdə tibb işinin keyfiyyəti baxımından çar Rusiyasının hətta ən geridə qalmış bölgələri ilə heç bir halda müqayisə oluna bilməzdi".[4]

Əhalinin maddi rifah səviyyəsinin və antisanitariya şəraitinin aşağı olması xəstələnmənin artmasına səbəb olmuşdu. Bu baxımdan xəstəxana çarpayılarına ehtiyac olduqca artmışdı. Stasionar tibbi yardım əhalinin yalnız az sayda xəstəxanaların yerləşdiyi ərazilərə yaxın yerlərdə yaşayan 15%-i üçün əlçatan idi..[5]

XIX əsrin 30-cu illərində, həm sakinlər, həm də hərbi və mülki məmurlar arasında epidemik xəstəliklərinin yayılmasının

---

[1] Оганесян, Л.А. Указ. раб., / с.. 15.
[2] Yenə orada, s. 18.
[3] Yenə orada, s. 21.
[4] Yenə orada, s. 17.
[5] Yenə orada, s. 18.

qarşısını almaq üçün, Gürcüstan Tibb İdarəsi İrəvan şəhərində açılması nəzərdə tutulmuş aptek üçün işçilərin sayı haqqında layihə, iki dərman kataloqu hazırlamışdı. Layihəyə əsasən, İrəvan apteki bu şəhərdə yerləşən xəstəxanalar və alaylar tərəfindən istifadə ediləcək Tiflis xəzinə aptekinin tibbi ləvazimatı ilə təchiz olunmalı idi.

İrəvan şəhərində açılacaq aptekin heyəti cəmi 8 nəfər olmalı idi və onlara il ərzində cəmisi 2140 rubl əməkhaqqı ödənilməsi nəzərdə tutulurdu.

Qraf Paskeviç daxili işlər nazirinə yazdığı 28 aprel 1830-cu il məktubunda buna həm də tibbi yardımların olmaması səbəbindən əhali arasında, xüsusən də İrəvanda ölüm hallarının artmasına səbəb olmasını əsas gətirərək, onun tərəfindən təqdim olunmuş layihənin təsdiq edilməsini xahiş etdirdi. Eyni zamanda, o, "bu müəssisələrin əsas məqsədinin sakinlərə göstərilən tibbi xidmətin onlara dövlət tərəfindən göstərilən xeyirxah diqqət və qayğının bilavasitə sübutu olacağını" əsas gətirərək, "apteklərin təşkil olunması xərcləri və maaşların qismən dərman satışından ödənilə biləcəyini" bildirirdi. [1]

Dövlət katibi Novoselsev Paskeviçə məktubunda dərmanların hərbi və mülki məmurlara və digər sakinlərə pul ödəmədən paylanılması üçün dövlət apteklərinin yaradılması ilə bağlı aşağıdakıları bildirmişdi: "Tibb İdarəsi düşünmür ki, dərman satışından əldə olunan gəlir bütün xərcləri ödəyə bilər". O, bunu onunla izah edirdi ki, "bir çox sakinlər sadəcə dərmanlardan istifadə etmirdilər, bu səbəbdən də Tibb İdarəsinin tabeliyində olan dövlətə məxsus apteklərin heç biri dərman satışından əldə olunan gəlirlə özünü saxlaya bilməz və reseptli dərman satışına nəzarət etmək qeyri-mümkündür, çətindir". [2]

İrəvan şəhərində bir aptekdə savadlı xalq həkimlərinin qeydləri əsasında əhaliyə dərmanlar verilirdi. Qafqaz həkimləri-

---

[1] **АКАК** / т.7, док.№162.

[2] Yenə orada, sən. № 180.

nin ikinci qurultayında çıxış edən A.O.Yaşvili qeyd edirdi ki, "Erməni həkimləri xalq müalicə üsulları zamanı daha çox tatar adlarından istifadə edirdilər. Adlar tatar, ərəb və fars adlarıdır, mətndə əvvəlcə tatar (Azərbaycan), daha sonra isə rus hərfləri ilə yazılıb".[1]

Məlumdur ki, o dövrdə Cənubi Qafqazın bir çox digər yerlərində olduğu kimi, İrəvan şəhərində də vəba epidemiyalar tez-tez müşahidə olunurdu. 1830-cu ilin avqust ayında 143 nəfər vəba xəstəliyinə yoluxmuş, bunlardan 52 nəfər ölmüşdü.[2] İrəvanda vəba ilə mübarizə aparmaq üçün ərazidə təchiz edilmiş 20 nəfərlik vəba kazarmaları yaradılmış, kazarmada qulluq etmək və evlərdə dezinfeksiya aparmaq üçün tibb işçiləri dəvət edilmişdi. Köhnə paltarların satışına ciddi nəzarət qoyulmuş, rus, Azərbaycan və erməni dillərində "Vəbadan necə qorunmaq olar?" başlıqlı broşüralar hazırlanaraq əhali arasında paylanmaq üçün göndərilmişdi.[3]

İrəvan şəhər idarəsi 20 min rubl borc almış, ancaq vəba epidemiyasının bütün dövrü ərzində həkimlərin, feldşer və sanitar işçilərin saxlanmasına 17428 rubl xərclənmişdi. Əgər epidemiyadan əvvəl həkimlər ayda 150 rubl alırdılarsa, vəba vaxtı 300 rubl, 15-20 rubl alan feldşerlər 60 rubl, sanitar işçiləri isə 30 rubl alırdılar. Vəsaitin qalan hissəsi dezinfeksiyaedici vasitələrin sifarişinə, xəstələrin saxlanmasına və xəstəxana avadanlıqlarının sifarişinə və s. xərclənirdi.[4]

---

[1] Яшвили, А.О. **Народная медицина в Закавказском крае** / Труды 2-го съезда кавказских врачей 30 сентября- 8 октября 1901 года**,** т.2, Под ред. А.А.Новицкого, Тифлис, 1903, s. 96; Yenə onun, **Народная медицина в Закавказском крае /** Тифлис, 1904, с. 118.

[2] **АКАК** / т.7, док№ 172.

[3] **Труды 1 съезда служащих врачей гражданского ведомства на Кавказе /** т.1, вып.1, Обзоры Кутаисской, Эриванской и Бакинской губерний и Дагестанской, Батумской и Карской областей, - Тифлис, 1914, s. 114.

[4] **Труды первого съезда кавказских врачей. Холерная эпидемия 1892 года на Кавказе /** т.2. вып.2, Тифлис, 1894, s. 197-202.

Vəbadan ən çox xəstələnmə və ölüm faizi Dəmirbulaq və Şəhər məhəllələrində qeydə alınmışdı. Bu, məhəllələrin zəif planlaşdırılması, təmiz hava axınına mane olan çirkli və pis qoxu yaradan əyri küçələrin olması, əsasən də sanitariya nəzarətinin olmaması ilə izah olunurdu.[1]

Şəhərin içməli su ilə təchiz edilməsi məsələsi İrəvan şəhər idarəsinin iclaslarında dəfələrlə müzakirə olunmuşdu. Bunun üçün şəhər rəhbərliyi iclasa azərbaycanlıların və ermənilərin zəngin şəxslərinin bir hissəsini dəvət etmişdi. Bu, arx inşası üçün, qalan məbləğin şəhər sakinlərindən toplanması şərti ilə Q.L. Kazarov tərəfindən elan edilmiş 10 min rubl hədiyyədən əlavə, könüllü ianələrin nə qədər olacağını öyrənmək məqsədi ilə edilmişdi. [2] İlk əvvəl ianənin 14705 rubl məbləğində olması qərara alınmışdı.

1887-ci il yanvarın 25-də İrəvan şəhər idarəsinin növbəti iclası keçirildi. İclasda ermənilər bildirdilər ki, "onlar vəd olunmuş ianədən imtina edirlər və bu işin həyata keçirilməsi üçün şəhər əhalisi adından borc götürmək lazımdır[3]". Borc Şəhər Duması tərəfindən 30 min rubl həcmində təyin edildi. O cümlədən Qırxbulaq bulağından (Sərdar bulağı) şəhərə içməli suyun qapalı içməli su arxı ilə, yerli istehsal olan saxsı borularla gətirilməsi təklif olundu. [4]

Bu işi həyata keçirmək üçün yaradılan komissiyanın tərkibinə şəhər dumasının üzvü Məşədi Cəfər Hacı Rəcəb oğlu da daxil edildi[45].[5] İrəvan şəhər idarəsinin iqtisadi şöbəsinin 4 oktyabr 1901-ci il tarixli hesabatına görə, İrəvan şəhərindəki Qırxbulaq bulağından su kəmərinin çəkilişi və istismarı barədə saziş layi-

---

[1] Копия с предписания гор, Эриванского Губернатора от 28 ноября 1892 года за № 3330 на имя г.и.д, Эриванского полицеймейстера// **Развитие Еревана ,** с. 291.

[2] Yenə orada, s. 315.

[3] Yenə orada, s. 286.

[4] Yenə orada, s. 294.

[5] Yenə orada, s. 317.

həsi bəyənildi və təsdiq edildi.[1]

Hələ XIX əsrin 50-ci illərində İrəvanda quberniya həkimi, şəhər həkimi, şəhər həkim köməkçisi-feldşer vəzifələri təsis edilmişdi. Şəhərdə 3-ü erməni, 4-ü azərbaycanlı olmaqla 7 həkim köməkçisi, 24 bərbər, 2 erməni sınıqçı var idi. XIX əsrin ortalarında İrəvanda xüsusi mamaça vəzifəsi də təsis edilmişdi. [2]

Eyni zamanda, çiçək peyvəndi ştatı yaradılmış və bu da çiçək xəstəliyindən ölüm hallarının azalmasına kömək etmişdi. Çiçək peyvəndi ideyasını təşviq etmək üçün rəhbərlik peyvənd olunmuş uşaqların valideynlərinə hər peyvənd üçün 20 qəpik verirdi.

Baxmayaraq ki, hərbi xəstəxanaların sayı Aleksandropol, Cəlal oğlu-Otlin və Axtı kimi müvəqqəti xəstəxanaların hesabına artmışdı, XIX əsrin 50-ci illərin axırlarına kimi İrəvan quberniyasında bir dənə də olsa mülki xəstəxana açılmamışdı. İrəvan hərbi xəstəxanasında 4 baş həkim, 1 əczaçı, Naxçıvan hərbi xəstəxanasında 2 həkim, 1 əczaçı, Cəlal oğlu-Otlində 4 həkim, 1 əczaçı, Aleksandropol hərbi xəstəxanasında 2 həkim, 1 əczaçı, Axtıda isə 1 həkim var idi.[3] Beləliklə, natamam şəkildə olsa da, bütövlükdə İrəvan əyalətində artmaqda olan mülki əhaliyə tibbi yardım göstərilirdi.

24 dekabr 1863-cü ildə quberniyalarda, əyalətlərdə kənd tibb məntəqəsinin təşkili haqqında qanun verildi. Bu qanunda, hər qəzada 7000 əhalisi olan ərazi üçün bir kənd həkimi, üç mamaça və bir feldşer nəzərdə tutulmuşdu. Təəssüf ki, bu da tibb işinin vəziyyətini yaxşılaşdırmadı və kadrların saxlanması üçün həmişə olduğu kimi, cüzi vəsait ayrılırdı.

Dərmanlar əsasən bazarlardakı dərman dükanlarında satı-

---

[1] Копия с предписания гор, Эриванского Губернатора от 28 ноября 1892 года за № 3330 на имя г.и.д, Эриванского полицеймейстера// **Развитие Еревана ,** с., 325.

[2]Оганесян, Л.А. Указ. раб., / сс. 13-14; **Кавказский календарь за 1852 год /** Тифлис, 1851, отд. стат.

[3] Оганесян, Л.А. Указ. раб., / с. 14.

lırdı. 1865-ci ilə qədər İrəvan şəhərində bir həkim, bir şəhər həkimi, bir aptek və dövlətə məxsus bir reseptura var idi. [1] "İrəvan şəhər dövlət idarəsi yanında kommersiya və təsərrüfat polisinin təlimatı"ndan göründüyü kimi, sağlamlığın qorunması üçün ticarət-təsərrüfat polisinin əməkdaşları məsuliyyət daşıyırdılar. .[2]

"Bütün ictimai xəstəlikləri müalicə etmək üçün xalq sağlamlığını yüksəltməyin və bununla birlikdə ictimai rifahı artırmağın zəruriliyi tamamilə aydın idi. Onun son məqsədinə – xəstəliklərin tamamilə aradan qaldırılmasına nail olmaq üçün həmin vaxtı tibbin malik olduğu vasitələr kifayət deyildi. Bu vasitələrin bütövlükdə əhalinin xəstəliklərinə qarşı mübarizədə heç bir əhəmiyyəti olmadığı və bu mübarizənin əhalinin gücü hesabına mümkün olacaq başqa üsullar tələb etdiyi ortaya çıxdı ..." [3]

Sənədlər göstərir ki, şəhər əhalisi arasında müxtəlif xəstəliklərin yayılması və ölüm hallarının çoxalması ən çox keyfiyyətsiz içməli suyun olması ilə bağlı idi. Qızılca və dəmrov kimi xəstəliklər hər yerdə geniş yayılmışdı; bir çox insanın həyatına son qoyan vəba, vəba epidemiyaları vaxtaşırı müşahidə olunurdu və çiçək xəstəliyi tez-tez tüğyan edirdi.

Qeyd etmək lazımdır ki, çar orqanları şəhər əhalisinin gigiyenik şəraitinin yaxşılaşdırılması üçün heç bir qayğı göstərmirdi; dəbdəbəli bağlar dağıdılır və yerlərində küçələr salınırdı. Çar idarəçilərini yerli əhalinin sağlamlığından daha çox öz rifahları, öz təhlükəsizlikləri narahat edirdi.

Qafqazda zemstvo müəssisələrinin olmaması tibbi yardımın göstərilməsinə mane olurdu. Qafqazda mülki şöbənin həkimlərinin birinci qurultayında hökumət tərəfindən xüsusi təşkil olunmuş sanitar nəzarətin olmadığı, sanitar idarəyə qayğının bütünlüklə kənd həkimlərinə həvalə edildiyi, onların bu sahədə

---

[1] Развитие Еревана после присоединения Восточной Армении к России (Сборник документов, 1801-1917 гг.). Составитель Т.Акопян. Ереван, 1978, с. 430.

[2] Yenə orada, s. 92.

[3] Осипов, Е.А. **Русская земская медицина** / И.В.Попов, П.И.Куркин, - М, 1899, s. 33.

fəaliyyətinin azaldığı qeyd olunurdu. İctimai xadimləri və müxtəlif xeyriyyə cəmiyyətlərini, bir qayda olaraq, kənd əhalisi arasında təhsil məsələləri daha çox narahat edirdi. [1]

1868-ci ildə zemstvo idarələrinin olmadığı quberniyalarda kənd tibb işinin təşkili ilə bağlı layihə təsdiq edildi. Qafqazın tibb şöbəsinin sabiq rəhbəri doktor A.Remmertin* sözlərinə görə, bu iş, yalnız XIX əsrin 80-ci illərində inkişaf etdirildi. Bunun səbəbi maddi çətinliklər və qismən yerli dilləri bilən lazımlı həkimlərin olmaması idi.[2]

A.A.Remmert həmçinin qeyd edirdi ki, Bakı və Tiflis şəhərlərindən başqa heç bir şəhərdə gələn xəstələr üçün təcili yardım otağı olan mülki xəstəxana yoxdur. [3]

Əhalinin çətin vəziyyətini bir qədər yüngülləşdirmək üçün 1872-ci ildə İrəvanın keçmiş qubernatoru, general-leytenant Karmalin qəza həkimlərini apteklə təmin etmək üçün kənd əhalisinə müavinət ayırmaq məsələsini qaldırdı. Ancaq 1876-cı ilə qədər bu məsələ həll olunmadı. 1876-cı ilin sonunda xüsusi zemstvo mükəlləfiyyətləri idarəsi "xüsusi kənd təsərrüfatı tibb hissəsi üçün kifayət qədər böyük məbləğdə – 150 min rubl vəsait ayırmağı mümkün hesab etdi". [4]

Kənd həkimləri və mamaça Qafqazda mülki idarənin tibb şöbəsi tərəfindən, feldşerlər, tibb və baytar həkimləri isə quberniya idarəsinin tibb şöbəsi tərəfindən təyin edilirdi. Aşağı tibb işçiləri birbaşa kənd həkiminə tabe idilər və quberniya hökumətinin tibb şöbəsinin birbaşa nəzarəti altında ona, 1880-ci ildə alınmış icazə ilə kənd tibb bölməsindəki bütün kargüzarlıq işləri həvalə edilmişdi və bu, irəliyə doğru mühüm addım hesab olu-

---

[1] **Труды первого съезда служащих врачей гражданского ведомства на Кавказе** / т.1, вып.3, Городская медицина, Тифлис, 1914 г, s. 140.

* Remmert A. A. (1835-1902) – həkim. 1858-ci ildə Tibb-Cərrahiyyə Akademiyasını bitirmişdir, Qafqazda tibb müfəttişi olmuşdur.

[2] **Труды первого съезда служащих врачей гражданского ведомства на Кавказе** / т.1, вып.3, Городская медицина, Тифлис, 1914 г, s. 148.

3.Yenə orada, s. 149.

[4] Yenə orada, s. 150.

nurdu.[1]

Bu əsasnaməyə əsasən, hər bir qəzada ikisi kişi və ikisi qadın üçün olmaqla 4 çarpayılıq yeri, ambulatoriya və apteki olan qəbul otağı qurulurdu. Əsasnaməyə görə, ambulatoriya hər gün müəyyən edilmiş saatlarda işləməli idi [2]. Çarpayılar xəstəyə xəstəliyinin sonuna qədər göstərilən stasionar yardım üçün deyil, yalnız ilkin yardım üçün nəzərdə tutulmuşdu. Apteklərə gəlincə, o, xəstələri həkimlərin reseptləri əsasında dərmanla təchiz edirdi. Qəbul otağı həkim, böyük və kiçik olmaqla iki feldşer, mamaçadan və baytar köməkçisindən ibarət idi. [3]

Əgər 1877-ci ildə İrəvan şəhərində, yalnız bir aptek var idisə[4] və İrəvan komanda heyətinin xəstəxanasındakı boş yerlərdən şəhər sakinləri tez-tez müəyyən ödənişlə istifadə edirdilərsə, artıq 1884-cü ildə İrəvanda 3 aptek var idi.

Zelinskinin sözlərinə görə, 1880-ci ildə İrəvanda 2-si erməni və 6-sı azərbaycanlı olmaqla 8 həkim, 4 yerli əczaçı, universitet təhsili olan 8 həkim, 2 baytar, 12 feldşer, 1 mama, 8 əczaçı var idi. Tibb işçiləri əsasən hərbçilərə və qulluqçulara xidmət göstərirdilər. Şəhərin mülki əhalisinin xeyli hissəsinə yerli loğmanlar tərəfindən xidmət göstərilirdi.

İrəvanda həkim yardımı işinin təşkili barədə "Zaqafqaziya diyarı üzrə statistik məlumatlar toplusu"ndan çıxarılmış məlumatlardan bəlli olur ki, burada 1 xəstəxana, 12 mülki idarə, 2 aptek, 10 mülki idarə həkimi, 4 feldşer, 3 əczaçı, 2 mama, 1 diş həkimi, ümumilikdə xəstəxanadan istifadə edən xəstələrin sayı - 128, qeydiyyatdan keçmiş sifilis xəstələri (ümumilikdə xəstəxanalarda və ondan kənarda) - 91, çiçək xəstələməsi hallarının sayı - 424 idi.[5]

---

[1] **Труды первого съезда служащих врачей гражданского ведомства на Кавказе** / т.1, вып.3, Городская медицина, Тифлис, 1914 г, s. 154.

[2] Оганесян, Л.А. Указ. раб., / с. 27.

[3] Yenə orada, s. 28.

[4] 19 noyabr 1881-ci ildə Daxili İşlər Nazirliyinin xüsusi sirkulyarına əsasən kənd apteklərinin açılması qaydaları tətbiq edildi.

[5] **Организация врачебной помощи в Закавказье (Иревань 1898г). Сборник статистических сведений по Закавказскому краю,**

Lakin şəhərdə səhiyyənin vəziyyəti qeyri-qənaətbəxş olaraq qalırdı. Tibb müəssisələri, eləcə də tibb işçiləri az, müalicə xərcləri isə cüzi idi. 1888-ci ilə qədər İrəvanda hərbi xəstəxanadan başqa, ümumiyyətlə, heç bir tibbi müəssisə yox idi. 1888-ci ildə şəhər idarəetmə və dumanın səyləri ilə açılan ambulatoriyaya üç tibb işçisi (həkim, feldşer və mama) xidmət göstərmişdir.

1888-ci ildə şəhər özünüidarəsi tərəfindən İrəvanda yaş və cins fərqi qoyulmadan gələn xəstələr üçün ilk klinika açıldı. Lakin o pullu idi, yəni xəstə məsləhət üçün 40 qəpik ödəyirdi, amma yoxsullardan ödəniş alınmırdı.[1]

"İrəvan şəhər xəstəxanasına gələn xəstələr üçün nizamnamə"yə əsasən, ştatda müdir, həkim, feldşer və mamaça vəzifəsi nəzərdə tutulurdu. 1893-cü il fevralın 1-də 12 çarpayısı olan kiçik xəstəxana açıldı. Sonradan çarpayıların sayı artırılaraq, 1899-cu ildə 15-ə, 1903-cü ildə 26-ya, 1905-ci ildə 29-a və 1908-ci ildə isə 35-40-a çatdtırıldı. [2]

İlk vaxtlar xəstəxanada terapiya və cərrahiyyə şöbələri var idi. Xəstəxana genişləndikcə, şəhər həkiminin göstərişi ilə müalicəyə qəbul edilən qadınlar, eləcə də zöhrəvi xəstəlikləri olan xəstələr üçün daha beş çarpayı əlavə edildi. Xəstəxanaya, həmçinin, ruhi xəstələr qəbul edilməyə başlandı.[3]

Çarpayıların kifayət qədər olmamasına baxmayaraq, onu daha da genişləndirmək üçün heç bir perspektiv yox idi və bu xəstəxana ən sadə gigiyena tələblərinə belə cavab vermirdi. Buna görə də, yeni binanın tikintisi üçün vəsait çatışmazlığı səbəbindən Şəhər özünüidarəsi 1902-ci ildə bir binanı xəstəxana üçün münasib hala gətirərək, onu icarəyə götürməyə məcbur oldu. Bina iki mərtəbəli idi, lakin çatışmazlıqları da yox deyildi.[4]

---

Составлен по постанов. Закавказ. стат. ком-та, состоящим при нем отделом. Под ред. сг. ред отдела Е. Кондратенко, гл.9, ч.1, Тифлис, 1902, s. 129.

[1] Оганесян, Л.А. Указ. раб., / сс. 34-35.

[2] Yenə orada, s. 35.

[3] Yenə orada.

[4] Yenə orada, s. 36.

Xəstəxana direktorunun məruzəsində "İrəvan şəhər ictimai özünüidarəsinin xəstəxananın ehtiyac və mənafelərinə xeyirxah münasibəti" göstərilirdi. Qeyd olunurdu ki, bu idarə "tibb məntəqəsində hər sakinə 1 rubl xərcləyirdi. Həmin illərdə Moskvada eyni məqsədlər üçün 5 rubl 22 qəpik, Peterburqda 4 rubl 21 qəpik, Odessada isə 3 rubl 01 qəpik xərclənmişdi".[1] Tibb işçiləri, cərrahi yardım göstərilməsi ilə əlaqədar olaraq xəstəxanaların nüfuzunu qaldırmağa çalışırdılar.

"1904-cü il üçün İrəvan quberniyasının icmalı"nın məlumatına görə, bütün quberniyada 67 müxtəlif rütbəli tibb işçisi var idi. Onlardan 17-si ştatlı həkim, 10-u ştatlı mamaça, 20-si ştatlı feldşer (9-u böyük, 11-i kiçik baytar feldşeri), 5-i çiçək xəstəliyinə qarşı peyvənd vuran (xüsusi) və 15-i isə heyət üzvü idi.[2] 1894-cü ildə İrəvan şəhərində 2 aptek (bütün quberniyada isə 8) vardı. 1893-cü il fevralın 1-də İrəvanda açılan şəhər xəstəxanası fəaliyyətini davam etdirmiş, 1894-cü ildə burada 142 stasionar və 2654 ambulator xəstə var idi. Bu da 1893-cü ilə nisbətən 50 % çox idi.

1897-ci ildə Daxili İşlər Nazirliyinin nəzdində taun xəstəliyinə qarşı mübarizə aparmaq üçün xüsusi komissiya yaradıldı. Taun epidemiyasının qarşısını vaxtında almaq üçün 1897-ci ildə İrəvan qubernatorunun təşəbbüsü ilə Şəhər duması 2 500 rubl "fövqəladə xərclər" ayırmaqla, sanitar-icra komissiyasını yaratdı .[3]

Qeyd edək ki, İrəvan şəhər xəstəxanaları və feldşer məntəqələri tibbi yardımın alınmasında yerli əhalinin tələbatını ödəyə bilmirdi. İlk tibbi yardımın göstərilməsi üçün feldşer məntəqələrini tədricən dəyişmək yolu ilə həkimlərin çalışdığı yeni xəstəxanalar açmaq lazım gəlirdi.

İrəvan şəhərində,həmçinin, əsasən cərrahiyyə və az bir qismi terapevt xəstələri üçün ilk əvvəl 30 çarpayılıq olmaqla mərkəzi zemstvo xəstəxanası açmaq lazım gəlirdi. Tibbi heyətə gəl-

---

[1] Оганесян, Л.А. Указ. раб., / с. 37.
[2] **Обзор Эриванской губернии за 1894 год. Эривань, 1895 /** с. 190.
[3] Акопджанян, С. **Ереван: историко-экономический очерк /** Ереван, 1940, с.22.

dikdə bu, biri cərrah, biri göz və biri də daxili xəstəliklər həkimi olmaqla 3 ixtisaslı həkimindən ibarət olmalı idi .[1]

Həmçinin, həkimlərin sayının artırılması, xidməti 3 il olmaqla hər biri üçün əlavə əmək haqqının təsis edilməsi, universitetlərə və digər mərkəzlərə dövrü elmi ezamiyyətlərin müəyyən edilməsi, cüzam xəstəliyinin müalicəsi üçün xəstəxana məntəqəsinin – sığınacağın təşkil edilməsi nəzərdə tutulurdu .[2]

"1898-ci il üçün İrəvanın məsrəflərinin icrası ilə bağlı hesabat"ında həkim heyətinin saxlanmasına dair məlumatda aşağıdakılar göstərilir:

- şəhər həkiminin saxlanmasına bu il üçün müəyyən edilən 980 rubl kredit yerinə, 408 rubl 30 qəpik;
- şəhər mamaçalarının saxlanmasına uyğun olaraq 390 rubl əvəzinə 352 rubl;
- feldşerlərin saxlanmasına uyğun olaraq 200 rubl əvəzinə 166 rubl 25 qəpik;
- şəhər müalicə müəssisələrinin (təcili yardım şöbəsi ilə birlikdə şəhər xəstəxanasının) saxlanmasına 6916 rubl 79 qəpik əvəzinə 6377 rubl 46 qəpik xərclənmişdir.[3]

Bütün Qafqazda səhiyyənin inkişafına 1893-cü ildən nadir hallarda çağırılan Qafqaz tibb qurultayı öz töhfəsini verdi. Belə ki, qızdırma xəstəliyinin geniş yayılması ilə əlaqədar olaraq, Qafqazda zemstvo tibb işinin həyata keçirilməsi haqqında məsələ Qafqaz həkimlərinin ikinci qurultayında qaldırıldı. Əhalisi, ümumiyyətlə, hər hansı tibbi yardımdan məhrum olan Şimali Azərbaycanın bir sıra qəzalarını tədqiq edən Piroqovun malyariya komissiyasının gördüyü əhəmiyyətli işlər kənd yerlərində

---

[1] **Труды 1 съезда служащих врачей гражданского ведомства на Кавказе** / т.1, вып.1, Обзоры Кутаисской, Эриванской и Бакинской губерний и Дагестанской, Батумской и Карской областей, с.126; **Дела врачебного отделения Эриванского губернского правления об устройстве сельско-врачебной части и об отчетностях с 1885 по 1910 г, s.22**

[2] Yenə orada.

[3] **Развитие Еревана...**/ s. 203.

xəstəxanaların açılmasına kömək etdi. Ona görə də, 1904-cü ilin martın 8-də verilən qanunla Cənubi Qafqazda xəstələrin qəbul sığınacaqlarının kənd məntəqə xəstəxanalarına çevrilməsi təsdiq edildi. Bu işin təşkili isə 1911-ci ilədək uzanmışdı.

1903-cü il avqustun 11-də təsdiq edilən qaydaların 14-cü və 16-cı bəndləri əsasında İrəvan qubernatoru tərəfindən quberniyanın şəhər və kənd yerlərində əhali üçün ayrı-ayrılıqda sanitar bölmələrin açılması ilə bağlı məcburi sərəncam verildi. 1908-ci il ərzində İrəvan şəhər xəstəxanasında bütün könüllülər üçün təmənnasız olaraq vəba xəstəliyinə qarşı peyvəndləmə həyata keçirildi. Vəbaya qarşı yerlərdə görülən tədbirlərin yoxlanması və sanitar bölmənin təftişi üçün qubernator tərəfindən vəbaya düçar olmuş bütün şəhər və qəzalara bir neçə dəfə quberniya həkimi ezam edilmişdi. Bəzən qubernatorun özü şəxsən gəzib baxırdı.

1904-cü ildə təsdiq edilən qanuna əsasən, vəba xəstəliyinə qarşı mübarizə tədbirləri komissiyası tərəfindən quberniyaya 20-dək epidemiya həkimi və 4-dək feldşer ezam edilmişdi. Lakin bu tədbirlər çox gecikmiş tədbirlər oldu. Ona görə ki, həmin ildə mübarizənin bütün ağırlığını öz çiyinlərində daşıyan yerli tibbi heyətin gərgin əməyi hesabına epidemiya azalmağa başlamışdı .[1]

Şəhər sanitar müdirliyinin fəaliyyətsizliyi ucbatından şəhər sanitar şurası şəhəri dörd sanitar məntəqəyə bölməyi məqsədəuyğun hesab etdi. Məntəqələrin təmizlənməsi iki polis və İrəvan şəhər bələdiyyəsinin iki nəfər məmuruna tapşırıldı. Polis məmurlarının hər biri növbə ilə xristian və müsəlman qəbristanlıqlarında ölülərin düzgün dəfn olunmasına nəzarət etməli idi. Gözlənilən vəba xəstəliyinin başlanğıcında şəhər əczaxanaları və anbarın dezinfeksiya edilmədiyi məlum oldu və buna görə şəhər rəhbərliyi Tiflisdən və əsasən də Moskvadan öz hesabına dər-

[1] **Труды первого съезда служащих врачей гражданского ведомства на Кавказе** / т.1, вып.1, Обзоры Кутаисской, Эриванской и Бакинской губерний и Дагестанской, Батумской и Карской областей, Тифлис, 1914, s. 115.

man vasitələrini gətirmək məcburiyyətində qaldı .[1]

“1907-ci il üçün İrəvan quberniyasının icmalı”nın məlumatına görə, 1907-ci hesabat ilində xalqın sağlamlığı qənaətbəxş hesab olunurdu. Hər iki cinsdən olan 930018 nəfərin sakin olduğu bütün quberniya üzrə ölüm halları adi normanı – 21862-ni keçməmiş, doğum sayı minin 36 faizi [2] və ya 360 nəfər olmuşdu. Bir qədər epidemiya xarakteri daşıyan və 5337 nəfərin ölümünə səbəb olan skarlatin nəzərə alınmazsa, quberniyada epidemiyadan ölən olmamışdı. 1907-ci ildə xəstəxanalarda, müalicəxanalarda, qəbul sığınacaqlarında və digər bu tip yerlərdə 1595, tibbi yardımlarda 182516, xüsusi təcrübədə 10129 və təsadüfi epidemik mənzillərində 5176 xəstə olmaqla cəmi 199416 xəstə qeydə alınmışdı.[3]

Əvvəllər olduğu kimi birinci yeri 39392 hal olmaqla növbələnən qızdırma və bataqlıq kaxeksiyası xəstəliyi tuturdu, sonra 32662 hal olmaqla həzm orqanları xəstəlikləri, 21486 hal görmə orqanları xəstəlikləri, 18096 dəri və dərialtı xəstəliklər, 14238 nəfəs orqanları xəstəlikləri, 7278 sümük-əzələ sistemi xəstəlikləri, 9883 travmatik və günvurma, 6851 eşitmə orqanları xəstəlikləri gəlirdi. Digər qrup xəstəliklərlə bağlı rəqəmlər göstərilmir. Çiçək 18317 halda peyvənd olunmuşdu, bunun 17365-i uğurlu alınmışdı .[4]

Tibbi heyətin saxlanması 120160 rubl 24 qəpiyə başa gəlmişdi. Bundan əlavə xəzinədən 19888 rubl 46 qəpik, zemski vergisindən 46999 rubl 13 qəpik, şəhərlərdən 5327 rubl 65 qəpik buraxılmışdı.

Bu məbləğdən müalicə müəssisələrinin saxlanmasına 26710 rubl 13 qəpik, həkimlərin saxlanmasına 36502 rubl 76 qəpik, feldşer və mamaça heyətinə 20945 rubl 32 qəpik, dərmanların havayı paylanmasına 8610 rubl 33 qəpik xərclənmişdi. Çiçək

---

[1] **Труды первого съезда кавказских врачей. Холерная эпидемия 1892 года на Кавказе**, т.2, вып.2, Тифлис, 1894, s. 197.

[2] **Обзор Эриванской губернии за 1907 год** / Эривань, 1908, s. 15.

[3] Yenə orada.

[4] Yenə orada, s. 16.

peyvəndi xərci 1200 rubl, epidemiya ilə mübarizə xərci 1150 rubl 59 qəpik, yaşayış yerlərində əhalinin sağlamlığının yaxşılaşdırılması xərci 24981 rubl 11 qəpik olmuşdu .[1]

XX əsrin əvvəllərində bütün İrəvan quberniyası üzrə epidemiyaya qarşı mübarizə üçün ayrılan ümumi məbləğ 4 min rubl olmuşdur. Bu məbləğin əsas hissəsi 22 peyvənd vuranın saxlanmasına ödənilmişdi .[2]

Qeyd edilməlidir ki, çarizm dövründə epidemiyalara qarşı mübarizə çox pis aparılırdı. Bunu onunla mübarizəyə ayrılan vəsait də sübut edir. Belə ki, 1902-ci ildə İrəvan şəhər bələdiyyəsinin fövqəladə iclasında vəba təhlükəsinə bütövlükdə cəmi 50 rublun ayrılmasına(-red.) qərar verilmişdi .[3]

XX əsrin əvvəllərində İrəvanda artıq bir neçə təcili yardım, şəhər xəstəxanası, həbsxana nəzdində xəstəxana və iki şəxsi müalicəxana var idi, həmçinin, bir neçə əczaxana açılmış , həkimlərin sayı 22 nəfərə çatmışdı.

Onlar arasında ən irisi şəhər xəstəxanası idi. Şəhər duması tərəfindən maliyyələşdirilən xəstəxananın təcili yardım şöbəsi və xüsusi əczaxanası var idi. Xəstəxana açılanda onun 12 çarpayısı var idisə, 1908-ci ildə çarpayıların sayı 40-a çatırdı. Şəhər duması bu xəstəxananı vəsaitlə təmin etmək iqtidarına malik olmadığı üçün xəstəxananı müvafiq şəraiti olmayan xüsusi evlərlə "çulğalaşdırmaq" məcburiyyətində qalmışdı .[4] Digər xəstəxanalar, xüsusilə həbsxana xəstəxanası da ağır vəziyyətdə idi. Fəaliyyətdə olan hərbi hospitalda, yalnız hərbiçilər müalicə olunurdu.

Qəzaların kənd əhalisinə şəxsi tibbi yardım edilmirdi, hərbi lazaretlər yalnız mülki idarələrdən olan şəxsləri ödənişlə qəbul edirdilər və bu şəxslər üçün onlarda həmişəlik veriləsi boş çarpayı yerləri yox idi .[5]

---

[1] **Обзор Эриванской губернии за 1907 год** / Эривань, 1908, с. 16.
[2] Оганесян, Л.А. Указ. раб., / с. 33.
[3] Yenə orada, s. 40.
[4] Yenə orada, s. 33.
[5] **Труды 1 съезда служащих врачей гражданского ведомства на Кавказе** / т.1, вып.1, Обзоры Кутаисской, Эриванской и Бакинской губер-

Qeyd etmək lazımdır ki, çar Rusiyası ərazisində anaların və uşaqların mühafizəsi məsələlərində ilk əvvəldən etinasız münasibət var idi. Bəhs etdiyimiz dövrdə uşaqlar üçün yeganə təşkilatlar qanundan kənar doğulan, atılmışların saxlandığı müəssisələr və kimsəsiz, yetim uşaq sığınacaqları olmuşdur .[1]

Anaların mühafizəsi üçün heç bir tədbir görülmürdü. 1904-1905-ci illərdə qarşısına kasıb qadın-analarla məşğul olmaq məqsədini qoyan xeyriyyəçi təşkilatlar meydana çıxmağa başladı. Ləkin təəssüflər olsun ki, görülən işlər lazımi səviyyədə qurulmadığı üçün yüksək ölüm halların olduğu haqqında məlumatlar vardır .[2]

İrəvanda 1910-cu il ərzində 345773 xəstə qeydə alınmışdı ki, bunlardan xəstəxanalarda, müalicəxanalarda və stasionar müəssisələrində 2053 nəfərə, təcili yardımlarda 337489 nəfərə, şəxsi müəsisələrdə 4603 nəfərə, təsadüfi epidemik müəssisələrdə, mənzillərdə və digər yerlərdə 2628 nəfərə həkim yardımı göstərilmişdi. Bunların 250061 nəfəri həkim, 96712 nəfəri feldşer xidmətindən yararlana bilmişdi .[3]

İrəvan quberniyasında 205 çarpayılıq 23 xəstəxana və qəbul sığınacaqları, İrəvan və Gümri şəhərlərində iki taun barakları olmuşdur. 1910-cu ilin yanvarın 1-də xəstəxanada 74 xəstə qalmışdı. Hesabat ili dövründə xəstəxanalara 1979 xəstə qəbul olunmuş, onlardan 177-i ölmüş, 1911-ci ilin yanvarın 1-də bunlarda 65 xəstə qalmışdı.[4]

Bu müalicəxanalarda tibbi heyət 45 kişi həkim, 3 qadın həkim, 65 kişi feldşer, 1 qadın feldşer, 26 mamaça, 9 diş həkimi və 28 əczaçıdan ibarət idi .[5]

Qafqazdakı mülki idarənin tibbi hissə üzrə baş həkimi F.L.

---

ний и Дагестанской, Батумской и Карсской областей, Тифлис, 1914, с. 125.

[1] Оганесян, Л.А. Указ. раб., / с. 80.

[2] Yenə orada, s. 81.

[3] **Обзор Эриванской губернии за 1910 год /** Эривань, s. 18.

[4] Yenə orada.

[5] Yenə orada.

Fexnerin hazırladığı və tibb işçilərinin birinci qurultayında oxuduğu "1910-cu ilin göstəricilərinə görə Cənubi Qafqaz şəhərlərində əhaliyə edilən həkim yardımlarının və sanitar təşkilatların vəziyyətinin xülasəsi" adlı məruzəsində "hamı tərəfindən başa düşülən vəsaitin çatışmadığı xalq səhiyyəsinin qorunması üçün ciddi ümumi sanitar qabaqlayıcı tədbirlərin vacibliyi" qeyd olunurdu. Məruzədə, həmçinin su təminatının yaxşılaşdırılması, düzgün kanalizasiya qurulmaqla və natəmizliyi aradan qaldırmaqla yaşayış mühitinin sağlamlaşdırılması zərurəti etiraf olunurdu .[1]

1910-cu ildə quberniya üzrə 1210 nəfər vəba xəstəliyinə tutulmuşdu. Epidemiya iyun ayında başlamış və noyabrda qurtarmışdı. İyunda 110, avqustda 917, sentyabrda 154, oktyabrda 25 və noyabrda 4 xəstəlik qeydə alınmışdı. İrəvan şəhər taun barakında müalicə olunan 48 nəfərdən 28-i və Gümri şəhərində 84 xəstənin 41-i ölmüşdü. Epidemiya müddətində bütünlükdə taundan 767 nəfər ölmüşdü .

İrəvanda yoluxucu xəstəliklərin müalicəsi üçün daimi xəstəxanalar yox idi. Epidemiya zamanı adətən sanitar xidmətlərin göstətilməsi məqsədilə bir təhər təmin olunmuş yaşayış evləri götürülürdü. Təyinatına uyğun gəlməyən və əlverişsiz yaşayış evlərin bu məqsədlər üçün götürülməsi hallarına həm 1908-ci ildə taun epidemiyası zamanı, həm də 1910-cu ildə rast gəlinmişdi .[2]

**1910-cu ildə İrəvan şəhəri üzrə[3]**

1910-cu ilin yanvarın 1-i üçün əhalinin sayı - 31 182
Xəstəxana müəssisələrinin ümumi sayı - 4
Oradakı çarpayıların sayı - 84
Şəhər hesabına saxlanılan xəstəxanaların sayı - 1
Oradakı çarpayıların sayı - 35

---

[1] **Труды первого съезда служащих врачей гражданского ведомства на Кавказе** / т.1 вып.3, Городская медицина, с. 310.
[2] Оганесян, Л.А. Указ. раб., / сс. 38-39.
[3] **Труды первого съезда служащих врачей гражданского ведомства на Кавказе** / т.1, вып.3, Городская медицин, табл.1, с. 314-315.

Onlardan stasionar xəstələri üçün istifadə olunmuşdur - 673
Təcili yardıma qəbul edilmişdir - 14
Doğum sığınacaqları - yoxdur
Ruhi xəstələr üçün sığınacaqlar - 1 saxlanır
Cənubi Qafqaz zemski vergisi vəsaiti hesabına saxlanılan çarpayıların sayı - 20
Dezinfeksiya kameraları - 1
Gecə sığınacaqları - yoxdur
Sanitar həkimlər - yoxdur

**1910-cu ildə İrəvan şəhərinin tibb hissəsinin xərcləri**[1]

1910-cu ilin büdcəsi - 267 279 rubl
Məcburi xərclər - 122 000 rubl
Tibbi hissənin xərcləri - 33 644 rubl
Sanitar işinin təşkilinə - 12 644 rubl
Şəhərdəki həkimlərin sayı - 15 nəfər

İrəvan quberniyası üçün 1910-cu ilin oktyabrın 1-də İrəvan şəhərində zemski hesabına müalicə olunmayan xroniki ruhi xəstələri – kişilər üçün 20 çarpayılı sığınacaq evi açıldı. Gələcəkdə ruhi qadın xəstələrinin qəbulu üçün oranın genişləndirilməsi nəzərdə tutulurdu .[2] Burada xəstələr 1910-cu ilin mayın 26-da təsdiq edilmiş müvəqqəti qaydalar əsasında saxlanılırdı. İrəvan ruhi xəstələr sığınacağının saxlanmasına hər il zemstva vergisindən 11660 rubl buraxılırdı. 1912-ci ildə bu məbləğ 11800 rubl olmuşdu .[3]

Qafqazdakı mülki idarənin həkim işçilərinin birinci qurultayı 1911-ci ilin dekabrın 15-23-də Tiflis şəhərində olmuşdu. Qurultayın əsas məqsədi Cənubi Qafqazda, xüsusilə kənd-həkimi sahəsinə tibbi ehtiyacların müəyyən edilməsi, bu ehtiyacların

---

[1] **Труды первого съезда служащих врачей гражданского ведомства на Кавказе /** т.1, вып.3, Городская медицин, табл.1, с. 314-315.
[2] **Труды 1 съезда служащих врачей гражданского ведомства на Кавказе** / т.1, вып.1, Обзоры Кутаисской, Эриванской и Бакинской губерний и Дагестанской, Батумской и Карской областей, Тифлис, 1914 с. 124.
[3] Оганесян, Л.А. Указ. раб., / с. 38.

ödənilməsi üçün vəsait yollarının axtarılması ilə bağlı tibbi işin vəziyyətini işıqlandırmaq olmuşdur.

Qurultayın açılışında Qafqaz canişini qraf İ.İ.Vorontsov-Daşkov da iştirak etmişdi. O, özünün qurultaya müraciət nitqində diyarda kənd-həkimi işi islahatının əsasında qurultayın əsərlərinin dayanacağını qeyd etdi .[1]

Qurultayda, məhz "yoluxucu xəstəkliklərə qarşı mübarizədə həkim köməyinin əlçatan olmasının mühüm əhəmiyyətliliyi; əlçatanlığa təminat verən yerlərdə təcili yardım və stasionar yardımın inkişaf etdirilməsinin vacibliyi" [2] barədə qərar qəbul edildi.

Həm şəhər əhalisinə, həm də kənd sakinlərinə edilən tibbi yardımın inkişaf etdirilməsi yoluxucu xəstəliklərə qarşı mübarizənin düzgün qurulmasından asılı idi. Bunun üçün qəbul məntəqələrinin artırılması, müalicə müəssisələrinin genişləndirilməsi lazım gəlirdi.

Qurultayda çiçək peyvəndinin qurulmasının qənaətbəxş olmadığı, çiçək peyvəndi işinin kənd müalicəxanaları feldşerlərinə verilməsi, yay aylarında bu tələbat üçün tələbələrin dəvət edilməsinin faydalılığı göstərildi.

Qurultayda epidemiyaların yayılma ocaqlarından birinin də İrəvanın olduğu və buna qarşımübarizə üsulları da müzakirəsi oldu .[3]

Rusiya həkimləri və təbiətşünaslarının 1913-cü ildə Tiflisdə keçirilən 13-cü qurultayında da həmçinin əhaliyə təcili yardımın və yoluxucu xəstəliklərlə mübarizənin vacibliyi qeyd olunmuşdu. Bunun üçün zemstvo idarələrinin, yəni yerli ictimai qüvvələrin təşkili həyata keçirilməli idi. Lakin bu baş vermədi. Bu da çarizmin Qafqazda yürüdülən müstəmləkə siyasətinin bariz ifadələrindən biri idi.

---

[1] **Кавказский календарь на 1913 год** /Тифлис, 1912, с. 180. Съезд кавказский врачей 1912 г, Тифлис, с. 180.

[2] Yenə orada, s. 192.

[3] Yenə orada, s. 193.

Qurultayda həm də əhalinin mədəni səviyyəsini yüksəltmək məqsədilə məktəblərin sayının artırılması, rabitə yollarının yaxşılaşdırılması, iqtisadi durumun yüksəldilməsi, kəndlərdə sanitar işinin daha da keyfiyyətli edilməsi, kənddə su borularının qurulması kimi tədbirlərin həyata keçirilməsi təklif olundu .[1]

Qeyd etmək lazımdır ki, qurultaylarda tibb elmləri məsələləri ilə yanaşı, ictimai tibb məsələləri: düzgün tibbi statistikanın təşkili, qadınların tibb təhsili, məktəb rejimi və şagirdlərin həddindən artıq yorulmasına qarşı mübarizə, əhali arasında gigiyenik biliklərin yayılması və digər məsələlər müzakirəyə çıxarılırdı.[2]

Şimali Azərbaycanda, xüsusilə də İrəvanda səhiyyənin inkişafı üçün bütövlükdə Qafqazda səhiyyə sistemində epidemiya xəbərdarlığı və bu epidemiyalara son qoyulması ilə bağlı konkret tədbirlərin müzakirə olunduğu Piroqov qurultaylarının müəyyən əhəmiyyəti olmuşdur.

1914-cü ilin statistik göstəricilərinə görə, İrəvan quberniyasında 10 əczaxana, kənd yerlərində 7 əczaxana, şəhər yerlərində olmaqla 17 əczaxana qeydə alınmışdı. İrəvan şəhərindəki gigiyena laboratoriyasında 132 tədqiqat aparılmışdı .[3]

1914-cü ildə İrəvan quberniyasında bütövlükdə 290391 xəstə qeydə alınmışdı. Onlardan 1883 nəfər xəstəxanalarda, müalicəxanalarda, ruhi xəstə evlərində, daimi çarpayıları olan qəbul sığınacaqlarında və stasionarlarda, 238274 nəfər təcili tibbi yardımlarda, 5234 nəfər şəxsi müəssissələrdə müalicə olunmuşdular. Həkim köməyindən 229354 nəfər, digər tibbi heyətin köməyndən isə 62037 nəfər yararlanmışdı.[4] Həkimlərin və tibbi heyətin səyləri nəticəsində əhali arasında xəstəlik və ölüm halla-

---

[1] İlk qurultay 1867-ci ildə, ümumilikdə 1917-ci ilədək 13 qurultay keçirilmişdi, **Кавказский календарь на 1913 г** / s. 188.

[2] Заблудовский, П.Е. **История отечественной медицины /** ч.1 (до 1917 г), М, 1960, s. 389.

[3] **Обзор Эриванской губернии за 1914** / Эривань, 1913, с. 26.

[4] Yenə orada, s. 25.

rının sayı azalmışdı. Tibbi heyət 45 kişi həkim, 4 qadın həkim, 84 kişi feldşer, 34 qadın feldşeri və mamaça, 7 diş həkimi və 28 əczaçıdan ibarət idi .[1]

"İrəvan quberniyasının icmalı"nın məlumatına görə, 1914-cü ildə uşaq xəstəlikləri epidemiya xarakteri almışdı. Qripə 2356, göyöskürəyə 1094, skarlatinə 955 uşaq yoluxmuşdu.[2] Çiçək əleyhinə 30156 peyvənd edilmiş, onların 27228-i, 90%-i uğurlu alınmışdı.[3]

Ən geniş yayılan xəstəliklər həzm orqanları xəstəliyi – 50874 hal, göz xəstəlikləri* – 42231hal olmuşdu. Qızdırma və dəri xəstəliklərinə 27868, nəfəs orqanları xəstəliyinə 22019, eşitmə orqanları xəstəliyinə 9988 tutulma halı qeydə alınmışdı.[4] 11 il ərzində tibbə 224318 rubl 60 qəpik, o cümlədən xəzinədən 18565 rubl, zemski vergisindən 94786 rubl, şəhərlərin vəsaitindən 104767 rubl 60 qəpik, xüsusi cəmiyyətlərdən və ayrı-ayrı şəxslərdən 6200 rubl xərclənmişdi .[5] 1914-cü ildə İrəvanın əhalisi tibbi yardımını şəhər və həbsxana xəstəxanalarında, göz müalicəxanasında alırdı. Həmçinin, ruhi xəstələrin sığınacaq evi və iki nəfərin rəhbərlik etdiyi bir şəxsi xəstəxana mövcud olmuşdur.[6]

İctimai-tibbi tədbirin təşkili və reallaşdırılması işində elmi-tibbi cəmiyyətlər və mətbuat böyük rol oynayırdı. Imperiya-

---

[1] **Обзор Эриванской губернии за 1914** / Эривань, 1913, с. 25.

[2] Yenə orada, s. 25.

[3] Yenə orada, s. 26.

* İrəvandakı göz klinikasından 1908-ci ildə istifadə edilmişdir: stasionar - 49, ambulator - 1234 (8260 müraciət), 1909-cu ildə: stasionar - 55, təcili yardım - 1926 (14500 ziyarət), 1910-cu ildə: xəstəxana - 87, təcili yardım - 2503 (16156 ziyarət), **Труды 1 съезда служащих врачей гражданского ведомства на Кавказе.** т.1, вып.1, Обзоры Кутаисской, Эриванской и Бакинской губерний и Дагестанской, Батумской и Карсской областей, Тифлис, 1914, с. 124.

[4] **Обзор Эриванской губернии за 1914 год** /Эривань, 1915, с. 26.

[5]Yenə orada.

[6] **Yenə orada**; Оганесян, Л.А. **История медицины /** ч.4, с. 34.

nın Avropa quberniyalarında olduğu kimi, Cənubi Qafqazda da tibbi ictimai təşkilatlar* (1894-cü ildə Bakı Həkimlər cəmiyyəti, 1864-cü ildə Tiflisdə Qafqaz Tibb cəmiyyəti və b.) yaranmışdı. Bu cəmiyyətlər sistematik şəkildə kütləvi mühazirə və oxuların təşkili, kütləvi tibbi-gigiyenik vərəqə və kitabçaların nəşri ilə məşğul olurdu. Çar inzibati idarələri bir qayda olaraq bu cəmiyyətlərə münasibətdə düşmən mövqedə dayanırdı. İrəvan dumasının bu məsələ ilə bağlı fəaliyyətinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu dumanın Qafqaz Tibb Cəmiyyətinə 1904-cü il fevralın 17-də ünvanlandığı məlumatında onun iclaslarında (14, 16 və 24 yanvar tarixli) "kütləvi vərəqə və kitabçaların nəşri və yayılması üçün Cəmiyyətə subsidiyanın verilməsindən imtina edilməsi" haqqında qərar qəbul edildiyi bildirilmişdi .[1]

1910-cu il fevralın 14-də çox da böyük olmayan irəvanlı həkim və əczaçı təşəbbüs qrupu tərəfindən Tibb Cəmiyyəti təşkil edildi. Bu cəmiyyətin əsas məqsədi yerli patologiya məsələlərinin öyrənilməsinin elmi problemlərini işləyib hazırlamaq,

---

* XIX əsrin ortalarından sonuna kimi hərbi elmi cəmiyyətlərlə yanaşı, 70-dən çox tibb cəmiyyəti yaranmışdı. Onlardan 15-i Sankt-Peterburqda və Moskvada (bəziləri yerlərdə şöbələri olmaqla Ümumrusiya) və 55-ə yaxını əsasən, müxtəlif quberniya və vilayət, müəyyən qədər də qəza mərkəzlərində yarandı. "Нейдинг И, **Медицинские общества в России,** М, 1897, s.76-83.

** 1910-cu ildə vərəmlə mübarizə üçün Ümumrusiya Liqası yaradıldı. 1910-cu ildən başlayaraq bütün Rusiyada, o cümlədən Şimali Azərbaycanda hər il "Ağ Çobanyastığı Günü" keçirilirdi. Çobanyastığı çiçəkləri sağlam ağciyərlərin simvolu, fiziologiya emblemi idi. Bu, xəstəxanalar və vərəm xəstələri sığınacaqları üçün kütləvi xeyriyyə vəsaitinin toplanması, həmçinin də vərəmlə mübarizə məqsədilə tibbi biliklərin yayılması günü idi. Artıq birinci ildə aksiyada 104 şəhər iştirak edib və təxminən yarım milyon rubl toplanıb. "Ağ Çobanyastığı Günü"ndə həkimlər gigiyena və vərəmlə mübarizə mövzusunda mühazirələr oxudular, fəallar ağ süni çiçəklər qarşılığında ianə toplayaraq küçələri gəzdilər, tibbi sərgilər keçirildi. Bir sıra şəhərlərdə aksiya üçün kommersiya iclaslarının və şəhər teatrlarının binaları pulsuz verilib.

[1] Лалаян, А.А. **Русско-армянские медицинские связи (19 век и начало 20 века)** / Автореф. дисс. д. мед. н, Ереван, 1966, с. 13. Müəllif XIX əsrin əvvəllərində Ermənistanın mövcud olduğunu bildirməklə faktları təhrif edir.

tibbi və inzibati təşkilatlara təcrübi müalicə işinin düzgün qurulmasında yardım etmək, tibbi və peşə-məişət xarakterli bilikləri yaymaqdan ibarət idi. Bu cəmiyyətin üzvlərinin sayı və milli tərkibi haqqında əlimizdə məlumat yoxdur. Məlumdur ki, 11 il müddətində həmin cəmiyyətin sədri həkim O. Ter-Mikaelyan olmuşdur .[1]

Cəmiyyət fəal elmi və təşkilati işlər aparırdı. Cəmiyyətin büdcəsi üzvlük haqlarından, yoluxucu xəstəliklərdən dünyasını dəyişmiş həkim ailələrinin xeyrinə həkimlərin maaşlarından 3% tutulmalarından, təşkil edilən "ağ çobanyastığı (dərman bitkisi) günlərindən" gələn gəlirlər** və digər daxilolmalardan ibarət idi.

Mövcud olduğu 10 il ərzində Cəmiyyətin büdcəsi 24 min rubl təşkil etmişdir. İrəvan Tibb Cəmiyyəti vərəmlə mübarizədə Qafqaz Cəmiyyətinin filialı kimi onun tərkibində olmuş, lakin bir qədər sonra isə tamamilə müstəqil fəaliyyət göstərməyə başlamışdı. Cəmiyyət 1913-cü ildə vərəm xəstələri üçün Dilicanda sanatoriya açdı. Ilk olaraq müalicəyə 14 nəfər vərəm xəstəsi göndərilmişdi.

İctimai həyatda fəal iştirak edən Cəmiyyət Ümumrusiya Həkimlər və Təbiətşünaslar Konqresinin Tiflisdə keçirilmiş XIII qurultayının üzvləri üçün sərgilər və İrəvan quberniyası üzrə ekskursiyalar təşkil edirdi. Cəmiyyət dünyasını dəyişmiş xəstə ailələrinə əlindən gələn köməklik edirdi .[2]

İrəvan Tibb Cəmiyyətinin elmi fəaliyyəti onun iclaslarında və məruzələrində əksini tapırdı. Birinci Dünya müharibəsinədək Cəmiyyətin iclasları kifayət qədər tez-tez çağırılırdı. Belə ki, 1910-cu ildən 1914-cü ilədək olan müddətdə 34 mühazirənin oxunduğu 60 iclas keçirilmişdi. Məruzələrin mövzusu qızdırma, taun, çiçək kimi yoluxucu xəstəliklərin insan orqanizminə təsiri,

---

[1] Rusiyaya ilhaq edildi" (səh. 3, 7), baxmayaraq ki, hətta məktəbli uşaq da bilir ki, o vaxt heç bir Ermənistan olmayıb və Erməni vilayəti Türkmənçay müqaviləsi bağlanandan sonra Azərbaycan xanlıqlarının torpaqlarından formalaşıb və yüz ildən sonra sonra Ermənistan SSR yaranıb.

[2] Оганесян, Л.А. Указ. раб., / с. 241.

habelə İrəvan şəhərində tibbi yardımın təşkili, İrəvan quberniyasının mineral suları və digər məsələlər haqqında olurdu .[1] Bu məruzələrin bəziləri "İrəvan quberniyasının yaddaş kitabı"nda da nəşr olunmuşdu.

Birinci Dünya müharibəsi illərində İrəvanda yatalaq və qızdırma epidemiyası haqqında mühazirələrin dinlənildiyi cəmi iki iclas (1916-cı ilin sonu və 1917-ci ilin əvvəllərində) keçirilmişdi.[2]

Tibb Cəmiyyəti bəzən öz təşəbbüslərini irəli sürərək müxtəlif inzibati-məsləhətçi vəzifəsini yerinə yetirməklə quberniya şəhərlərinin həkim təşkilatları ilə fəal əməkdaşlıq edirdi. Cəmiyyətin fəaliyyəti nəticəsində İrəvanda sanitar büro və sanitar həkimi vəzifəsi yaradıldı. Cəmiyyət özünün hazırladığı və təqdim etdiyi layihə üzrə İrəvan şəhərində nümunəvi xəstəxananın açılışında fəal iştirak etmişdi[3] .

Rusiya tibb mətbuatının səhifələrində ("Vraç", "Russkiy vraç", "Vraçebnoe delo" və s.) Qafqazda zemstvo təbabətinin təşkil edilməsinin vacibliyi və bu bölgədə ali tibb təhsilinin inkişaf etdirilməsi kimi, tibbin inkişafı üçün həlledici əhəmiyyət kəsb edən bir sıra məsələlər işıqlandırılırdı. Məsələn, 1882-ci ilin "Vraç"* jurnalında İrəvanda tibbi yardımın qeyri-qənaətbəxş vəziyyəti haqqında danışılırdı .[4]

"Vraçebnaya qazeta"da 1904-1907-ci illərdə "Cənubi Qafqazdan məktublar" rubrikası altında Cənubi Qafqaz şəhərləri, o cümlədən İrəvan əhalisinə göstərilən tibbi xidmət məsələləri ilə bağlı göndərilən məktublar müzakirə olunmuş, vərəmə qarşı Blümental sərgi, epidemik xəstəlikləri ilə mübarizə və s. işıqlandırılmışdı.

İrəvanda nəşr olunan illik "İrəvan quberniyasının yaddaş kitabı"nda həkim D.M. Malyujenkonun həmin dövr üçün əhəmiyyətli olan, bütövlükdə İrəvan quberniyasında qızdırma və

---

[1] Оганесян, Л.А. Указ. раб., / с 242.
[2] Yenə orada, s. 243.
[3] Yenə orada, s. 244.
[4] Yenə orada, s. 242.

cüzam haqqında məruzələri yerləşdirilirdi.

Yerli həkimlərin elmi əsərləri Qafqaz Tibb Cəmiyyətinin və Qafqaz tibb qurultaylarının əsərlərində nəşr olunurdu (cəmi 3 qurultay keçirilmişdi ki, onlardan I və II qurultaylar Qafqaz həkimlərinin, III qurultay isə Qafqaz mülki idarələrində xidmət göstərən həkimlərin qurultayı olmuşdur).

Yuxarıdakıları ümumiləşdirərək, qeyd etmək lazımdır ki, İrəvan şəhərinin əhalisi arasında səhiyyənin yaxşılaşdırılması üzrə çar hökumətinin gördüyü zəruri tədbirlər və bütövlükdə onun normal tibbi yardımla təminatı, habelə müxtəlif epidemiyaların qarşısının alınması ilə bağlı fəaliyyəti lazımi səviyyədə deyildi. Şəhərdəki mürəkkəb tipli vəziyyətin başlıca səbəblərindən biri ağır iqlim şəraiti və keyfiyyətli içməli su çatışmazlığı idi. Bununla belə, tibb qurultaylarının keçirilməsi və onların "Əsərləri"nin nəşr olunması, habelə mühazirələrin keçirilməsi və kitabçaların nəşr edilməsi yolu ilə əhali arasında gigiyenik biliklərin yayılması, bəhs olunan dövrdə İrəvan şəhərində səhiyyənin inkişafında müəyyən irəliləyişlərin baş verməsinə şərait yaradırdı.* Bununla belə, müstəmləkə sistemi şəraitində çar idarəçilik orqanları əhalinin tibbi təminatına ciddi fikir vermir, irəvanlıların sağlamlığının qorunması işinə laqeyd yanaşırdı. Bütövlükdə tibbi-sanitariya sisteminin yarıtmaz vəziyyətdə olması, səhiyyə müəssisələrinin işinin lazimi səviyyədə qurulmaması İrəvan şəhərinin demoqrafik durumuna, əhali artımına çox mənfi təsir göstərirdi.

---

* Həftəlik qəzet 1880-ci ildə V.A.Manassein tərəfindən təsis olunmuş və klinik təbabətin bütün sahələrinə, ictimai və şəxsi gigiyena və tibbi həyat məsələlərinə həsr edilmişdir. 1902-ci ildə V. A. Manasseinin ölümündən sonra V. V.Podvısotskinin (1913-cü ildə ölümünə qədər) və S.V.Vladislavlev (1918-ci ilə qədər) redaktorluğu ilə nəşr olunan jurnal "Rus həkimi" adlanmağa başladı, Заблудовский П. Е.**История отечественной медицины** / ч.1 (до 1917 г.), М, 1960, с. 387.

# SON SÖZ ƏVƏZİ

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsinin bütün kollektivinin çoxillik zəhməti hesabına ərsəyə gətirilmiş bu kollektiv monoqrafiyada verilmiş mötəbər qaynaq materialları, çoxsaylı və çoxistiqamətli statistik məlumatlar, aparılmış tədqiqatlar, çoxyönlü araşdırmalar, təcrübəli tarixçilərimizin ümumiləşdirmələri, oxucuların ixtiyarına təqdim etdikləri müddəalar və elmi nəticələr bir daha sübut edir ki, uzun onilliklər boyunca eyniadlı xanlığın paytaxtı olmuş İrəvan şəhəri meydana çıxdığı, bünövrəsi qoyulduğu gündən ta 1827-ci ildəki Rusiya işğalına qədərki dövrdə olduğu kimi, romanovların bütün müstəmləkəçi rejimi dövründə də, yəni XIX-XX əsrin əvvəllərində də əsl Azərbaycan şəhəri olaraq qalmaqda idi.

Ancaq, onu da etiraf etmək vacibdir ki, təkcə Azərbaycanın deyil, habelə bütün Güney Qafqazın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında gözəgəlimli rol oynayan, işğalçı Romanovlar imperiyasının Cənubi Qafqaz və Ön Asiyaya dair strateji planlarında önəmli yer verilən bütün İrəvan xanlığı kimi onun paytaxtı da dağıdıcı işğaldan sonra da müstəmləkəçilər tərəfindən kobud xristianlaşdırılmaya, genişmiqyaslı və mürtəce məqsədli erməniləşdirilməyə məruz qoyulmuşdur. Müsəlman, türk namlı hər bir şeyin məhvinə yönəli qatı müstəmləkəçilik, uzaqgedən məqsədlərə yönəli təcavüzkar erməni-xristian köçürmələri, inzibati-ərazi idarəçiliyində bu torpaqların əsl, avtoxton sahibləri və sakinləri olan müsəlman-türk əhalisinin hər bir vəchlə çıxdaş edilməsi İrəvan şəhərinin də demoqrafik durumunda ciddi dəyişikliklərə gətirib çıxarmış, işğal ərəfəsində bütün xanlıqda olduğu kimi, İrəvan şəhərində də əhalinin çox böyük, mütləq əksəriyyətini təşkil edən türk-müsəlman əhalisi tədricən burada milli azlığa çevrilmiş, şəhərin "xristianlaşdırılması", "erməniləşdirilməsi" üçün həm Rusiya müstəmləkəçiləri, həm də onların lakeyləri olan qatı erməni millətçiləri bütün vasitələrə əl atmışdılar.

Lakin bütün bunlara baxmayaraq İrəvan şəhəri nəzərdən keçirilən dövr ərzində Quzey Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni həyatında mühüm rol oynamış, Azərbaycan türk-müsəlman mədəniyyətinin ən mühüm mərkəzlərindən biri olaraq qalmışdır. İrəvan ictimai-siyasi-mədəni mühiti, İrəvandan olan ictimai-siyasi xadimlər, İrəvan ziyalıları XIX əsrin sonu XX əsrin əvvəllərində milli şüurumuzun təkamülündə, mənəvi-mədəni mühitimizin zənginləşməsində, dövlətçilik ənənələlərimizin bərpası prosesində yaxından iştirak etmiş, İrəvanın Azərbaycan elmi, mədəniyyəti və ictimai-siyasi fikrinin ən mühüm mərkəzlərindən biri kimi qalması baxımından möhtəşəm əməllərə imza atmışdılar.

ملخص

هذه الدراسة هي دراسة عن تاريخ إيرافان في القرن التاسع عشر - أوائل القرن التاسع عشر. القرن العشرين - مدينة أسسها ريفانجولو خان وتلعب دورًا مهمًا في الحياة الاجتماعية والاقتصادية والاجتماعية والسياسية والعلمية والثقافية لأذربيجان.

في العمل ، كشف المؤلفون بشكل مقنع ومعقول عن عمليات تزوير تهدف إلى "أرمن" إراوان ، وربط اسمها بـ "إيريبوني" الأسطوري ، وقد بذلت محاولات لتوضيح بعض القضايا التاريخية المتعلقة بتأسيس قلعة إيريفان ، بشكل عام ، تم تسليط الضوء على مدينة إريفان أون ، المقاومة البطولية لشعب إيريفان للعديد من محاولات الفتوحات الأجنبية في الثلث الأول من القرن التاسع عشر.

استنادًا إلى نتائج التحصيل الجماعي للإيرادات ، بالإضافة إلى النتائج الشيقة والمهمة للغاية الواردة في التقرير ، المنشور باللغتين الإنجليزية والأناضولية التركية ، وكذلك باللغات الإنجليزية والفرنسية والإنجليزية على - XIIوما إلى ذلك ، فإن القضايا الرئيسية في يعتبر تاريخ. اراوان أهبة الاستعداد. القرن العشرين

أجرى المؤلف دراسة دقيقة للإنتاج الصناعي ، والصناعة ، والحرف ، والتجارة ، والسمات المعمارية لمدينة إيرافان ، وحياتها العلمية والثقافية ، وهي لهجة احتلت مكانة خاصة بين المدن الأذربيجانية. في الدراسة ، التي تم جمعها عن الحياة الاقتصادية للمدينة ، وإدارتها الإدارية ، والنضال الأمريكي لأبطال إيراوان ضد العدوان الروسي ، وتطور وضعها العرقي والديموغرافي ، يتم إيلاء اهتمام خاص لعملية التنصير - الأرمن ، نفذت هنا في سياق تنفيذ سياسة إعادة التوطين الاستعمارية القيصرية.

في الأقسام الأخيرة من الدراسة ، تم النظر في مختلف مجالات الحياة العلمية والثقافية لمدينة إراوان ، على أساس الحقائق المقنعة التي تبين أن إراوان كانت واحدة من مراكز تطوير العلوم والثقافة الأذربيجانية.

# İSTİFADƏ OLUNMUŞ QAYNAQLAR VƏ ƏDƏBİYYAT


*Azərbaycan dilində*

1. Axundov N. **Azərbaycanda dövri mətbuat (1832-1920),** Biblioqrafiya, Bakı, 1965.
2. **AMEA Tarix İnstitutunun Elmi Arxivi**, sənəd 1771.
3. **Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası,** 2 cilddə, II cild. Bakı, Lider Nəşriyyatı, 2005, 472 s.
4. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (AR DTA),** 202 saylı fond.
5. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi**, **F.290,** siy. 1, iş 138.
6. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, F.290**, siy. 19, iş 12557.
7. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, F.290,** siy. 25, iş 80.
8. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi**, **F.290,** siy. 3, iş 1572.
9. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, F.290**, siy. 4, iş 1817.
10. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi**, **F.290,** siy. 9, iş 5339.
11. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, F.291**, siy. 1, iş 3359.
12. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi**, **F.291,** siy. 16, iş 10895.
13. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi**, **F.291,** siy. 2, iş 137.
14. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, F.291**, siy. 23, iş 15146a.
15. **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin yanında Siyasi Sənədlər Arxivi, F.276**, s.8, iş 334, v.3 arx; iş 235, v.38.
16. **Azərbaycan tarixi üzrə qaynaqlar,** Bakı, Azərbaycan Universiteti Nəşriyyatı, 1989, 328 s.

17. **Azərbaycan tarixi,** 7 clddə, III cild, Bakı, "Elm", 1999. - 584 s.
18. **Azərbaycan tarixi,** S.Əliyarlının red. ilə. Bakı, "Azərbaycan" nəşriyyatı, 1996, 872 s.
19. **Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər**, Bakı, "Elm", 1993, 284 s.
20. Bayramlı Z., Əzizli B., **Azərbaycan Övliya Çələbinin 1654-cü il Səyahətnaməsində,** Bakı, "Azərbaycan" nəşriyyatı, 2000, 160 s.
21. Budaqov B.Ə., Qeybullayev Q.Ə., **Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti**, Bakı, "Oğuz Eli" Nəşriyyatı, 1998, 452 s.
22. Bünyadov Z., **İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə və qeydlər,** Bakı, "Elm", 1996, 184 s.
23. **Bürhani-həqiqət,** 1917, №1.
24. Əfəndiyev O., **Azərbaycan Səfəvilər dövləti,** Bakı, "Azərnəşr", 1993, 300 s.
25. Əliyev F., Əliyev M., **Naxçıvan xanlığı,** Bakı, "Azərnəşr", 1996, 106 s.
26. Əliyev F., Həsənov U., **İrəvan xanlığı,** Bakı, "Şərq-Qərb", 2007, 144 s.
27. Əliyev F.M., **XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət.** Bakı, Azərb. SSR EA nəşriyyatı, 1964.
28. Əliyev M., **Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı,** Bakı, "Adiloğlu", 2001, 316 s.
29. Əsədov F., Kərimova S., **Çarizmi Azərbaycana gətirənlər,** Bakı, "Gənclik", 1993, 144 s.
30. Fərzəlibəyli Ş.F., **Azərbaycanlı və Osmanlı imperiyası,** Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994, 200 s.
31. **İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri**, Bakı, 2002, s.52.
32. **İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin kütləvi şəkildə Azərbaycan torpaaqlarına köçürülməsi**, Bakı, 2010.
33. İsmayılov F., **Erməni millətçiliyi tarixi faktların dili ilə.**

**Tarix və onun problemləri**, Bakı, 2002, №4, s. 41-44.
34. Jan Şarden, **Səyahətnamə,** Fransız dilindən tərcümə edəni Vaqif Aslanov, Bakı, "Elm",1994, 96 s.
35. Köçərli Firudin bəy, **Azərbaycan ədəbiyyatı**, Bakı, "Elm", 1981, 286 s.
36. Qarayev E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu–XIX yüzilliyin ortalarında). Bakı, 2016.
37. **Leylək,** 1917, №7.
38. Məmmədov İ., Əsədov S., **Ermənistan azərbaycanlıları və onların acı taleyi**, Qısa tarixi oçerk, Bakı, 1992, s.18.
39. Məmmədov İ., Əsədov S., **Ermənistan azərbaycanlıları və onların acı taleyi,** Bakı, "Azərbaycan Nəşriyyatı", 1992, 72 s.
40. Məmmədov İ., **Tariximiz, torpağımız, taleyimiz,** Bakı, "Adiloğlu", 2003, 700 s.
41. Məmmədov S., **Azərbaycan XV-XVIII əsrin I yarısında,** Bakı, 1981, 100 s.
42. Mirzə Adıgözəl bəy, **Qarabağnamə,** Bakı, 1991.
43. Mustafazadə T.T., **1723-1735-ci illər Osmanlı hakimiyyəti dövründə Azərbaycanın vəziyyətinə dair**, Az. SSR EA-nın Xəbərləri, 1990, Tarix, fəlsəfə və hüquq seriyası, №4, s. 44-49.
44. Nazim Mustafa. İrəvan şəhəri. Bakı, 2020.
45. Onullahi S., **Çuxursəd-İrəvan Səfəvilər dövründə,** "Elturan", Bakı, 1995, say 1-2.
46. Övliya Çələbi, **Səyahətnamə** (Azərbaycan tarixinə aid seçmələr. Hazırlayan S.Onullahi), Bakı, "Azərnəşr", 1997, 28 s.
47. Paşayev A., **Cümhuriyyət Parlamentinə gedən yol,** Bakı, "Adiloğlu", 2005, 88 s.
48. Piriyev V., **Azərbaycanın tarixi coğrafiyası**, Bakı, "Araz", 2002, 152 s.
49. Süleymanov M., **Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən**, Bakı, "Hərbi" Nəşriyyatı, 2008, 398 s.

50. Süleymanov M., **İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən,** Bakı, "Hərbi" Nəşriyyatı, 1997, 160 s.
51. Süleymanova S, **Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri),** Bakı, 1999, s. 27.
52. Şükürov K.K., **Türkmənçay,** Bakı, "Çaşıoğlu", 2006, 188 s.
53. Umudlu V.U, **Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı v.ə müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828)** Bakı, 2004.
54. **Yoldaş,** 1920, № 3.

*Türk dillində*

55. Aktepe M., **1720-1724 Osmanlı-İran münasebetleri və silahşor Kemani Mustafa ağanın Revan Fetihnamesi,** İstanbul, 1970.
56. **Başbakanlıq Osmanlı Arşivleri (BOA),** Hatti-Humayun fondu.
57. Bi M., **Kafkas Tarihi,** 2 Cilt, Ankara, "Berikan" Yayınevi, 2011.
58. Gürün K., **Ermeni Dosyası,** Ankara, "Bilgi" Yayınevi, 2012.
59. **Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) 1578-1914,** I kitab, Ankara, Osmanlı Arşivi Yayınları, 1992.
60. **Türkiye Cümhuriyyeti Başbakanlıq Osmanlı Arşivi**, dosya №628, 633, 637, 681, 727, 895, 901, 905.

*Rus dilində*

61. Акопджанян С., **Ереван: Историко-экономический очерк,** Ереван, 1940.
62. Акопян Т.Х., **Очерк истории Еревана,** Ереван, 1977, 490 с.

63. Акопян Т.Х. История Еревана (1500-1800), ЕГУ, 1979.
64. **Акты Кавказской Археографической Комиссии (АКАК),** Т. 1-12 Тифлис, 1866-1904.
65. Алавердянц М.Я., **Граф Иван Феодорович Паскевич-Эриванский и его деятельность на Кавказе в очерках армянского историка. 1782-1912,** Санкт-Петербург, 1912.
66. **Армяно-русские отношения в первой трети XVIII века**, т. 2, ч. II, Ереван, 1967.
67. **Армянская анонимная хроника (1722-1736),** Перевод с турецкого в примечание академика АН Азербайджана З.М.Буниатова, Баку, 1988.
68. Арутюнян В., Асратян М., Меликян А. Ереван. М., 1968.
69. Арутюнян Н.В., **Биайнини (Урарту),** Ереван, 1970.
70. Багирова И.С., **Политические партии и организации Азербайджана в начале XX века,** Баку, 1997, с.224.
71. Бартольд В.В., **История изучения Востока в Европе и России,** Ленинград, Гос. уч.-практ. школа-тип. им. тов. Алексеева, 1925, с.101.
72. Бутков П.Г., **Материалы для новой истории Кавказа с 1722 по 1803 г,** II часть, СПб., 1869.
73. Вестник Европы. – 1906. – Т. 2. С. 91–130.
74. **Военно-статистическое описание Российской империи (Эриванская губерния),** с.295
75. Воскобойников, **О Дарачичагских свинцовых рудниках и кислых минеральных источниках,** Горный журнал, 1830, ч.1.
76. Воскобойников, **О кислой теплой минеральной воде,** Горный журнал, 1830, ч.1.
77. Воскобойников, **Об углекислых источниках,** Горный журнал, 1830, ч.1.
78. Вся Россия. Русская книга промышленности, торговли, сельского хозяйства и администрации. Том I, Часть 2-я. – СПб. 1895.

79. Вся Россия. Русская книга промышленности, торговли, сельского хозяйства и администрации. Том 2, Часть 2-я. – СПб.: Типография А.С. Суворина, 1897.
80. Вся Россия. Русская книга промышленности, торговли, сельского хозяйства и администрации. – СПб., 1902.
81. Вся Россия. Русская книга промышленности, торговли, сельского хозяйства и администрации. Часть 6. – Москва, 1912.
82. Габричевский Георгий Норбертович, **Русский врач,** 1907, № 15.
83. Гастгаузен Август. Закавказский край. СПб., ч. 1.
84. **ГИА Грузии, Ф.1183**, оп. 1, д.680,
85. **ГИА Грузии, Ф.2,** оп.1, д.1992.
86. **ГИА Грузии, Ф.4,** оп.26, д.172.
87. **ГИА РФ, Ф.391**, оп.4, д.563, 1910.
88. **ГИА РФ, Ф.1018**, оп.9, д.21.
89. **ГИА РФ, Ф.1284,** оп.194, 1914, д.15.
90. **ГИА РФ, Ф,1290**, оп.5, д.216, 1904.
91. Гизетти А.П., **Сборник сведений о потерях кавказских войск 1801-1885 гг,** Тифлис, 1901.
92. Глинка С., **Описание переселения армян Аддербиджанских в пределы России,** Москва, 1831.
93. Глинка С., **Описание переселения переселения армян аддербиджанских в пределы России,** Баку, “Элм”, 1990, с.108.
94. Григорян 3., **Присоединение восточной Армении к России в начале XIX века,** Москва, 1959.
95. Гусейнов Ризван. Материальные памятники и конфликты на Кавказе (на примере Иреванской крепости) – Кавказ и глобализация, т.6, вып.2, сс.177-191.
96. **Дела врачебного отделения Эриванского губернского правления об устройстве сельско-врачебной части и об отчетностях с 1885 по 1910 г.**
97. Друвиль Гаспар, **Путешествие в Персию в 1812 и 1813 годах,** Москва, 1826.

98. Дубровин Н., **История войны и владычества русских на Кавказе,** т.5, СПб., 1886.
99. Ереванци А., **История войн 1721-1736 гг,** Ереван, 1939.
100. Журнал мануфактур и торговли. Часть IV. Кн. 1. – Октябрь. – 1849. №10.
101. Журнал министерства внутренних дел, № 9, 1840.
102. Заблудовский П.Е., **История отечественной медицины**, ч. 1 (до 1917 г.), Москва, 1960.
103. Закавказский вестник, 19 февраля 1848 года, №8
104. **Записки Сергея Алексеевича Тучкова,** СПб, 1908.
105. Зубов П. Картина Кавказского края, принадлежащаго России и сопродельных оному земель. Часть первая. – СПб.: Типография Конрада Вингебера, 1834.
106. Ибрагимов М.А., **Здравоохранение Советского Азербайджана,** Москва, **Медицина,** 1967.
107. Известия Императорской Археографической Комиссии, вып. 46, СПб., 1912.
108. Искусство Азербайджана, т. IV. Баку: 1954.
109. **Историческая география Азербайджана,** Баку, "Элм", 1987.
110. **История XIX века,** Под ред. Лависса и Рамбо, т.2, Москва, 1937.
111. **История Азербайджана в 3-х томах,** Баку, 1960, т.2.
112. Кавказ, 10(22) марта 1876 года, №30.
113. Кавказ, 23 июня /5 июля 1866, № 48.
114. Кавказ, 6/18 февраля 1866 года, № 11.
115. Кавказ, 8(20) августа 1871 года, № 92.
116. Кавказский календарь на 1846 год. Тифлис, 1845.
117. Кавказский календарь на 1847 год. Тифлис, 1846.
118. **Кавказский календарь на 1848 год,** Тифлис, 1847.
119. Кавказский календарь на 1849 год. Тифлис, 1848.
120. Кавказский календарь на 1850 год. Тифлис, 1849.
121. Кавказский календарь на 1851 год, Тифлис, 1850.
122. **Кавказский календарь на 1852 год,** Тифлис, 1851.
123. Кавказский календарь на 1855 г. Тифлис, 1854.

124. Кавказский календарь на 1866 год, Тифлис, 1865.
125. Кавказский календарь на 1869 год. Тифлис 1868.
126. **Кавказский календарь на 1877 год,** Тифлис, 1876.
127. Кавказский календарь на 1887 год. Тифлис, 1886.
128. Кавказский календарь на 1890 год. Тифлис, 1889.
129. Кавказский календарь на 1896 год. Тифлис, 1897.
130. Кавказский календарь на 1900 год. Тифлис, 1899.
131. Кавказский календарь на 1905 год. Тифлис, 1904.
132. Кавказский календарь на 1906. Тифлис, 1905.
133. Кавказский календарь на 1908 год. Тифлис, 1907.
134. Кавказский календарь на 1910 год. Тифлис, 1909.
135. **Кавказский календарь на 1913 год,** Тифлис, 1912.
136. Кавказский календарь на 1916 год. Тифлис, 1915.
137. Кавказский календарь на 1917 год. Тифлис, 1916.
138. Капанцян Г.Р., Новая клинопись, **Коммунист,** 1950, №4.
139. **Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX века,** ч.1, Москва-Ленинград, 1936.
140. Кулиева Вафа, **Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в XIX – начале XX вв. в ракурсе армяно-азербайджанских политических отношений,** Баку, "Нурлан", 2003.
141. Лалаян А.А., **Русско-армянские медицинские связи (19 век и начало 20 века),** Автореф. дисс. д. мед. н. Ереван,1966.
142. Мамедов И.С., **Азербайджанская печать в Армении,** АКД, Ереван, 1971, с.15.
143. Монеты царствования императора Николая 1. – СПб.: Типография Министерства путей сообщения, 1890.
144. Мустафаев Н. Город Иреван. Баку, 2013 (Azərbaycan Respublikası Prezidenti kitabxanasının saytı).
145. Нейдинг И., **Медицинские общества в России,**

Москва, 1897.
146. Нерсесян М., **Из истории русско-армянских отношений,** т.1, Ереван, 1956.
147. Нифталиев И., Армянские мифы об “Эребуни” и “Урарту, **Каспий,** 2017, 10 окт, №167, с.12.
148. **О проказе в Эриванской губернии, Памятная книжка Эриванской губернии за 1902 год,** Под ред. Секр. Эриван, губерн. Стат. комитета, правителя канцелярии губернатора А.И. Марченко, Изд. “Эриван” губерн. стат. ком-та, Эриван. тип-я Р.К. Эдельсон, 1902, с.140
149. Обзор Эриванской губернии за 1888 год, Эривань, 1889.
150. **Обзор Эриванской губернии за 1893 год,** Эривань, 1894.
151. **Обзор Эриванской губернии за 1894 год,** Эривань, 1895.
152. **Обзор Эриванской губернии за 1895 год,** Эривань, 1896.
153. Обзор Эриванской губернии за 1901 год. Эривань, 1902.
154. **Обзор Эриванской губернии за 1907 год,** Эривань, 1908.
155. **Обзор Эриванской губернии за 1910 год,** Эривань, 1911.
156. **Обзор Эриванской губернии за 1914,** Эривань, 1915.
157. **Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях**, ч. IV, 1836, Типография департамента внешней торговли, Санкт-Петербург.
158. Овсепян С.М., **Деятельность большевиков и революционное движение в Ереване (1901-1920 гг.),** Автореф.дисс… канд.ист.наук, Ереван, 1971.
159. Оганесян К.Л., **Крепость Эребуни (782 г. до н.э.),** Ереван, 1980.
160. Оганесян Л.А, **История медицины Армении с древнейших времен до наших дней,** В 5-ти частях, ч.4, Ереван, 1947.

161. **Организация врачебной помощи в Закавказье (Иревань. 1898г.),** Сборник статистических сведений по Закавказскому краю. Составлен по постанов. Закавказ. стат. ком-та, состоящим при нем отделом, Под ред. сг. ред отдела Е. Кондратенко, гл.9. часть1, Тифлис, 1902.
162. Осипов Е.А., Попов И.В., Куркин П.И., **Русская земская медицина,** Москва, 1899.
163. Отчет по главному управлению наместника Кавказского за первое десятилетие управления Кавказским и Закавказским краем его императорским высочеством великим князем Михаилом Николаевичем 6 декабря 1862 – 6 декабря 1872. Тифлис: Типография главного управления наместника Кавказского, 1875, 474 с.
164. **Отчет Попечителя Кавказского Учебного округа за 1890,** Тифлис, 1891.
165. **Отчет Попечителя Кавказкого учебного округа за 1895,** Тифлис, 1896.
166. **Отчет Попечителя Кавказкого учебного округа за 1900,** Тифлис,1901.
167. **Отчет Попечителя Кавказкого учебного округа за 1905,** Тифлис,1906.
168. **Отчет Попечителя Кавказкого учебного округа за 1910**, Тифлис, 1911.
169. **Отчет Попечителя Кавказкого учебного округа за 1913**, Тифлис, 1914.
170. **Памятная книжка Эриванской губернии на 1902 г,** Эривань, 1902.
171. Памятная книжка Эриванской губернии на 1904 год. Эривань, 1903.
172. Памятная книжка Эриванской губернии на 1908. – Эривань, 1908.
173. Памятная книжка Эриванской губернии на 1910 год. – Эривань, 1912.
174. Памятная книжка Эриванской губернии на 1912 год. Эривань, 1912.

175. Памятная книжка Эриванской губернии на 1914 год. – Эривань, 1914.
176. Панюхов И.И., **О народном врачевании в Закавказском крае,** Тифлис, 1898г.
177. Первая всеобщая перепись населения Российской империи, 1897 г. LXXI. Эриванская губерния. – СПб., 1905.
178. **Персидские документы Матенадарана. II. Купчие (XIV-XVI вв.),** Сост. А.Д. Папазян, Ереван, 1968.
179. Пиотровский Б.Б., **Ванское царство (Урарту),** Москва, 1959.
180. Пиотровский, Б.Б. **Урартская надпись из раскопок Камир-блура, связанная с основанием Эребуни**, Эпиграфика Востока, XVII, Москва, 1966, с. 3-4
181. Пирожков В.В., Демократическая направленность взглядов передовых кавказских врачей XIX и начала XX века, **Советское здравоохранение,** 1960, №5
182. Под стягом России: Сборник архивных документов, Москва, **Русская книга,** 1992.
183. Полное собрание законов Российской империи. третье собрание (1881-1913), Т. III (1883), часть 2-я.
184. Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. IV (1829), часть 2-я.
185. Полное собрание законов Российской империи. Собрание 2-е. Том VI. 1831. Отделение 1-ое. СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1832.
186. Полное собрание законов Российской империи. Собрание 2-е, Том VII, 1832 год.
187. Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. VIII (1833), часть 1-я.
188. Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. VIII (1833), часть 2-я.
189. Полное собрание законов Российской империи. Собрание 2-е. Том XI. Отделение 1-е. 1836. – СПб.: Типография 2-й отделении собственной его императорского ве-

личества канцелярии, 1837.
190. Полное собрание законов Российской империи. Собрание 2-е. Том XI. Отделение 2-е. 1846. – СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1847.
191. Полное собрание законов Российской империи. третье собрание (1881-1913), Т. XIII (1893).
192. Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. XV (1840), часть 1-я.
193. Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. XV (1840), часть 2-я.
194. Полное собрание законов Российской империи. Собрание 2-е, Том XVII. Отделение 2-е. 1867.
195. Полное собрание законов Российской империи. третье собрание (1881-1913), Т. XVIII (1898), часть 1-я.
196. Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. XXIV (1849), часть 2-я.
197. Полное собрание законов Российской империи. Собрание 2-е. Том XXV. Отделение 1-е. 1850. – СПб.: Типография 2-й отделении собственной е. и. в. канцелярии, 1851.
198. Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. XXVII (1852), часть 1-я.
199. Полное собрание законов Российской империи. Собрание 2-е. Том XXXVIII. 1863. Отделение 2-ое. 1866.
200. Полное собрание законов Российской империи. Собрание второе. Т. XL. 1865 год.
201. Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. XLII (1867), часть 2-я.
202. Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. XLIX (1874), часть 2-я.
203. Полное собрание законов Российской империи. Собрание 2-е. Том L. 1876. Отделение 1-ое. 1877.
204. Полное собрание законов Российской империи. Второе собрание (1825-1881), Т. LII (1877), часть 2-я.

205. Полное собрание сочинений А.С.Грибоедова, т. 1, СПб. 1839.
206. Потто В., **Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях,** т.I, СПб, 1887.
207. Потто В., **Утверждение русского владычества на Кавказе**, Тифлис, 1901.
208. **Присоединение Восточной Армении к России (сборник документов),** т.I, Ереван, 1972.
209. Пристанскова Н. И, **Правовое регулирование врачебно-санитарной деятельности в Российской империи: XIX – начало XX вв,** Автореф. дисс. юр. наук, СПб., 2007.
210. **Развитие Еревана после присоединения Восточной Армении к России,** Сборник документов 1801-1917 гг, Изд. Ереванского ун-та, Ереван, 1978.
211. Рожкова, М.К. Экономическая политика царского правительства на Среднем Востоке во второй четверти XIX века и русская буржуазия. – Москва: Изд-ва Акад. наук СССР, 1949.
212. Сборник сведений о Кавказе. Том IX. – Тифлис, 1885.
213. Семенов И.Я. Русские в истории Армении. Ер.: Лусабац, 2009
214. **СМОМПК**, вып.1, отд.1, 1881.
215. **СМОМПК**, вып.29, Тифлис, 1900 г.
216. **СМОМПК**, вып.32, Тифлис, 1900 г.
217. **Собрание актов, относящихся к обозрению истории армянского народа,** часть П, с.167, 369
218. Статистическое описание губерний и областей Российской империи. Том XVI. Кавказский край. Часть 5. – СПб.: Типография Департамента Генерального штаба, 1858. 334 с.
219. Таирзаде Н., О мектебах в Азербайджане в 30-50-е гг. XIX в, **Известия АН Азерб. ССР,** Серия общественных наук, 1961, №11.
220. Таубэ А.А., Развитие аптечного дела в Москве и губер-

ниях Российской империи в ХУШ – XIX столетиях, **Международный сборник научных трудов (ноябрь 2006 г ),** СПб., 2006, с.140-149.
221. Тер-Гевондян А.Н., **Армения и Арабский халифат,** Ереван, 1977,
222. Тихоцкий Е.А. Закавказский транзит и наша с ним конкуренция по торговле с Персией в 1862-81 гг. – Киев: Типография С.В. Кульженко, 1883. – 37 с.
223. Торопов Н.И., **Опыт медицинской географии Кавказа относительно перемежающихся лихорадок,** В.М, 1864.
224. **Труды 1 съезда служащих врачей гражданского ведомства на Кавказе,** т.1, вып.1, Обзоры Кутаисской, Эриванской и Бакинской губерний и Дагестанской, Батумской и Карской областей, Тифлис, 1914.
225. **Труды первого съезда кавказских врачей. Холерная эпидемия 1892 года на Кавказе,** т.2, вып.2, Тифлис, 1894.
226. **Труды первого съезда служащих врачей гражданского ведомства на Кавказе**, т.1, вып.3, Городская медицина, Тифлис, 1914.
227. **Утверждение русского владычества на Кавказе,** Под редакцией В.А. Потто, т.1, ч.2.
228. Утверждение русского владычества на Кавказе. Тифлис; тип. Я.И. Либермана, 1901, т.IV, с.164.
229. Фон-Гребнер А.В. Торговые дороги Закавказья. – СПб.: Типография Исидора Гольдберга, 1896.
230. Хаджар Вердиева, Рауф Гусейн-заде, **Родословная" армян и их миграция на Кавказ с Балкан,** Баку, "Elm", 2003.
231. Хачатур Абовян, **Избранное** (на арм. яз.), т.8, Ереван, 1958.
232. Хачатур Абовян, **Краткий исторический очерк г. Эривани,** Избранные произведения (на арм. яз.), т.8, Ереван, 1958.
233. Шопен И. Хозяйственные очерки части Аракской доли-

ны, вошедшей в состав Грузино-Имеретинской губернии. – СПб: Печатано в привиллегированной типографии Фишерь, 1843.

234. Шопен И.И., **Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи,** Санкт-Петербург, Типография Императорской Академии Наук, 1852.

235. Щербатов А.П., **Генерал-фельдмаршал князь Паскевич. Его жизнь и деятельность,** СПб, 1890-1891.

236. Эвецкий О., **Статистическое описание Закавказского края в исходе XVIII в,** Санкт-Петербург,1835.

237. Эвлия Челеби, **Книга путешествий,** Москва, 1983.

238. Эминова З., **История здравоохранения в Азербайджане в 19- нач.20 вв** (на азерб. яз.).

**239. Энциклопедия Брокгауза и Ефрона «Эривань».**

240. Эфендиев И.К., **История медицины в Азербайджане с древних времен до 19 века,** Баку, Изд-во АН Азерб., 1964.

241. Эфендиев М.Э., Мехтиев А.Д, **Развитие научной медицинской мысли в Азербайджане (по данным врачебных съездов, конференций и совещании),** Баку, Изд. АН Азерб., 1968.

242. Яшвили А.О., **Народная медицина в Закавказском крае,** Труды 2-го съезда кавказских врачей 30 сентября- 8 октября 1901 года, т.2, под ред. А.А. Новицкого, Тифлис, 1903.

243. Яшвили А.О., **Народная медицина в Закавказском крае,** Тифлис, 1904.

### *Erməni dilində*

244. Ерванд Шахазиз. Древний Ереван. Ереван, 1931.

### *İngilis dilində*

245. George A. Bournoutian, Robert H. Hewsen. **Encyclopaedia Iranica,** Erevan, 1982.

246. Ереван, (статья из Encyclopedia Iranica Erich Kettenhofen, George A.Bournoutian and Robert. H. Hewsen).
247. Lynch H.F.B. Armenia. Travels and Studies, vol. I.
248. Toumanoff Cyril, **The Orontids of Armenia,** 1963.

### ***İnternet resursları***

249. http://erevangala500.com/page/77.html
250. http://www.cultinfo.ru/fulltext/1/001/007/119/119478.htm
251. **https://www.docsity.com/ru/shkola-i-pedagogicheskaya-mysl-narodov-rossii-vo-vtoroy-polovine-xix-nachale-hh-veka/1143100/**
252. http://www.marinni.livejournal.com/456482.htm
253. http://www.ru.wikipedia.org/w/index.php?title=%D0%95%D1%80%D0%B5%D0%B2%D0%B0%D0%BD&printable=yes -->
254. https//regnum.ru. Интервью И.А.Regnum от 7 фев.2012 г.
255. https://azerhistory. com - /?p=7505
256. https://azerhistory.com/?p=4919
257. https://www. iravan.preslib.az
258. https://www.docsity.com/ru/shkola-i-pedagogicheskaya-mysl-narodov-rossii-vo-vtoroy-polovine-xix-nachale-hh-veka/1143100/

# MÜNDƏRİCAT

**Annotasiya** ............................................................................. 3
**Ön söz** ...................................................................................... 5

## I FƏSİL

**İrəvanin tarixi keçmişinə dair**
1.1. İrəvan şəhərinin tarixi keçmişindən ..................................... 7
1.2. Xanlıq dövründə İrəvanın iqtisadi həyatı ........................... 27
1.3. İrəvan Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə ........................................................................... 57

## II FƏSİL

**Şəhərin ərazisi, əhalisi və inzibati idarəçiliyi**
2.1. İrəvan şəhərinin ərazisi və xarici görünüşü ........................ 78
2.2. İnzibati idarəçilik sistemi .................................................. 94
2.3. Əhali ................................................................................. 108

## III FƏSİL

**Şəhərin iqtisadi həyatı**
3.1. Sənətkarlıq və sənaye ........................................................ 133
3.2. Ticarət ............................................................................... 148
3.3. Nəqliyyat və rabitə ............................................................ 175

## IV FƏSİL

**Şəhərin ictimai-siyasi və mədəni həyatı**
4.1. Şəhərin ictimai-siyasi həyati ............................................. 190
4.2. Maarif, ədəbiyyat, mətbuat və nəşriyyat ........................... 205
4.3. İncəsənət .......................................................................... 240
4.4. Səhiyyə ............................................................................. 256

**Son söz əvəzi** ........................................................................ 285
**Ərəb dilində xülasə** ............ ...................................................287
**İstifadə olunmuş qaynaqlar və ədəbiyyat** .......................... 289

**XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN ŞƏHƏRİNİN TARİXİNDƏN**

Elmi nəşr

Formatı: 60*84 $^{1}/_{16}$
Kompüter dizaynı və bədii tərtibat: **Rəvanə Mirzalıyeva**